AZƏRBAYCAN MİLLİ ELMLƏR
AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# GÜNEY AZƏRBAYCAN FOLKLORU

## XVI KİTAB

BAKI – 2023

**AMEA Folklor İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunur.**

**Layihə rəhbəri:** Akademik **Muxtar KAZIMOĞLU (İMANOV)**

**Mətnləri toplayan və ön sözün müəllifi**: Dr. **Aqşin AĞKƏMƏRLİ**

**Tərtibçi:** fil.e.d., dos. **Mətanət MAŞALLAHQIZI (ABBASOVA)**

**Redaktor:** **Səadət İBRAHİMLİ**

**Güney Azərbaycan folkloru, XVI kitab,** Bakı, Elm və təhsil, 2023, 314 səh.

Kitaba Cənubi Azərbaycanın Güney mahalından toplanmış müxtəlif folklor örnəkləri daxil edilmişdir.

folklor.az

G 4603000000 Qrifli nəşr
N-098-2023

© Folklor İnstitutu, 2023

## ÖN SÖZ

Kitabda təqdim olunan folklor nümunələri Güney Azərbaycanın Güney mahalından toplanılmışdır. Güney mahalı coğrafi baxımdan Təbrizin 20 km-liyində, Mişov dağlarının cənubunda Urmu gölünün şimalında yerləşir. Bölgə bütövlükdə 85 kənd, 12 qəsəbə, 9 şəhərdən ibarətdir. Güney mahalı tarixən siyasi-ictimai hadisələrin mərkəzində olmaqla inqilabların beşiyinə çevrilmişdir. Siyasi mövqeyi ilə yanaşı, bölgə həm də mədəni irsi, zəngin folklor qaynaqları ilə seçilir. Təsadüfi deyildir ki, Şeyx Mahmud Şəbüstəri, Şeyx Məmməd Xiyabani, Vay-qanlı Adəm, Möcüz Şəbüstəri, Aşıq Qəşəm, Mircəlal Paşayev, Mübariz Əlizadə, Məhəmmədtağı Zehtabi, Əb-düləli Mücazi, Məhəmməd Hüseynxani Güneyli, Məhəm-mədəli Niqabi, Əbdülkərim Mənzuri və s. alim, mütə-fəkkirlərin yaradıcılığı, fəaliyyətləri məhz Güney maha-lına bağlı olmuşdur. Güney mahalı ərazi üzrə əsasən Sefid Kəmər (İsmikəmər), Nemətulla, Kond Rud (Kündür), Ha-runiyə (Horlan), Meytərəhməd, Külava, Əmir Zəkəriya (Nadarlı), Dizəc Xəlil (Dizəxəlil), Sofyan, Əndəbil, Binis, Heriz, Şin Abad (Şindavar) və s. kənd və qəsəbələri əhatə edir. Adları çəkilən bu kəndlərdən toplanan folklor mate-rialı bölgənin zəngin mənəvi irsə malik olduğunu göstərir. Toplama prosesində bölgədən atalar sözləri, tapmacalar, lətifələr, nağıllar, aşıq ədəbiyyatı nümunələri və s. olmaq üzrə müxtəlif janrda folklor nümunələri yazıya alınmışdır. Qeyd etmək lazımdır ki, bölgənin folklor örnəkləri uzun illər ayrı-ayrı ziyalı, folklor həvəskarları və s. tərəfindən öyrənilməyə başlanılmış, əldə edilən nümunələr, aparılan işlər haqqında kitab və məqalələr hazırlanmışdır. Meşin kəndi, folklor mühiti, məişəti və s. haqqında doktor Mə-həmmədhüseyn Güneyli, Xamnə şəhəri ilə bağlı Əbdül-kərim Mənzuri, Dəryan haqqında Tanış Məleki, Sancanla əlaqədar Əbdüləli Mücazi, Dizəxəlildən Məhəmmədəli Niqabi, Alışah (Əlişah) kəndi haqqında Aşıq Əhəd, Şinda-

var haqqında Əkbər Salehi, İsmikəmərlə bağlı Aqşin Ağkəmərli və s. araşdırmaları bu xüsusda ayrıca yer tutur.

Qeyd edək ki, bölgə üzrə folklor materiallarının toplanılması və nəşri ayrıca "Mişov" araşdırma qrupu tərəfindən aparılmış və "Mişov dağı" dərgisində yeri gəldikcə çap olunmuşdur. "Mişov dağı" jurnalı ümumilikdə Mişov Kültür Dərnəyi tərəfindən Tehranda çap olunaraq 20 ildən artıqdır ki, fəaliyyət göstərir. Jurnal latın və əski (ərəb) əlifba ilə Azərbaycan və farsca hazırlanır. Mirzəli Xeyri, Ərkin Lütfi, Elçin Sultani, Qəmbər Hatəmi, Həmid Məleki Tanış, Hüseyn Vəlicani, Abbas Cəbbarpur, Əkbər Mənzuri Xamnə, Yaşar Nəcəfi, Araz Nəcəfi, Aqşin Ağkəmərli, Məhəmməd Hatəmi və s. araşdırma qrupu əməkdaşları bir araya gələrək xalqın tarixi, keçmişi, adət-ənənələri, dünyagörüşünə bağlı mədəni irsimizin zəngin nümunələrini toplayıb, çap etdirmişdilər. Qeyd edim ki, "Mişov dağı" jurnalı (təsisçi və redaktoru Aqşin Ağkəmərlidir) Tehran Nemətulla Xeyriyyə Cəmiyyəti (Nemətulla Dini Dərnəyi) ilə ilk əməkdaşlığını qurmuş və beləliklə fəaliyyət dairəsini genişləndirməyə müvəffəq olmuşdur. Sonrakı dönəmdə "Güney Mədəniyyət Ocağı" və "Güney Mədəniyyət" jurnalının yaradılması və təsisi də bu istiqamətdə işlərin aparılmasını daha da genişləndirmişdir.

Kitabda təqdim edilən ayrı-ayrı folklor nümunələri qeyd edilən dərnək və mədəni mərkəzlərin uzun illər apardığı araşdırmaları nəticəsində toplanılmışdır. Müxtəlif atalar sözləri, bayatı, tapmaca, nağıl və s. mətnləri Güney Azərbaycan folklor mühiti nümunələri ilə ortaqlıq təşkil etdiyi halda, təqdim edilən ləqəblər, dərman bitkiləri, aşıq yaradıcılığı, müxtəlif mərasimlər lokal xarakter daşımaqdadır. Bu xüsusda lokal yönlü lətifə mətnləri ayrıca yer tutur. "Əmir Əli", "Kündür xanı", "İsmayıl əmi", "Əhməd əmi" və s. başlıqlı lətifə mətnləri ayrı-ayrı baməzə insanların həyatı, məişət hadisələrindən götürülmüşdür.

Xalq mərasimlərindən “Çillə”, “Novruz”, “Toy” törənləri haqqında toplanan məlumatlar şəxsi müşahidələr əsasında hazır-lanmışdır.

Kitaba xüsusi olaraq xalq məişətində geniş yayılmış “Aşura” mərasimi daxil edilmişdir. Bilavasitə iştirakçısı olduğum “Aşura” mərasimi bölgədə ən geniş şəkildə keçirilən xalq mərasimlərindəndir. Ayrı-ayrı kəndlərdə təşkil edilən bu mərasimlər “Qanlı meydan”da qurular və tamaşa üçün dekorasiyalar hazırlanar, rollar ayrı-ayrı şəxslər arasında paylanardı. Bu mərasimə İranın müxtəlif bölgələrindən – Urmiya, Tehran, Xoy, Təbriz və s. ərazilərdən insanlar “Aşura”ya 1 həftə, 10 gün qalmış İsmikəmər kəndinə gələr və mərasimi səbirsizliklə gözləyərdilər. Onlar kənd camaatı tərəfindən qarşılanar, “Aşura”ya qədər qonaq saxlanılardılar. Qeyd edim ki, İranda türkcənin qadağan olunduğu, doğma dildə dərslik, məktəblərin olmadığı bir dövrdə xalq öz şəbihini ana dilində qurar və bu mərasim bütün kəndlərdə beləcə davam edərdi. “Aşura” mərasimi əsasən günorta azanı ilə başlayar və mərasim İmam Hü-seynin qətli səhnəsi ilə bitərdi. Bu kənddə şəbih tamaşalarında Həzrət İmam Hüseyn rolunu uzun illər mənim babam, daha sonra isə dayım ifa etmişdir. Müəyyən vaxtlarda mən də şəbihlərdə İmam Hüseynin rolunu aparmalı olmuşdum. Aşura mərasimində oxunan mərsiyə və şeirlərin müəllifliyi Mirzə Məhəmməd Tağı Qumru Dərbəndiyə aid idi. Demək olar ki, kəndlərdə ayrı-ayrı tayfalar arasında da təşkil edilən bu mərasimlərdə mərsiyələr, müxtəlif şeirlər Qumru Dərbəndidən oxunardı. Mərasimin ssenariləşdirilməsi, rolların bölgüsü və mərsiyələrin “Aşura”nın mərhələlərinə görə seçilməsi Firudun Həsənxanlı tərəfindən təşkil olunardı. Firudun Həsənxanlı mərasim əsnasında onlara yaxınlaşar müəyyən mərsiyələrin oxunma məqamını aktyorlara xatırladardı. Qeyd etdiyim kimi, “Aşura” mərasimlərində İmam Hüseynin rolunu uzun illər mənim babam ifa etmişdir. Mərasimin başlanğıcı babamın, yəni İmam Hüseynin qara atı ilə məclisə daxil

olub, Həzrət Zeynəb ilə görüşməsi səhnəsindən başlayardı. Daha sonra Hürr və Yezidin səhnəni bölüşməsi ilə davam edərdi. Mərasimin sonunda iri bir teştə başı kəsilən İmama mərsiyyələr oxunmaqla mərasim sona yetirilərdi. Mərasim başlanmamışdan öncə "Aşura"ya gətiriləcək atlar kəndin küçələrində gəzdirilər, yaşıl, qara parçalarla bəzədilən yəhərlərin üzərinə camaat öz nəzirlərini qoyardılar. Bu nəzirlər əsasən kəlağayı, şərf, müxtəlif parçalardan ibarət idi.

Bölgə folklor materilları içərisində xalq tərəfindən sevilən aşıqların yaradıcılığına da qısa şəkildə toxunulmuş, Aşıq Qəşəm, Aşıq Mirzəməmi İskəmərli, Meşinli Aşıq Qurbani, Aşıq Əkbər Xamneyinin yaradıcılığından ayrı-ayrı toplama nümunələri qeydə alınmışdır. Aşıq Qəşəmlə bağlı toplanan "Aşıq Qəşəmin Gəncə səfəri", "Aşıq Qəşəmin Urmu səfəri" başlıqlı mətnlər bütövlükdə klassik dastançılığın ənənələrinə bağlı olmasa da, aşığın sənət irsi, yaxın dostları, digər aşıqlarla deyişmələri haqqında məlumatlara görə bioqrafik səciyyə daşıdığından kitaba daxil edilmişdir.

Bölgə folklor materiallarının dil xüsusiyyətlərinin öyrənilməsi baxımından kitabda ləqəblər və dialekt sözlər haqqında xüsusi başlıq ayrılmış və müvafiq xalq deyimləri, onların ədəbi dildə qarşılığı qeyd edilmişdir.

Təqdim etdiyimiz folklor nümunələrində informator tərəfindən qeydə alınan səs yazılarının oxunmaması, müəyyən yanlışlıqların olmasını nəzərə alaraq mətnin həmin hissələrində tərəfimizdən nöqtə şəklində boşluqlar saxlanılmışdır.

Əldə olunan folklor nümunələrinin toplanılmasında yaxından iştirak edən, eləcə də kitabın ərsəyə gəlməsində zəh-məti olan hər bir kəsə minnətdarlığımı bildirirəm.

***Dr. Aqşin Ağkəmərli***

# UŞAQ FOLKLORU

## Nazlama və arzulamalar

Balama qurban inəklər,
Balam haçan iməklər?

***

Balama qurban bizovlar,
Balam haçan qız olar?

***

Balama qurban serçələr,
Balam haçan dirçələr?

***

Balama qurban keçilər,
Balam haçan seçilər?

***

Balama qurban ilanlar,
Balam hacan dil anlar?

***

Balama qurban dayçalar
Balam hacan əl çalar?

***

– Çaqqalalar gül açdı,
Mənim balam dil açdı.

***

– Ölmiyəcəm, qalacağam,
Hamının qızın alacağam.

***

– Hamı çıxıb gedəndi,
Balam mənə qalandı.

***

Qız palçığa batar, parıldar,
Oğlan qapıda yatar, mırıldar.

***

Dınqılı qızım, dur çay qoy,
Evimizi süpür, nahar qoy.
Evimizə qonaqlar gəlir,
Müftə dodaqlar gəlir.

***

Dağda darılar,
Sünbül sarılar,
Qoca qarılar
Bu balama qurban.

***

Dağın maralı,
Gözu qaralı,
Dünyanın malı
Bu balama qurban.

***

Qızdır qızıl parçası,
Əşrəfinin xırdası.
Oğlandır, oxdur,
Bir kündə p....r.

***

O telli durnam mənim,
Yaşıl baş sonam mənim.
Qolunu sal boynuma,
Balaca balam mənim.

***

Gözləri xumar qızım,
Sacları tumar qızım.
Ağlayanda qış gələr,
Güləndə bahar qızım.

***

Qız balam, qızıl balam,
Ömrümə yazıl balam.
Ömür diləram sənə,
Ən azı yüz il balam.

***

Xırdacasan, məzəsən,
Sən hər güldən təzəsən.
Qurban olum o günə
Ayaq tutub gəzəsən.

***

Çıxaram yol düzünə,
Baxaram gül üzünə.
Hər ananın öz balası
Şirin gələr özünə.

## Laylalar

Güllәri üzüm lay-lay,
Telinә düzüm lay-lay.
Sәn böyü, mәn ucalım,
Toyunda süzüm lay-lay.

Laylay çaldım ucadan,
Sәsim gәlsin bacadan.
Allah sәni saxlasın,
Çiçәkdәn, qızılcadan.

Laylay dedim adıva,
Pirim çatsın dadıva.
Pirim dada çatanda,
Anavı da sal yada.

Laylanın sәsi gәlir,
Tatar yuxusu gәlir.
Uzaq-uzaq ellәrdәn
Balamın dayısı gәlir.

Nәrgizi üzüm lay-lay,
Yaxana düzüm lay-lay.
Sәn böyü, mәn qocalım,
Toyunda süzüm lay-lay.

Laylayım birdi mәnim,
Gözümә nurdu mәnim.
Lay-lay demәsәm, olmaz,
Qәmin yemәsәm, olmaz.

Lay-lay deyim doyunca,
Baş yastığa qoyunca.
Yat sən gül yatağında,
Baxım sənə doyunca.

Lay-lay deməsəm, ölləm,
Qəmin yeməsəm, ölləm.
Uzaq yerdə nənəm var,
Nənə-nənə deməsəm, ölləm.

Balam, bir soyun görüm,
Sərvli boyun görüm.
Tanrıdan arzum budur,
Balamın toyun görüm.

Lay-lay çallam gündə mən,
Kölgədə sən, gündə mən.
İldə bir qurban olsa,
Qurbanıyam gündə mən.

Laylayım birdi mənim,
Gözümə nurdu mənim.
Sənə lay-lay deməsəm,
Taleyim kordu mənim.

Lay-lay, balam, gül balam,
Mən sən qurban, balam.
Qan eyləmə göylümü,
Gəl mənə bir gül, balam.

Çıxaram yol düzünə,
Baxaram gül düzünə.
Hər nəyin öz balası,
Şirin olar özünə.

Lay-lay əməyim, bala,
Duzum, çörəyim, bala.
Tanrıdan əhdim budur,
Görüm köməyin, bala.

Bala, ömrün çox olsun,
Göylün, gözün tox olsun.
Sənə lay-lay çağırım,
Düşmanların yox olsun.

Lay-lay deyim biləsən,
Düşmüyəsən dilə sən.
Boya– buxuna çatıb,
Oynayasan, güləsən.

Lay-lay, mənim bəbəyim.
Bir arzu, bir diləyim.
Dar gündə, pis ayaqda,
Sənsən mənim köməyim.

Oğul, sən yarağımsan,
Güzgümsən, darağımsan.
Hər gün lazım olmasan,
Dar gündə dayağımsan.

Bir səs gəlir ellərdən,
Şirin-şirin dillərdən.
Tanrı, balamı saxla,
Ağır aylar, illərdən.

Anam tel düzər sənə,
Bacım gül düzər sənə.
Tanrıdan arzum budur,
Dəyməsin nəzər sənə.

Evdə-eşiyində,
Yat, quzum, beşiyində.
Bir mən, bir dan ulduzu
Durmuşuq keşiyində.

Mənim gül butam oğlum,
Ətrinə batam oğlum.
Bir arzum var ürəkdə,
Sənə toy tutam oğlum.

Lay-layin bir quş idi,
Hasara qonmuş idi.
Əl uzatam tutmağa,
Mələklər tutmuş idi.

A layla, bəyim lay-lay,
Gözəl– göyçəyim lay-lay.
Qürbət ölkə, yad eldə
Arxam, köməyim lay-lay.

Balam oynur, yatmayın,
Sözünə söz qatmayın.
Lay-lay deyim balama,
Yatarsa, oyatmayın.

Bir səs gəlir ellərdən,
Şirin-şirin dillərdən.
Lay-lay deyim balama,
Tanrı, balamı saxla.

Lay-lay, mənim bəbəyim,
Bir arzu, bir diləyim.
Yaman gündə yad eldə
Sənsən mənim köməyim.

Lay-lay dedim adıva,
Əli yetsin dadıva.
Əli yetsə dadıva,
Məni də sal yadıva.

Lay-lay, mənim naz balam,
Qaragilə, duz balam.
Sən yat, mən özüm qurban,
Qərə gilə göz balam.

Lay-lay, qələm qaş balam,
Telli, uzun saç balam.
Sənə mən özüm qurban,
Sonam, yaşılbaş balam.

# MÜXTƏLİF UŞAQ ŞEİRLƏRİ

## Üşüdüm ha, üşüdüm

Üşüdüm, ha üşüdüm,
Dağdan alma daşıdım.
Almacığı aldılar,
Mənə zülm satdılar.
Mən zülmdən bezaram,
Dərin quyu qazaram.
Dərin quyu beş keçi,
Hanı onun ərkəci?
Ərkəc qazanda qaynar,
Qəmbər yanında oynar.
Qəmbər getdi oduna,
Tikan batdı buduna.
Tikan deyil, qəmişdi,
Beş barmağı gümüşdü.
Gümüşü verdim tata,
Tat mənə darı verdi.
Darını səpdim quşa,
Quş mənə qanad-verdi.
Qanadlandım uçmağa,
Həqq qapısın açmağa.
Həqq qapısı kilidli.
Kilid dəvə boynunda,
Dəvə Gilan yolunda,
Gilan yolu sərbəsər,
İçində meymun gəzər.
Meymunun balaları
Məni gördü ağladı,
Tumanına qığladı.
Tumanı dəlik-dəlik,

Qurbağa bölük-bölük.
Qurbağanı haqladım,
Həsən bəyə saxladım.
Həsən bəyin nəyi var?
Çakır– çukur çayı var.
Çakuru kor dərindi,
Çayın suyu sərindi.
Çaya ilan yan gedər,
Tosbağa çaynan gedər.
Tosbağa, ha tosbağa,
Burdan qaçıb üst bağa.
Üst baxçanın yolları,
Kənkanların dolları,
Dollar quyuya sallandı.
Kənkənlardan alındı.
Kənkanın biri quyuda,
O birini gördüm toyda.
Toyuz, dedim, necə oldu?
Dedi: " Dur yat, gecə oldu"
Gecə getdim cəngələ,
Sərvan gələ dincələ.
Sərvan gedir kərvana,
Kərvan gedir ürmana.
Urman yolu sərbəsər,
Üstündə ilan gəzər.
İlanın balaları,
Urmanın qalaları.
Urman qalası daşdan,
Elim gəlir o başdan.
Elim gəlir sel kimi,
Tat üstündə yel kimi.
Atları da kəhirdi,
Hazırlanmış yəhərdi.

Yəhərlənib gəlmağa,
Öz həqqini almağa.
Həqq qapısı bağlıdı,
“Aslan” üzü dağlıdır.
Dağlıyam, a dağlıyam,
Mən elimə bağlıyam.
Elim mənim oyaxdı,
Tanrı ona dayaxdı.
Kilid elin əlində,
Qıfılca var dilində.
Qıfılcanı açarlar,
Gül siminə saçarlar.

***

– Gəl gedək bağa.
– Mən də, mən də.
– Çıxaq budağa.
– Mən də, mən də.
– Şaftalı yığaq.
– Mən də, mən də.
– Bağban gəlsin.
– Mən də, mən də.
– İti küskürdsün.
– Mən də, mən də.
– İt mənə hürsün.
– Mən də, mən də.

***

– Qurbağa bacı, hardan gəlirsən?
– Mələtdən.
– Hanı bəs yükün?
– Aldılar.
– Vermiyeydin.

– Vurdular.
– Sən də vuraydın.
– Onlar ikiydi, mən bir idim.
– Onlar vurduqca mən kiridim.

***

Qır-qır qurbağa,
Yügürdü küçə bağa.
Küçə bağdan qurd çıxdı,
Qurdu verdim bucağa.
Bucaqdan yumaq çıxdı,
Yumağı atdım tata,
Tat mənə darı verdi.
Darını səpdim quşa,
Quş mənə qanad verdi.
Qanadlandım uçmağa,
Haq qapısın açmağa.
Haq qapısı qıfıllı,
Kilid dəvə boynunda.
Dəvə ilan yolunda,
İlan yolu sərbəsər,
İçində meymun gəzər.
Meymunun balaları
Məni gördü ağladı,
Tumanına qığladı.

***

Əl-ələ, ha əl-ələ,
Su gəldi lülə-lülə.
Suyun başı bizimdir,
Çeşmə başı sizindir.
“Maral” gedib çeşməyə,
Sudan gətirsin bizə.

Əyildi üzün yuya,
Həm də sudan doldura.
“Maral” suya baxırdı,
Acıqlanıb oxurdu:
Ay burnu əyri kəhriz,
Beli donquzlu kəhriz.
Qış gələr, sən donarsan,
Mən üstündə gəzərəm,
Ayaqlayıb əzərəm.

***

Bir, iki – bizimki.
Üç, dörd – qapını ört.
Beş, altı – simavər altı.
Yeddi, səkkiz – Firəngiz.
Doqquz, on – qırmızı don.
On bir, on iki – danışaq Türki.

***

Hap-hapan, kəssək atan,
Gedin deyin atmasın.
Bizim evin qız xatını
Boynunda var yüz altını.
Yüz atın bir quşumuş,
Bağçaya qonmuşumuş,
Koroğlu vurumuşumuş.
İynə-iynə, ucu düymə,
Sam ağacı, qatır keçi,
Qoz ağacı, qotur keçi,
Happan-huppan,
Su iç qurtul,
Çıx qırağa, çıx qırağa.

***

İki dişi var qabaqda.
Çörəyi qoymaz tabaqda.
İki dişi dörd olubdur.
Canımıza qurd olubdur.

***

Tural oğlan,
Qoç oğlan,
Götür qızları
Qaç, oğlan.

***

Oğlandı, xandı-xandı,
Bağcalarda quş qovandı.
Misri qılınc belində
Vurmağı pəhlivandı.

***

Lili-lili hövzə,
Dörd bir yanı səbzə.
Araları məzə.
Bu dedi:
– Gəl gedək oğurluğa.
Bu biri dedi:
– Hanı nərdivan?
O taydakı dedi:
– Məndən uzun nərdivan?
O biri dedi:
– Utan
Allah var,
Peyğəmbər var,

İmam var.
O da dedi:
– Nə Allah var,
Nə peyğəmbər,
Nə imam...
Bu birisinə dedilər:
– Külə qalasan, böyümüyəsən,
Külə qalasan, böyümüyəsən.

***

Quşdi, quşdi, ho,
Quşdi quşdi.
Təndirə düşdü,
Yanmadı.
İlan sancdı,
Ölmədi,
Qarı nənə dedi:" Pıss-pıss".

***

Dadlı qız axtarsalar,
Bizdə var.
Şanana qız axtarsalar,
Bizdə var.
Bir dənə qız axtarsalar,
Bizdə var.
Qapıları sındırsalar,
Bizdə var.
Dam-divarı yıxsalar,
Maral qız axtarsalar,
Bizdə var.

## Öcəşmələr

– Deginən: badam.
– Badam.
– Olmadın adam.

– Deginən: maral.
– Maral.
– Kül kimi qaral.

– Deginən: çaxmaq.
– Çaxmaq.
– Sən oldun axmaq.

– Deginən: bir.
– Bir.
– Yerə gir.

– Deginən: beş.
– Beş.
– Burnunla yeri eş.

– Deginən: yoğut.
– Yoğut.
– Anan doğub.

–Deginən: at.
–At.
–Min yolla çap.

– Deginən, abı,
Get, yala qabı.
– Deginən, ağ
Ürəyimə cəkdin dağ.

– Deginən, ağa
Dırmaşasan dağa.

# YALANLAMALAR

## Hadı-hudu (1)

Hamam-hamam içində,
Xəlbir saman icində.
Dəvə dəlləklik edər
Köhnə hamam içində.
Qarışqa şıllaq atdı,
Dəvənin qıçı sındı.
Gəldik dəvənin başın kəsək:
– Hadı, bıçaq, Hudu, bıçaq?
Dedilər: “Bizdə bıçaq yoxdur”.
Dedim: “ Bizdə biri var,
Tiyəsi yox, sapı var”.
Onnan dəvənin başın kəsdim,
Ətini doğradım,
Dərisinin üstündən
Tələdik,
Gəldik bunu bişirək.
– Hadı, qazan,
Hudu, qazan?
Dedi: “Yoxdu qazan”.
Dedim:
– Bizdə bir qazan var,
Altı yoxdur, qırağı var.

Gətirdi, ocağ asdıq bişirdik. Əti getdi, suyu qaldı. Suyunu yedik, əlimiz yağlı oldu. Sildik başmağın ücünə. Başmaq acığ elədi getdi Mərəd düzünə. Durdux Hadi, Hudu, mən getdim başmağı gətirəm. Gördük başmaq oturub qəfəsdə. Dedik:
– Atan yaxşı, anan yaxşı, başmaq gəl, gedək.

Başmaq dedi:

– Mən əkinçilik edirəm, darı əkmişəm.

Biz də oturaq olduq qaldıq. Bir gün qəfəsdə oturmuşduq, gəlif dedilər darıları yetişib. Durduq getdik, gördük darı tutub, nə tutub, zəmi doludur.

Hadı dedi: “ Məngəla (oraq)?”
Hudu, məngəla.
Dedilər: “Yoxumuzdu”.
Dedim: bizim evdə
Kuflanın altında
Bir məngəla var,
Tiyəsi yox, sapı var.
Qaçıb getdi,
Darını biçdik.
Cələ qurduq.

Yorğun oturmuşduq qəfəsdə. Gəlib dedilər donuz daraşıb cələni yeyir. Getdik gördük donuz daraşıb darıya.

– Hadı, vur!
– Mənim işim deyil.
– Hudu, vur!
– Mənim işim deyil.
Əlimi atdım cibimə
Bir bıçaq daşı
Gəldi əlimə.
Vurdum donuzun dişinə
Od qopdu,
Cələ odlandı,
Söndürdük.
Qalanlarını döydük,
Yığdıq təl
Eylədik.
Çuval gətirdik,
Tutmadı.

Xaral gətirdik,
Tutmadı.
Mişov gətirdik,
Tutmadı.
Dedim, bur cür olmaz,
Oturub
Bir fikir çəkdik,
Mənim bir
Kürküm var idi,
Onu sərdik yerə.
Gün vurdu,
Bir birə çixdı eşiyə.
Birəni öldürdük,
Darını yığdıq
Birənin dərisinə.
At gətdik,
Beli sındı.
Qatır gətdik,
Beli sındı.
Kəl gətdi,
Beli sındı.
Yenə biz
Asılı qaldıq.
Dedim,
Qoyun bir
fikir qılım,
Əlimi vurdum
Alnıma,
Fikrə daldım.
Kəmənd götürün
Gedək
Yolun qırağına.
İndi atlıqarışqalar çıxar.

Kəməndi atdıq, birini tutduq. Darını yüklədik ona. Mərənd yoxuşuna yetişəndə gün vurdu, birənin qabığı çatdadı. Darı töküldü yerə. Başladıq yığmağa. Gördük yığmağnan qurtarmaz. Getdik Mərəndə, bir qarının bir ağ toyuğu var idi. Onu gətirdik darını yığdı. Hadı dedi:

– Mən atlı qarışqanı minəcəyəm.

Hudu dedi:

– Mən də minəcəyəm.

Sıraynan mindik gəldik Horlan düzünə[1]. Çıxdıq xərmənə. Küləşləri devirdik. İçindən bir palan çıxdı. Palanı sökdük. İçindən bir qulan çıxdı. Qulanın içindən bir kağız çıxdı. Kağızı oxuduq-oxuduq, bu sözlərin hamısı yalan çıxdı.

## Hadı-hudu (2)

Hadıydı, Huduydu, Koroğlu Kosa idi, bir də mən. Ova çıxmışdıq. Qabağımızdan bir dovşan qaçıdı. Hadıya dedim:

– Tüfəngin var?

Huduya dedim:

– Tüfəngin var?

Koroğlu Kosaya dedim:

– Tüfəngin var?

Heç kimin tüfəngi olmadı. Özüm çaxmağı olmayan tüfəngi çiynimdən aşırdım.

Hadıya dedim: “Ata bilərsən?”

Huduya dedim: “Ata bilərsən?”

Koroğlu Kosaya dedim: “Ata bilərsən?”

Heç biri ata bilmədi. Özüm çaxmağı yox tüfənglə dovşanı yerə sərdim.

---

[1] Horlan düzü – Güney mahalında kənd yolu

Hadıya dedim: “Dovşanı soy!”
Huduya dedim: “Dovşanı soy!”
Koroğlu Kosaya dedim: “Dovşanı soy!”
Heç biri soymadı. Soymaq üçün bıçaq gərək idi.
Hadıya dedim: “Bıçağın var?”
Huduya dedim: “Bıçağın var?”
Koroğlu Kosaya dedim: “Bıçağın var?”

Heç birində bıçaq olmadı. Özüm tiyəsi yox bıçağın sapını cibimdən çıxardıb, dovşanı soydum.

Hadıya dedim: “Qazanın var?”
Huduya dedim: “Qazanın var?”
Koroğlu Kosaya dedim: “Qazanın var?”

Heç birində qazan olmadı. Özüm altı yox bir qazan tapdım.

Hadıya dedim: “Bişirə bilərsən?”
Huduya dedim: “Bişirə bilərsən?»
Koroğlu Kosaya dedim: “Bişirə bilərsən?”

Heç biri bişirə bilmədi. Özüm altı yox qazanda dovşanın ətini qovurdum. Hamımız yedik, doyduk, hələ artıq da qaldı. Artığını da bağladıq qurşağımıza, bir xoruz əmələ gəlir. Bu xoruzu mindik, yola düzəldik, qabağımıza bir çay çıxdı. Çaydan bir palan tapdıq. Palanı sökdük. İcindən bir kitab çıxdı. Oxuduq, gördük hamısı yalan.

# UŞAQ OYUNLARI

## Pildəstə

Pildəstə oyunu iki qrupdan ibarət olan bir oyundur ki, bu oyun iki çubuqla oynanılır. Çubuqların biri 20 sm-dən ibarətdir ki, ona pil deyilir. Digəri isə bir metrdən ibarət olan bir ağacdır ki, ona da "dəstə" deyilir. Elə bu üzdən bu oyuna da pildəstə oyunu deyilir. Oyun belədir: pili bir calada (çuxurda) və yaxud iki daş parçasının arasında qoyub dəstə ilə qarşı tərəfə atırlar. Qarşı tərəf əgər pili havada tutarsa, bu oyunu udurlar,o zaman udan-la uduzan arasında yer dəyişilir. Əgər havada tuta bil-məzsə, oynuyan qrup pili üç dəfə havada vurmalıdır. Ya-xın duran oyunçuya tərəf düşərsə, o oyunçu pili atdığı yerdən və düşən yerə qədər uu... səsi çəkməlidir. Yəni birnəfəsə heç dayanmadan bu səsi çıxarmalıdır. Arada səs kəsilərsə,demək, onlar uduzublar. Yenə oyunu udan tərəf davam etdirir. Əgər uu.. səsi pilin düşdüyü yerə qə-dər heç bir nəfəs almadan çəkilərsə, oyunu qalib gələrlər.

## Cıbıddı-cıbıddı

Uşaqlar hər birinin əlində bir ağac bir yerə top-laşırlar. Bir az irəlidə yerdə bir xətt çəkilər. Hamısı o xəttin üstündə durarlar. Nişanlanan tərəfə ağaclarını atarlar. Hansının ağacı nişandan bir az aralı olarsa, ağacları toplamaq ona düşər.

## Muncuq

Oyun çox vaxtlar qızların arasında oynanılar. Bir qrup içərisində bir muncuq gizlədilir. Kim onu tapırsa, oyun ona düşər. Bu şəkildə oyun təkrar edilir.

## Girdəkan dığırı

Bir qrup biri neçə girdəkanı (qozu) yerə səpərlər. Və birini əldə saxlayıb bir yamacda barmaq vasitəsi ilə atarlar. Nişan tutan girdəkana toxunarsa, toxunan girdəkanı və öz girdəkanını götürər. Oyun bu şəkildə udmaq və uduzmaqla davam edər.

## Pul atdı

Bu oyun bir qrupdan ibarət olur. Və eyni halda girdəkan dığır oyununa çox yaxındır. Bu şəkildə ki, uşaqlar növbə ilə bir sikkə pula yaxın pullarını atarlar. Hansı atılan pul nişana yaxın olarsa, o digər atılan pulları da yığar.

## Gözü bağlı oyunu

Bu oyunda bir qrup uşaqlardan ibarət olur. Püşk atıb birinin gözlərini dəsmalla bağlarlar. Əlinə bir qayış, yaxud kəndir verərlər. O, qayışı, ya kəndiri ətrafında gəzdirib kimə toxunursa, onun gözlərini bağlarlar. Gözlərini bağlayan oyunçu qayışı əldə tutarkən bu sözləri ifadə edər: "Dədəm mənə kor deyib, hər gələnə vur deyib".

## Kimi sevərsə...

Bir qrup uşaq əl-ələ verib birini ortaya çəkərlər. Sonra birlikdə ortada oturan uşağa səslənərlər.

– Bu uşağın nənəsi şəkər-pənir pişirir,
Uzunluğu bu boyda,
Balacalığı bu boyda.
Birlikdə soruşurlar:
– Kimi sevərsən?

Söz bura çatarkən ortada oynayan uşaq kimin əlini tutarsa, öz yerini onunla dəyişdirir.

## Gizlənparç

Bu oyun iki, ya bir neçə nəfərlə oynanılır. Oyunçular arasında püşk atıb, uduzan tərəf gözünü yumar. Gözünü yuman yerə "əbə" deyilir. Əlliyə, ya yüzə qədər sayandan sonra gözünü açıb axtarmağa başlar. Gizlənən oyunçuların hər birini tapanda özünü əbəyə yaxınladıb, "yandı" sözünü deyər. O oyunçu oyundan çıxar. Və göz yummağa məcbur olar. Və yaxud başqa bir oyunçu özünü əbəyə çatdırıb əlini əbəyə vurub onda o yanmaqdan, yəni uduzmaqdan xilas olur. Beləliklə, udmaqla-uduzmaqla oyun davam edir.

## Motal-motal

Günüm gedib su içməyə,
Abı donun dəyişməyə.
Keçəl qızın sal təndirə,
Saçlı qızın gətir bizə.

Uşaqlar yuvarlaq şəkildə oturub əllərini açıb, yerə qoyarlar. Birisi sayan olar, bu sözləri deyər:

Motal-matal,
Dərzi motal.
Elər atar,
Qaymaq tutar.
Əmim oğlu
Burnu qara.
Durma qara,
Çıx qırağa.

Bu sözlərin sonunda əlin bir kəsin əlinə toxunmasa, oyun olduğu kimi davam edər, toxunsa, əli toxunan adam başını yerə əyər, uşaqlar yumruqlarını onun kürəyində üst-üstə qoyub, başı aşağı olandan soruşarlar:

– Son yumruq kimindir, adını söylə!

Əgər doğru söylərsə, o sayan olar, yoxsa bu üstə oğlan oyunçu "yalandır" deyib, axtarıb tapmalıdır. Tapandan sonra o sayan olub, bu şeri oxuyar:

İynə-iynə,
Ucu düymə.
Bal-ballıca
Şam ağacı,
Satır keçi.
Qoz ağacı,
Qotur keçi,
Happan-huppan,
Yarıl, yırtıl
Su iç qurtul.
Əmim oğlu,
Uzun bığlı.
Haldırım dedi,

Göyə bir ağac aldı,
Qarğa sapı,
Gül budağı.
Motal-motal,
Tərsə motal.
Ellər atar,
Qaymaq qatar.
Ağ quşum,
Ağar quşum.
Ağar çınım.
Göy quşum,
Göyərçinim.
Burnu qara
Çıx qırağa,
Çıx qırağa.

Bu şəkildə oyun davam edər.

## Barmaq oyunu

Əl barmaqları ilə körpələr üçün başqa bir oyun belədir ki, barmaqlar açıq şəkildə olur, bu şeirin bir qismini oxuyanda yumulu, digər qismilə də açılır:

Baş barmaq,
Başala barmaq.
Uzun hacı,
Qıl turacı,
Xırdaca bacı.
Bu vurdu,
Bu tutdu,
Bu bişirdi,
Bu yedi,
Vay, bəbəyə qalmadı.

## AŞIQ OYUNLARI[2]

Bu oyunda yerdə bir dairə çəkilir. Sonra oyunçulardan hər biri havada dairənin içinə aşığı atır. Öncədən təyin olunmuş vermiş aşıq hər hansı formada düşərkən oyunu o başlayır. Misal, olaraq hər hansı atılan aşıqların biri "börk" düşərsə, o oyunu oynamalıdır. Bu şəkildə növbələr bəlli olar. Sıraya düzülüb oyun oynanılar. Dairədə olan aşıqları eşikdəki aşıqlarnan vura bilməsə, növbə başqasına çatar. Amma aşıqla vurub dairədəki aşığı dairədən çıxardırsa, aşıqlarla topluyub saqqası düşən yerdən istər dairənin içində, ya eşiyində oyuna davam edər. Beləliklə, bir ya bir neçəsini dairədən çıxardıb özünə götürər. Əgər vura bilməzsə, oyunu başqası davam etdirər. Bu oyunda aşıqların duruşunun adı belədir: saqqadan, durmadan, təkdən, cütdən, harambasma, formidan, qışidən, itmədən, cığalıqdan mayadan, çıxartmadan və s.

### Dəvə harda?

Uşaqlar əl-ələ verib bir-birinin qoltuğunun altından keçərkən, bir-birinə belə sual verirlər. Qalan uşaqlar isə belə cavab verirlər. Sual-cavab belədir:

– Dəvə harda?
– Qarabağda.
– Nə yeyər?
– Durna.
– Nə s.....r?
– Xurma.
– Alnı nədən?
– Göy daşdan.s

---

[2] Aşıq oyunları – qoyunun oynaq sümüyü ilə təşkil olunan oyunlar.

– Sidiyi nədən?
– Gülabdan.
– Toyuna vurum, yasına?

Əgər bu son sualda verilən cavab toyunda olsa, hamı birlikdə gülərlər. “Damba damba, damba” bir musiqi səsi çıxardarlar. Yenə bir-birinin qoltuğunun altından keçərlər. Əgər bu dəfə cavab yasına deyilirsə, bir hərəkətlə ağlama və “ühü-ühü” səslərini çıxardarlar.

## DİGƏR OYUNLARIN ADLARI

Astalanpistan
At minmə.
Beşdaş
Dolanbacı
Döndü yandı
Gül oyunu
Göydə nə var, göy ulduzu
Kufgetmə
Qeyqaladüzmə
Qeyqala ha qeyqala
Qovalaqaçdı
Qondum küsdüm
Qonaq bacı
Məntəş dığırlama
Naqqıdınlı
Pul mızdırma
Saqqız oyunu
Torpaq beli sındırma,
Tikan zuğu
Yağlı bacı
Yumurta çaqqışdırma

## UŞAQ ŞEİRLƏRİ

Uşaqlar əl-ələ verib birlikdə bu şeirləri oxuyarlar:

Qarqa deyir:
– Qar-qara.
Qəcələ (Sağsağan) deyir:
– Zəhrimar.
Sərçə deyir:
– Nə işin var?

– Abazər, damda gəzər,
Bir quş vurar, boynunu əzər.

***

Dərə dabanı duzuynan,
Gecə yataram qızıynan,
Qızın dədəsi pinəçi,
Yanımı dələr diziynən.
Gecə dırnaq tutanını,
Gündüz nağıl deyənini,
İsti kössoy yeyənini.

***

– Dədəm mənə kor deyib,
Hər gələnə vur deyib.

***

– Yer alması,
Bel davası.
Yağdı yağışlar,
Bannadı quşlar,

Həsən əminin heyvan camışlar.

Bu anda uşaqlar iki qrupa bölünüb qarşı tərəf o biri tərəfə deyər:

– Xəbərin var Məlikdən?
– Cavabında deyərlər:
Girdi qaçdı dəlikdən,
Rəmazan– qarnı qazan,
Ged arvadan çörək qazan.

Səkinə şəkər– bostan əkər,
Toyuq qaqqıldar, yumurta tökər.
Aparar verər çay, şirniyə,
Gətirər evə,
Unundan tökər.

Sonra uşaqlar əl-ələ verib birlikdə oxuyarlar:

– Fatma– yol üstündə yatma.
Çobana daş atma,
Çoban yazıqdı,
Qəbri qazıqdı.

– Xalaoğlu boynu cilovlu.

– Xala-xala təndiri qala,
Kəsovu götür,
Məni qovala.
Mən getdim Mərəndə,
Tamaşadı gələndə.

– Səkinə, düş get,
Quyunun təkinə.

– Xədicə, bitdi cücə,
Həcər beşiyi biçər.

Dolaqların kirmanı,
Çarıqların şirvanı.
Bu cütdən gəliri,
Cütçülərin sərvanı.

***

Qurbağanı haqladıq-huqladıq,
Kərəm bəyə saxladıq.
Kərəm bəyin nəyi var?
Göyə qalxan atı var,
Göy muncuqlu iti var,
Qələm yazan oğlu var,
Əncir düzən qızı var.
Evində bir lotu var,
Əlli batman g.... var.

***

Əminə çıxıb damlara
Baxır xiyabanlara.
Qəfəçi, mənə çay gəti gə,
Mən bu çayı içmərəm,
Dərvazadan keçmərəm.
Dərvaza mənim olsun,
İpək tumanım olsun.
Geyim gedim Təbrizə
Təbrizdə toyum olsun.
Qızlar gəlsin toyuma,
Qurban olsun boyuma.

***

Şahnaz xanım bir çəngə,
Get dərədən su gətir.
Oğlan vurar, yıxılarsan,
Balıxlar yeyər, qurtularsan.

Keçəl-keçəl bamiyə,
Getdi mərizxaniyə.
Mərizxana bağlıdı,
Keçəlin başı yağlıdi.
Keçəl deyər əvvəlki başım,
Qazanda qaynar aşım.
Aşımı içən olaydı,
Başıma s.....n olaydı.

***

Qabalı çala-çala getdim bağa,
Bağdakı qızlarınan oynamağa.
Əl atdım dınqılı qızın məməsinə,
Böyük qız əl eylədi nənəsinə.
Nənəsi çıxdı dama,
Bir daş vurdu bağrıma.
Bağrımı tuta-tuta,
Getdim xana.
Xan dedi:
– Qaşı qərə,
Gözü qərə,
Nə düşmüsən bu çöllərə?
Verrəm səni iyidlərə,
Ataram səni itlərə.

***

Tapıl-tapıl axça verim,
Tapılmasan mıxça verim.

***

Uşaqlar toyux yumurtlayanda belə ifadə edərlər:

Qaq-qaq- qaq-qaq-qaq,
Bir oğlan doğmuşam ağappaq.
İnanmırsan, gəl-get bax.

***

Uşaqlar xallı böcəyi ovcunun içinə qoyub bir barmağının istiqamətində hərəkət etdirəndə deyərlər:

Əl-ələ, düymə belə,
Mən gedirəm babamgilə.
Babam bizə papuş alar,
Bir cüt sənə, bir cüt mənə,
Qarı nənə, uç-uç, bir də uç.

Bu anda böcək uçub gedər.

***

Yer bülbülü adlı başqa bir böcək də var ki, yerin altında yuva qazar. Uşaqlar bəzən bu böcəklə oynamaq üçün onun yuvasını barmaqla deşəllər. Belə deyərlər:

Aç qapını, mən gəldim, bülbül,
Aç qapını, mən gəldim.

***

Hacıleylək səsini çıxardanda uşaqlar onun yuvasına yaxın toplaşıb deyərlər:

Hacıleylək hacı eşqinə,
Bir damağın şaqqıldat.
On iki imam eşqinə,
Bir damağın şaqqıldat.

***

Uşağın dişi düşəndə o dişi dama atıb uşaqlar oxuyarlar:

Qarqa-qarqa,
Mənə diş gəti gəl!
İçində kişmiş gəti gəl!
Qarqa-qarqa,
Diş gəti gəl...

***

Uşaqlar bir şey itirəndə itən şeyi axtara-axtara oxuyarlar:

Tapıl-tapıl pulun verim,
Tapılmasan çulun verim.

## TAPMACALAR

Ağacın tutmaq olmaz, ətrindən doymaq olmaz.

***(Qızılgül)***

Ağac başında al yanaqlı qız.

***(Alma)***

Bağlaram qaçar, açaram durar.

***(Çarıq)***

Bir üzü var, min gözü.

***(Xəlbir)***

Gecə bulaşar, gündüz dolar.

***(Səki)***

Qırmızı nar, hər evdə var.

***(Od -köz)***

Mən getdikcə o uzanar.

***(Yol)***

O nədir özü var, kölgəsi yox?

***(Su)***

Bizim evdə dörd gəlin var dördü də bir boyda

***(Otağın dörd bucağı)***

O nədir ki, qatarlanar, yollanar?

***(Ölü)***

Bir qırmızı divar üstə otuz iki ağ quş oturub

***(Diş)***

O nədir ki, yer altında yasa gedər?

***(Gavahın (xış)***

O nədir ki, balalarını dövrəsinə yığar sızlayar?

***(Samavar)***

Bir otaqda iki ab hava.

***(Yumurta)***

Bizim evdə bir quyu var, abi zəmzəm suyu var, başında
cövhər dənəsi.

***(Çıraq)***

Bir atım var kəhani,
Gəzər bütün cahanı.
Ətini yemək olmaz,
Nə əti var, nə qanı

***(Yel)***

Ağzı dardı əlamət,
İçi qırmızı qiyamət.
Yaş vurarsan, quru çıxar,
Səlli– əla Məhəmməd.

***(Təndir çörək)***

Hapışdurum,
Popuşdurum,
Bunu ora yapışdırım.

***(Cib)***

O yan çapar,
Bu yan çapar,
İçində atlı çapar.

***(Göz)***

O yan qala Məhəmməd,
Bu yan qala Məhəmməd,
Arada bülbül oynur,
Səlli əla Məhəmməd.

***(Dil)***

Əlməni ələdim,
Dolamanı doladım.

***(Çarıq)***

Heyvan, hardan gəlirsən?
Qanlı dəmə dibindən.
Qanın niyə quruyub?
Allah belə buyurub.

***(Bal arısı)***

Tap bu nədir tapmaca, mənim bir pəyə malım var, quyruğu içəri çəkir.

***(Qaşıq)***

Mənim bir pəyə malım var, qoyunları çaqqaldı.

***(Zirək)***

Hap-hapı,
Kərki sapı.
Beş yarpağı,
Bir ağacı.

***(Əl)***

Həndi hindicə,
Boynu əyricə.
Hara gedirih bu yarı gecə?

***(Noxud)***

O nədir ki, gecə-gündüz yol gedir?

***(Su)***

Daşdan ağırdı, baldan şirin?

***(Yuxu)***

Bizim evdə kəndi var,
Kəndinin kəməndi var.
Göydən keçən quşların
Ayağının bəndi var.

***(Asma tərəzi)***

Üstü çəmən biçilir, altı bulaq içilir.

***(Qoyun)***

Bu gün işənbədi,
Göylümə düşən nədi?
Odu yox, ocağı yox,
Qazanda bişən nədi?

***(Pendir)***

Gözü bənzər ceyrana, xidmət eylər insana, adam çıxsa üstünə, baş əyməz heç sultana.

***(At)***

Kababı dəmirdən, şişi ətdən.

***(Üzük)***

Haydıbanı, huydu banı, altı qeyçi, var iki dabanı.

***(Asma tərəzi)***

Bir atım var minəmmirəm, minsəmdə sürəmmirəm, ətin kəssəm yeyəmmirəm, suyundan ehsan verəmmirəm

***(Küzə)***

Buynuzu var heyvan deyil, qanadı var quş deyil.

***(Kəpənək)***

Bir ağacım var çıxammıram, çıxsam da, çalammıram, çalsam da, yığammıram.

***(Şivərən)***

O nədir, hər zad onun altından keçir.

***(Qələm)***

Bir qəlbir aşiqim var, içində bir saqqası.

***(Ay)***

Hacılar haca gedər,
Cəhd edər, gecə gedər.
Bir yumurta içində
Qırxdan çox cücə gedər.

***(Nar)***

O nədir ki, məndə də var, sənə də var, Misirdə yox, Şamda da var.

***(Nöqtə)***

O nədir ki, deyəndə dəyməz, deməyəndə dəyər.

***(Dodaq)***

Üzü yerdə, saqqalı göydə.

***(Yerkökü)***

Uzatdım sənə, ləzzəti mənə.

***(Siqaret)***

Əvvəlki məxmər satan, ikinci pambıq satan, üçüncü ağac satan.

***(İydə)***

On əyağı var, üç başı, ağacdan dayağı var.

***(Xış)***

İlim-ilim düyməsi, ilim xətim düyməsi, onu tapmıyan yeddi ilin xəstəsi.

***(Üzərrik)***

Bir damım var, yolu yox, köynəyim var, qolu yox.

***(Qəbir – kəfən)***

Bir şey vardı yemişdim, yeməseydim ölmüşdüm, indi olsa da, yemərəm, yeməsəm də, ölmərəm.

***(Ana südü)***

Bir köynək var, getsəm bazara, alaram, alsam, geymərəm, geysəm də, görmərəm.

***(Kəfən)***

Bir bir dəstə qiz idik, bizi əzdilər, ipə düzdülər.

***(Ərişdə)***

Bir evdə mısıb yatıb, qulaqların qısıb yatıb, bir daş vurdum oyanmadı, elə bildim küsüb yatıb.

***(Motal)***

Bizim həyətdə quyu var, quyunun suyu var, suyunun ilanı var, ilanın gözü var.

***(Lampa – çıraq)***

Yol gedər, dalınca baxmaz.

***(Su)***

Dağdan gələr dağ kimi, qolları budaq kimi, əyilər su içər, anqırar ulaq kimi.

***(Nehr – çay)***

Evdə oyanar, hamini yığar başına ağlar.

***(Samavar)***

Hap-hapı,
Kərki sapı.
Bir budağın
Beş yarpağı.

***(Barmaqlar)***

O nədir, məndə var, səndə var, zərgərdə də var, misgərdə yox.

***(Duz)***

O yan mərmər, bu yan mərmər, içində bülbül gəzər.

***(Dil)***

Mənim bir kürəm var, iki rəngli su tutar.

***(Yumurta)***

Azdan keçər, namaz qılmaz, arvad alar, kəbin kəsməz.

***(Beçə)***

Tap, bu nədir, tapmaca,
Qulaqları yapmaca.
İki bağın arasında
Sultan suda çimir.

***(Dil)***

Ağzına bax, ağzına,
Gör nə yazıb kağızına?

***(Nəhir)***

– nədən-nədəndir,
Bağrım zədəndir,
Yaşıl əkərəm,
Qırmızı bitər,
Əsli nə fəndir?

***(Xına)***

Ərinməz ağam,
Kürkün bürünməz ağam,
And içib, piyada yeriməz ağam.

***(Üzüm, qurd, gümüş)***

Çullarım, çulun salar,
Çullamaram, qolun çalar.

***(Saç və yuxa çörəyi)***

Kimdir o?
Qaradır, qarğa deyil,
Yer eşir- donuz deyil.
Evə cumur– qurd deyil,
Bir vəhşi heyvan deyil,
Qaçsa da, dovşan deyil.
Dəvə, yumurta, susəri.

***(Yuxu)***

Alında abbası var onun,
Üstündə abası var onun.
Xəncərini dilim-dilim,
Gör nə səfası var onun.

***(Portağal)***

O nədir, nəcara (dülgər) getməmiş,
Ağacı yonulmamış,
Unu dartılmamış.

***(İydə)***

O nədir, baldan şirindir, amma dadı yoxdur.

***(Yuxu)***

Bizim evdə yusuf yatıb,
Qulaqların qısıb yatıb.
Dindirirəm, cavab vermir,
Elə bil küsüb yatıb.

***(Samovar)***

Göydən sürü qaz gedər,
Qaqqıldaşar qaz gedər.
Tap görüm, o nədir ki,
Yeddi il boyu qaz gedər.

***(Yonca)***

O nədir ki, gecələr nökərdir, gündüzlər ağa.

***(Çıraq)***

O nədir ki, gündüzlər nökərdir, gecələr ağa

***(Süpürgə)***

# ATALAR SÖZLƏRİ VƏ DEYİMLƏR

**A**

Ac aman bilməz, uşaq zaman.
Ac bir olsa doyurmağa nə var.
Ac getdin, nəşdov qayıt.
Ac toyuq yatar, dişinin dibində darı görər.
Acı çayın xatiri yüz ildir.
Acı dindirmə, toxu da tərpətmə.
Acın qarnı doyar, gözü doymaz.
Açılmayan qapını boş yerə çalmazlar.
Adın nədir?
Rəmazan.
– Get arvadına çörək qazan.
Adın nədir Rəşid, birin dedin, birin eşit.
Adilin qəzəbinnən, zalımın sükutunnan qorxmaq gərək.
Ağ gün ağardar, qara gün qaraldar.
Ağ at arpa yeməz.
Ağa ilə xanım savaşdı, arada nökərin canı çıxdı.
Ağac meyvəsi ilə, insan əməyi il tanınar.
Ağacı içindən mur yeyər.
Ağıl ağıldan ötkündür.
Ağın adı olar, qaranın dadı.
Ağır otur, batman gəl.
Ağlamayan uşağa süd verməzlər.
Ağrımaz başa dəsmal bağlamazlar.
Ağzı süddən yanan qatığı piyləyə-piyləyə içər.
Axmax adam oğurluq gəmi ilə gəzməyə çıxar.
Axşamdan bazara gedən çox olar.
Azacıq aşın, ağrımaz başın.
Arşın gətir bezi apar, çanaq gətir qozu apar.
Ay tutulanda millətə ziyandır, gün tutulanda dövlətə.
Arpanı demə, düyünü de, dünəni demə, bu günü de.

Arı çiçəyə qonar, milçək təzəyə.
Arxadan atılan daş topuğa dəyər.
Atamın duvası, anamın laylası.
Arpa əkdim darı çıxdı, arvad aldım qarı çıxdı.
Ayının min oyunu bir qoza görədir.
Arxadan gələn səsə qulaq asmazlar.
Ar edən kar etməz, kar edən ar etməz.
Armud dibinə düşər.
Arsız qonaq ev sahibini basar.
Anlayana qul ol, anlamaza ağa olma.
Atəşlə barıt yan-yana durmaz.
At qəmlə, insan sözlə idarə olunur.
Aldın payın, çağır dayın.
Arx gələr bənd aparar.
Az aşın duzu deyil.
Allahsız yerdə otur, böyüksüz yerdə oturma.
Arpaya qatsan, at yeməz, kəpəyə qatsan, it yeməz.
Atasına ay kimi, anasına gün kimi,ay qonşu sənin üçün…
Arxa su gələnə qədər qurbağanın gözləri bərələr.
Ay görünəndə ulduza nə minnət.
At öləndə yəhəri qalar, adam ölən də adı.
Atılan ox dala qayıtmaz.
Atın yerinə eşşək bağlamazlar.
Atdan düşsən də, addan düşmə.
Axmax özünə düşməndir, özgəyə necə dost ola bilər?
Arıx nədi, quyrux nədi?
Aleybanı-quleybanı, gəl apar bu heyvanı.
Ayı dostluğu.
Ağzına su alıb.
At yiyəsinə görə kişnər.
Armudun yaxşısını ayı yeyər.
Arada deyib qıraxda gəzər.
Ağzı südlüdür.

Az ver candan, çox ver maldan.
Aşın duruluğu unun yoxluğundan olar.
Aslan yatdığı yerdən bəlli olar.
Artıq mal göz çıxardar.
Arifə tərif nə gərək?
Arpa əkən buğda biçməz.
Aşıq gördüyün söylər.
Aşığın gözü kordur.
Arı bal alacaq çiçəyi tanır.
At ölər meydan qalar, igid ölər can qalar.
Ara qarışıb, məzhəb itib.
At mənimdir, paltar düyənin.
Atı at yanına bağlasan, rəngi bir olmasa da, xasiyyəti bir olar.
Atın bir milyon qiyməti olsa, miniyi yüz milyondu.
Adam uman yerdən küsər.
Arvad iki olsa, ev süpürülməmiş qalar.
Arvad yıxan evi Allah da yıxa bilməz.
Aşağı başda oturmur, yuxarıda da yeri yoxdu.
Ala itdən məşhurdur.
Allah da dağına baxar, qar yağdırar.
Aşımıza su qatma.
At olar, meydan olmaz, meydan olar, at olmaz.
Allah dağına baxar, qar verər.

**B**

Birinin axmaqlığı ondadır ki, o birini axmaq bilir.
Bəyi yalan saxlar, eşşəyi palan.
Birlik harda, dirilik orda.
Bala başa bəladır, olmasa Kəlbəladır.
Barmağın kəssən, xəbəri olmaz.
Başın kəsər, saqqalı tumarlar.
Bugünün varı sabahın yoxudur.
Bülbülün dərdi dilidir.
Başı bədəninə ağırlıq edir.

Baxtıva daş atma.
Bir Koroğlu qaldı, bir də Eyvaz.
Bağda üzü olmayanın süfrədə üzü olmaz.
Bağban tələsər, armud vaxtında yetişər.
Bostan vaxtı bostançının qulağı kar olar.
Bu şans ki, mən də var, dənizə getsəm, quruyar.
Bil əlin nəsi var, iki əlin səsi var.
Babalın mənim boynuma.
Boyun ölçüm.
Bir əli balda, bir ağı yağda.
Bəyə dediyin nədir? Bəyə demədiyin nədir?
Böyük başın böyük bəlası var.
Bir evdə iki baş çıxsa, birini gərək kəsəsən.
Bəyə bel bağlıyanın heybəsi çiynində gərək.
Böyüklərlə böyük ol, kiçiklərə yol göstər.
Başında əkib ayağında biçir.
Bu dəyirmanın suyu hardan gəlir?
Bağda ərik var idi, salam əleyk var idi,
Bağda ərik qurtardı, salam əlyek qurtardı.
Bostanı vər saxlar, arvadı ər saxlar.
Bir daşla iki quş vurulmaz.
Bir kəsin ahı bir kəsdə qalmaz.
Bir ağacdan oxluq da çıxar, p....... da.
Belə gəlməmiş, belə getməz.
Boş çuval dik durmaz.
Bir qoyundan iki dəri çıxmaz.
Balıq başdan qoxur.
Bu dağlar qoyun, hamısı oyun.
Bağa bax üzüm olsun, yeməyə gözün olsun.
Bax mənə bir gözlə, baxım sənə iki gözlə.
Bağa baxarsan bağ olar, baxmasan dağ olar.
Bu işi bacarsan dişimi qırram.
Boş süfrəyə dua nə gərək.
Bir soğana baş kəsər.
Başı bədəninə ağırlıq edir.

Başı şah başına oxşayır.
Başıma Həsən, Hüseyn müsibəti gəlib.
Başım əhlət daşına dəyməyib hələ.
Başıva kül ələyəndə uca yerdən ələ.
Balığı nə vaxt sudan tutsan, təzədi.
Bağrıma daş basdım.
Bəy verən atın erkək-dişisinə baxmazlar.
Bəlli deyil, nə quşun yumurtasıdır.
Bu dünyada bir yaxşılıq, bir də pislik qalacaq.
Bu qulaqdan alıb o qulaqdan eşiyə buraxır.
Bu günün sabahı da var.
Burda mənəm, Bağdadda kor xəlifə.
Boyun əti olma.
Burnunu tutsan, canı çıxar.
Burnun tutmamış hamı bilir nə xəbər var.
Bir işin yeddi məhələ zərəri var.
Beş barmaq bir-birinə bənzəməz.
Bir müsibət min nəsihətdən üstündür.
Bir arxa bir yol su gəlsə, ümid var, bir də gələ.
Bir əldə yeddi qarpız götürmək olmaz.
Bir başda ağıl olmasa, can həmişə əzabda olar.
Bir çıraq ki, evə lazımdı, məscidə haramdı.
Bir dağa qar yağarsa, kəndə də xəbər ver.
Bir dədə qırx oğulu saxlar, qırx oğul bir dədəni saxlaya bilməz.
Bir qulağın qapı olsun, biri də dərvaza.
Bir dəli bir quyuya daş salar, min ağıllı çıxara bilməz.
Bir gül ilə yaz olmaz.
Bir gülləynən iki nişan vurulmaz.
Bizdən dədəyə oğul olmaz.
Bıçaq dəstəsini kəsməz.
Bıçaq sümüyə dayanıb

**C**

Can boğazdan gələr, boğazdan gedər.

Cavanlıqda daş daşı, qocalıqda ye aşı.

Cəhənnəmdən gələn mən, xəbər verən sən.

Can onun, cəhənnəm Allahın.

Canımı dişimə tutdum.

Cin vurdu başıma.

Can deyən çox olar, can verən az.

Can deyib can eşidir.

Cavanlıqda işləyən, qocalıqda dişləyər.

Cəfəri təyyar namazı tək uzandı.

Cəhənnəmi dalına çatıb.

Cütə gedən öküzü gözündən tanıyarlar.

Cümə axşamı dilənçiyə öyrəşməzlər.

Cırığı başına çıxıb.

Çiy odunun çiy tütünü olar.

Camış p..... bənzər.

Cahilə söz anlatmaq dəvəni xəndəkdən çıxartmaq kimidir.

Cahildən qorx, aslannan qorxma.

Can bədəndən çıxmadan ümid kəsilməz.

Canı olanın dərdi var.

Can boğazdan gələr.

Canamaz suya çəkir

Cəhənnəmə gedən özünə yoldaş axtarar.

Cücəni payızın axırında sayarlar.

Cinə papış tikər.

**Ç**

Çox bilən tez qocalar.

Çay quşu çay daşı ilə ovlanar.

Çaxır töksən siçanın boğazına, pişikdən vəsiqə istər.

Çörəyi ver çörəkçiyə, bir dənə də üstündə ver.

Çöyüstərli [3]çörəyi dördəlli qapar.
Çölməyə verə-verə qazanın pulu çıxar.
Çölmək dığırlanır, duvağın tapar.
Gölə susuz aparıb susuz gətirər.
Çox yemək adamı az yeməkdən qoyar.
Çırmanmamış çaya girmə.
Çil toyuq bərk yumurtdar.
Çağrılmayan qonağı it qapar.
Çoxbilmiş tülkü quyruğundan olar.
Çox bilən çox çəkər.
Çox istəyən azdan olar.
Çıraq dibinə işıq verməz.
Çağrılan yerə ar eləmə, çağrılmayan yeri dar eləmə.
Çağırırsan gəlmir, qovalayırsan getmir.
Çağırılmamış qonaq soyuq şorba yeyər.
Çaqqalın acığını baqqal çıxır.
Çaladan çıxıb çuxura düşdü.
Çalağan göydə oynayır, cücənin halı bulanır.
Çay suyuna batan quru çıxmaz.
Çəkişməsə, bərkiməz.
Çobanın göylü olsa, sudan kərə tutar.
Çobanın göylü olsa, erkək keçidən süd alar.
Çox damın çox qarı olar.
Çox yuxarı baxanın börkü düşər.
Çörək açan qapını qılınc açmaz.
Çörəyin isti olsun, suyun sərin.
Çörəyin itirsə, əməyin itirməz.
Çörəyin var, dişlə, çörəyin yox, işlə.
Çılpaq quşun yuvasıdır.
Çəkirsən zəhmət, görürsən rəhmət.

---

[3] Çöyüstərli (Şəbistər) – Güney mahalında şəhər adı

**D**

Dəmiri isti-isti döyərlər.

Doqquz oğlandansa, bir kor kişi yaxşıdır.

Dadanma gəl halvaya, bəlkə, bir gün olmaya.

Dəliyə yel ver, əlinə bel ver.

Dağda ayaq mərd olar, göz namərd olar.

Dəlik muncuq yerdə qalmaz.

Dəvəçi ilə dost olanın gərək darvazası gen olsun.

Dostluğunu istəmirəm min üzdə, düşmən ol bir üzdə.

Dağdakı gəlib bağdakını qovur.

Dişdən qabaq damaq var idi.

Divarın siçanı var, siçanın qulağı.

Dostu çox olanın dostu olmaz.

Dişin ağrıdı çək qurtar, başın ağrıdı kəs qurtar, qonşun pis oldu, qaç qurtar.

Dəyirman bildiyin eylər, çaq-çaq baş ağrıdar.

Deyir, igid yüz yaşar, fürsət bir düşər.

Dovşan anasını əmib, gözü yolda deyil.

Dərzinin iynəsi itməsə, gündə min düyün tikər.

Darğa əmin, daha nə qəmin.

Dazıma baxma, yazıma bax.

Daş daşı sındırar.

Daşa mıx vurmazlar.

Dost ilə alış-veriş eyləmə.

Daş dəyənə, yol gedənə bəllidir.

Dünya yaz ikən qışın qədrinə bax.

Dost şəkər olsa da birdən yemə.

Dinc adamsan, qanlı qapıda nə işin var?

Dəvəsi ölmüş ərəb kimidir.

Dəvə oynayanda qar yağar.

Dəvə deməkdən dilim tük çıxartdı.

Dünyanın üzü qara olsun.

Daşını atdım.

Dili varsa, dilçəyi də var.

Dost məni yada salsın boş əlnən.

Dağın da dağ boyda dərdi var.

Diləndçiyə bir versən, bir yer də istər.
Dünya yaz ikən qışın tədarükünə bax.
Dağ da olsan, dağa arxalan.
Dilin saxlıyan başını da saxlıyar.
Dana tölə mıxını çıxardanda doqquzunu özünə, birini özgəyə vurar.
Davanı qılınc kəsər, mamiləni pul.
Dənizə bir daş at, yada ki, bir qaya.
Desələr göydə toy var, arvadlar nərdivan axtararlar.
Dəvə buynuz axtarırdı, qulağını da itirdi.
Düşmənə quyu qazınca, dostuna ev tik.
Düşmən qapısında şah olmaxdansa, dost qapısında it ol.
Dəli dəliyə qoşulsa, dəyənək göydən yağar.
Dəli qızdan dəli gəlin olar.
Daş oğrusunun daşı daş üstə qalmaz.
Dəvədən böyük fil də var.
Düyünlü ağacdan oxlov olmaz.
Dalbadal eşşək işlər, at yeyər.
Dinsizin əlindən imansız gələr.
Dost yaman gündə bəlli olar.
Daş yerində bərk olar.
Diş ağrısız olmaz, ev sözsüz olmaz, gor əzabsız.
Dərdini deməyən dərman tapmaz.
Dəliyə hər gün bayramdır.
Dəvəyə boynu əyri dedilər, dedi, haram düzdür.
Donuzdan bir tük qopartsan da, qənimətdir.
Dəniz dalğasız, könül sevdasız olmaz.
Dost acı söylər.
Dəli dostun olunca, qanan düşmənin olsun.
Dənizə düşən ilan da olsa, yapışar.
Dərdini de bilənlərə, dərd başına gələnlərə, nə ki hər üzünə gülənlərə.
Düşməni sevən düşmən olar.
Dağlar ucalıb, kəmər qocalıb.
Daldan atılan daş topuğa dəyər.
Dost başa, düşmən ayağa baxar.

Deyirlər qardaşın necə adamdı, deyir yoldaşlıq etməmişəm.
Dem qarpızına oxşur.
Döymə qapımı, döyərlər qapıvı.
Dadanmısan dolmaya, bəlkə, bir gün olmaya.
Dağ dağa çatmasa da, adam adama çatar.
Damara bax, qanı al.
Dəli dəlini görsə, çumağın gizlər.
Dəmir qapının da taxta qapıya işi düşər.
Dəvəni çömçeynən suvarır.
Düz söz acı olar.
Düz yerdə yerimir, şuxumda şıllaq atır.
Duzu yeyib, duzdanı atır.
Dostun yaxşısı adama qəlyedaşı yedizdirər.
Doşab aldım, mürəbbə çıxdı.
Dünənin cücəsi bu ilin xoruzuna dən yemək öyrədir.
Dəvə gördün? Qığını yox!
Duvarın dalısı qəriblikdi.
Dili olmasa, başını qaqalar dələr.
Divarı dibindən qazmazlar.

**E**

Eşşək yükü ilə yıxılsa, sahibindən güclüsü olmaz.
Eşşəyə gücü çatmır, palanı tapdayır.
Eşşək öldürən Əlişahlı.
Eşşək işlər, at yeyər.
El gücü – sel gücü.
Elə işlər Fatıya tuman olmaz.
Elə yatmaz, altına su çıxsın.
Elə yatıb, kasıbın baxtı yatan kimi.
Elə bil Ərdəbil tütəyidir.
Evlad ata olunca, ata mat olar.
Eşşəkdən düşmüş qarpıza bənzər.
Evə girdim qarı döydü, çölə çıxdım Tanrı döydü.

Erməni çalır, kürd oynayır.
Ev oğrusunu it qapmaz.
Eşitdiyinə inanma, gördüyünün də yarısına inan.
Elə bil göz yaşıdır.
Eşşək sudan gəlincə.
Erməni qan görmüş.
Elə söz deyərəm ki, yetişmişlərin tökülər.
Elə bil dovşanı çuvala salıbsan.
Eşşək qaçdı, palan düşdü.
Elə otlayırsan, bəs hanı sənin yalın, quyruğun.
Elə bil Küləva[4] bəyquşudur.
Evladdan nəvə, dövlətdən dəvə.
Evin işığı məscidə haramdır.
Elçiyə zaval yoxdu.
Evdə toyuq, çöldə xoruz.
Elə bil daşa deyirsən.
Eyibsiz dost axtaran dostsuz qalar.
Ey ah, ahın düşsün dağlara, daşlara, ölsün qoca qarı, sən min yaşa.

## Ə

Əvvəl Məscidin içi, sonra eşiyi.
Əğrabanın əğrabaya elədiyini əğrəb eləməz.
Ətin çiyi ət gətirər, çörəyin çiyi dərd gətirər.
Ələyib-ələyib kəpəyə qatdıq.
Ər atanı, el atar.
Baxmağınan biri öyrənsəydi, onda pişik qəssab olardı.
Əzrayıla can verməz.
Əlin qoltuğunda qalsın.
Əl məndən, ətək səndən.

---

[4] Küləva – Güneydə kənd adı

Əlini ağdan qaraya vurmaz.
Əyri oturub düz danışaq.
Əlim daş altındadır.
Əyilən baş kəsilməz.
Ət dırnaqdan ayrılmaz.
Əcələ gələn, əcələ gedər.
Əmidən dədə olmaz, xaladan nənə.
Əlinin dalısına dağ basmaq.
Əlindən gələni ardına qoyma.
Əlini orağa vermə.
Əmcəyini təndirə yapmaq.
Əli işdə, gözü oynaşda.
Əsli nədir ki, fəri nə ola.
Ət yeyən quşun dimdiyi iri olar.
Ədəbi ədəbsizdən öyrən.
Ət gətirməmiş küftə istəyər.
Ətin yesə, sümüyün atmaz.
Ər-arvadın savaşı, qara yazın yağışı.
Əl əli yuyar, əl də dönər üzü yuyar.

Əlhəqdir, qorxmaq gərək üç zaddan, gözü göy, üzü qırmızı, tükü sarıdan.

Əldə beş barmaq bir deyil.

Əlişaha[5] getdin, ayaq götür, Binisə[6] getdin, çörək götür.

Əmir bazarı yansın, Fatıya tuman olsun.

**F**

Fatıya tuman olmaz.
Fələkdən bir gün oğurlamaq.

---

[5] Əlişah – Güneydə kənd adı
[6] Binis – Güneydə qəsəbə adı

## G

Getdim gəzdim aranı, cənnət gördüm buranı.
Gələn qonaqdan bir razı, gəlməyəndən min razı.
Günah öldürəndə yox, öləndədir.
Göz görmür, üz utanmır.
Gec olsun, güclü olsun.
Gözlərini otarır.
Günduz çıraq yandıran axşam qaranılıqda qalar.
Göy ağlamıyınca yer gülməz.
Gizli düşmən ilan kimidir sürünə-sürünə gələr.
Günortadan sonra adam olanlar.
Gözünün qorasını sıxma.
Gecə qurdu.
Gözünü dörd aç.
Günəş girməyən evə, hökm girər.
Görəsən gün hayandan çıxıb.
Gələ-gələ yar olar, gedə-gedə yad olar.
Gəlin oynaya bilmir, deyir, otaq əyridir.
Güc doğan üstə olar.
Goru var ki, kəfəni də olsun .
Gün həmişə bulud altında qalmaz.
Gic sarını sevər, dəli qırmızını.
Göz gündə yeni bir şey görməsə kor, qulaq gündə yeni bir söz eşitməsə, kar olar.
Görünən kənd bələdçi istəməz.
Gönü suya verib.
Gözünün qurdunu almışam.
Gülmə qonşuna, gələr başına.
Gülənin min dərdi var, ağlayanın bir dərdi.
Get qaz otarmağın dalıncan.
Getmə gözümdən, gedərəm özümdən.

## H

Hər bir yerin dovşanı o yerin tazısı ilə tutular.
Heyvanın dişinə baxarlar, insanın işinə.
Həmişə şəvan, bir dəfə də rəməzan.
Hər nəyin kalı yetişər, adamın kalı yetişməz.

Haqq söz acıdır.
Hesabı düz olmayan Bağdaddan dönər.
Hazır yemək, pendir çörək.
Hiyləylə iş görən möhnət ilə can verər.
Hər qoyunu öz ayağından asarlar.
Hayı gedib, vayı qalıb.
Haca gedən gəldi, saca gedən gəlmədi.
Haqq incələr, üzülməz.
Halalzada barışdırar, haramzadə qarışdırar.
Həkimə gedən davalıq, mollaya gedən duvalıq.
Hamını qurd yedi, bizim kimin tükü dağılan olmadı.
Hər quşun əti yeyilməz.
Hamama girən tərlər.
Hər işin başı sağlıqdır.
Harda aş olsa, orda başdı.
Hamısı bir bezin qırağıdır.
Haynan gələn huynan gedər.
Hələ ağzından süd iyi gəlir.
Həm axırdan, həm torbadan yeyir.
Həmədan uzaq, kərdisi yaxın.
Hər cəfanın bir səfası var.

**X**

Xaladan ana çıxmaz, əmidən ata.
Xanım sındıran qabın səsi çıxmaz.
Xoruzu bəslə, amma qurban kəsmə.
Xoruzun quyruğuna inanım, sənin andına?
Xain özündən xoflu olar.
Xain çoban qurddan pis olar.
Xarab olmasa, abad olmaz.
Xoruzun saqqalı ağarsa, bir şahıya dəyməz.
Xeyirsizin adın qoyarlar Xeyrulla.
Xoruzlanma.
Xanın qulluğuna atlı gedən piyada gələr
Xanə bəkirə tutmağı bəs deyil, toyuq da saxlayır.
Xəlfə kisəsindən bağışlayır.

Xoruz yoxuydi səhər açılmırdı?
Xəstə tələsər, armud vaxtında yetişər.
Xuylu xuyundan əl çəkməz.
Xəmir belə su aparır.
Xoruz səsini eşitdim.

## İ

İp gəlib doğanaqdan keçər.
İt yatar qəyə kölgəsində, deyər bə öz kölgəsidir.
İt yiyəsini qapmaz.
İt yediyin qusar.
İstədi qaş düzəltsin, vurdu gözünü də çıxartdı.
İşıq harda, pəyə ocağında.
İlan vuran yatdı, mən yatmadım.
İlan yeyib əjdaha olub.
İlanı Seyidəhməd əliynən tutur.
İlanın yarpızdan zəhləsi gedər, yuvasında çıxar.
İt yiyəsinə çəkər.
İt izi at izinə qarışıb.
İtə yiyəsinə görə hörmət edərlər.
İti saxlarlar qurdun qorxusundan.
İtin dişi, donuzun dərisi.
İtə çörək atsan, adamı qapmaz.
İt başından ayrı yatmaz.
İt itin ayağını ayaqlamaz.
İt iti itir, yerində bitir.
İki arvaddının evi süpürülməmiş qalar.
İnsan kölgəsiz olmaz.
İnsan kölgəsini tapdıya bilməz.
İt hürər, karvan keçər.
İstəyənin bir üzü qara, verməyənin iki üzü.
İnsanın yerə baxanından, suyun yavaş axanından qorx.
İnsanı dərd yeyər, ağacı qurd.
İşdən artmaz, dişdən artar.
İnsanoğlu çiy sud əmmiş.
İnək altında bizov axtarmaz.

İt qulağın kəsəndən qorxar.
İlan hər yerə əyri getsə də, öz yuvasına düz gedər.
İp incəldiyi yerdən qopar.
İlan vuran ala– qara çatıdan qorxar.
İşin düşdü arvada, ölən gününü sal yada.
İynə çuvalda durmaz.
İtin qızı ol, kişi arvadı.
İki ayağını bir başmağa sıxıb.
İgidlik başqa, itlik başqa.
İp qırılmaz, can çıxar.
İt itdigin tərgitsə də, sümsünməyin tərgitməz.
İnsan ağrıyan yeri haqqında danışar.
İtin kəlləsini xonçaya qoysan da, dığırlanıb düşər.
İtib batdı.
İpliyi suya düşdü.
İynəni özünə batır, çovaldızi başqasına.

**K**

Kişinin sözü bir olar.
Köhnə evin qədrini təzə evə köçəndən sonra biləcəksən.
Kasıbın malı gözünün qabağında olar.
Keçəl baxar güzgüyə, adın qoyar özgəyə.
Kişi "mən ölümə" bir qoyun kəsər.
Kasıbın ağzı aşa gələndə başı daşa dəyər.
Kor ilə çörəh yeyəndə insafını ortuya qoy.
Külək həmməşə bir tərəfə əsməz.
Kimin əvvəli, kimin axırı.
Korun istədiyi bir göz, iki olursa nə saz, nə söz.
Keçəlin məlhəmi olsa, öz başına sürtər.
Kimin pulu, kimin duası.
Keçinin qoturu bulaq başından su icər.
Keçənə güzəşt deyirlər.
Keçəl bəzənincə toylədən çıxar.
Keçəl zirəng olar, öz başını saxlar.
Keçi qalıb can hayında, qəssab piy axtarar.

Keçi mıqqıldamasa, təkə dadanmaz.
Köşk kölgəsin bəyənməz, dəvə də əyrisin.
Kasıbı dəvə üstə bivə sancar.
Kasıbın divarı alçaq olar.
Kəndxudanı gör, kəndi çap.
Kərə-kərə, dayıya da kərə.
Kəfən müftə olsa, ölməyə nə var ki.
Kənkan quyunu qazıncan özünü dərində görər.
Kor atın kor da nalbəndi olar.
Kor nə istər – iki göz, bir əyri, biri düz.
Kuzəçi kuzənin sınığından su içər.
Kim deyər, mənim qatığım turşdur.
Kişini cavan saxlar: yaxşı arvad, yaxşı at.
Keçəl Həsən, Həsən keçəl.

**Q**

Qurdla yoldaş ol, qoyunla yoldaş olma.
Qoy yansın çırağı, gəlsin işığı.
Qurd dumanlıq sevər.
Qələm işini qılınc görə bilməz.
Qoy atın ölümü arpadan olsun.
Qışda buz istəsən verməz.
Qonşu qonşu olsa, bağ çəpəri neylər.
Qızı saldın beşiyə, cehizini çək eşiyə.
Qaşıq çömçədən yuxarıdır.
Qara torpaqda qızıl öz dəyərin itirməz.
Qurdun qorxusundan itə sığındıq.
Qulağı tüklü.
Qulağın qarnı yoxdur ki, söz ilə doysun.
Qurd ürəyi var.
Qıl keçməyən yerdən qarpız soxmaq.
Qara kişmişi cibə tökərlər, ağ ayranı itə.
Qarın qardaşdan qabaqdır.

Qurd dedik qulağı çıxdı.
Qurd ilə qiyamətə qalma.
Quş pişirir.
Qonağı sevənin süfrəsi boş olmaz.
Qonaq süfrənin yaraşığıdır.
Qələmin ucu, qılıncın gücü.
Qazanın dibini yerə vurma.
Qaz gələn yerdən toyuğu əsirgəməzlər.
Qonaq olduğu evdə tapdığını yeyər.
Qaçanın anası ağlamaz.
Qurda demişlər, nədən boynun qalın, demiş öz işimi özüm gördüm.
Qazan dığırlanar duvağın tapar.
Qovun – qarpız yata-yata böyüyər.
Qurd qocalanda köpəyin məsxərəsi olar.
Qurunun yanında yaş da yanar.
Qonaq qonağı istəməz, ev yiyəsi heç birini.
Qazma kimsənin quyusunu, qazallar quyunu.
Qız evi, naz evi.
Qonşuya ümid olan, şamsız qalar, oynaşa ümid olan ərsiz.
Qoyun quzu ayağı basmaz.
Qara günün ömrü az olar.
Qarqa istədi kəkligin yerişini öyrənsin, öz yerişini də itirdi.
Qazan qazana deyir, üzün qaradı.
Qəddi köso əl yandırmaz.
Qurd keçinin Şəngülüsünü yeməyib.
Qoz ola, badam ola, özü də bir adam ola.
Qoz dığırlanıb dərədə dostun tapır.
Qoltuğuna qarpız yerləşmir.
Qolun sınığı boynun yüküdü.
Qonağa üz versən, durar taxçaları gəzər.

Qonağın ruzusu özündən qabaq gələr.
Qonaqlıq yaxşıdı, bir gün sizdə, bir gün bizdə.
Qonşudan pay gəldi, evimə vay gəldi.
Qonşun pisdi – qaç qurtul, arvadın pisdi – boşa qurtul.
Quyruğun əyaxlamasan, adamı sancmaz.
Qoyun olmayan yerdə keçiyə Əbdülkərim deyərlər.
Qırağına bax – bezin al, anasına bax – qızın al.
Qızım, sənə dedim, gəlinim, sən eşit.
Qış çıxar, üzüqaralıq kömürə qalar.
Qız evində toydur, bəyin xəbər yoxdur.
Qınından çıxıb qınını bəyənmir.
Qeyrətin çoxluğu biqeyrətlik gətirər.
Qonaq birinci gün qızıl, ikinci gün gümüş, üçüncü gün sürüş.
Qonşu qonşu olsa, keçəl qız ərə gedər.
Qocaya get quyruq ye, cavana get yumruq ye.
Qulaq kəsəndir.
Qan-qan deyir.
Qanına susayır.
Qışın çəni qar gətirər, yazın çəni bar gətirər.
Qulax ikidir, dil birdir, birin söylə, ikisin eşit.
Qonaxsız ev – susuz bir dəyirmandır.
Qonşu çırağı qonşuya işıq salmaz.
Qarlı qış barlı olar.
Qonşu qonşunun külünə möhtac.
Qarğa qarğanını gözünü çıxarmaz.
Qonşuda pişər, bizə düşər.
Qızıl açar hər qapını açar.
Qabağa keçəndə deyirlər bicdi, dalıya qalanda deyillər gicdi.

**L**

Lütün nəyi var kı, lütə versin.

Lal əmməz.

Laylay bilirsən, niyə yatmırsan?

**M**

Mən ağa, sən ağa, inəkləri kim sağa?

Mal yiyəsinə çəkər.

Minə dözən, min birə dözər.

Məscidin qapısı açıqdır, itin həyasına nə gəlib?

Məscidin qapısıdır, nə yandırmaq olar, nə çıxarıb atmaq olar.

Məscid eşşək bağlamalı yer deyil.

Məni boğaza yığdı.

Mərən ölüsüdür.

Mən buranın çəmini deyərəm.

Mərdin töləsi namərdin otağınnan yaxşıdır.

Malından ol, canından olma.

Malını saxlamayan, canını da saxlamaz.

Mənə toxunmayan ilan min yaşasın.

Mıx mıxı sökər.

Məhəbbətin çoxluğundan nifrət törər.

Mayasız yoqurt tutmaz.

Mal gedər bir yana, iman gedər min yana.

Mən deyirəm, ayın əvvəlidi, o, ayın axırından danışır.

Mən deyirəm, xacəyəm, o deyir neçə oğlun var?

Mundar əski od tutmaz.

“Mıs-mıs” deyincə, “Mustafa” de.

**N**

Nuxtasını qıran qatıra bənzər.

Nə sən sor, nə mən mən söyləyim.

Neynirəm taxtımı, Allah versin baxtımı.
Nə yerdə çoxluq, orada p...luq.
Nə tökərsən aşına, o da çıxar qaşığına.
Nə əkərsən, onu da biçərsən.
Nağdı qoyub nisyəyə baxmazlar.
Nənəsinin əmcəyini kəsəndi.
Nə başdır, nə ayaq.
Nə qoydun, nə tapdın, hazırca kökə tapdın.

## O

Odda yanmaz, suda batmaz.
On iki imama yalvarınca, bir Allaha yalvar.
Ova gedən ovlanar.
Ona əlini verən qolunu qurtarmaz.
Oda, suya yalvarmaq olmaz.
Od günü götürməz.
Oxu atıb yayı gizlədən.
Oğlumun balası çaydan keçirər, qızımın balası barmaq keçirər.
O, anasının əmcəyini kəsəndir.
Onun ağzının yemidir.
Onda alacağı yox, beşdə verəcəyi.
Olacaqla öləcəyə çarə yoxdur.
Od düşdüyü yeri yandırar.
Od olmayan yerdən tüstü çıxmaz.
Oğrudan oğruya halaldır.
Oğlunu ver nökər, get, nökər tut.
Ortada yeyib qıraqda gəzər.

## Ö

Ölümdən qaçmaq olmaz.
Ölüm var, ölüm kimi, ölüm var, zülüm kimi.
Ölməkdir, bəs xırıldamaq nədir?

Özün yorğun olanda dostunu ölmüş bil.
Ölən ilə ölünməz.
Ölən dirilməz.
Özgə özgənin itini bayatıyla çağırır.
Öncə can, sonra canan.
Ölənlə ölünməz.
Özgə ağzına baxanın qarnı tez boşalar.
Özü yıxılan ağlamaz.
Özgə atına minən tez düşər.
Özünün kor eşşəyi özgənin atından yaxşıdır.
Örtülü bazar, dostluğu pozar.
Ölünü öz başına qoysan gora getməz.
Özgə özgənin danasını ulaya-ulaya axtarar.
Özümüz qardaş, cibimiz ayrı.
Öldü var, döndü yoxdu.
Ölməz Xədicə, görər nəvə-nəticə.
Ölmə eşşəyim, arpa biçincə, torba tikincə.
Ölü eşşək axtarır nalın çəksin.
Ölü kəfənsiz olmaz.
Öküz özünə kürüşnə əkəndə başı ağrıyar.

**P**

Pulluya bəy deyərlər, yoxsula dəli.
Piçaxçıda piçax tapılmaz.
Pambıq kimidir.
Pisi özgəyə vermə ayıbdır, yaxşını özgəyə vermə hayıfdır.
Pullu gündə pulsuz günə pul saxla.
Papağın fırlat yaz gəlir.
Pis qonşu adamı hacatlı edər.
Palaza bürün, el ilə sürün.
P... altında qalar, söz altında qalmaz.
Pis xəbər tez gələr.

Polad odda bərkiyər, insan bərkdə.
Paslı dəmirdən qılınc olmaz.
Paçadan baxan qurtular, bacadan baxan qurtulmaz.
P.... qaşığı belində olar.
Pişiyə dedilər p.....n dərmandı, s....ı üstünə qoydu.
Pişiyimiz oğlan doğub.
Pişiyin ağzı ətə yetişmir, deyir, ət mundardır.

**R**

Ramazandan çox razıydıq, bir də peşvazına çıxdıq.

**S**

Su bir yerdə dursa iylənər.
Sel gələndə əvvəl kol-kos gətirir.
Söz var ev içində, söz də var el içində.
Sözün boynuna ip salıb.
Sən əyriyəndə mən toxuyurdum.
Sən gedəndə mən gəlirdim.
Sarala-sarala qalmaqdansa, qızara-qızara ölmək yaxşıdır.
Sirrini demə dostuna, dostunun da dostu var.
Saman qala-qala gümüşə dönər, arpa qala-qala samana dönər.
Sican yuvası çöpsuz olmaz.
Son gülən yaxşı gülər.
Seçə-seçə seçməliyə düşmüş.
Sən ona “yerin əyridir, düz otur” – demə.
Su tökməklə dəyirman dönməz.
Savab elədim, kabab oldu.
Su suyu tapar, su da çuxuru.
Su daşı quma döndərər, arvad kişini muma.
Süt ilə gələn sümükilə çıxar.
Sərçədən qorxan darı əkməz.

Savaşda barışmağa üz saxla.
Səhər tezdən duran kasıb olmaz.
Su quyunun dibində olar.
Sirrini söyləmə dostuna, dostunundа dostu var, söylər dostuna.
Saxla samanı, gələr zamani.
Sel gedər, qum qalar.
Su axar, körpü qalar.
Saman altından su aparan.
Su yatar, düşmən yatmaz.
Say məni, sayım səni.
Saman özgənin olsa da, samanlıq mənimdir.
Söz gizlində qalmaz.
Südlü quzunu sürüdən ayırmazlar.
Sərçə nədir, kəlləpaçası nə olsun?
Sərçəni bəzəyib bülbül yerinə satar.
Söz sözü gətirər, arşın bezi.
Sözün düzün uşaq deyər.
Saxla samanı, gələr zamanı.
Saqqalım yoxdur, sözüm keçmir.
Savaşan savaşana "qurban olum" deməz.
Savaşanın kötəyini aralayan yeyər.
Sən tolazla at, hara dəyir dəysin.
Su olan yerdə təyəmmüm batildir.
Su balığın sultanlığıdır.
Südlü qoyunu süddən ayırmazlar.
Sonbeşik – ev-eşik.
Suyu bulandır, balıq tut.
Sisli, çölməyi hisli.
Sillə ilə üzünü qızardır.
Sağlam armud sapından düşməz.
Su içən ilana dəymə.
Söz var, baş kəsər, söz var, savaşı kəsər.

Söz var, adamı dağa çıxardar, söz var, adamı dağdan eyləyər.

Sürt palaza, sürt boğaza.

Su axar, çuxurun tapar.

Su kuzəsi su yolunda sınar.

Səbr acıdır, meyvəsi şirin.

Söz qarın doyurmaz.

Saxla samanı, gələr zamanı.

Sürüdən ayrılan quzunu it aparar.

**Ş**

Şahinlə dəvə ovlamazlar.

Şərəf şüşədir, sınsa düzəlməz.

Şəfa verən ağı da verər.

Şəriətin kəsdiyi barmaq, ağrımaz.

Şəriət kəsən barmağın qanı çıxmaz.

Şeytan kərxanası boş qalmaz.

Şeytan toyuna tumançaq gedər.

Şərti şumda kəsər.

Şahın də rəiyyətə işi düşər.

**T**

Toxun acdan xəbəri yox.

Tülkü divarlı bağa girməz.

Tez evlənənlə tez ayrılan peşman olmaz.

Tez ol, içindən Binisli[7] çıxar.

Tabut zınqırovu.

Taxmamış taqqıldayır.

Tərsə uvandın itirib.

Təzə gəldi bazardan, köhnə düşdü nəzərdən.

Tələsən tərsə çıxar.

Tənbəllikdən eşşəyə dayı deyir.

---

[7] Binisli – Güneydə kənd adı (Kənd camahatına müraciət)

Tox qarının acdan xəbəri olmaz.
Turş alçadır, görənin ağzı sulanır, yeməyənin dişi qamaşır.
Tülkü tülkünü buyurur, tülkü də quyruğunu.
Tülkü suvaqlı bağa girməz.
Tumançaqlıqdan yerdə qalıb.
Tükümü dəyirmanda ağartmamışam ki...
Tülkünün meydanda nə işi var ki, dərisinə qiymət qoysunlar.
Təbrizin havası altı ay qış, altı ay qəmişdir.
Toydan sonra hənanı yaxarlar.
Toyuğun bir qıçı var.
Torpaq çəkər.
Türkə məsəl, ya türkün sözü.
Tapmış kimi oldum.
Tərs damarına düşmüş.
Təpəgözə oxşuyur.
Tinət hara, mənzil ora.
Tikə qarın doyurmaz, rəhmət artırar.
Torbada pişik var.
Tarlada izi olmayanın süfrədə izi olmaz.
Tikansız gül olmaz.

**U**

Utan utanmazdan, qorx qorxmazdan.
Uşağı olan qızardı, olmayan azardı, lənət yoxa.
Uşaq üzə, it əppəyə.
Uşaq əzizdir, tərbiyəsi ondan da əziz.
Uşaq olan evdə qiybət olmaz.
Ucuz ətin ucuz da şorbası olar.
Uzun adamın ağlı topuğunda olar.
Usta şapalağı yeməyir hələ.
Uşağı yolla işə, özün düş dalısınca.

Uşaq nədi? Fişəngdir, ona Marağa basdığı[8] deyilir.
Uzundaraz– binamaz, xeyrə, şərə yaramaz.
Uduzub çuluna oynur.
Ucuz ətin şorbası olmaz.

**Ü**

Ürəyi daşdandır.
Üstümü unlu görüb dəyirmançı sandılar.
Üzümü ye, bağını soruşma.
Üçdə alacağım yox, beşdə verəcəyim.
Üzüm üzümə baxar, qaralar.
Üzümün çöpü var, armudun sapı.

**V**

Varlı taxar, yoxsul baxar.
Vaxtını itirən baxtını itirər.
Vaxtıkən oxu aşıq, el gələr tünlük olar.
Ver əlindəki sapı, get dolan qapı-qapı.
Varlının əlini bıçaq kəsəndə yoxsul köynəyini yırtar.
Var gündə dost çox olar.
Var evi kərəm evi, yox evi vərəm evi.
Varını verən utanmaz.

**Y**

Yaxşı kişinin qızı olmaqdansa, yaxşı kişinin arvadı ol.
Yaxşı dost acı söylər.
Yada yalax, qohuma çolax.
Yayda gedər day-day eləməyə, qışda gələr yer dar eləməyə.

---

[8] Marağa basdığı (d) – şirniyyat növü

Yoxuşa sürmə.
Yediyi önündə, yemədiyi arxasında.
Yoxsulun evində dəmir tapılmaz, itinin adını gümüş qoyar.
Yer əkənindir, biçin biçənin.
Yay gününün yağışı ər-arvadın savaşına bənzər.
Yayın işini qışda gör, qışın işini yayda.
Yaxşıya yanaş, yamannan üz aş.
Yamanlıxda yaxşılığı hər adamdan gözləmə.
Yaman günə səbr edən yaxşı günə tez çatar.
Yüz namərdi bir mərdə qurban verərəm.
Yaxşı yolçu iz qoymaz.
Yayın işini qışda gör, qışın işini yayda.
Yatan ölməz, yetən ölər.
Yükun yüngülü mənzilə tez çatar.
Yaya çıxan qurdlar kimi.
Yeməyənin malını yeyərlər.
Yel əkəni tufan bicər.
Yüz bıçaq düzəldər, birinin sapı olmaz.
Yolçu yolunda gərək.
Yarım həkim candan, yarım molla dindən eylər.
Yaxşılıq et at dənizə, balıq bilməsə, xalıq bilər.
Yalqız qalan qurddur.
Yalqız quş yuva salmaz.
Yorğanına görə qıçını uzat.
Yer altından yasa gedir
Yer bərk olanda öküz-öküzdən görər.
Yekə gözün işığı olmaz.
Yaxşı quş dimdiyindən tanınar.
Yazığın qaraçuxası yatıb.
Yazın qırxbeşində qoyunu yaylığa verərlər.
Yalançının evinə od düşdü, heç kim inanmadı.
Yalançı təməhkarı aldadar.

Yorğanına görə qıçını uzat.
Yumurtamadı, xalasın da yedi.
Yağmasa da, guruldar.
Yeddi göydə bir ulduzu yox.
Yüz fikir bir borcu ödəməz
Yel həmişə yelkənə doğru əsməz.
Yoldan qal, yoldaşdan qalma.
Yaşlı ağac əyilər.
Yenilən pəhləvan güləşə durar.
Yumruq şillədən güclüdür.
Yağışın azı bərəkət, çoxu fəlakət.
Yetimə ağlayan çox, çörək verən yox.
Yuxu ölümün yarısıdır.

**Z**

Ziyanın qabağını hər yerdən alsan xeyirdir.
Zülüm yerdə qalmaz.
Zülmün axırı olmaz.
Zirəng uşaq p.....unnan bəllidir.
Zora dağ dayanmaz.
Zərin qədrini zərgər bilər.
Zəmi algülə yaxın, qızı al – elə yaxın.

## ALQIŞLAR

Axır abətin xeyirli olsun!
Allah qoluva qüvvət versin!
Allah dadıva çatsın!
Allah əlindən yapışsın!
Allah sənə süd əmmiş yetirsin!
Allah əlindən yapışsın!
Allah üzüvə baxsın!
Allah başından töksün!
Allah səni yarıtsın!
Allah işivə sürət versin!
Arzuva çatasan!
Allah bacasından töksün!
Allah sənə yar olsun!
Allah işinə nihat versin, bala!
Allah səni saxlasın!
Allah bir-birinizdən ayırmasın!
Allah heç evi böyüksüz eləməsin!
Allah yaxçı yol versin.
Allah sənə Məkkə, Kəlbəla qismət eləsin.
Allaha tapşırıram səni.
Allahın amanında.
Allah saxlasın.
Allah yamanlıq verməsin.
Bu əlin o ələ möhtacı olmasın!
Bir-birinizə mehriban olasız!
Bəxtəvər olasan.
Bir gedəsən, min götürəsən.
Balalarıyın bəhrə-barın görəsən.
Bir qoyasan, min götürəsən.
Bəxtəvər olasan.
Dünyada neylim-necə eləyim deməyəsən!

Dağ görməyəsən.
Dağın görmüyüm sənin.
Dağın görməyəsən.
Evlad sahibi olasan!
Əlivi atasan boş cibə, dolu görəsən.
Əli kəmərin bağlasın.
Əli köməyin olsun.
Get, Allah işivi rast gətirsin.
Həmişə işin rast gətirsin!
Qoşa qarıyasız!
Qonaq xəcalətli, əhl-əyal sərməndəsi olmayasız!
Mövlam köməyin olsun!
Mövlam arxanda dursun!
Min yaşa!
Min bir bəladan hifz olasan!
Neynim, necə eləyim deməyəsən.
Ömrün uzun olsun!
Pis günə həsrət qalasan.
Pir olasan.
Pis günə həsrət qalasan.
Sən başa çıxanlardan olasan!
Süfrəndən çörək əksik olmasın!
Səni görüm neylim-necə edim deməyəsən!
Sağ gedəsən, salamat qayıdasan.
Su kimin ömrün uzun olsun.
Səni görüm xoşbəxt olasan!
Səni görüm düz dağın olsun.
Üzün gülsün!
Vari-dövlətli yaşa!
Yüz illər ömür görəsən.

## ANDLAR

Allaha and olsun!
Allah canımı alsın!
Atamın goru haqqı!
Balalarım ölsün!
Bu ölsün!
Bu ərəb qəbiləyə and olsun!
Bu duz çörəyə and olsun!
Çıraq haqqı!
Çörək haqqı!
Çörək qənim olsun!
Əbəlfəzin kəsilən qolları!
Getdiyim beytə and olsun!
İşıq haqqı!
Kitab haqqı! Quran çapsın!
Qərib İmam Rzaya and olsun!
Qənd kimi gözüm ağarsın!
Məscid həqqi!
On iki imama and olsun!
Özüm ölüm!
Sən öl!
Vallah, billah!
Yalan desəm, üzüm daşa dönsün!

## QARĞIŞLAR

Allah üzüvə tüpürsün.
Ağ gün görməyəsən!
Allah kökünü dağıtsın!
Allah belindən vursun!
Allah divanın dağıtsın!
Allah səni yaratmasın!
Allah yurdunu batırsın
Allah evin yıxsın!
Alah qıçıvı qırsın!
Allah gözüvü çıxartsın!
Allah allah olsa, sənə göstərər!
Büzmə köynəyin büzülsün,
İncə belin üzülsün!
Siftə gedən gecəsi
Yardan əlin üzülsün!
Başıva daş düşsün.
Başıva kül ələnsin.
Bağın qurusun!
Belin bükülsün!
Boynun qurusun!
Burnunun dəliklərindən gəlsin.
Buz dağın olsun.
Bəla tapasan, təpə tapmayasan.
Cavanlıqdan xeyir görməyəsən.
Canından çəkəsən!
Ciyərin yansın.
Ciyərin dağlasın.
Çörək atlı olsun, sən piyada.
Dədən paltarları xurcunda gəlsin.
Dibərdin dağılsın.
Doğduğundan çəkəsən!

Evin yıxılsın, qapın çırpılsın.
Elə dərdə düşəsən ki, çarəsi tapılmaya.
Əzrayıl canın alsın.
Əməklərim gözünü tutsun.
Getdiyin yerdən gəlmiyəsən.
Gedənlərlə gedəsən, gələnlərlə gəlməyəsən.
Həmişə neylim, nejə eliyim deyəsən.
İgid arxan yerə gəlsin.
Kökün kəsilsin!
Kökün qurusun!
Kölgən yerə düşməsin!
Köynəyin təzə qalsın.
Qan dərəsən.
Qanlar düşən yerlər yasdığın olsun.
Qızıl gülləyə rast gələsən.
Qənt-qənt olasan.
Qapın bağlansın.
Qanına bələnəsən!
Qıçın sınsın.
Qəfil sancı tutasan!
Mürdəşir üzüvü yusun.
Maşın altında qalasan.
Nakam öləsən.
Ocağın sönsün!
Pis günə qalasan.
Pis dərdə düşəsən.
Paltarların dalınca atım .
Pörtələnəsən.
Sağ gedib, səlamət gəlmiyəsən.
Səni görüm qan qusasan.
Səni görüm şirin canından çəkəsən.
Sərgərdan olasan.
Səni pis günə qalasan.

Səni görüm cavan öləsən!
Suyun kəsilsin!
Sallar səndən uca olsun!
Səni görüm nənən mələr qalsın.
Şahmar ilan çalsın.
Tu üzüvə gəlsin.
Torpaqlar səndən uca olsun.
Tıfaqın dağılsın.
Tökduklərin yığasan, inşallah.
Üzüquylu düşəsən!
Ürəyin dağlansın.
Vay xəbərin gəlsin!
Verdiklərin alasan.
Yurdunda bayquş ulasın!
Yer altına girəsən.
Yetim qalasan!
Zəlil olasan.

## DİZƏXƏLİLDƏ İŞLƏNƏN MƏİŞƏT DEYİMLƏRİ

At oğrusu – hörmətsiz adam haqqında söylənilir.

Arvad ağızlı – ağzında söz saxlamayan, hər sözü danışan adam.

Arvad üzlü – utancaq.

Ağzı kəsili – sözbaz adam.

Ağzı yastı – sözünü söyləməkdə çətinlik çəkən adam.

Ağzı göyçək – hər sözü danışan.

Ağzı yava – kobud danışan şəxs.

Ağzı dolu – sözlü adam.

Aftafa oğrusu – hörməti olmayan, ləyaqətsiz adam üçün söylənilir.

Baba dinməz – susqun insan.

Divarı alçaq – fağır, sakit insan.

Erməni dığası – bir şəxsi təhqir edərkən işlədilir.

Əli dolu – səxavətli, əliaçıq

Əyaqdan çəkmə – düşmənçilik etmək, yolunu kəsmək.

Əldən düşmüş – yorğun, taqətsiz.

İpi qırıq – güvənsiz, etibarsız

İt otarmaq – insanları ələ salan şəxs haqqında işlədilən söz.

İt qabı yalamaq – səviyyəsiz, yalançı adam.

Qarın altı – həyasız adam.

Qan çanağı – əsəbi, hirsli insan.

Qovra balalı – əsəbləri tarıma çəkən insan.

Od parçası – cəld, fəal insan.

Od qırnası – dəliqanlı insan.

Paketli söz – üstüörtülü söz, işarəli söyüş.

Paketlı yalan – üstüörtülü şəkildə yalan danışmaq.

Pülçük qondarmaq – qulp bağlamaq, söz qoşmaq.

Pişik artığı – hörmətsiz adam.

Sıyrıq çəkmək – sözü uzadan adam.

Şivərən məzac – tez əsəbləşən adam.

Tabut zınqırovu – ömrün son çağında dünyaya gələn uşaq.

Üzü sulu – yaşına görə əldən, ayaqdan düşməyən adam

Üzü açıq – qorxusu olmayan, çəkinməyən.

Üzü tüpürcəkli – üzlü adam.

Üzü qırmızı – həyasız adam.

Üzü yola – tez yola gələn adam.

Yeddi aylıq – səbrsiz adam.

Yer mozalağı – bir yerdə dayanmayan, cəld adam.

## DİZƏXƏLİLDƏ İŞLƏNƏN LƏQƏBLƏR

Altı Barmaq Seyid
Ağlar İlan
Avropalı Məmməd
Bayraqdar Məmmədəli
Bin Məhəmməd
Cinni Cavad
Cum Hüseyn
Ced Tağı
Çel Əkbər
Çubuq Hacı
Dölək Həsən
Dəhnə Əkbər
Əfqanlı Əsəd
Əkər İqtisad
Əhmədgülüm
Həlak Əsəd
Hüseynəli Reys
Kürd Məmməd
Kal Abbas
Kovu Məmməd
Qaşalan Məsmə
Qara Məmməd
Ququş Yədulla
Lotu Mirşahım
Mahmud Ocaqqulu
Məmmədəli Şevrolet
Oğlan Qulamhüseyn
Ovçu Kəlbeizzət

Papaz Haşım
Ponza Ağa Qulamhüseyn
Pəhləvan İsmət
Pişik Əkbər
Rus Əsgər
Sarı Məmməd
Şuluq Məmməd
Sədir Həsən
Sufi Səkinə
Topança Məmməd
Uzun Cəfər
Vəzir Yədulla

# İNANCLAR, SINAMALAR

– Ayaq üstə çörək yemək düşməz.

– Axşamlar ceviz ağacının altında yatmazlar.

– Arzulanmayan qonağın başmağına duz tökərlər ki, tez getsin.

– Ananın qarğışından qorxmazlar, deyərlər ki, bu qarğış ananın südündən keçir, amma atanın qarğışından qorxarlar, deyərlər ki, ata qarğış eləyəndə saqqalının hər tükü min amindir.

– Bir işə qərar verəndə, yaxud sözünü danışanda cüt asqırmaq olanda o işin xeyrini deyəllər. Tək olanda əl saxlayarlar. Deyərlər, tək səbir gəldi. Səfərə çıxanda cüt asqıranda onun xeyirli olduğunu, tək asqıranda isə ziyanını görərlər.

– Bir tikintiyə və yaxud bağa göz dəyməsin deyə, saxsı çölməyi onun divarından və ya uca bir yerdən asarlar.

– Bir şey itəndə bir dəsmala, yaxud çarqət arasına bir şey düyünləyib deyərlər: "Tapıl, tapıl pulun verim, tapılmasan çulun verim".

– Bayramda göy göyərdib səməni bişirib deyərlər:

– Bayram günü il dəyişən anda yarpaq dolması olan qazan qaynasa, o yaxşı sayılar.

– Başmaq öz tayından ayrı düşsə, onları cütləmək lazımdı. Çünki ayrılıq düşən başmaqların sahibinin arxasında qiybət gedər.

– Baş tükünü yandırmazlar, inanırlar ki, əgər başın tükünü yandırsalar, o insanın başı ağrıyar.

– Birinin boğazı ağrısa, yaxud qoyunun südü kəsilsə, ya şiş əmələ gəlsə, Araz çayını keçən hər hansı bir insanın ayaqqabısı ilə onun kürəyinə vurarlar.

– Bütün gecələr, bir də şənbə günü dırnaq tutmaq çox pis işdir. Şənbə günü deyərlər donquz donquzluğuynan tükünü yerə tökməz. Ha belə gecələrdə qətiyyən dırnaq tutulmaz və gündüzlər də nağıl deməzlər.

– Başın cim olması (sinuzit) toxtaması üçün başı kömür samavarının buğuna tutarlar. 2. Davar qınını qurudub başa bağlarlar. 3. Saxsını qızdırıb başa qoyarlar.

– Boğazı gələn uşağın gəmirçəyini çöçələ barmaq ilə basallar. Belə bir xəstəliyə bəzən də qurd əlindən də istifadə edirlər. Bu şəkildə ki, bir qurdun əlini üç dəfə boğazın şişən yerinə sürtərlər. Və yaxud Araz çayından keçən adamın başmağını da bu işdə istifadə edərlər. Yəni əyaqqabını və ya başmağı boğazı şişən yerə sürtərlər.

– Bayquş xoş quş deyil. O hər kəsin damına, divarına, həyətinə qonarsa, onu qovmazlar. Gərək ona bir tabaqda çörək və digər yeməkləri qoyalar. Gözləməlidilər ki, o yeməkləri hər hansı biriylə yesin. Yoxsa qonan ev uçular.

– Başmaq başmağın üstünə düşsə, o adam uzaq səfərə çıxır deməkdir.

– Boylu olan qadın ölüyə baxmamalıdır. Baxarsa, uşağını gözləri yumulu, kor dünyaya gələr.

– Boylu qadın dovşana baxmamalıdır. Baxarsa, onun uşağı dovşandodaq olar.

– Cümə axşamı da bu işi görmək düz deyil. Amma cümə axşamı yun və güzəm əyirmək yaxşı olar.

– Cümə axşamı gün batandan sonra saqqız çeynəməzlər. Saqqız çeynəyənə ölü əti yeyən deyərlər və onu bu işdən çəkindirərlər.

– Cüt asqırmaq yaxşıdır. Tək asqırmaq pis sayılır.

– Çayın üzündə tilif olsa, onu qonağa verərlər, yaxud süfrədə əziz, hörmətli insana verərlər.

– Çay içəndə istikanlar yan-yana düzülsə, deyərlər, qonaq gələr.

– Çərşənbə axşamı hər kəs cəhrə əyirsə, ağzı əyri olar.

– Dişli dünyaya gələn uşağın ruzusu boldur.

– Dilinin ucu acışsa, inanarlar ki, o adam özgənin payın yeyib.

– Dişləri aralı çıxan uşağın ruzisi bol olar deyərlər.

– Evi gecə süpürüb eşiyə atmazlar. Əyər belə iş görülərsə, o evdən var-dövlət yox olar.

– Əgər bir çay yerə tökülərsə, uğurlu olsun deyə çay tökülən yerə bir qənd atarlar.

– Əgər göydən bir ulduz axarsa, onda bir adam ölür demək.

– Gözü yervəli (bədnəzər) adam özgə evinə getsə, o şəxsin xəbəri olmadan başmağının altından, ya paltarının ucunnan bir şey qopardıb yandırarlar.

– Gecə ələ dəmir götürmək yaxşı deyil. İnanarlar ki, dəmir uzanar, evdə söz-söhbət olar.

– Gecə yatanda kimsənin şalvarı adamın başının üstündə olsa, adamı qara basar.

– Gecə qarabasan adamın yastığının altına bıçaq qoyarlar.

– Gəlin gələndə kürəkən gəlib onun ayağını ayaqlamalıdır. Yoxsa gəlinin dili uzun olar.

– Gəlinin beli bərk bağlanmalıdır, yoxsa ər evində çoxlu qab-qacaq sındırar.

– Göz dəyən uşağa üzərlik yandırıb qulaqlarını çəkib alnını çırtarlar.

– Gecə dırnaq tutmaq olmaz. İnanarlar ki, dırnaq tutan adamın ağlı başından çıxar.

– Göz səyrisə, qonaq gələr.

– Gecə baş daramazlar, darasalar, inanarlar ki, başda olan şans-nişan itər.

– Günortadan sonra ev süpürməyin ziyanı var. Yaxşısı budur, evi səhər tezdən süpürələr. Çünki axşam ev süpürmək günəşin, yaxud işığın ardınca zibil atmaq deməkdir. Yəni, işıq bizdən uzaq olsun və yaxud evdən çıxan kəs bir daha evə qayıtmasın. Evə də qaranlıq hakim olsun.

– Gecələr dırnaq tutmaq düşməz.

– Gecələr ev süpürmək düşməz

– Gecələr yuxu tərif etməzlər.

– Gecə üzərlik salmazlar.

– Gecə saqqız çeynəməzlər.

– Gecə baş daramaq bəxt tükünü tökər.

– Gecə aynaya baxmaq uğur gətirməz.

– Günəş tutulanda yetim bir insanın misdən olan qab-qazanını səsləndirərlər. İnanarlar ki, Tanrı o səsi eşidib yetim insanın xatirinə görə günəşi tutulmaqdan çıxarar.

– Günbatanda su içmə, çünki o su ölülərin payıdır.

– Gün batanda xoruzun banlamağa haqqı yoxdur. Banlasa, başını kəsərlər. Əlbəttə ki, bu banlayıb-banlamanın düşər-düşməzi olar. Məsələn, toyuq banlasa, onu kəsməmiş bir kitab açarlar. Görərlər ziyanlı olsa, tez başını kəsərlər.

– Gözdəyən adama təndirdə çörək yapanda xəmir salarlar.

– Göz dəyənə üzərlik yandırarlar. Onu yandıranda belə bir sözü deyərlər:

Üzərliksən, havasan,
Sən dərdlərə davasan.
Dərd qapıdan gələndə
Sən bacadan qovasan.

Və ya bu sözləri deyərlər:

Üzərlik, kök üzərlik,
Başı toppuz üzərlik.
Buna nəzər işliyənin,
Gözü yansın, üzərlik.

Və ya:

Çıxdım Mişov dağına,
Səslədim: “ Ya Əli!”
Dedi:  Nədir, ey fəqir biçarə?
Dedim: Gəl, bu dərdimə eylə çarə.
Dedi: Get, üzərlik sal ocağə.

Bəzən də inanarlar ki, nəzər dəyən adama yeddi qapının çöpünü yığıb, bir göy əskiyə bağlayıb, yeddi yerdə deşik açıb, onu ayrı-ayrı yandırarlar.

– Hamamda tək qalmazlar.

–Hər kəs gecə düyün vursa, səhər işi düyünə düşər.

– Xəstə xəstəliyini toxtatmaq üçün bir qədər yer qurdunu döyüb suyunu çıxardıb xəstəyə içirdərlər. Və ya əttardan satdığı həsbə[9] dənəni, pəlpinəyi[10] qatıb xəstəyə yedizdirərlər.

– İki qadının arasından keçməzlər, inanarlar ki, o insan tilsimə düşər.

– İsti bir dəmiri, yaxud suyu yerə tökməzdən qabaq “bismillah” deməlisən. Yoxsa o isti su, yaxud dəmir cin-

---

[9] Həsbə – bitki növü
[10] Pəlpinəy – dirrik pərpərəni (bitki növü)

ləri öldürər. Əgər belə bir iş görülürsə, onun uşağı cin doğular.

– İt dalbadal ulasa, demək, göydən bəla gəlir.

– İsti suyu yerə tökməzlər.

– İmkan daxilində yaşayiş olan həyətdə söyüd və iydə ağacını əkməzlər. Çünki ziyan verər. Habelə iydə ağacının budağından əl ağacı götürən çoban naxırçı, cütçü, yaxud səfərə çıxanın işi düz gəlməz. Artırmalıyıq ki, əl ağacı hər hansı ağacdan olsa da, gərək götürənin qarışı ilə üç qarış, altı qarış, doqquz qarış olmasın, əgər olarsa, o həmən ağacla öldürülər. Yaxşısı budur ki, o dörd qarış, ya yeddi qarış olsun.

– İt ulayanda göydən bəla keçər. O ulamaqla istər ki, bəla onun yiyəsinə toxunmasın.

– Kimsə qorxulu yuxu görsə, gərək birinci saxsıdan olan qara qabdan su içsin.

– Kimsənin gözünə çiban çıxarsa, gərək o bir itə salam versin.

– Körpə uşağın qırxı çıxmayana qədər uşağı tək qoymazlar.

– Körpə uşaq birinci dişini çıxaran zaman dişlik verərlər (bişmiş buğda, ceviz, badam içi, kişmiş) yeddi evli qonşuya verərlər.

– Körpə uşağı diş çıxartmayınca eşşəyə mindirmək olmaz. Buna görə ki, dişləri o heyvana bənzər. Yaxşısı budur ki, onu körpə quzunun belinə mindirəsən. Çünki diş çıxartsa da dişləri quzu kimi incə və ağ olar. Uşaq əgər üst əngindən birincisi diş çıxartsa ruzusu az olar, əksinə alt əngindən diş çıxarsa, ruzusu bol olar. Habelə dişləri aralı olan adamın mal-dövləti çox olar.

– Közü suya atma cinli olarsan.

– Körpə uşağın boynuna yeddi deşikli muncuq taxarlar.

– Kəbin kəsəndə əllər açıq olmalıdır. Yoxsa kürəkən bağlanar.

– Qırxlı uşağın üstünə duva gətirilsə, o uşağı tüfəngin altından keçirərlər. Və yaxud onu toyuq hininə qoyub götürərlər. Və ya onu bir çörəyin arasına sürtərlər. O çörəyi isə qara itə yedirdərlər.

– Qapını daraqlasalar ev yiyəsinin işi müşkülə düşər.

– Qəcələ hər evin üstünə qonarsa, o evin sahibinə xeyir xəbər gəlir və yaxud uzaq yoldan bir qohum gəlir.

– Qədr bayramı gecə səhərə qədər ayıq olsan, yer altından keçən karvanların zınqırov səsini eşitsən, əlini nəyə vursan, qızıl olar.

– Qayçının ağzı açıq qalsa, onu bağlamaq lazımdır, yoxsa düşmənin ağzı açıq qalar.

– Qadınlar başlarını dararkən tüklərini atmazlar. Çünki kimsə o saçların vasitəsilə ona cadu edə bilər. Buna görə o saçı quyuya, yaxud divar deşiyinə qoyarlar.

– Qurdu görmək uğurludur.

– Qonaq tez getsin deyə, başmağına duz tökərlər.

– Qonşuya gecə ələk verməzlər.

– Qorxunu çıxartmaq üçün bir tikə əti, bir az da qəndi yeddi dənə buğda və yeddi dənə arpa ilə birlikdə bir parçanın ucuna töküb qorxanın kürəyinə sancaqlarlar. Məscidə tərəf yola salarlar. Məscidin binasının ətrafında, yaxud damcıdöyənin altında bir mıxla onu yerə bərkidərlər. Bunu deyərlər: "Ölü qoydum, diri götürdüm". Beləliklə, o insanda qorxu itər.

– Qorxan insanın kürəyinə, döşünə və çiyinlərinə qurd əliylə vurarlar. Beləliklə, o insandan qorxu itər.

– Qorxan insandan qorxunu çıxartmaq üçün başqa bir yol da var. Qurumuş mal peyininin ortasında qurquşunu əridərək qorxanın başının üstündə bir neçə dəfə

gəzdirərlər, su dolu bir göy qaba tökərlər. Qurquşun suda müəyyən şəkil tapar. İnanarlar ki, bu şəkil qorxudan heyvanın, yaxud insanın şəkli, ya ruhudur.

– Qorxan adam üçün bir ləyənin içinə mis kasada su, ayna, bıçaq, qayçı, duz-çörək, nərmi və bir özgə kişinin başmağının sol tayını qoyub ləyəni qorxmuş adamın başının üstündə saxlarlar. Üç dəfə başının üstündə tutarlar... yaxud qorxan adamın əlinə və dizlərinə duz tökərlər. Qorxmuş adam üç dəfə diz-lərindən və əlində olan düzdan yalamaqla qorxusu tökülər. Və ya qorxan adamın qorxusu çıxsın deyə, bir qabda olan suya bir qızıl üzük salıb ona içizdirərlər.

– Qorxmuş adamın nədən qorxduğunu bilmək üçün neçə tikə zəy üç günə kimi onun başı altına qoyular. Sonra o zəyi kömür samavarın kürəsinə salırlar. Samavarın odu sönəndən sonra yanmış zəyi küllərdən götürüb baxdırarlar. Belə güman edilir ki, qorxmuş adamı qorxutmuş şey və ya heyvanın şəkli o yanmış zəyə düşər.

– Qorxmuş adamın nədən qorxduğunu bilmək üçün mumu əridib bir qabda hazırlanmış suya tökərlər. Sonra suda donmuş mumun nə şəklə düşməsi ilə çöldə bir ağacın dibinə basdırarlar. Falçı və ya dua yazana kitab açdırmaq ilə qorxanın nədən qorxduğunu bilər və ona aid dualar yazarlar.– Qırx günü başa catandan sonra nənəsi uşağı çimizdirib çaydan, yaxud bulaqdan qırx daş yığar. Uşağı yuyandan sonra suyu uşağın başına tökərlər və həmən suyu təzə bir fidanın, ya dibçəyin əyağına axıdarlar. Və bu əsnada xeyir-dua verərlər:" Ömrü uzun olsun, xoşbəxt olsun, analı-atalı böyüsün".

– Ləmpənin çırağını piləməzlər. Xodun alarlar, özü sönər.

– Məhərrəm və səfər, bu iki ayda cücə çıxartmaq üçün "kürd" gəlmiş toyuğun altına yumurta qoymaq

olmaz. Həm zərəri var, bir də ki, heç cücə çıxmaz. Yumurtalar “lax” olar. Habelə o adam sonsuz olar. Bir daha toyuq basdıra bilməz. Hətta onun arvadı və ailənin digər üzvləri toyuq basdıra bilməzlər. Çünki əgər bu işi görərlərsə, sonsuz olarlar, yaxud uşaqları sağlam dünyaya gəlməz.

– Maşanı titrətmək yaxşı deyil. Çünki adamda titrəmə əmələ gələr.

– Novruz bayramının on üçüncü günü evlərdə göyərdilən bayram çinini (səmənini) eşiyə atarlar. Atmazdan qabaq qızlar səməninin uclarına düyün vurub üç dəfə göyə atandan sonra eşiyə atarlar. İnanarlar ki, o il onların baxtı açılıb ailə qurarlar.

– Nərdivan divara dik dayanmalıdır. Yerdə uzanarsa, o evdə adam ölər.

– Nəzər dəymiş uşağın əlinə, üzünə qurd əlini sürtərlər. İnanarlar ki, beləliklə, nəzər dəyən uşaqdan bəd nəzərlər uzaqlaşar.

– Ocağı söndürmək istəyəndə üstünə su tökməzlər. Onu öz külü ilə söndürərlər.

– Od üstünə su tökməzlər.

– Ovcunun içi qaşınarkən inanarlar ki, əlinə pul gələr.

– Ölən adam cavan olursa, öləndə əlinə bir daş verərlər ki, gözü yolda qalmasın.

– Pişik oynayanda qonaq gələr.

– Pişiyə su atmazlar.

– Pişik üzünü yuyanda, yəni diliynən üz-gözün yalayanda qonaq gələr.

– Süpürgəni baş-ayaq qoymaq heç yaxşı deyil. Qoyulan evdən ölən olar. Və ya o ailənin qohumlarının biri ölər. Süpürgəni tərsə qoymaq yeddi qonşuyada ziyandır. Süpürgəni mürdəşirlər tərsinə qoyarlar.

– Süpürgə ilə kimsəni vurmazlar. Süpürgə ilə vurulan adam ölər. Əgər biri bu işi görsə, süpürgənin bir telini yandırıb, yaxud qopardıb yerə atmalıdır.

– Süpürgəni tərsinə qoymaq düşməz.

– Süpürgəni baş-ayaq qoyanın qardaşı ölər. Belə olanda o süpürgədən bir çöp ayırıb, eşiyə atarlar.

– Süpürgə ilə adamı vursalar, vurulan insan qan işiyər.

– Səhər dovşan görmək uğur gətirməz.

– Suya daş atmazlar.

– Səfərə gedənin dalısınca su səpərlər ki, tez qayıtsın.

– Toy evində və dost evində baş dararlar. Ancaq düşmən evində dırnaq tutarlar.

– Toyuq banlayanda onu seyidə, ya mollaya verərlər. Ona görə ki, bəlli deyil toyuq xeyrə banlayıb, ya şərə.

– Təzə doğan anaya da qırx saxlarlar, belə ki, o evin qapısına bir qıfıl vurarlar və qırx gündən sonra qıfılı açarlar.

– Təzə gəlin üçün də qırx saxlarlar. O gəlinin qapısına da qıfıl vurarlar və bu müddətdə gəlini pis adamlardan, pis yerdə olmaqdan çəkindirərlər. Qırx gündən sonra qaynana müəyyən xeyir-dua, istək və arzuyla gəlini üzə çıxardıb salamat-salavatnan qıfılı açarlar.

– Təzə dünyaya gələn uşağı görməyə gələndə birinci o uşağı otaqdan çıxardarlar. Qonaq otağa girəndən sonra kör-pəni içəri aparalar.

– Toy evində tikiş tiksələr, kürəkən bağlanar.

– Toy evində qurban kəsilən bıçaq bağlanmalıdır, yoxsa kürəkən bağlanar.

– Toy gecəsi kürəkən qəbirsanlıqda yeddi qəbirdən atlamalıdır. Hər qəbiri atlayanda bir şirni atmalıdır.

– Uşağın üstündən keçməzlər.

– Uşağın qırxı çıxanda saçını kəsdirərlər.

– Uşaq üç gün ağlasa, onu imamzadanın yanında olan qoç heykəlinin altından keçirdəllər.

– Uşaq yerisə, amma dil açmasa və yaxud dil açsa, yeriməsə ona çillə basdırıb çilləsini kəsmək lazım olar. Belə ki, bir şənbə, ya çərşənbə günündə evi süpürüb o zibili üç dəfə uşağın başı üstə gəzdirib sonra eşiyə atarlar. Və yaxud uşağı üç yol ayrıcında bir qəlbirin (xəlbir) içində qoyarlar. Onun da ayaqlarının baş barmaqlarını bir-birinə düyün salarlar. Gözlərlər ki, ordan keçən kimsə gəlib o düyünü açsın. Beləliklə, uşağın çilləsi tökülər.

– Uşaq diş çıxardanda ona dişlik pişirmək lazımdır. Dişlikdə bir az buğda, noxudun pişməsindən ibarətdir. Ona bir az da kişmiş artırıb, üstünə şirni qoyub qohum qonşulara paylarlar. Habelə neçə dənə pişmiş buğda və ya noxudu da sapa düzüb uşağın çiyninə sancaqlarlar. İnanarlar ki, uşaq rahat diş çıxardar.

– Uşaqları tutmaq üçün Havva nənənin[11] yanına apararlar. Havva nənə bir neçə söz və dualar oxuyardı. Tutdurulmuş uşağı da qonaq gələn insanın üstünə çıxartmaq lazım idi. Həm də ki, uşağı kimsə öpə bilməz deyərdi. Havva nənənin oxuduğu dua və ovsunlar bunlardan ibarət idi:

Bismillihi rəhmani rəhim
Rəhimsən, kərimsən, qadir ilahi,
Müşgüldə qalanların sənsən pənahı,
Biz fağırın çoxdur günahı,
Ayə Qurana bağışla, ağa,
Lütf eyləyib öz kərəmivə
Öz qibləgahıva bağışla!

[11] Havva nənə – Kəndlərdə vergi verilən qadınlardan biri.

Bismillahi – rəhmani rəhim,
Yataram sağıma,
Dönərəm soluma.
Zikr eylərəm
Döşümdə Quranıma.
Sim eylərəm subhanıma.
Mələklər şahid olsun
Dinimə, imanıma.
Məndən salam olsun
Axirət torpağına,
Qapısı həmd olsun,
Kilidi qolhu Allah[12].
Qapını döydüm gəldi Qəmbər,
Dedim hanı peyqəmbər?
Dedi namazda, niyazda,
Yerin göyün pişvazında.

Həzin-həzin duasıyla,
Göyün ərşində, yerin zamanında,
Ərşdə ağac yarpaqları ayiye – Qurandır.
Bu duanı hər kim oxusa,
Cəhənnəm odu ona haramdı.

Bismillahi – rəhmani – rəhim,
Əlhəm əqzi be həlakə eyn həramək.
De fəzlek əmmə sual ya həyyi ya ol,
Ya zülcəlal vəl ikram.
*(Allaha edilən duadır)*

Bismillahi– rəhmani– rəhim,
Əvvəl tuhid, ikinci adil.

[12] İxlas surəsinin ilk ayəti

Üçüncü nebüvvəd, dördüncü imamət,
Beşinci miad,
Əlhəm səlli əla Məhəmməd və Ali Məhəmməd

*(İslam dinin şərtləri verilib)*

– Yaş ağacı yandırmaq olmaz.

– Yerikləyən qadının könlü nə istəsə verməlisən. Çünki istədiyinə çatmasa, doğacaq uşağın gözləri çeri olar. Habelə yerikləyən qadın hər kəsdən hər nə alıb yesə, doğacaq uşağı istər əxlaqca, istərsə də yaraşıqda ona çəkər. Belə bir ifadə var, deyərlər ki, tikəyə çəkib. Buna görə də boylu qadınlara tapşırarlar ki, hər kəsdən hər nə alıb yeməsinlər.

– Yaxında uşağı olan qadın, yaxud əri bayram çimini göyərtməlidir.

– Yağış yağan vaxtında hansısa bir şəxs yatsa, yuxudan durarkən günün çıxmasını görərkən, deyərlər, qurd balalayır.

– Yaz çağında köçəri quşlar, o cümlədən hacıleyləklər Güneyə gələndə o kəndlərin əhalisi onları qarşılamaq üçün damların başında üç haçalı ağac qoyarlar və ya onların oturmasına şərait yaradarlar. Hətta bəziləri damların başına yemək qoyarlar. İnanarlar ki, bu quşlar Məkkədən gəlirlər. Hər hansı evə qonarsa, o evdən qada-bəla uzaq olar.

– Yola çıxan insanın qarşısına dovşan çıxarsa, pis alınar. Qurd çıxarsa, yaxşı olar.

– Ziyan verən dolu çox yağanda dolunun birini dişləyirlər, əllərini tutub Allaha "daha bəsdir", deyib inanarlar ki, dolu kəsilər.

## YUXU YOZMALARI

– Ağ ilan dostluqdur. Onu görmək çox yaxşı şans gətirər.

– Ata-ananı yuxuda görmək səadət deməkdir.

– Ata-ana yuxuda adama bir şey versə, deyərlər, evladına arxadır. Yaxud ata-ana onu başqasına verəndə görsələr, onlarla qohum olmaq mənasında yozulur.

– Biri yuxuda başqa bir adamı ziyarətdə görsə və ya müqəddəs yerlərin ziyarətinə getmə yollarında görsə, inanırlar ki, yuxu görən hansısa bir yaxşılğın və yaxud xeyir əməlinin bəhrəsinə görəcək.

– Bulanıq su və ya sel görmək işlərin qarışması və sonra durulması anlamındadır.

– Əyər kimsə bir şey alarsa, birinin öləcəyinə və ya bir şeyin əskiləcəyinə yozulur.– Biri yuxuda qan, qohum görsə belə təbir olar: "Qohum çoxalacaq və ya evlənməyinə inanırlar". Bəzən deyirlər ki, qan görsən təbir olmaz. O batil yuxu hesab olunur.

– Güney mahalında inanırlar ki, hər kəs gecə yuxu görsə, onu yozmaq üçün əvvəlcə bir seyidə və ya yuxu yozana danışsınlar.

– Xalı, ya xalça yuxuda görsələr, o qonaq gəlmək anlamına yozulur.

– İlan düşmandır. Yuxuda kimsə ilan görsə, o ilanı öldürməlidir. Düşməni öldürmək və yaxud ona qələbə çalmaq anlamında yozulur.

– Kimsə yuxuda Məkkə, ya müqəddəs yerləri görsə, onun hər hansı bir arzusuna çatacağına inanılır.

– Kişi yuxuda qızını görərsə, çətinliyə, xəstəliyə düşəcəklərinə inanırlar.

– Kimsə diri adamın öldüyünü görsə, onun ömrü uzanar.

– Kimsə yuxuda yaşıllıq, göy-göyərti görsə, o yaxşılığa yozulur.

– Qadın yuxuda qızını görərsə, yaxşılığa doğru yozulur.

– Qoyun, keçi qada-baladır. Yuxuda qoyun, keçini çölə aparan görəndə qada-bala evdən eşiyə çıxmaq anlamındadır. Əgər yuxuda qoyun, keçini evə gətirsən, qada-balanın evə gəlmə anlamında yozulur.

– Qoz tayfada yeni uşağın dünyaya gəlməsi anlamındadır.

– Qorxulu yuxulara qarabasma da deyillər. Belə yuxuları çox görən adamın yastığının altına Quran, pıçaq, qayçı və ya başqa kəsici alətlər qoyarlar.

– Maşın, təyyarə, qatar görmək səfərə çıxmaq anlamında yozulur.

– Ölmüş adamı yuxuda kimsə görsə, əgər ölən insan bir şey verərsə, o bolluq və dövlət anlamına yozulur.

– Ölü birini çəkib apararsa, o adamın da ölcəyinə yozulur.

– Peyğəmbəri, imamları və ya dərvişləri yuxuda kimsə görsə, heç kimə deməməlidir. Bunları yuxuda görən xəstə olarsa, ya hər hansı bir xəstənin haqqında görərsə, o tezliklə şəfa tapar, sağalar.

– Sübh əzanı verən vaxt görülən yuxu tez təbir olar. Bu vaxtlarda görülən yuxu yaxşı olsa, yuxu görən onu

heç kimə deməməlidir. Yuxunu təbir edib yozandan sonra deyə bilər.

– Yuxu görən kəs yuxunu axar və ya duru suya söyləsə, o yuxu tez təbir olar.

– Yuxuda dovşanı görən pis qadın anlamında təbir olunur.

– Yuxuda at görmək yaxşılıqdı. Ucalıq və yüksəklik anlamında yozulur.

– Yuxuda dağ görən ucalar və xoşbəxt olar.

– Yol görmək də qonaq gəlmək anlamında yozulur.

Kimsə yuxuda tüfəng və yaxud güllə səsini eşitsə, inanarlar ki, ona uzaq yoldan xəbər çatacaq.

– Yuxuda çay, dəniz, su görən aydınlıq, xoşbəxtlik mənalarına yozulur.

– Yumurta, toyuq görəndə tayfada qız uşağının dünyaya gəlməsinə inanırlar və eyni halda varlanmaq işarəsidir.

– Yuxuda öküz, camış görəndə düşmən anlamına yozulur.

## XALQ TƏBABƏTİ

– Barmaqların başı tilişkə verəndə göy qozu döyüb həna ilə qatıb birlikdə barmaqlara yaxarlar.

– Bədən qaşınması üçün ilan qabığı, kirpinin dərisi, darı, şivərən[13], şeytan qarpızını birlikdə döyüb dərman hazırlarlar.

– Bədəni səpən uşağa göy tikan dəmləyib, içirdərlər.

– Boğazı ağrıyan adama tənbəki suyu içirdəllər.

– Baş ağrıyanda xətmi gülü adlı bitkini suda isladıb, xəstənin alnına bağlayarlar.

– Bəzi yaraları sağaltmaq üçün qılıncotu adlı acı və qoxusu pis olan bir bitkini döyüb, yaraya bağlayarlar.

– Çiban üçün ağ soğan, yaxud qara dərman bağlarlar. Və yaxud sarı yağ bizovşa yarpağı arasında onun üstünə qoyub bağlarlar.

– Çox danışmaq, çox yemək insanı naxoş edər.

– Çibanın tez deşilməsini istəyənlər ona od üstündə pişirilmiş soğan qoyarlar. Ya da qovrulmuş un və yağ ilə düzəlmiş yağlı xəmirə adlı bir dərman bağlatdırarlar.

– Düyü yemək yaxşıdır, ümumiyyətlə, onun həzmi yaxşıdır.

– Dişlərinə qurd duşmuş adamın ağzına quş üzümü tüstüsünü verərlər. Belə ki, quş üzümü kollarını yandıraraq açıq ağzını onun tüstüsünün qabağına tutarlar. Deyilənlərə görə, belə eyləyəndə dişlərdə olan çox narın qurdlar ölüb, yerə tökülür.

– Əl-ayaq isti-soyuq olanda iydə qabığın yandırıb ona tərəf tutarlar.

– Göz ağrıyanda ona sürmə çəkərlər.

[13] Şivərən – bitki növü

– Günəş çıxanda yuxudan dur, çünki xeyirlidir.

– Hamamdan sonra soyuq su içmə. Əgər isti su, çay olsa, bu yaxşıdır.

– Xəstənin yanında çox durma.

– İsti-soyuq olan qulağın toxtaması üçün dəsmala isti kül qoyub saxlarlar.

– İki havanın arasında əyləşmək bədənə ziyandır.

– İshalı kəsmək üçün faydalı olan ən əsas xörəklərdən biri arpa aşıdır ki, qəlbə də qüvvətləndirici təsir göstərir, ağciyər xəstəliyinə də yaxşıdır.

– Körpə uşağın qulağı ağrıyanda ona siqaret tüstüsünü verərlər.

– Kök adamlara yemək zamanı su içmək ziyandır, yeməkdən qabaq, yaxud sonra içmək məsləhətdir.

– Qanamanı durdurmaq üçün tirmə, yaxud başqa parçanı yandırıb qoyarlar.

– Qarpız toxumunu sarı hillə çillədə, piy, qərçək, mərzə toxumu köhnə pambıqla birlikdə yandırıb uşağı olmayan qadınlara yedizdirirlər. Beləliklə, düşünürlər ki bədəndə olan üfunət azalır.

– Qalın çörəyi isti-isti yemək bədənə ziyandır.

– Qarın köpüb sancılananda xocabaşı adlı bitkinin toxumunu qənd ilə döyüb sancılanan adama içizdirərlər.

– Qıçları ağrıyan adamın yaz fəslində qıçlarına babazəhər [14] qoyarlar. Babazəhər çox kiçik və zəhərli bitkidir. Onu dərərək bir neçə dəqiqəliyə ağrıyan yerə bağlatdırarlar. Neçə saatdan sonra babazəhər bağlanan yerdə bir suluq əmələ gələr. Deyənlərə görə, bədənin ağrısı o suluqdan eşiyə çıxar.

– Qızıl gül açılan fəsildə həcəmət edərlər.

---

[14] Babazəhər – bitki növü

– Meyvə yeyən kimi su içmək yaramaz, niyə ki, bağırsaqlarda köp əmələ gəlir.

– Mədəsi işləməyən adama badam yağı içirdərlər.

– Mədəsi ağrıyan adama şirinbiyan kötüyünü dəmləyib içirdərlər.

– Sınıq üçün onu düz öz yerində qərar verəndən sonra dörd tərəfinə yonulmuş taxtalar qoyub siriş və parçaynan bağlarlar.

– Sünnət olan uşağa qərçək yağı sürtərlər.

– Səhər-səhər acqarına bir stəkan soyuq su, yaxud soyuq meyvə şirəsi içmək məsləhətdir.

– Soyuq vurmuş adama yarpızı dəmləyib, içirdərlər.

– Sarı yaraya pərpinə adlı bitkinin suyunu sürtməklə, müalicə edərlər.

– Sarımsaq qan təzyiqini düşürdüb, damarları təmizlədib idrarla dəf edir. Sarımsaq yeyənlər su içsələr, qanda olan mikroblar ölər, bədən sağlamlaşar.

– Sarılıq gətirənə xoruzu qaynadıb, suyunu yedirdərlər.

– Tox olan vaxt arxanı divara söykəmə.

– Yağlı yeməkdən sonra soyuq su içmək zərərdir.

– Yatanda sağ tərəfdə yat.

– Yanğısı olan adama şivərən toxumunu suya töküb, içirdərlər.

– Yanığı sağaltmaq üçün sarı kök, piy, sarı yağı bir-birinə qatıb yaraya qoyarlar.

– Yumurtanın ağını qurudub onu bir neçə dənə qənd ilə həvəngdə döyüb narın toz kimi eyliyəndən sonra ağ gəlmiş gözə salarlar.

## Dərman bitkiləri

İlan yarpızı, əmənkömənci, itburnu, əvəlik, at yoncası, eşşək şibidi, üzərlik, bizovşa, pənirçörək, yarpız, pərpinə, təkəsaqqalı, pişik dırnağı, xətmi gül, göy tikan, çölmək, qarnı yarıq, dəvədabanı, sarı tikan, süd biyan, şirin biyan, acı biyan, şimxiyar, sarı yonca, şivərən, qərəçörək otu, şahtərə, babazəngi, fırfıra, bumadəran (oymadəran), qaz ayağı, qarğa soğatı, quş üzümü, gülqavzəban, kasni, kəkotu, hava yarpağı, yemlik, zəfəran, tuxumtölə, reyhan, göy mərzə, qanqal toxumu, raziyanı.

**Cülxətmi** – qızdırma üçün faydalıdır.

**Çasnı** – sərin xasiyyətli bitkidir.

**Əvəlik** – mədəni işlətmək üçün yaxşıdır

**Əmənkömənci** – mədə-bağırsaq üçün faydalıdır.

**Göyzəban** – əsəb xəstəliyi üçün faydalıdır.

**Göycürə toxumu, kişniş və tülə toxumu** – bunların üçü bir yerdə dəmlənilsə, boylu qadınlar üçün faydalıdır.

**Yarpız** – qarın sancısı üçün faydalıdır.

**Kəngər** – yaz vaxtında kökünü qızardıb yoğurtda yeyilir.

**Kələməkeşir** – supda bişirilir, dərman xasiyyəti daşıyan bitkidir

**Kərovüz** – qanın durulmasında və şəkərin aşağı salınmasında faydalıdır, qaynadılmış halda yeyilir və turşuda istifadə olunur.

**Qarnı yarıq** – uşağın əyaq getməsinə yaxşıdır.

**Qızıl zirək** – sinə ağrısına, həm də yaranın sağalmasına faydalıdır.

**Qazəyağı** – isti təbiətli bitkidir, supda yeyilir.

**Qalqan** – yerdən təzə çıxanda aşa (sup) salıb yeyərlər, dərman xasiyyətlidir.

**Qərəcürə** – yerdən çıxan zaman aşa salınır.

**Məməli üzərlik** – arturuz xəstəliyi üçün faydalıdır.

**Möhür toxumu və fırfıra** – sinə ağrısı və öskürək dərmanı üçün istifadə olunur.

**Nanə** – mədə üçün xeyirlidir.

**Pərniya** – soyuqdəymə üçün yaxşıdır.

**Reyhan dəmlənməsi** – sinə və öskürək üçün faydalıdır.

**Şeytan qarpızı** – mədə-bağırsağa faydalıdır.

**Şirin biyan** – mədə-bağırsaq üçün faydalıdır.

**Şahdərə** – ağrı üçün, həm də xana ilə birlikdə dəri xəstəlikləri üçün xeyirlidir.

**Şivəran** – toxumundan şərbət kimi istifadə olunur, yanğının qarşısı alınır.

**Tikan gülü** – mədə-bağırsaq üçün xeyirlidir.

**Turpca** – həm göy, həm də kökü yeməlidir ki, köp üçündə faydalıdır.

**Uymadərən** – sancı üçün yaxşıdır.

## Əlavə müalicə üsulları

**Oynaq ağrısı üçün** – 300 qram kəkotu, 50 qram darçın və hillə birləşdirib döyərlər, sonra mis qazanda yerləşdirib yarısına qədər su doldurub, isidərlər. Gündə üç dəfə xəstəni qazanda oturdarlar. Birinci gün yarım saat, ikinci gün iki saat xəstənin qazanda oturdurlar. Beləliklə, revmatizmə qarşı müalicə aparılır.

**Bənövşə şərbəti** – Ödün təmizlənməsi və tənginəfəsliyə qarşı işlədilir. Hazırlanma tərzi: 300 qram azca qovrulmuş bənövşə gülünü 600 qram suda qaynatmaq lazımdır. Qaynama prosesi, su göy rəng olana qədər davam etdirilir, sonra süzüb 600 qram şəkər əlavə etmək və

sərin yerdə saxlamaq lazımdır. Yeməkdən əvvəl bir xörək qaşığı qəbul edilir.

**Heyva şərbəti** – Ürək və mədəni qüvvətləndirən təsirli vasitədir. Hazırlanma tərzi: Toxumlarını çıxarmaq, heyvanı dilim-dilim doğramaq və dilimləri taxta qabda döyüb şirəsini çıxarmaq lazımdır, həmin şirəyə onun yarısı qədər qənd əlavə edib, qaynatmaq lazımdır. Yeməkdən əvvəl bir qaşıqdan üç qaşığa qədər qəbul edilir.

**Hil** – Ürəyi, mədəni möhkəmləndirir, əhval-ruhiyyəni yüksəldir, eyni zamanda tər iyini aparır, ağız qoxusunu ətirli edir. Hili mədə xəstəliyi, ürək bulanma, qaraciyər ağrısı, böyrək daşına işlətmək xüsusi əhəmiyyətə malikdir.

Onu toz halında buruna çəkərlər, hildən müxtəlif səbəbdən yaranan baş ağrılarını sakitləşdirməkdə istifadə edilir, bunun toxumlarından tibbdə bir çox xəstəliklərin (öskürək, zökəm, rematizma və s) müalicəsində istifadə olunur.

**Qovun** – Dərman kimi qovunun tumluğundan (toxumluğundan) çəkilmiş şirə işlədilir, bu şirə qurd qovucu vasitə kimi, həmçinin boğaz ağrısında, xronik öskürəkdə istifadə edilir. Şirənin heç bir zərəri olmadığına görə istənilən qədər içmək olar, daş əmələ gəlməyə meyli olanlara qovun yemək məsləhət görülür. Ürək və böyrək xəstəliklərinə də yaxşı təsir edir.

**Sumaq** – Sumağın yetişmiş meyvələrinin dəmlənməsi, xüsusən meyvələrindən hazırlanmış dörd ekstrakt qanda şəkərin miqdarını azaldır. Xalq təbabətində sumaq yarpaqlarından və meyvələrindən çay dəmləyib qarın ağrısına, ishala qarşı işlədilir.

## BAYATILAR

Maralım ala gözlər,
Atanı bala gözlər.
Qorxum budur, maralım,
Ayrılıq sala gözlər.

Təbriz üstü Miyana,
Gül sünbülə dayana.
Oxu, bülbülüm, oxu,
Bəlkə, yarım oyana.

Təbriz üstü Marağa,
Zülfüm gəlməz darağa.
Yarı qonaq eylədim,
Bir stəkan arağa.

Ağ dəvə üzdə qaldı,
Yüküm Təbrizdə qaldı
Toyum bu tayda oldu,
Yarım o tayda qaldı.

Təbriz üstü Miyana,
Gül sünbülə dayana.
Ya sən köç gəl bu yana,
Ya mən gəlim o yana.

Ay aşıq, Mərəndə gəl,
Gülləri dərəndə gəl.
Bir gəldin xəstə gördün,
Bir də can verəndə gəl!

Burdan uzaq Miyana,
Gül sünbülə dayana,
Necəsən, çıxam gedəm,
Qalasan yana-yana.

Burdan uzaq Miyana,
Gül sünbülə diyana.
Oxu, bülbülüm oxu,
Bəlkə, bəxtim oyana.

Çıxdım alma koluna,
Baxdım Təbriz yoluna.
O yanda bir yarım var,
Qurban olum boyuna.

Oğlan gedər qoyuna,
Qızlar baxar boyuna.
Qarşıda bir xam toğlu,
Kəsər qardaş toyuna.

Adaxlıyam adına,
Heç düşmərəm yadına.
Mən yadına düşəndə
Xudam çatsın dadına.

Getdim bağ arasına,
Baxdım ay parasına,
Qızılgül cərgə vurub,
Yarım girib arasına.

Qaşların arasına,
Xal döydür arasına.
Mən qurban, canım qurban,
Ürəyin yarasına.

Dağların lalasına,
Gözlərin alasına,
Analar qurban olsun
Öz körpə balasına.

Dağların alçağına,
Yağış yağar daşına.
Namərd sözünü desin,
Bəla gəlsin başına.

Ağ çarqadın ağına,
Pul düzdüm qırağına.
Verim qardaş aparsın,
Adaxlım otağına.

Ay doldu, düşdü çaya,
Üzün bənzəyər aya,
Cavan ömrüm çürüdü
Otuz gün saya-saya.

Bir daş atdım almaya,
Ağac üstə qalmaya.
Allah qızı yaradıb
Oğlan subay qalmaya.

Çıxdım balaxanıya,
Baxdım sərbazxanıya.
Sərbazdar məşq elirdi,
Qorxdum qardaş tanıya.

Əzizinəm Salmasa,
Xoydan gedər Salmasa.
Oduna mən düşərəm,
Kimsə oda salmasa.

Burdan uzaq Miyana,
Səni yanasan, ana.
Sən qoymadın mən gedəm
O sevdiyim oğlana.

Endim bulaq başına,
Yazı yazdım daşına.
Gələn gedən oxusun
Nələr gəldi başıma.

Zamana, ay zamana,
Oxu qoydum kamana.
Eşşəklər arpa yeyir,
At həsrətdir samana.

Qızılgül bağın olsun,
Bağlar oylağın olsun.
Tanrıdan arzum budur,
At minən çağın olsun.

Təkəm gedib Xanlığa,
Baş qoyub sultanlığa.
Təkəmi öldürdülər,
Atdılar samanlığa.

Qızım, qızım, qız anna,
Qızımı verrəm ozana.
Ozan ağca qazana
Qızım geyə bəzənə.

Mən aşiq, ahu-zarda,
Canım dərddə, azarda.
O gündən ki, qul oldum,
Satıldım hər bazarda.

Mən aşiqəm, hər aylar,
Hər ulduzlar, hər aylar,
Dəryada bir gül bitdi,
Susuzundan haraylar.

Nənəm, a qatar keçi,
Qayada yatar keçi,
Qış soyuğu gələndə,
Balanı atar keçi.

Nənəm, a sarı qoyun,
Ayaqlar qarı qoyun,
Qapıda bol eyləsin
Nəslini Tarı qoyun.

Təbriz üstü Güneydir,
Şüşələr dolu meydir.
Yardan bir kağız gəlib
Bütün ərzi gileydir.

Əziziyəm, incidim gəl,
Dost bağına düşdüm gəl,
Yaxşı günün aşnası
Yaman günə düşdüm, gəl.

Çay mənim, ceşmə mənim,
Çayımdan keçmə,mənim.
Dərdim üstə dərd qoydun,
Dərdimi deşmə mənim.

Ay doğar asmaq istər,
Gül dodaq yaşmaq istər.
Mənim bu dəli könlüm
Yara qovuşmaq istər.

Su gələr axar gedər,
Dağ-daşı yıxar gedər.
Dünya bir pəncərədir,
Hər gələn baxar gedər.

Dağlara qar düşübdür,
Gör nə hamar düşübdür!
Qəbrimi ellər qazıb,
Gör necə dar düşübdür!

Mən öldüm, anam qaldı,
Oduma yanan qaldı.
Nə dünyadan kam aldım,
Nə bir nişanım qaldı.

Dağlarda səmək olmaz,
Səməyi yemək olmaz.
Qəriblik bir dərddir ki,
Heç yerdə demək olmaz.

Burdan uzaq gecədir,
Gülü pəncə-pəncədir.
Ölüm Allah işidir,
Ayrılıq işgəncədir.

Bağdakı xəzələ bax,
İçində gözələ bax.
Başaçıq, ayaqyalın,
Sərgərdan gəzənə bax!

Beş bacıydıq, bir ana,
Əyləşərdik yan-yana.
Fələk vurdu dağıtdı,
Hərə düşdü bir yana.

Qaşına yay demərəm,
Gözünə çay demərəm.
Dilim ağzımda yanar,
Mən sənə vay demərəm.

Bülbüləm bağ içində,
Gülüm yarpaq içində.
Əgər məni ararsan,
Axtar torpaq içində.

Bu gün getdim suya mən,
Sudan aldım dua mən.
Qaranquşca olmadım
Barı quram yuva mən.

Mən aşıq Ərzuruma,
Ərzim var Ərzuruma.
İnsanı öldürməsən,
Dözərmiş hər zuluma.

Araz daşanda mələr,
Kür qovuşanda mələr.
Analar balasından
Ayrı düşəndə mələr.

Analar anar ağlar,
Günlərin sanar ağlar.
Dönər göy göyərçinə,
Yollara qonar ağlar.

Bağçalarda saz olar,
Gül açılar, yaz olar.
Mən yara gül demərəm,
Gülün ömrü az olar.

Bir məndil işlə yolla,
Ucu gül işlə yolla.
İçinə beş alma qoy,
Birini dişlə yola.

Bahar gördüm, yaz gördüm,
Gözəl gördüm, naz gördüm,
Hər tərəfi dolandım,
Sənin kimi az gördüm.

Boşqab üstə həna var,
Qurumayıb yenə var.
Nə deyər dost-aşına
Mənim könlum sənə var.

Aşıq gəlir sazı var,
Nə gözəl avazı var!
Hər payızın bir qışı,
Hər qışın bir yazı var.

Urmiyyənin bağı var,
Bağında bağçası var.
Bağda üzüm sayısı,
Məndə hicran dağı var.

Dar küçədən keçdi yar,
Ağ kətan geymişdi yar.
Salam verdim almadı,
Deyəsən, küsmüşdü yar.

Məni görüb güldü yar,
Hər dərdimi bildi yar.
Açıb güllü dəsmalın
Göz yaşımı sildi yar.

Dərd aşar başdan keçər,
Kirpikdən, qaşdan keçər.
Doğru söz, doğru kəlam
Dəmirdən, daşdan keçər.

Ay çıxar uzaq düşər,
Şam yanar, çıraq düşər.
Yar gözündən düşəndən
Könüldən iraq düşər.

Qızılgülü dərərlər,
Məxmər üstə sərərlər.
Xoş o qızın halına
Sevdiyinə verərlər.

Su coşar daşdan gələr,
Tökülüb daşdan gələr.
Yar məni istəsə,
Durar o başdan gələr.

Yağış yağar sellənər,
Ay çıxar həvəslənər.
Sizin bağın bülbülü
Bizim bağda səslənər.

Dağlara qar düşübdü,
Gör nə hamar düşübdü?
Qəbrimi yadlar qazıb,
Əlhədim yad düşübdür.

Apar məni bəndə vur,
Saçımla kəməndə vur.
Min bir yerdən yaram var,
Əsirgəmə, sən də vur.

Yaz doğan yaya gedər,
Su axar çaya gedər.
Vəfasız yarı olan,
Əməyi zaya gedər.

Elə bil yüz il məni,
Yatağa düz yüz il məni.
Vəfalı dost yad olmaz,
Görməsə yüz il məni.

Bağban barın dərdi çox,
Dərdi yerə sərdi çox.
Yad ellərdə insanın
Dərmanı yox, dərdi çox.

Sinəmdə yaram nədir?
Qəm ilə aram nədir?
Dərdim ellər dərdidir,
Bəs buna çaram nədir?

Su axar samanlıqdan,
Yol keçər qaranlıqdan.
Çalış yaxşılıq eylə
Nə çıxar yamanlıqdan?

Fələyin dad əlindən
Olmadım şad əlindən.
Yapışaydım yaxandan
Cəkərdim dad əlindən.

Qurbanın quzu olsun,
Quzunun yüzü olsun.
Quzudan qurban olmaz,
Qoy anan özü olsun.

Əzizim, aman gündə,
Söznü de yaman gündə.
Dost kimdi, düşmən kimdi,
Tanırsan yaman gündə.

Ay ağlar, cana dağlar,
Batıbsiz qana, dağlar.
İgid getdi gəlmədi,
Alışıb yana dağlar.

Qizilgüləm, dər məni,
Məxmər üstə sər məni.
Allah özü şahiddi
Çox sevərəm mən səni.

Əziziyəm şıxlara,
Zülfün dolaşıqlara.
Əlimə bir saz aldım,
Qoşuldum aşıqlara.

Əzizim çillə qarpız,
Düşübdür dilə qarpız.
Yığılıb xurcunlara
Gedir yargilə qarpız.

Mən aşıqam ya dəli,
Ya divanə, ya dəli.
Qəbrim od tutub yanar,
Sənə dəysə yad əli.

Aşıq minaya gedər,
Xalın min aya gedər.
Ay var bir günə dəyməz,
Gün var min aya gedər.

Mən aşıqam nəvaya,
Dur qulaq as nəvaya.
Nə namərdə yoldaş ol,
Nə aha düş, nə vaya.

Əziziyəm, ağır dur,
Ağır tərpən, ağır dur.
El içində dur dolan
Görən desin ağırdır.

El köçdü, dağ bulandı,
Damağı çağ dolandı.
Əl atdım şamamaya,
Əlimə tağ dolandı.

Dostum, getmə amandi,
Sənsiz halım yamandi.
Gəlişinə mən qurban,
Gedişin nə yamandi.

Dağlar başi dumandı,
Elin halı yamandı.
Dövran yenə dəyişib,
Yoxsa, axır zamandı?

Əzizim ov, çəməni,
Mərəndin ov çiməni.
Ya mələrəm taparam,
Ya vurar ovçu məni.

Bağa girdim bu başdan,
Gülü tutdum ağacdan,
Bilseydim vəfan yoxdi,
Gəlməzdim əzəl başdan.

Əlimdə ələmim var,
Qızıldan qələmim var.
Yaxından görəmmirəm,
Uzaqdan salamım var.

Çal çiçəyin çatlasın,
Sür qoyunun otlasın.
Çağır əmin qızların,
Gəlsin yaxın bittəsin.

Əzizim bir-bir düşər,
Qar yağar bir-bir düşər.
Dostunan gəzən günlər,
Yadıma bir-bir düşər.

Əzizim, nə bağışlar,
Dost-dosta nə bağışlar?
Başım cəllad əlində
Nə kəsər, nə bağışlar.

Mən aşıq o gün eylər,
O quzey, o güneylər.
Həsrət həsrətin görsə,
Bayramın o gün eylər.

Mən aşıqam xal-xala,
Burdan gedər Xalxala[15].
Sevmişdim özüm alam,
Sevməmişdim xalx ala.

Aşıq, nə zəmanə dönüb,
Qaşın kəmanə dönüb.
Dostum məndən inciyib,
Ya ki zəmanə dönüb.

Aşıq, naçar ağlama,
Gündüz keçər, ağlama.
Bu qapını bağlıyan,
Bir gün açar ağlama.

Əzizim, ağlamazdım,
Gülərdim ağlamazdım.
Bilseydim vəfan yoxdi,
Sənə bel bağlamazdım.

Su gəlir burux-burux,
Suya vurdum yumurux.
Desələr, yarın gəlir
Gərdənbəndim muştuluq.

Əzizim, mərd atanı,
Mərd sevər mərd atanı.
Oğul bişüur olsa,
Öldürər dərd atanı.

---

[15] Xalxal – Güney Mahalında şəhər adı

Mən aşıq gülə-gülə,
Gül əkdim gülə-gülə.
Düşmən evimi yıxdı,
Üzümə gülə-gülə.

Aşıqam, dağlara bax,
Mişovdan dağlara bax.
Fələk mənə işləyib,
Sinəmdə dağlara bax.

Amandi, bəsdi, fələk,
Həvəsdi, səsdi, fələk.
Hər yerdə çadır qurdum,
Tənəfim kəsdi fələk.

Aman fələk, ax fələk,
Çıx bacadan bax, fələk.
Mənə elçi gəlməsə,
Get evini yıx, fələk.

Get bazara əncir al,
Saatıma zəncir al.
Uzaq yoldan gəlmisən,
Gir qoynuma dincin al.

Əzizinəm, gülə  naz,
Bülbül eylər gülə naz.
Bu dünya qəmxanadı,
Ağlıyan çox, gülən az.

Mən aşıq Əli şaha,
Yol gedər Əli haşa.
Bir kəsə dərdimi deməm,
Deyərəm Əli şaha.

Alma atana qurban,
Atı tutana qurban.
Məxmər döşək, tük balış,
Onda yatana qurban.

Ağ almanı yollarlar,
Ağ boşqaba qoyarlar.
Çağrılmamış qonağı
Qaş-göz ilə qovarlar.

Dağların qarı mənəm,
Gün düşsə ərimənəm.
Qəbrimi quzeydə qaz,
Cavanam, çürümənəm.

Dəryada dəryalıqlar,
Suda oynar balıqlar.
Əlivi ver əlimə,
Deyirlər, ayrılıq var.

Mən aşıq kəmana çalar,
Qaşların kəmanə çalar.
Yüz tümənə çalmıyan aşıq,
Bir torba samana çalar.

Aşıqam, yaza nə qaldı,
Qış çıxdı, yaza nə qaldı?
Təxsir qələmdə yoxdi,
İnsaf yazana qaldi.

# NAĞILLAR

## İki bacı

Qədim zamanlarda, yəni o yoxsulluq çağlarında insanların ac günləri çox olmuşdur. İki bacı qonşuluqda yaşayırdılar. Günlərin bir günü birisi görür o bacının evinin təndirindən tüstü çıxır. Bacı düşündü ki, od olmayan yerdən tüstü çıxmaz, elə bu fikirdə idi ki, təzə çörəyin iyini aldı. Birdən bu bacı qonşu bacının evinə getməyi qərar verdi. O birisi bacı evin qapısının səsini eşidən kimi qonşu bacının gəlməyini hiss etdi. Tez təndirdən çıxan kükəni altına qoyub üstündə oturdu. Gələn bacı gördü kükədən heç bir xəbər yox. Getməyə qərar verdi. Amma getməzdən əvvəl bu şeiri oxudu:

Baxçada güllər, bacı,
Oxur bulbullər, bacı.
Kükə g.... yanında
Keçər bu günlər, bacı.

## Qazı və xoruz

Qədim zamanlarda qazının həyətində bir xoruz var idi. Bir gün həyətdə eşinərkən xoruz bir qara pul tapır. Xoruz pulu dimdiyinə tutub həyətin ortasına qoyur, banlamağa başlayır:

– Quqquluqu, mən bir dənə pul tapmışam.

Qazı adamlarını göndərdi, pulu xoruzdan aldılar. Xoruz yenə banladı: “Quqquluqu, qazı mənim puluma möhtac imiş”. Qazı adamlarına dedi:

– Aparın bu xoruzun pulunu qaytarın.

Xoruz pulu alıb yenə banlamağa başladı: “Quqquluqu, qazı məndən qorxmuş idi”. Qazı yenə öz adamlarına dedi:

– Bu xoruz məni təngə gətirdi. Gedin başını kəsin, pişirin plovun üstunə qoyuq. Onu yeyəcəyəm.

Xoruzun başını kəsəndə o, yenə bərkdən banlayıb dedi: "Quqquluqu, nə iti pıçağ imiş". Xoruzun başını kəsəndən sonra qazana salıb bişirdilər. Xoruz qazanda banladı: "Quqquluqu, nə isti hamamçadır". Plovu bir böyük nimçəyə çəkib, xoruzu üstünə qoydular. Xoruz banladı: "Quqquluqu, nə ağca təpədir". Qazı xoruzu parçalayıb yeməyə başladı. Onu çeynəyib udanda xoruz yenə banladı: "Quqquluqu, nə darca küçədir". Xoruz plov qarışıq qazının qarnına düşəndə bir də banladı: "Quqquluqu nə löhmə dərədir". Qazı o qədər yedi ki, qarnı partladı. Xoruz qazının qarnından çıxıb banladı: "Quqquluqu, qazının qarnı yırtıldı, mənim canım qurtuldu".

## Qarı nənə

Qarı nənənin bir buzovu var idi. Pəyədə onun yeri dar idi. Apardı suvarmağa. Sürüşdü qıçı sındı, dedi:

– Buz, nə zalımsan?

Dedi:

– Mən zalım olsaydım, gün məni əritməzdi.

Dedi:

– Gün, sən nə zalımsan?

Dedi:

– Mən zalım olseydim, bulut mənim qabağımı kəsməzdi. Dedi:

– Bulud, sən nə zalımsan?

Dedi:

– Mən zalım olsaydım, yağış məndən yağmazdı.

Dedi:

– Yağış, sən nə zalımsan?

Dedi:

– Mən zalım olsaydım, göy ot məndə bitməzdi.

– Göy ot, sən nə zalımsan?

Dedi:

– Mən zalım olsaydım qoyun mənim başımı yeməzdi. Dedi:

– Qoyun, sən nə zalımsan?

Dedi:

– Mən zalım olsaydım, qəssab mənim başımı kəsməzdi. Dedi:

– Qəssab, sən nə zalımsan?

Dedi:

– Mən zalım olsaydım siçan pullarımı aparmazdı.

Dedi:

– Sican, sən nə zalımsan?

Dedi:

– Mən zalım olsaydım, pişik məni tutmazdı.

Dedi:

– Pişik, sən nə zalımsan?

Dedi:

– Mən zalımam ha zalımam,
Kürsü altı qışlağımdı,
Kürsü üstü yaylağımdı.
Xanım xala hər nə pişirərsən,
O da mənim qayqanağım, quymağımdı.

## Vaxsey

Biri var idi, biri yox idi, Allahdan sonra heç kim yox idi. Bir kişinin üç qızı var idi. Günlərin bir günü kişi istirdi şəhərə getsin. Uşaqlarına üz tutub dedi:

– Balalarım, nə istəyirsiz sizlərə alım?

Qızların biri dedi, mənə qazaq al. Biri də dedi, mənə daraq al. Biri də “mənə sırqa al”, – dedi. Kişi şəhərə gedib və vəsailini aldı. Qayıdanda yolda yadına düşür ki, sırqa almayıb. Deyir, “vaxsey, sırqalar yadımdan çıxdı”. Bu söz ağzından çıxan kimi böyük bir qaya aralanır. Bir nəfər çıxır deyir;

– Məndən nə istiyirsən?
Kişi deyir:
– Mən heç səni tanımıram.
– Bəs niyə məni  çağırdın?
– Vaxsey, mən səni heç tanımıram ki çağıram.
Zahir olan kişi dedi:
– Bax əlanda mən çağırdın.
– De görüm, hardan gəlib hara gedirsən?
– Getmişdim şəhərə ayın-oyun alım. Qızlarım da tapşırmışdılar. Ancaq birinə sırqa almağı unutmuşam. Bura yetişəndə yadıma düşdü, sırqa almamışam. Birdən dedim vaxsey ki, sən üzə çıxdın.
Vaxsey dedi:
– Yaxşı, mən sənin qızın üçün bir cüt sırqa verərəm. Sən də onun yerinə qızını verərsən.
Kişi fikirləşdi ki, mən bir sırqaya qızımı verəcəyəm? Öz-özünə fikirləşdi ki, bu hardan gəlib məni tapacaq. Dedi:
– Eybi yox, qızı verərəm, get bir cüt şırğanı gətir.
Vaxsey dedi:
– Arxava baxma.
Qeyb olub, təzədən zahir oldu. Kişi sırğanı aldı.Vaxsey də dedi:
– Yeddi gündən sonra elçiliyə gələcəm.
Əcəm kişi "inşallah" deyib getdi. Evinə çatanda başına gələn qəza– qədəri tərif elədi. Qızlara aldıqlarını verdi. O biri qızın sırqasını verəndə dedi:
– Amma, qızım, yeddi gündən sonra Vaxseyə söz vermişəm, elçiliyə gələcək.
Arvad dedi:
– Ay kişi, sən ağlını əlindən vermisən. Adam bir sırqaya qızını verər?
Kişi dedi:
– Ay arvad, narahat olma, o hardan gəlib bizim evimizi tapacaq? Mən də elə-belə deyirəm.

Yeddi gündən sonra qapı çalındı. Kişi qapını açanda birdən gördü Vaxsey bir neçə nəfər qəriynən durub qapıda. “Buyur” deməkdən ayrı bir yolu, alacağı yox idi. Xoş-beşdən sonra qonaqlar söz açıb dedilər ki, biz yeddi gündən sonra gəlib qızı aparacağıq. Üç dənə də badam başlıq verdilər. Arvadı dedi:

– Kişi, bax gör başımıza nələr açıbsan?

Kişi dedi:

– Ay arvad, narahat olma, bir fikir çəkərik. Hələlik gətir badamları sındıraq.

Badamları sındıranda birindən bir cüt başmaq çıxdı. Başmaq da nə başmaq, qıza yaraşan bir başmaq. O birisini sındıranda gördülər içindən bir gəlin paltarı çıxdı. Elə bil bu paltarı ancaq bu qıza tikmişdilər. Üçüncüsüdən on tümən pul çıxdı. Arvadı da dedi, bu qızın başlığı. Yeddi gündən sonra neçə nəfər faytonla gəldilər qızı aparmağa. Qızı geyindirib, bəzəyib hazırladılar. Qız hamıyla xudahafizləşib, yola düşdü. Heç kəs də heç bir etiraz eləmədi. Gəlib-gəlib qayaya çatdılar. Qaya aralandı, içəri girdilər. Bir müddət keçər, bir gün arvadı deyir:

– Kişi, qızı verdik apardılar. Bə heç bir xəbərimiz də yoxdu qızın başına nə gəlib. Ölüb, qalıb? Get bir soraqlaş. Kişi görür arvad da haqlıdır. Deyir:

– Olsun, gedərəm.

Bir gün yola düşür, gəlir həmin qayanın yaxınlığında durur. “Vaxsey”, deyə səslir. Vaxsey zahir olur. Deyir:

– Nə istəyirsən, kişi?

Kişi deyir:

– Gəlmişəm qızımı görəm.

Vaxsey deyir:

– Heç bir maneə yoxdu.

Qaya açılır. Kişi içəri girir, baxar görər qız bir bağda oturmuş. Bu bağda hər cür meyvələr var.

Ağacların sayı-hesabı yoxdur. Böyük bir alma ağacının dövrəsində şor-şoranın ətəyində bir çay axır. Bu ağacdan hərdən bir dənə alma çaya düşür, su aparır. Kişi qızına yaxınlaşır görüşür, hal-əhval eli-yir. Bir az keçəndən sora deyir:

– Qızım, bəs sənin ərin hanı?

Qız deyir:

– Dədə, mən heç ərimi görməmişəm.

Kişi fikrə gedir. Heç nə demir. Evinə doğru yola düşmək istəyir. Qız da sudan dədəsinə dörd dənə alma tutur verir və deyir ki, adama bir dənədən artıq olmaz. Kişi xudafizləşib, evinə gəlir. Arvad soruşur:

– Kişi, de görək, qızı gördün, görmədin? De görək, güzəranı necədir?

Kişi deyir:

– Kefi saz, damağı çağ. Hər şeyi var.

Kişi gördüklərini birbəbir danışır. Qızlar deyirlər:

– Onda bizi də apar görək.

Arvad deyir:

– Kişi, uşaqlar düz deyir. Bir gün biz də gedək görək. Bəlkə də elə sabah gedək.

Kişi deyir:

– Yox, heç olmasa bir müddət keçsin sora gedərik. Uzun sözün qısası, bu məsələdən bir neçə ay keçir. Kişi də arvad– uşaqların əlindən bir gün təngə gəlib deyir:

– Yaxşı, sabah səhər tezdən yola düşüb gedərik. Günortaya yaxın qayaya çatdılar. Kişi "Vaxsey" deyib səsləndi. Vaxsey zahir oldu. Kişi dedi:

– Uşaqlar bacılarına, ana da qızına ürəyi darıxır. İcazə ver gedək görək.

Vaxsey deyir, eybi yox. Qaya aralanar, içəri girirlər. Dünyada görmədiklərini orda görürlər, dünyada yemədiklərini orda yeyirlər. Bir az keçir, balaca qızdan soruşur:

– Bəs ərin hanı?

O deyir:

– Mən heç görməmişəm, bilmirəm.

– Necə görməmisən? Necə bilmirsən?

– Vallah, axşamlar bir armut yeyib yatıram. Heç nədən xəbərim olmur.

Balaca qız deyir:

– Yaxşı, biz gedəndən sonra sən o armudu yemə, gizlət. Gör, nə görərsən.

Qız da fikrə gedir. O da düşünür ki,mütləq bu işi görsün. Dədə-nənəsi, bir də bacılar gedəndən sonra axşam olur. Armudu gətirirlər, qız armudu yastığının altında gizlədir və özünü yuxuya vurur. Görür bir oğlan gəldi. Oğlan nə oğlan, adam deyir ki, göz baxıb tamaşa eyləyim. Amma gördü oğlanın boynundan açarlar asılıb. Qız bir az gözlədi. Oğlan yuxuya getdi. Qız da açarları götürüf, qapıları aça-aça getdi. Görür hər otaqda bir kişi bir işnən məşğuldu. Axırıncı otaqda bir cavan oğlan və bir arvad var. Arvad durub onun başı üstündə. Oğlana deyir:

– Məni alarsan?

Oğlan deyir,“yox”. “Yox” deyəndə arvad qaynar suyu tökür oğlanın başına, oğlan ölür.Təzədən o qarı oğlanı dirildir. Bir də deyir:

– Məni alarsan?

Genə yox deyəndə suyu tökür, öldürür.

Qız təzədən qapıları bağlayıb, ərinin yanına qayıdır. Hər nə eyləyirsə, açarları boynuna sala bilmir. Qız otaqdan çıxıb alma ağacının altında oturuf zar-zar ağlayır. Üç göyərçin gəlib ağacın budağında oturur. Göyərçinlərdən biri deyir:

– Ağlama, biz sənə kömək eylərik. Üç dənə buğda gətirib sənə verərik. Birini yeyərsən, birini suya salarsan, birini də un eləyib, tozunu açarlara səpərsən.

Qız həmin işi gördü. Ancaq fayda vermədi. Oğlanın hər şeydən xəbər oldu. Vaxseyi çağırtdırdı, dedi:

– Bu qız bizim sirrimizdən xəbərdar olub. Bunu götür dədəsinin evinə apar.

Vaxsey dedi:

– Axı qurban, bunun əyağı ağırdı, bu gün-sabah doğacaq.

Vaxsey qızı saraydan çıxardır, amma dədəsigilə aparmadı. O yaxınlarda bir qarıya apardı. Dedi:

– Bu qız doğana qədər burda qalsın.

Bir də tapşırdı kimsənin bu məsələdən xəbəri olmasın və kimsəyə söz eyləməsin. Qarı qəbul elədi. Ancaq qarı hər gün səhər evdən gedib bir daşın üstündə durub, axşama qədər ağlardı, axşamlar evinə qayıdardı. Bir gün qız dedi:

– Ay qarı nənə, niyə bu qədər ağlayırsan?

Qarı ürəyini açdı dedi:

– Dar dünyada bir dənə oğlum var. Günlərin bir günü bu qarşı dağlara getdi, bir də geri dönmədi. İndi mən hər gün səhər tezdən bu yolun ayrımında olan qayanın üstündə oturub, yolunu gözdəyirəm.

Qız dedi:

– Qarı nənə, qəm yemə. Mən sənin oğlunun yerini bilirəm. O sarayda bir arvadın tilsimindədir. Əyər mənə saraya dönməyimə kömək etsən, onda sənin oğlunu azad edərəm.

Bir müddət keçəndən sonra qızın səfərisi olur. Bir oğlan dünyaya gəlir. Vaxsey də uşağı aparmağa gələndə qız yalvarır ki, onu da götürsün. Qarı nənə və qız saraya gedirlər. O, əri ilə barışır. Yeddi gün, yeddi gecə şadlıq olur. Arvadına deyir, nə arzu edərsən de, sənə eləyim. Qız qarı nənəyə baxır. Ərindən onun oğlunun tilsimdən azad olmağını istəyir. Beləliklə, hər şey xoşluqla qurtarır.

## Tülkü

Günlərin bir günündə tülkü meşədə gəzirdi, birdən gördü böyük bir tələ içində bir tikə ət asılıb. Tülkü gördü ağzını ətə aparan kimi tələyə düşəcək, uzun düşündü, qurdun yanına gedib dedi:

– Qurd qardaş, bilirsən ki, mən bu gün orucam və buna da bilərsən ki, mən səni çox sevirəm, bunu görə gəl gedək, sən doyunca bir ət ye.

İkilər yola düşdülər, tələyə yaxınlaşdılar. Tülkü geri çəkilib qurda "buyur" dedi. Qurd ağzını ətə yaxın aparan kimi tələnin içinə düşdü və bu əsnada ət eşiyə atıldı, tülkü əti yedi. Qurd soruşdü:

– Hanı bə sən demədinmi mən orucam?

Tülkü dedi:

– Orucuydum, ancaq indi ayı gördüm, əgər orucumu açmasaydım, günaha batardım, ancaq sən də böyük savab iş gördün haa...

Qurd soruşdu:

– Bəs elə mən haçan ayı görəcəyəm?

Tülkü dedi:

– Elə bu yaxınlarda görərsən. Görərsən bir adam əlində bir böyük dəyənək və yanında da sənin cinsindən bir it gəlir, onda sən həm ayı görərsən, həm günü.

Bunu deyib getdi. Çox keçmədi tələnin yiyəsi gəldi, tələdə bir qurd, amma ətdən xəbər yox idi. Qurdu doyunca döydü. Qurd birtəhərlə yarımcanın adamın əlindən qurtarıb qaçmağa bacardı. Getdi, getdi, tülküyə rast gəldi. Dedi:

– İndi mən sənin hesabına yetişərəm. Sən məni ovçu əlinə buraxırsan?

Tülkü dedi:

– Mənim nə günahım, istərdin yaxın getməyəydin, tələyə düşməyəydin, ancaq indi bu sözlərin yeri deyil, sənin yeməyə ehtiyacın var, gəl gedək xan sarayına,

oradan xanımların qarşısında oynayarıq, onlar da əvəzində bizə yemək verərlər.

Qurd dedi:

– Əgər bizdən xoşları gəlməzsə, onda neylərik?

Tülkü dedi:

– Quyruqlarımıza muncuq asarıq, onda xoşları gələr.

– Muncuğumuz yox, haradan muncuq taparıq?

Tülkü oğurladığı boyunbağını qurda göstərdi:

– Bax mənim var, əgər muncuq istərsən, gecə gedərsən səhərə qədər dəyirman gölündə oturarsan, heç tərpənmərsən. Su buz bağlayanda sənin də quyruğunda muncuq düzələr. Qurd tülkünün sözlərinə aldanıb, dəyirmana getdi. Quyruğunu gölün suyuna qoydu. Hava soyudu, qurd üşüdü, dayandı, gölün suyu da buz bağladı, dondu. Səhər-səhər çox çalışdı ki, quyruğunu göldən çıxarsın, gördü mümkün deyil. Bu əsnada dəyirmançı gəldi, qurdu göldə görən kimi bir ağac götürüb qurdun canına düşdü. Qurd qaçmaq istədi, ancaq mümkün deyildi. Çox çalışandan sonra quyruğu qopub yarı canını götürüb qaçdı. Dərələri, təpələri aşdı, meşəyə çatanda tülküyə tuş gəldi.Tülkü dedi:

– Elə mən də səni axtarırdım, bə hardasan?

Qurd dedi:

– Ay hoqqabaz, bu dəfə kimsə səni mənim əlimdən qurtara bilməyəcək.

– Mən neyləmişəm ki, günahım nədir?

Tülkü ağlayır.

– Bundan böyük nə günah ola bilər ki? Məni dəyirmançının əlinə vermisən.

– Getməyəydin, ondan muncuq istədin, ancaq indi bu sözlərin yeri deyil. Gəl sənə toxuma öyrədim.

Qurd bunu qəbul etdi. Tülkü ağacın qollarını, dallarını qoparıb qurdun önündə oturub toxumağa başladı. Səbətin bir ağzını toxumuşdi ki, tülkü qurddan

istədi ki, səbətin içində otursun ta ki səbətin ölçüsü bəlli olsun. Qurd oturdu, tülkü  toxudu. Səbətin qurtarmasına az qalmışdı ki, qurd soruşdu:

– İndiyənə qədər mən heç bir şey öyrənə bilmədim.

Tülkü dedi:

– Tələsmə, bunu da öyrənərsən, bir az da gözlə.

Səbət qurtardı, bacası da tutuldu. Qurd bağırdı:

– Bəs mən hardan çıxacağam?

Tülkü :

– Ey axmaq, sən burdan heç çıxa bilməyəcəksən.

Səbəti təpədən aşağı fırlatdı. Səbət fırlanıb-fırlanıb gəlib çobanın ayağının altında dayandı. Çoban zənn etdi ki, icində bal var, səbəti də evə götürüb anasına verdi, dedi:

– Anacan, hər zaman qonaq gəlirsə, bu səbətdən bal götürüb qonağa gətirərsən.

Çobanın anası balı dadmaq üçün əlini səbətin içinə apardı, birdən qışqırdı. Çoban özünü anasına yetirib gördü ki, səbətdən bir qurd çıxmağa çalışır. Zopanı götürüb qurdun canına düşdü, qurdu ölüncə vurdu, leşini də arxa bağçaya atdı. Tülkü o yaxınlarda pusqu qurmuşdu, gəlib qurdu yeməyə başladı.

## Şahın gəzməyi

Bir şah vəzirlərinin birini öz yerində qoyub, o biri vəziri ilə təğyiri-libas olub, ölkəni gəzməyə çıxdılar. İkisi də dərviş paltarında kənd, şəhərləri gəzdilər, bir gün yolda bir kişiyə rast gəldilər. Kişiylə salamlaşıb yola davam etdilər, bir az yol gedəndən sonra dəvrişlərin biri dedi:

– İndi yolumuz birdi. Gəlin yola nərdivan qoyaq.

Kişi dedi:

– Bu uzunluqda yola necə nərdivan qoymaq olar?

Dərviş gördü kişi onun sözünü başa düşmədi, daha üstünü vurmadı. Getgedə şəhərə yaxınlaşdılar. Kişi dedi:

– Ağa dəvrişlər, sağ olun bura mənim şəhərimdi. Mənim evimin yolu bu tərəfdəndir. Ona görə sizdən ayrılıram.

Dəvriş dedi:

– Qardaş, bizi bir gecəlik evinə qonaq apar. Biz də Allahın qonağıyıq.

Kişi dedi:

– Allahın qonağı Allahın evinə gedər. Bax ora məsciddir, ora gedin.

Kişi onlardan ayrılıb evinə gəlir. Qızına halı-qəziyyəni danışır. Qızı deyir:

– Ata, get o dəvrişləri evimizə qonaq gətir. Görünür onlar ağıllı adamlardılar.

Kişi qızına üzünü tutub deyir:

– Qızım, sən onların üzünü görmədin. Hardan onların ağıllı olduqlarını bildin?

Qız atasına deyir:

– Ata can, onlar sənə dedilər gəl yola nərdivan qoyaq. Demək istiyirdilər ki, gəl sən ilə söhbət edək. Sən bu sözü başa düşmədin.

Qız nə qədər deyir ki, onları evə gətir, atası razılıq vermir. Deyir:

– Yaxşı, ən azından bir yemək hazırlıyım, apar onlara ver.

Ata razı olur. Qız bir boşqab dolma, bir bütöv təndir çörəyi, bir qab da süd hazırlayır. Atasına verir ki, apar qonaqlara ver. Mənim adimnan onlara de ki, qızım dedi: “Ay bütövdür, ulduzdar çoxdur, saya bimirəm, dərya da ağzına qədər doludur”. Beləliklə, atasını yola salır və deyir:

– Onlar bu sözə nə cavab versələr, eynən mənə danışarsan.

Kişi yolda çörəyin yarısını dolmalarla birlikdə yeyir və südü də içir, yeməyin qalanını dərvişlərə aparır. Dərvişlər görür boşqabda beş-on dolma və bir para çörək var, bir də boş bir kasa. Nəysə yeməyi yeyib, qablari kişiyə qaytaranda dərvişlərin biri deyir:

– Ay kişi, qızına de, ay paradır, ulduzlar da çox deyil beş-on dənədi, dərya da tamamilə quruyub.

Kişi gəlir evdə onların nə dediklərini qızına deyir. Qızı deyir:

– Ata, ayıb deyil, sən qonağın payını yeyibsən, südü də içibsən?

Kişi təəcüblə soruşur:

– Qızım, sən bunları hardan bilirsən?

Qiz deyir:

– Bunu dəvrişdər sənin dilindən mənə xəbər göndəriblər. Mən sənə deyəndə ki, ay bütövdür, ulduzlar çoxdur, dərya doludur demək istərdim ki, çörək bütövdür, dolmalar çoxdur, süd doludur. Dəvrişlər mənə xəbər göndərdilər ki, ay paradır, ulduzlar beş-on dənədir, dərya quruyub. Yəni, çörəyin yarısını, dolmaların çoxunu, südün hamısını içibsən.

Qız atasına israrla deyir ki, heç olmasa get dərvişləri bir günlüyə evə qonaq gətir. Qızının israrının qarşısında kişi aciz olub, gedib dərvişləri evə gətirir. Kişinin qızının gözləri bir az çəp idi. Evdə əşyaları rəflərə bir az əyri düzmüşdü. Dərvişlər evə girən kimi evə diqqətnən göz gəzdirilər. Qız "xoş gəldin" deyəndən sonra soruşur:

– Evimiz xoşunuza gəldimi?

Dərvişdərin biri qızın gözünün çəpliyinə işarə edib dedi: – Eviniz qəşəngdi, ancaq bir balaca bacası əyridir.

Qız isə cavab verdi:

– Bacasi əyri olsa da, tüsütü düz çıxır.

Dərvişlər bir az oturandan sonra qız xəbər alır:

– Ürəyiniz nə istiyir gətirim?

Şah (dərvişlərin biri) görür kişinin həyətində bir at və bir neçə toyuq var. Dedi:

– Elə bir şey gətir ki, içini özümüz yeyək, ortasını toyuqlara, qırağını da ata verək.

Qız o saat gedib ortaya bir yemiş gətirdi. Padşah qızın əğlinə təəccüb edib, afərin dedi. Şahla vəzir qızdan ayrılıb getdilər. Yol boyu bir pinəçiyə rast gəldilər. Şah eşitmişdi ki, bu pinəçi cox ağıllıdı. Odur ki, onun yanına gedib, əlini başına qoydu, pinəçi cavab olaraq əlini dilinə qoydu. Şah dedi:

– Pinəçi qardaş, doqquzu üçə vura bilərsənmi?

Pinəçı:

– Vurdum, tutmadı. Həmi də ikilər qoymadı.

Şah dedi:

– Uzaqdasan, yaxında?

Pınəçı dedi:

– Uzağı yaxın eyləmişəm.

Şah dedi:

– İkidəsən, üçdə?

Pinəçı dedi:

– İkini üç eyləmişəm.

Şah:

– Qaz göndərsəm yola bilərsən?

Pinəçi:

– Elə yolaram.

Şahla vəzir yola düşüb getdilər. Şah taxta çıxdı, dedi:

– Vəzir, sənin üçün eyib deyilmi pınəçinin danışdığını heç başa düşmədinmi? Mənasını bilmədin? Odur ki, get öyrən, amma kişini incitmə.

Vəzir coxlu puldan, qızıldan götürüb atını minib qayıtdi pinəçinin yanına. Onu tapıb dedi:

– Olar ki, bu sözdərin mənasını mənə açasan?

Pinəçi dedi:

– Hər sözə bir qızıl alaram.

Vəzir isə razılıq verdi. Pinəçi dedi:

– Şah əlini başına qoymaqda soruşurdu ki, başın səlamat olmağı üçün nə etmək lazımdı? Mən əlimi dilimə vurdum. Yəni, dili sakit qoymaq başa səlamətlik gətirər. Doqquzu üçə vurdunmu? Yəni, yazı, yayı, payızı doqquz ay işləyib, üç ay qışda dolanmaq üçün ruzu topluya bildinmi? Dedim, işlədim bir şey çıxmadı. Həm də otuz iki dişimdən artmadı. Sonra şah dedi, uzaqdasan yaxında? Uzağı ğörürsən, yoxsa yaxını? Mən cavab verdim ki, yaxını görürəm. İkidəsən, üçdə? Yəni, əyaxların sözünə baxırmı? Dedim ki, ikini üç eyləmişəm. Yəni, iki ayağımla yeriməyə çətinlik çəkirəm, əlimə ağac almışam. Axırda şah dedi, qaz göndərsəm yola bilərsənmi? Dedim ki, yolaram. O qaz da sən idin. Pullarını əlindən aldım. Vəzir pinəçiyə coxlu qızıl verdiyinə peşman oldu. Atını sürüb getmək istiyən-də fikirləşdi ki, mən də ona bir sual soruşum. Cavab verə bilməsəm pullarımı geri alım. Vəzir dedi:

– Yaxşı, indi sən de görüm bu saat padşah neynəyir? Pinəçi altdan yuxarı baxdı:

– Sən bilirsən padşah böyük adamdır. Padşah haqqında danışanda gərək hörmətli olaq. İndi mən oturmuşam quru yerdə. Qabağmda cırıq-cındır ayaqqabılar. Burdan şahın haqqında danışmaq olarmı? Gəl, sən atını ver mənə. Öz zərri əbanı da sal çiynimə. Qamçını da ver əlimə sonra deyim. Vəzir razılıq verdi. Atdan düşdü, o saət pinəçi yerindən siçrayıb ata mindi. Vəzirin zərli əbasını çiyninə salıb dedi:

– Vəzir, bil ağah ol bu saat padşah sənin kimi atlıları ilə yerdə piyadə, mənim kimi piyadələr ilə atlıdır, xudafis!! Pinəçi ata bir qamçı vurub gözdən itdi. Vəzir ha gözlədi pinəçi gəlib çıxmadı. Axırda suyu süzüləsüzülə getdi padşahın yanına. Padşah dedi:

– Vəzir, görürsənmı dünyada necə adamlar var. İndi de görüm, vəzirliyə o layiqdi, yoxsa sən?

Vəzir pinəçinin ondan ağıllı olduğunu boynuna aldı.

## Şansı axtaran kişi

Bir kişi başa düşür ki, şansı yoxdur. Onu axtarmağa başlayır. Buna görə də, zindəganlıxda işləri düz gəlmir. Zindəganlığı güc ilə dolanır. O elə inandığına görə təsmim tutur ki, gedib şansını axtarıb tapsın. Yatıbsa, onu oyatsın. Kişi yola düşür. Yolda bir qurda rast gəlir. Qurd soruşur ki, hara gedirsən. Kişi cavab verdi, gedirəm şansımı axtaram. Qurd dedi:

– Gedib tapsan, mənim də dərdimi deyib, cavabını al gətir. Mənim həmişə başım ağrıyır.

Kişi qəbul eyləyib, yola düşdü. Yolda bir cütçüyə rast gəldi. Cütçü gördü ki, adam şansının dalınca gedir. Dedi:

– Ay qardaş, mənim də sözüm var. O da budur mənim zəmimin bu tərəfində heç zad bitmir. Getdin bunun da illətini xəbər alıb gəlib mənə deyərsən.

Kişi "baş üstə" deyib, ondan ayrıldı. Gedib bir şəhərə çatdı. Şəhərin padşahı bu qərib adamı görüb soruşdu:

– Ay kişi, kimsən, hardan gəlirsən, hara gedirsən?

Kişi dedi:

– Şansımı axtarmağa gedirəm.

Padşah dedi:

– Əgər tapsan, mənim də sözüm var. Ona deyib cavabını al, gəl mənə de. Mənim sözüm budur ki, mən bu şəhərin padşahıyam. Hər şəhərin padşahıylə cəngə gedirəm. Qoşunum sınır, məyus qayıdıram. Bunun illəti nədir?

Kişi ona da "yaxşı, soruşub cavabını gətirrəm" deyib, yola düşdü. O, çox dolanandan sonra şansını bir yerdə tapmış gördü, ona dedi:

– Evin yıxılsın, qapın çırpılsın, niyə yatmısan, dur əyağa.

Şansı əyağa qalxdı. O, öz bədbəxtliyini qurdun, cütçünün, həm də padşahın sözlərini də ona dedi, hamısına cavab istədi. Şansı dedi:

– Padşah arvaddı. O, bir qərib kişi ilə evlənsə, arzularına çatar. Əkinçinin zəmisinin əkin olmayan yerində qızıl xəzinəsi var. Qazıb çıxartsa, zəmidə əkini olar. Qurdsa bir səfeh adamın beynini yesə, başağrısı toxtar.

Kişi şansını tapdıqdan qazandığına görə çox sevinə-sevinə qayıdıb gəldi. Şəhərin hakiminə dedi:

– Sən arvadsan, bir qərib kişi ilə evlənsən, işin düzələr. O günə kimi arvad olduğunu heç kəsə bildirməmiş. Padşah dedi:

– Nə yaxşı ki, o qərib kişi sən olasan. Gəl məni al. Həm mən arzuma çatım, həm də sən xoşbəxt ol.

Kişi qəbul eyləməyib dedi:

– Lazım deyil, mən şansımı qovzamışam.

O, oradan cütçünün yanına gəldi. Ona da şansının cavabını dedi. Cütçü bu sözü eşidəndə dedi:

– Elə olsa, gəl kömək eylə, xəzinəni çıxardıb yarı bölək.

Kişi cavab verdi:

– Oğlan, qaç get, mən şansımı oyatmışam. Daha onlara ehtiyacım yoxdu.

Gəlib qurda çatdı. Qurd soruşdu:

– Ay kişi, necə getdin, necə gəldin? Yollarda nələr gördün? Şansını tapdın, tapmadın?

Belə bir sualı gözləyənə kişi də başlayıb şansını tapmasını, şansının onlara cavablarını birbəbir dedi. Qurd dedi:

– Niyə hakim arvad ilə evlənmədin? Şansın qalxmışdı ki o, sən ilə evlənməyə hazır olmuşdu. Yoxsa ona oğlan-kişi az deyildir ki...

Kişi dedi:

– Mənim şansım qalxıb, daha bu işə ehtiyacım yoxdu.

Qurd xəbər aldı:

– Xəznəni çıxardıb bölməyə niyə razı olmadın?

Kişi cavab verdi:

– Dedim ki, mənim şansım qalxıb. Daha xəzinəni neynirəm?

Qurd dedi:

– Şansım mənə nə dedi?

Kişi dedi:

– Onun dediyinə görə, sən bir səfeh adamın beynini yeməlisən.

Qurd bu sözü eşidən kimi onun çənginə qalxıb ağzını onun kəlləsinə salıb dişlədi. Bərkindən dedi:

– Səndən səfeh adamı hardan tapacağam?

Bu sözü deyib, kişini öldürüb, beynini yedi.

## Bəni adəm əlinə düşmək

Günlərin bir günü Aslan təzə ovdan qayıtmışdı. Bir ağacın kölgəsində uzanıb istirahətlə məşğul idi. Bir inilti səsindən özünə gəldi. Bir balaca aralıda bir heyvanı gördü. Onun cüssədə balaca olduğu və bir az da aslana bənzədiyini gördü. Aslan bağırdı:

– Ay yoldan ötən, bura gəl, görüm.

Heyvan qorxa-qorxa aslana yaxınlaşdı. Aslan adını soruşdu:

– Qoçaq, adın nədir?

– Adım pişikdir, ağa.

– Əmioğlu, sən lap bizə oxşayırsan.

– Belədir, əmi oğlu, sizlərdənəm.

– Bəs niyə bu günə qalıbsan? Bu qədər balacalaşıbsan?

– Əmioğlu, soruşma, adam əlinə düşmüşəm.

Aslan dedi:

– Adam? O nə olan şeydir?

– Əmioğlu adamdır da, iki əli var, iki qıçı.

– Bə yaxşı niyə qorxa-qorxa danışırsan?

– Axı, əmioğlu, sən bilmirsən adam yaman məxluqdur. Aslan özündən çox razı dedi:

– Sənin işin olmasın, o adamı mənə göstər.

– Baş üstə, əmioğlu, göstərərəm.

Aslan yerindən qalxıb özünə bir hərəkət verib dedi:

– Elə isə düş qabağıma gedək. Onun yerini–yuvasını görək.

Pişik qabaqda, aslan onun arxasınca yola düşdülər. Az getdilər, düz getdilər, dərə təpə düz getdilər. Bir düzə çatdılar. Pişik o yan, bu yana göz gəzdirdi. Düzün sol tərəfində gözünə bir cütçü sataşdı. Pişik əyaq saxlayıb cütçünü aslana göstərdi, dedi:

– Bax, əmioğlu o adamdır. Məni də bü günə salan odur. Aslan bu sözü eşidən kimi adama sarı yüyürdü. Pişik yavaş-yavaş arxa təpəni aşdı. Cütcü öz aləmində idi. Aslanın bağırtısından diksinib yerində dayandı. Aslan bağıra-bağıra ona sarı səs çıxartdı. Cütcü gördü ki, özünü ona yaxın yetirsə, aslan onu parçalayacaq. Əyax saxladı, gözlədi. Aslan cütçüyə yaxın gəldi, neçə addımlığında dayandı. Cütçü tərpənmirdi. Aslan üzünü cütçüyə sarı tutub, acıqlı-acıqlı soruşdu:

– Bəni– adəm sənmisən?

– Bəli, mənəm.

Aslan bu sözü eşidən kimi bir az sakitləşdi, dedi:

– De görüm, sən mənim əmioğlumu neyçün bu günə salıbsan?

Cütçü soruşdu:

– Hansı günə? Hansı əmioğlundan danışırsan?

Aslan nərə çəkib dedi:
– Özünü bilməməzliyə vurma.
Cütçü Aslanın deyişməsindən uzaqlara qaçan pişiyi gördü. Aslan dedi:
– Bax, o pişiyi deyirəm.
Cütçü məsələnin nə olduğunu anladı. Bir az gülümsədi:
– Mənim işim budur. Hər kəs istəsə mənimlə güləşsə, o günə düşər. Əgər sən doğrudan aslansansa, gəl mənimlə güləş. Gör onda mən sənin başına hansı oyunu açaram.
Aslan acıqlanıb, "çox əcəb, çox yaxşı" deyib üzünü cütcüyə tutub bir addım irəli gəlib dedi:
– Onda hazırlaş.
Cütçü dedi:
– Ancaq hər işin öz vaxtı var, mənim gücüm bu gün yanımda deyil. Gücüm evdə qalıb.
Aslan dedi:
– Yaxşı, get gətir.
Cütcü bir addım aslana yaxınlaşıb, dedi:
– Qorxuram mən gedib gəlincə sən qaçasan. Onda mən neylərəm?
– Yox, mən qaçmaram.
– Sən burda otur məni gözlə. Yox, amma qorxuram sən yenə qaçasan. Yaxşısı budur ki, mən səni cütə bağlayım, qaçmayasan.
Aslan ki, özündən çox razı və minnətdar idi, bu sözə yox demədi. Cütçü onu cütə bağladı. Öküzü açdı, cüt ağacını götürdü. O yeri aslana sürdürdü. Cütçü gördü aslan da candan düşüb, cütdən açıb buraxdı. Aslan təpə doğru durmadan qaçdı. Pişiyə rast gəldi. Pişik soruşdu:
– Bəs əmioğlu, hara gedirsən?
Aslan dedi:
– Əmioğlu, mən bəni-adəm əlindən qaçıram.

## Üç bacı

Balaca bir kətdə, yoxsul bir ailədə üç bacı yaşıyırdılar. Dünya malından ancaq bir nərdivan, bir çoban iti, bir də əl dəyirmanı var idi. Ataları uzun bir xəstəlikdən sonra ölür. Bir az sonradan üç bacılar belə qərara gəlirlər atadan qalan mirası öz aralarında bölüb, ayrılsınlar. Böyük bacı tələsik əl dəyirmanını götürüb deyir:

– Birini tapıb evlənərəm, əl dəyirmanını ona verərəm. Qonşuların arpa, buğda, kürüşnəsini üyüdüb yaşıyarıq.

Ortancıl bacı nərdivanı hər şeydən qiymətli bilib onu da o, götürür. Axırıncı bacı da çarəsiz qalıb çoban itini götürür. O iki bacı gülüb, deyirlər:

– Sən öz qarnını doyura bilmirsən, istirsən bu itin də qarnını doyurasan?

O, bu sözlərdən inciyir. İtini yanına alıb iki bacıdan ayrılıb kətdən çıxır. “Allaha təvəkkül” deyib, yola düşür. Təpələri, dağları, meşələri aşıb, bir uçqun daxmaya rast gəlir. Qız bir qayaya söykənib itin gözdərinə baxdı. İtin baxışlarından oxuyur: “Sən burda gözlə, mən bir azdan gələrəm”. Qızın başqa çarəsi olmadığına görə itə “yaxşı” deyir. Bir az keçəndən sonra it bişmiş toyuğu dişinə alıb gəlir. Qız ətini, it sümüklərini yeyirlər. İt sonrakı gün yenə də gedir, bu səfər də bir qoyun budunu gətirir. O biri gün bişmiş bir ördək... Sən demə yaxınlıqda şahın sarayı varımış. İt su gilifindən (su yolu) keçib kimsənin xəbəri olmadan mətbəxdən istədiyini götürüb, qızın yanına gəlirdi. Bu işdən xəbər tutan fərraşdar şahın oğluna deyirlər. Oğlan əmr edir bu səfər it gələndə iti izləsinlər. Nə görərlərsə, gəlib şahın oğluna desinlər. Belə də olur. İti izləyəndə görürlər it bir daxmıya girir, apardığı yeməyi gözəl bir qızınan ortuya qoyub yeyirlər. O birisi gün şahın oğlu itin arxasıyca gedir, qızı görür.

Min bir ürəklə qıza vurulur. Qız başına gələnləri şahın oğluna danışır. Şahın oğlu cavabında deyir:

– Qara günün ömrü az olar.

Ordaca qıza evlənmək təklif edir. Qız da qəbul edir. Beləliklə, qırx gün, qırx gecə toy qurulur, aşıqlar çalıb-oxuyur, oxatanlar, kəndirbazlar bir tərəfdə, pəhləvanlar, rəqqasələr çalıb oyunurlar. Uzun illər firavan, şən yaşıyırlar.

Gün o gün gəlir ki, çoban itinin ömrü başa çatır, ölür. Qız onun cəsədini torpağa tapşırmır. Bir sandıxcaya qoyub evində gizlədir. Hər gün gəlib qız onunla razı-niyaz edərdi. Bir gün şah şübhələnir, sandıxcanı açır. Görür, itin cəsədi qızıl heykələ dönübdür.

## Arvadı ər saxlar, bostanı vər saxlar

Bir gün şah vəziriynən seyrə çıxmışdi. Birdən-birə gözü bir cütçüyə sataşdı ki, cütü sürə-sürə bir zəminin bu başından başına sındırım atır, oynayır. Yaxınlaşıb ondan xəbər alır:

– Nə səbəb var ki, bir zəminin bu başında, bir də o başında sındırım atırsan? Mən şahlığımnan sənin kimin xoş deyiləm.

Cütçü şaha dedi:

– Qibleyi-alem sağ olsun, arvadım yaxşıdı. Sındırım atmağım ondandır.

Şah cütçüyə dedi:

– Gəl sənə üç arvad verim, sən o bir arvadıvı ver mənə. Cütçü şahın sözünə arvadın boşadı. Şah onun arvadın aldı. Cütçüyə də üç arvad verdi. Cütçü bu arvadları gətirəndən sonra gördü ki, onların biri oğru, biri abırsız, o biri də dili uzundu. Kişi üç arvadın hər birinə bir ev tikdirib, hər evə də iki qapı qoydu. Əvvəldən bu evlərin birini oğru olan arvada verib dedi:

– Ay xanım, əgər bir şey oğurlarsan, istəsən mənim gözüm görməsin, mən bir qapıdan gələndə sən o qapıdan onu eşiyə apargınan.

Oğru arvad elə eşidəndə öz-özünə dedi:” Bu kişi yaxşı adama oxşuyur, onun kimin kişinin arvadına oğurluq yaraşmaz. Yaxşıdır ki, elə oğurluğu əldən salım”. O, oğurluğu əldən saldı. Cütçü abırsız arvadı da onun üçün tikdiyi evə götürəndə demişdi: ”Arvad, mən evdə olmuyanda evə oynaşın-zad gətirsən, istəsən ki mən görmüyüm, evə iki qapı qoymuşam, mən bu qapıdan girəndə, sən o qapıdan onu eşiyə ötür getsin”. Bu arvad da bu kişinin sözünü eşidəndə öz-özünə dedi: ”Bu kişi əcəb yaxşı kişidi. Asaram-kəsərəm yerinə mənə yol örgədir. Heç insaf deyil, belə adama xəyanət eyləyim”. O arvad da pis işlərini əldən salıb ərinə xəyanət eyləməkdən əl çəkdi. Cütçü o iki arvadı adam eylədi. Amma hər neynədi dili uzun arvada dil deməyi tərgitdirə bilmədi. Axırda onu bir çayın qırağına gətirib başın kəsib, qolun, qıçın bədənindən üzüb hərdən bir tikəsini çaya atırdı. Çay onu aparırdı. Bu işin üstündən bir il keçmiş idi. Şah vəzirə dedi:

– Vəzir, dur gedək görək cütçü o üç arvadını neynədi? Gəlib axtarıb yenə cütçünü tapırlar. Görürlər ki, genə də cütçü cüt sürə-sürə bir zəminin bu başında sındırılım atır, bir də o başında. Ona yaxınlaşıb salam, yorulmasından sonra şah dedi: – Ay kişi, yenə də səni kefdə-damaqda gördüm. Nə xəbərdi? Cütçü dedi:

– Qurban, arvadlarım yaxşı arvaddılar.

Şah dedi:

– Kişi, sənə üç arvad verdim ki, heç biri düz usullu arvad deyildir. Biri oğru, biri əyri, biri dili uzun idi. Necə deyisən arvadım yaxçıydi? Sənin mənə verdiyin arvad da heç yaxçı deyildi. Bunun nəyinə göylün xoş eyləmişdin?

Cütçü şaha dedi:

– Qibleyi– alem sağ olsun, “arvadı ər saxlar, bostanı vər saxlar”.

## Vəfalı it vəfasız arvaddan yaxşıdı

Bir kənddə bir kişinin bir arvadı var idi. Bir gün arvad ərinə dedi:

– Kişi, hamı kəntdən şəhərə köçür, sən də hər nəyin var sat, get şəhərdə bir ev al. Biz də xaxlar kimi gedək şəhərə. Kişi arvadının sözünə baxdı. Hər nə mal-mülk var idi, yeri-yurdu var idi satıb cəmən, yüz tümən pul cürlədi. O, pulu cibinə qoyub şəhərdə ev almağa getdi. Kişi gəlib ömründə görmədiyi şəhərə çatdı. Heç kimi tanımırdı. Bir yolun ayrımında durub gəlib-gedənlərə tamaşa eylədi. Birdən bir kişi gəlib onun qabağında dayanıb dedi:

– Qardaş, elə bil ki, qərib adamsan, hardan gəlmisən, niyə gəlmisən, kimi görəcəksən?

Kəndli kişi cavab verdi:

– Düzü, filan kənddən gəlmişəm. İstirdim şəhərdə bir həyət alam. Gedim arvad-uşağı da götürüb gəlim bura.

Şəhərli kişi soruşdu:

– Necə pulun var ki, şəhərdən ev alırsan?

Kəntdi dedi:

– Hər nəyim var satmışam, yüz tümən pul olubdu. Şəhərli dedi:

– Sən yüz yüməni mənə ver, mən sənə bir söz örgədim. Get sora bir ev al.

Kişi yüz tüməni ona verdi, o da dedi:

– Heç vaxt heç kimə "niyə, bu nə işidi, niyə belə eyliyisən?" demə. Yəni, heç kəsin işiynən işin olmasın. Kəndçi kişi qəbul eylədi. O kişi istədi gedə, bu ona dedi:

– Qardaş, yüz tümənimi elə buna aldın? Bu nə sözdü mənə örgətdin. Ver mənim pulumu.

Şəhərli kişi dedi:

– Yoxsa sən qəbul eləmədin ki, heç kimin işiynən işin olmuyacaq?

Kişi:

– Qəbul eylədim, amma bunu sənin mənim pullarımı almağa nə dəxli var?

Şəhərli kişi dedi:

– İndi ki qəbul eyləmisən, heç kimin işiynən işin olmuyacaq, mənim işimnən də işin olmasın.

Kəndçi gördü ki, iş işdən keçib kor-peşman kəndə gəldi. Arvad onu görən kimi xəbər aldı:

– Neynədin, ev aldın, ya yox?

Kişi yerini batırmış uşaq kimi başını aşağı salıb heç bir söz demədi. Onun bu işinnən arvad bildi ki, kişi pulların başına bir daş salıbdı. Buna görə də onu itələyib evdən eşiyə salıb, qapını içəridən bağladı. Qış vaxtı idi, hava çox soyuq idi. Kişi elə ki, gördü arvad onu evə qoymuyacaqdı, yolu qabağına qatıb getdi. Çox gedəndən sonra düz adağa çatdı. Hava qaranlıqlaşmışdı. Kişi genə də yol gedirdi, uzaqdan bir işıq gördü, gethaget o işığa çatdı. O işıq bir çadırda yanan çırağın işığı idi. Çadırın qabağında duruf, dedi:

– Ay çadır sahibi, məni qonaq eyləyirsən?

Çadırda olan adam eşiyə çıxıb bunu içəri apardı. Yedilər, içdilər, yatdılar, səhər olanda kişi istədi yola düşüb getsin. Amma çadır sahibi qoymadı. Dedi ki, qonax üş gün qonax olar. Üş gün qal, onnan sonra getsən, sözüm yoxdu. Kişi qəbul eylədi. Ottuduğu yerdə bu yan-o yana baxanda gözünə neçə cinazə sataşdı. Biri arvad idi, ucadan asılı gördü. Ancaq bir söz soruşa bilmədi. Axı, bütün var-yoxunu, pulunu verib bir söz almışdı. O söz də bu idi ki, heç kimə niyə beylə eyliyirsən, bu nə işdi görürsən və... belə-belə sözdəri soruşma. Yemək vaxtı olanda gördü ki, çadır sahibi bir iti çağırır, o itnən bir yerdə yemək yeyir. Yeməyin qalanını da aparıb asılı arvada bir qədər kötək çalandan sonra ona yedirdir. Üş gün geşdi. Kişi istərdi ki, getsin. Çadır sahibi dedi:

– Qonaq, niyə bə bu gördüklərinin illətini məndən xəbər almırsan?

Qonaq dedi:

– Düzün xəbər alsan, mən var-dövlətimi satıb bir sözə vermişəm. O sözə görə soruşmuram.

Çadır sahibi dedi:

– İndi ki, sən xəbər almadın, qoy mən özüm deyim. Mən bu ətrafın çox varrı-dövlətli olan adamıyam. Dostlarımnan yığışıb bu dağlarda ov vurub gətirib yeyib-içdik, xoş olduq. Bir gün dostlar mənə nəxşə çəkirlər yemək-içmək vaxtı məni kefli olanda qol-qıçımı bağlayıb aparıb tölüyə salsınnar. Mən neçə gün orda qaldım. Bu it olmasaydı, mən acından ölmüşdüm. Bu onların yeməklərinin artığını gətirib bacadan mənə salırdı. Bu arvad da mənim arvadım idi. Amma mən töylədə dustaq olanda o da o namərdlərə saqi olub, şərab paylayırdı. Bu vəfalı it mənim orda olmağıma razı olmadı, gəlib bacanı sökməyə başladı. İkimiz köməkləşib bacanı sökdük. Mən çıxandan sonra namərd yoldaşlarımın hamısını öldürdüm. Bu cənazələr də onların cənazələridi. Arvadı da asdım. İndi onun gözünün qabağında itnən bir yerdə yeyib-içirəm, qalan yeməyimizi bir az kötəkdən sonra ona verirəm. Qoy bilsin ki, vəfalı it vəfasız arvaddan yaxşıdır.

Dərddi kişi onun başına gələni eşidəndən sora öz başına gələni də dedi. Varrı-dölətli çadır sahibi də kəndçi kişiynən şəhərli kişidən örgəndiyi sözu örgənib ona çoxlu pul verib, yola saldı.

## Yoxsul kəndçi və varlı qoca

Bir gün yoxsul bir kəndçi bir qoca kəndlidən nuzula pul borc alır. Aylar, illər keçir, kəndçi yoxsullaşdıqca tacir də varlanır. Yoxsul pulunu qaytara bilmir. Hər il alan borcun üstünə borc gəlir. Bir gün tacir kəndçinin

evinə gəlir, borcunu tələb edir. Yoxsa qarşılığında kəndçinin mal-qarasını, dəyərli nə varsa aparmağa qərar verir. Yoxsul borcuna görə bir az da möhlət istəyir. Amma tacir razı olmur. Tacirin birdən gözü yoxsul kəndçinin gözəl qızına sataşır. Düşünür, kəndçinin qızını ələ keçirsin. Üzünü yoxsul kəndçiyə tutur deyir:

– Borcunun yerinə qızını ver özümə arvad edim.

Kəndçi razılaşmır. Tacir bir hiylə işlədir. Deyir:

– Gəl seçimi qıza buraxaq. Bir torbanın içinə bir al, bir də qara daş ataq. Əgər sənin qızın al daşı götürərsə, mən qızını almaram. Bütün borcunu da bağışlaram. Yoxsa qızın torbadan qara daşı götürürsə, qızını özümə arvad edib, yenə də bütün borcunu bağışlaram.

Pərdənin arxasında bu sözləri eşidən qız da istərdi ki, atasını  qoca zalımın borcundan bir təhər qurtarsın. Tacir bir neçə nəfərin hüzurunda sözünü təkrar edib, iki qara daş yerdən götürüb torbaya atır. Düşünür qız hansını çıxarsa, yenə də qız onundur. Daşların ikisi də qaradır. Qız tacirin hoqqasını bilir və düşünür burda özü də bir tərfənd işlədir. Hamının hüzurunda torbadan daşı çıxaranda cəld yerə salır. Hamıdan üzr istəyir deyir, həyəcandan oldu. Sonra deyir:

– Yaxşı, torbada iki daşdan biri yoxdur. O birini çıxartsam, yerə düşən daşın nə rəng olduğu bilinər.

Tacir ürəyində bu qızın zəkasına afərin deyir. Tərfəndini başa düşür. Torbadan qara daşı çıxardıb deyir:

– Bəs məlum oldu yerə düşən daş ağ imiş.

Beləliklə, tacir kor-peşiman hamının hüzurunda borcunu bağışlayır, o kənddən uzaqlaşır.

## Deyingən qara fatma

Ər arvadın deyingənliyindən bezir, çöldə bir quyunu nişanlayıb arvadını gəzdirmək adıyla çölə çıxarır.

Quyunun yanına yaxınlaşanda itəliyib quyuya salır. Bir neçə gündən sonra deyir, gedim görüm arvad ölübmü, qalıbmı. Quyuya yaxınlaşanda görür quyudan bir səs gəlir. O səs yalvarır:

– Çıxarın məni burdan.

Ancaq kişi bilir ki, bu arvadının səsi deyil. Yenə səs gəlir:

– Çıxarın məni burdan. Qızıl, sikkə, gümüş pul verərəm, qurtarın məni burdan.

Kişinin ürəyi rəhmə gəlir. Bir vedrə ipə bağlayır quyuya sallayır. Birdən görür bir ilan quyudan çıxır. Kişi kor-peşiman ilanı quyuya atmaq istəyir. Genə ilan yalvarır:

– Məndə pul yox, qızıl yox, amma səni varlandıra billəm. Mən şahın sarayına gedərəm, onun qızının boynuna dolaşıb kimsə məni ordan qurtara bilməz. Şəhərə car çəkəllər, onda sən gələrsən şahın qızını qurtararsan. Səni bu qəhrəmanlığına şah sənə ənam bağışlar, sən də varlı, dövlət sahibi olarsan.

Elə də olur. İlan şahın qızının boynuna dolaşır. Kimsə aça bilmir. Şəhərə car çəkirlər. Qara Fatmanın əri yaxınlaşır deyir:

– Mən ilanı açıb, şahın qızını xilas edərəm.

Şah xələt verir, sikkə bağışlayır, ilan qara Fatmanın ərinə yaxınlaşıb, deyir:

– Daha mənimlə işin olmasın ha. Məndən uzaq gəz. Mən əgər bir ayrısının boynuna dolaşsam, sən yaxın gəlsən də səni də çalaram.

Bir gün şəhərdə carçılar car çəkirlər. Bağdad hakiminin qızının boynuna bir ilan dolaşıb. Kim o ilanı qızın boynundan açarsa, hakim min sikkə qızıl verəcək. Heç kəs aça bilmir. Qara Fatmanın əri yaxın durmur. Hakim deyir:

– Ya açarsan, ya da ölərsən. Ya min sikkə qızıla sahib olarsan.

Nəhayət, kişi razılıq verir. İlana yaxınlaşanda ilan dilə gəlir, deyir:

– Sənin burda nə işin var? Mən demişdim axı gəlmə, səni də çalaram.

Kişi deyir:

– Mənim heç bir işim yox. Ancaq gəldim deyəm ki, qara Fatma quyudan çıxıb gəlir.

İlan bu sözü eşidən kimi qızın boynundan açılıb qaçır.

## Üç qardaşa qalan miras

Bir qəribin biri öləndə üç evladına miras qoyur. Böyük oğluna bir nərdivan, ortancı oğluna təbil, axırıncı oğluna da bir pişik miras qoyur gedir. Bir gecə böyük oğlan nərdivanı çiyninə alır gəzir ki, hardansa bir oğurluq eləsin. Bir divara yaxınlaşıb nərdivanı divara söykəyib, yuxarı qalxır. Qalxanda səslər eşidir. Tacir arvadına deyirdi:

– Ay arvad, aç qulağını yaxşı eşit. Gedirəm hacının evinə. Əgər müamiləmiz baş tutarsa, hacının oğlunu, ya nökərini göndərrəm deyər: "Bu nişannan ki, mən gedəndə sənə tapşırmışdım müamiləmiz baş tutarsa təndirxanadakı pulu verə gətirsin".

Bunu eşidən oğlan cəld nərdivandan enib, nərdivanı bir yerdə gizlədib, bir azdan tacirin qapısına yaxınlaşıb, qapını döyür. Tacirin arvadı qapını açır. Oğlan deyir:

– Məni tacir göndərdi, dedi sizə deyim ki, bu nişannan ki qapıdan çıxanda demişdim əgər müamilə hacı ilə baş tutarsa, hacının oğlunu göndərib təndirxanadakı pulu ver gətirsin.

Arvad gedib, gətirir pulu oğlana verir. Ortancıl qardaş görür böyük qardaş bir nərdivanla var-dövlət sahibi olur. Bu da düşünür atadan qalan təbili götürüb yola düşsün. Gecə gedir, gündüz gedir. Bir axşam bir

mağarada gecələyir. Qəfildən mağaraya iki canavarın gəlir, oğlan qorxuya düşür. Bir küncə sıxılıb qalır. Canavarlar insan iyini qoxuluya-qoxuluya mağaradakı oğlana yaxınlaşırlar. Oğlan çarəsiz qalıb mağarada təbili səsləndirir. Mağaranın içində təbil səsi çox güclü çıxır. Canavarlar sağa-sola qaçmağa başlayırlar. Nəhayət, mağaradan çıxıb qaçmaq istəyirlər. Ordan keçən dəvə karvanı təbil səslərini eşidib orda oturaq salır. Mağaradan çıxan canavarlar karvan başçısını və taciri yeyib parçalıyırlar. Qalanları isə işi belə görəndə qaçıb canlarını qurtarırlar. Dəvə kərvanı başsız, bütün var-dövlətiylə yiyəsiz, sahibsiz qalır. Oğlan mağaradan çıxıb, kərvanı evinə aparır. Beləliklə, ortancı oğul da var, mülk, dövlət sahibi olur.

İndi görək kiçik qardaş hansı yolla varlanacaq? Kiçik qardaş görür ki, iki qardaşı var-dövlət, mülk sahibi olublar, hörmət-ehtiram qazanıblar. O da düşünür oturmaqdan heç nə çıxmaz. Atasından irs qalan pişiyi götürüb köynəyinin altında gizlədib, yola düşür. Az gedir, düz gedir bir şəhərə yaxınla-şanda görür şəhərin qala divarlarının yaxınlığında hər addım başı əllərində bir dəyənək insan durub. Sağa-sola baxır. Oğlan birinə yaxınlaşıb deyir:

– Siz nə üçün burda durubsuz, nəyi, kimi gözdüyürsüz?

Oğlanın cavabında deyirlər:

– Bu yerlərdə siçan çoxdur. Siçanların əlindən amanımız kəsilib, rahatlıq tapa bilmirik. Burda növbə ilə durub keşik çəkirik. Qoymuruq siçanlar şəhərə girsinlər.

Oğlan deyir:

– Siz gedin arxayın yatın, istirahət edin. Mən hamınızın yerinə keşik çəkərəm. Qoymaram bir dənə də belə siçan şəhərə girə.

Hamı sevinib evlərinə yatmağa gedirlər. Oğlan pişiyini köynəyindən çıxardıb ortalığa buraxır. Pişik bir

neçə siçanı yeyir, bir neçəsini boğur, qalanları da qaçırlar. Bu xəbər şəhərə yayılır. Get-gedə şahın qulağına çatır. Şah oğlanı hüzuruna çağırır. İşinin sirrini örgənir. Oğlan baha qiymətlə pişiyi şaha satır. Beləliklə, kiçik oğlan da var-dövlətə sahib olur.

## Ata vəsiyyəti

Varlı, imkanlı bir atanın bir oğlu var idi. Oğul atanın var-dövlətini əyyaşlıqda, qumarda xərcliyir. Ata oğluna nə qədər nəsiyyət edir, xeyri olmur. Oğlunu dostlarından ayıra bilmir. Ata ömrünün son çağında deyir:

– Bilirəm ki, mənə inanmayacaqsan. Məndən sənə qalan var-dövləti qumarda, əyyaşlıqda yox edəcəksən. Bu balaca mətbəxin açarını boynundan as. Var-dövlət başa çatanda, dostlarını dost olmadığını biləndə, hər kəsdən ümidin üzüləndən kimsəyə yük olmayasan deyə gedərsən o mətbəxə. Tavandan sənə bir kəndir sallamışam. O kəndiri boynuna salıb öz hə-yatına son qoyarsan. Daha dilənçi gününə düşüb qapı-qapı dilənməzsən.

Oğul atanın sözlərinə inanmasa da, baş üstə deyir. Atasına söz verir. Zaman gəlir oğlan müflisləşir. Gün çörəyinə möhtac qalır. Dostları onu pulsuz görüb, ondan uzaqlaşırlar. Bir gün oğlan iki yumurta, bir az pendir, bir az çörək bir yaylığa qoyub çölə çıxır. Günortaya yaxın su arxın qırağında oturub, çörək yaylığını bir qırağa qoyub, əl-üzünə su vurub, başmaqlarını çıxardıb ayaqlarını suya qoyur. Bu əsnada bir qarğa çörək yaylığını götürüb uzaqlaşır. Oğlan ac-yalavac yola düşüb, dost-larının yanına gəlir. Başına gələn əhvalatı nəql edir. Dostları ona gülüb, lağa qoyurlar. Deyirlər:

– Bəsdi bu qədər yalan dedin. Yemək istəyirsənsə bir az yemək verərik.

Oğlan dostlarının acı, iynəli sözlərindən narahat olur. Dostlarının pul, var, dövlət dostu olduğuna inanır.

Atasının vəsiyyətini xatırlayır. Evə gedir. Kiçik mətbəxin qapısını açır. Əyağının altına kətil qoyub, kəndiri boynuna salır. Kəndir dartılanda tavandan bir torba qızıl, cəvahir tökülür yerə. Oğlan atasına rəhmət oxuyur. Tanrıya yalvarır, tövbə edir. Düz yola gəlir. Özünə bir neçə qulluqçu və qolu zorba adamlar tutur. Bir gün dostdarını qonaq çağırır. Yeyib-içəndən sonra oğlan üzünü dostlarına tutub, deyir:

– Bir gün çöldə bir qarğa bir qoyunu çənginə alıb aparır.

Bütün dostlar onun bu sözünü təsdiq edirlər. Deyirlər, olar. Oğlan üzünü həmən dostlarına tutub yenə deyir:

– Necə olar bir qarğanın çörək apardığına inanmırsız, amma bir qoyunu apardığına inanırsız. Görünür sizlər yalançı dostsunuz.

Qolu çomaqlı qulluqçularına deyir:

– Bu yalançı dostları döyün çölə atın.

# MİFOLOJİ MƏTNLƏR, ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

## Quleybani

Bir quleybani Almurad kişiyə vurulur. Buna görə də ancaq onun gözünə görünürdü. Gün o gün olur ki, Almurad kişi bu quleybani ilə evlənir. Bunu da Əlmurad kişidən başqa heç kəs bilmirdi. Bir gün Almurad kişi öz arvadıynan birlikdə çörək yapırdılar. Almurad yoldaşına kömək edirdi. Xəmirdən bir az qopub, təndirə düşür. Almuradın arvadı ərsini götürüb tən-dirə düşən kündəni çıxartmağa çalışır. Ərsini əlindən o yan bu yana atanda ərsin quleybaniyə toxunur. Bunu da təkcə Almu-rad görə bilir. Almurad belə görəndə güman edir ki, arvadı qəsdən quleybanini ərsinnən döyür. Buna görə də əsəbləşir, arva-dına deyir:

– Bu sənə neynəyib ki, dəmir ərsinnən onu döyürsən?

Bu əsnada arvad başa düşür ki, Almurad bir şeyi görür ki, o görmür. Buna görə də soruşur:

– Hanı, mən kimi vurdum? Sən kimi görürsən? Almuradın arvadı quleybaniyə inandığına görə yaxasınnan bir sancaq çıxardıb ərsinnən vuran tərəfdə sancaqlıyır. Nəhayət quleybani gözə görünür. Sonralar başa düşür ki, Almurad bu quleybani ilə evlənmişdir. Bu işin üstü açılandan sonra Almurad qorxur ki, quleybani bundan sonra daha burda qalmasın. Buna görə də onun yaxasından o sancağı açmırlar. Beləliklə, quleybani bir qadın şəklində hamıya görünür. Ancaq onun yeri-yatağı pəyədə olur. Mal-heyvanlara baxır, yem tökür, evə su daşıyır. Sancaq yaxasında olduğu üçün qaçıb gedə bilmir.

## Əl-arvadı (hal)

Yeni doğmuş qadını “nifas” quslu eləməyincə tək qoymaq olmaz. “Əl arvadı” gəlib ciyərini çıxarıb aparar, suya keçirər və arvadın ölümünə səbəb olar. Əl-arvadını hər kəs görsə, onu tutaraq, paltarına bir iynə, ya sancaq batırsa, o daha qaçıb gedə bilməz. Onu saxlayan hər dərmanını ondan soruşa bilər. O da deyər. Əl-arvadı ev işini görməkdə əl ayaqlı və diribaş olar. Hər nə qədər ki, sancaq, yaxud iynə onun yaxasındadır onu işlətmək olar. Amma biri sancağı çıxartsa, o qeyb olar. Əlbəttə, o özü iynə, ya sancağa əl vura bilməz. Ev işlərində, xüsusilə cəhrə əyirməkdə əlindən yaxşı iş gələr. Yəni, hər hansı bir xanımın on gündə gördüyü bir işi o, bir gündə görər.

***

.......Günlərin bir günü evə su gətirmək üçün bulaq başına gedən quleybani kəndin meydanına yaxın bir neçə uşağı aşıq oynamaqda görür. Onların qabağında olan aşıqları qapıb yola düşür. Uşaqlar onun ardınca gedib aşıqlarını istəyirlər. O deyir:

– Mənim yaxamda olan bu sancağı açın, sizin aşıqlarınızı verim.

Uşaqlar hər şeydən xəbərsiz sancağı açıb çıxardırlar. O aşıqları uşaqlara verib, evə qayıdır. Evin damına çıxıb damın bacasından Almurada səslənir:

– Ay Almurad kişi, neçə il sənin evində sənə quluq elədim qaldım. Amma sən məndən iki şeyi soruşmadın, bilmədin. Birincisi, cavan ölümün çarəsi nədir? İkincisi, qarın sancısının dərmanı nədir? Mən gedirəm, umuram ki, evinizdən zir– zibil əskik olmasın.

Quleybani bu sözü deyib, gedir. Bir daha onu nə Almurad, nə də başqaları görür.

## Nənkir, münkür

Bir gün Şəbistərdə bir nəfər şəxs günün ikinci yarısında vəfat eləmişdi. Qəbirstana adam göndərdilər ki, qəbir qazsın. Görkən qəbiri qazdı. Meyit sahibləri məsləhət gördülər ki, axşamı camaata zəhmət olmasın deyə, o gecə meyiti evdə saxlasınlar ki, səhər dəfn eyləsinlər. Xalq dedi ki, qəbir ağzı açıq qalmağı yaxşı deyil, şəhərə bir naxoşluq duşər. Gərəkdir ki, həmən qazılmış qəbirdə bir nəfər adam bu gecə yatsın, sabah meyidi dəfn edərik. Qəzaya bir nəfər çoban qəbirstan kənarında qoyunlarını otarırdı. Çobana deyillər, on tümən pul verərik, bu gecə bu qəbrin içində səhərə qədər yatasan. Çoban o gecə qəbirdə yatmış idi. Yanında bir böyük dəyənək də var idi. Şəbistərin iki lotusu düşünür ki, niyə bu çoban on tüməni tək yesin. Bu gecə birimiz Münkür, birimiz də Nənkir surətində gedib çobandan on tümən allıq. Bəs hər biri bir ağı kəfən asıb, ağacın başına əski və neft ilə lopa qayırıb gedirlər çobanın üstünə. Çoban nə Münkürdən bilirdi, nə də Nənkirdən xəbəri var idi. Gəldilər çobana dedilər:

– Mən rəbbə küm?

Çoban dedi:

– Mən ölməmişəm. Mən bir nəfər diri çobanam. Mənə on tümən veribdilər ki, mən bu gecəlik bu qəbirdə yatam. Hələ ölən sabah gələcək. Gedin, sabah gəlin.

Lotular əlində olan lopaların silkələyərək çobanı vurdular və ona təkrar dedilər:

– Mən rəbbə küm.

Çoban çox yalvardı ki, mən ölməmişəm, qulaq asmayıb çobanı lopayla vurdular. Çoban qəbirdən qalxıb Münkürün təpəsinə bir dəyənək endirdi, dərhal beyni yerə səpələndi, həlak oldu. O biri yoldaşı isə vəziyyəti belə görəndə şəhərə doğru qaçmağa başladı. Çoban onu qova-qova şəhərə saldı. Meyit olan evin yanında bir

xarabada hamam var idi, lotu qaçıb orda gizləndi. Çoban fəryad eylədi ki, ay camaat, bir çıraq gətirin. Çobanın səsinə camaat toplaşdı. Gördülər ki, həmən çobandı. On tümən pul alıb, qəbirdə yatmış idi. Dedilər ki, ey çoban, nə var? Dedi:

– Münkirlə, Nənkir səhv edib məni ölü bilib, qəbirstana gəlib məndən bir para sözlər xəbər aldılar. Dedim ki, mən ölməmişəm, meyit hələ sabah gələcək, qayıtmadılar. Əllərində olan gürz atəşiynən məni vurdular. Mən də qəbirdən qalxıb Münkürün təpəsindən bir dəyənək vurmuşam. Beyni dağıldı, öldü. Amma Nənkür zərbişəstimi görub qaçdı. Onu qova-qova salmışam bu xarabaya. Allaha xatirən, bir çıraq gətirin, əgər onu da öldürsəm daha qəbirdə olanlarımız rahat yatacaqlar. Münkür və Nənkirin şərindən birdəfəlik qurtulacaqlar.

Xalq fikirləşdi ki, yəqin çobanı vahimə basıbdır. Çobanı bir dil ilə yola saldılar. Sabah qəbirstana gələndə gördülər bir nəfər lotuların kəlləsi dağılıb. Onu tanıdılar. Yoldaşının da kim olduğunu bilirdilər. Beləliklə, qəziyyə məlum oldu.

## Qismət olsa

Qədim zamanlarda bir tacir Yəməndən parça gətirib satardı. Yəməndən aldığı parçanı top-top bardanaya doldurmağa məşğul olduğunda Yəməndəki tacir bir badamı sındırıb içini tacirin ağzına qoymaq istəyəndə badamın içi tacirin dodağından züyüb bardananın içinə düşür. Parçaları bardanadan çıxartmaq zəhməti badamın içini tapmağa dəyməz. Tacir gəlib öz şəhərinə parçaları bardanadan çıxardanda tacirin oğlu badam içini görür. Götürüb ağzına qoyur. Tacir deyir:

– Qismət olar gələr Yəməndən, qismət olmasa düşər dəhəndən.

## Dədəbəy yerinin buğdaları

Bir nəfər Əlişahın Dədəbəy yerləri adlı zəmilərində buğda əkmiş idi. O il yağınlıq az oldu və əkin olacağı kimi olmamışdır. Biçin vaxtı kişi oraxca və sairə vəsailini götürüb zəmiyə gedir. Zəmiyə çatanda görür ki, bir kol burda, bir kol orda, özü də yerdən seçilmir. Kişi əkin əkdiyinin zəhmətindən keçə bilmir. Məcbur halda zəmiyə düşür tək-tük tapdığı sünbülləri dərməyə başlayır. Zəmi çox böyük idi. O neçə gün işləyəndən sonra əkini dərir qurtarır. Kəndə gələndə biri ondan xəbər alır:

– Əkinlərin biçmisən, ya yox?

O kişi bir ah çəkib belə cavab verir:

Getdim Dədəbəyin gölün bağladım,
Orda oturdum doyun qarın ağladım.
Üç gün buğda biçdim bir bağ bağladım,
Ay ağalar, yer buğdadan ucaydı.

## Ana əli kötəyi

Bir nəfərin arvadı dünyadan gedirdi. Arvad ərini yanına çağırıb buna belə vəsiyyət eylədi:

– Mən ölsəm mənim sağ əlimi kəsib saxla.

Kişi dedi:

– Arvad, bu nə sözdü?

Arvad cavab verdi:

– Mən öləndən sonra sən evlənəcəksən, mənim əlimi gətirəcəyin arvada verərsən. Deyərsən ki, əvvəlki arvaddan olan uşaqları vuranda öz əliylə yox, bu əl ilə vur.

Arvad bu sözləri deyib dünyadan getdi. Kişi onun vəsiyyətinə görə əlini kəsib saxladı. Sonra bir arvad alıb evə gətirdi. Əvvəlki arvadın əlini ona verib dedi:

– Əvvəlki arvaddan olan bu uşaqları vurmaq istəyəndə bu analarının əliylə vurarsan.

Ögey nənə qəbul edib, o uşaqları vurmaq istiyəndə öz analarının əliylə vurardı. Buna görə də bu uşaqlar heç vaxt yetimlik hiss etməzdilər. Ögey nənə gördü ki, bu əl ilə vuranda onlar nə təkcə narahat olurlar, bəlkə də günbəgün kefləri saz olur. İnsafsız ögey nənə ondan sonra təsmin tutdu ki, onları anaların əliylə yox, öz əliylə vursun. Belə də elədi nəticədə uşaqlar günü-gündən dalı düşdü. Arıqlayıb və anasızlığı hiss etdilər.

## Koroğlu

Günlərin bir günü Qoç Koroglu dəliləri ilə birlikdə yağılara qarşı Ərzurum səfərinə cıxmışdı. Düşməninin güclü olduğunu Koroğlu bilmirdi. Bu ağır savaşda onun dəliləri həlak olur. Koroğlu isə təkbaşına gecə-gündüz Qıratın belindən enmədən savaşır. Nəhayət, düşmənə qalib gəlir. El-obasının yolunu tutub gəlir. Ac-susuz Mişov dağlarına çatır. Yadelli bir çobana rast gəlir. Çoban hardan gəldiyini soruşur. Koroğlu başına gələnləri birbəbir danışır. Çobanın düşmən olduğunu Koroğlu bilmir. Sən demə, o Koroğlunu gözləyirmiş. Ona görə də zəhərli bitkilərdən hazırladığı dərmanı daşın altından çıxardıb qurutdu aşa qatır. Beləliklə, düşmən Koroğluya qalib gəlir. Koroğlu isə hündür bir qayaya söykənir, yuxuya gedir. Yatdığı yerdə tilsim olur.

# LƏTİFƏLƏR, MƏZƏLİ ƏHVALATLAR

## Nuxtasız

Şeytan yolla gedirdi. Dalıdan bir kişi gəlib soruşur:
– Hara gedirsən?
Şeytan deyir:
– Gedirəm bu qabaxdakı kəndə.
Kişi deyir:
– Mən də gedəcəyəm o biri kəndə. Ora qədər yoldaş olub gedək.
Kişi şeytanın əlində bir neçə gözəl kəndir görür. Soruşur:
– Bu ipləri neylirsən?
Şeytan cavaf verir:
– Qabaxdakı kənddə neçə adamın başına salıb nuxdalıyacağam.
Kişi deyir:
– Birin də mənim başıma vur da.
Şeytan deyir:
– Sən mənimlə gəlirsən, sənə nuxda gərəh deyil.

## İki eşşəyin yükü

Bir gün padşah öz oğluyla ova gedir. Hava bərk isti idi. Onlar paltarlarını çıxardıb, təlxəyə yükləyirlər. Şah təlxəyə baxıb güldü. Dedi:
– Təlxək, sənin belində bir eşşəyin yükü var.
Təlxək cavabında deyir:
– Yox, qurban, iki eşşəyin yüküdür.

## Hər kəsi məsləhət görürsən

Şəhzadə əmiri-əzəm vəhyəllah Mirza Sipəhsalanın oğlunun bir qara qulu var idi. Bir gün onu ağlar görüb soruşur:

– Niyə ağlayırsan?
Qara qul neyçün ağladığını deməkdən çəkinir. Çox israr edəndən sonra qul deyir:
– Aşiq olmuşam.
Əmir soruşur:
– Kimə?
Qara qul uzun fikrə gedəndən sonra dedi:
– Hər kəsi ki, siz məsləhət görürsüz.

## Mollanın əhvalatı

Deyirlər ki, bir gün molla yol gedirdi, yorulmuşdu. Dedi:
– Xudavənda, bir mərkəb mənim üçün yetir ki, mən səvar olum. Daha piyadə yol getməyə taqətim qalmadı. Nagahan bir piyadə digəri yorulub, yolda qalmışdı. Mollanı tutub dalına səvar oldu. Molla nəhayətdə xəşmigin olub dedi ki, Xudavənda, altmış ildir ki, Allahlıq eyliyirsən hələ də sözümü anlamırsan. Mən məgər belə demişdim?

## Sən satacaqsan, yoxsa mən?

Bir gün molla çərçilik edir. Ağzını açan kimi eşşəyi də başladı anqırmağa. Molla səsini kəsdi. Bir azdan yenə molla müştəri çağırmaq üçün ağzını açdı. Eşşək yenə anqırdı. Molla əsəbləşib dedi:
– Yoldaş, bu malı sən satacaqsan, yoxsa mən?

## Yerin mərkəzi

Molla bir yerdən keçirdi. Gördü bir qrup insan yerin mərkəzi haqqında mübahisə edirlər. Molla yaxınlaşdı məsələni öyrəndi. Camaat mollaya müraciət etdilər:

– Ay, molla, sən de yerin mərkəzi hardadır?

Molla dedi:

– Niyə əsəbləşirsiniz, elə mən durduğum yerdədir. Camaat təəccüblə mollaya baxdılar. Molla dedi:

– Niyə təəccüb edirsiz? İnanmırsız ölçün.

## Molla Nəsrəddin və xəsis qonşusu

Bir gecə Molla Nəsrəddin Allaha yalvara-yalvara bir neçə rəkət namaz qılıb Tanrıdan düz min sikkə qızıl tələb edir. Nə az, nə çox. Deyir:

– Ey rəhman, ey kərim olan Allah, səndən min sikkə qızıl o gözə-görünməz xəzanəndən mənə yetir. Nə az və nə çox. Ancax min sikkəylə qoy mən də başımı başlar içində qaldırım. Mənim də başım ucalsın.

Əllərini qartal kimi göyə açıb, başını dik tutub, dərinnən bir nəfəs alıb deyir:

– Min sikkə qızıl. Nə az, nə çox.

Mollanın bu sözlərini eşidən xəsis, varlı bir qonşusu deyir:

– Yaxşı olar mollaynan bir az baş-başa qoyub, bir az ələ salax.

Buna görə də doqquz yüz doxsan doqquz dənə qızıl sikkə bir torbaya qoyub, divardan mollanın həyətinə atır. Molla qızıl sikkələrin səsini eşidib pəncərədən özünü həyətə tullayır. Bir torba qızıl sikkələri görən kimi gözləri ışım-ışım ışıldayır. Bir azdan düşünür, olmaya yuxu görürəm? Bəlkə də məni qara basır? Sikkələri əlində oynatdı. Gördü yox, nə yuxu görür, nə də qara basır. Sikkələri dənə-dənə saydı gördü doqquz yüz doxsan doqquz dənədir. Dönə-dönə dedi:

– Niyə biri azdır?

Üzünü göyə tutub dedi:

– Buna da şükür. Buna da razıyam. Qoy elə biri az olsun.

Xəsis qonşu divarın o tərəfindən qulaq asırdı. Gördü ki, bu məsələ biraz ciddiləşib. Gördüyü işindən peşiman oldu. Öz əliylə öz başına iş açıb. Öz-özünə dedi, bu məsələ bundan artıq böyüməmiş gedib sikkələrimi alım. Yoxsa bu iş zarafat götürməz. Tez divarın bu tərəfindən mollanı səslədi. Molla cavab vermədi. Yenə səslədi. Molla dedi:

– Kimdi?

Qonşu dedi:

– Mənəm.

Molla uca səslə dedi:

– Get, sabah gəl. İndi vaxtım yoxdu.

Bir neçə dəfə belə cavab verdi. Qonşu dedi:

– Necə vaxtım yoxdu, tez ol gəl bu qapını aç. Yoxsa, qapını qıracağam. Tez ol gəl.

Molla küçə qapısını açar-açmaz qonşu içəri təpilir, deyir:

– Hanı mənim o qızıl sikkələrim?

Molla deyir:

– Nə qızıl? Sən mənə qızıl vermişdin?

Xəsis qonşu nəfəsini dərib deyir:

– Bir kisə qızıl sikkəni mən sənə atmışdım. Tələs, get mənim qızıl sikkələrimi gətir.

Molla qonşunun əlindən tutub çöl qapısına qədər apardı, dedi:

– Çıx mənim evimdən. Mən Allahdan bir şey arzulamışdım, o da mənim arzumu yerinə yetirdi. Get burdan.

Qonşu qaldı qapının o biri tərəfində. Mollanı dönədönə hədələdi, dedi:

– Gedib sənin əlindən qaziyə şikayət edəcəyəm.

Molla ki qızıl sikkələrin şoqundan sərməst olmuşdu. Qonşunun sözlərini və təhditlərini heç vecinə almırdı. Xəsis qonşu qızıl sikkələri itirdiyindən yata bilmə-

mişdi. Səhəri qaziyə şikayətə gedir. Gəlib mollanın qapısını döyüb, deyir:

– Qazi səni çağırır. Gedək.

Molla deyir:

– Sən məni qazi-mazidən qorxutma, hara desən gedərik.

Qonşu, molla həmən yola düşdülər.

– Gedək ki, qazi bizi gözlüyür.

Biraz gedəndən sonra görür molla çox yavaş və ləng gəlir. Üzünü mollaya tutub, deyir:

– Tələs.

Molla deyir:

– Mənim ayaxlarım ağrıyır, gələ bilmirəm.

Xəsis qonşu cəld eşşəhdən yerə enib, deyir:

– Görünür sənin gəlməh fikrin yox, yaxşı, gəl min eşşəyə, mən ayağnan gələrəm.

Molla eşşəyə minir, eşşəh yola düşür. Xəsis qonşu arxasınca yüyürə-yüyürə qaçır. Bir an molla eşşəyin cilovunu çəkir. Eşşək durur. Xəsis qonşu arxada qalmışdı. Yaxınlaşıb üzünü mollaya tutub, nəfəsini dərib deyir:

– Hə molla, yenə nə olub?

Molla yorğun-tutqun halda dedi:

– Bu heyvan səndən sürətli gedir. Belimə yel dəyir. Mənim yaşım-başım keçib. Soyuxluyub ölə bilərəm.

Bir asqırıb, bir öskürdü. Xəsis qonşu vəziyyəti belə görəndə öz əbasını çıxarıb molluya verir. Lağnan deyir:

– Başqa bir əmriniz var? Yemək, çay lazımdır sizə?

Molla yox deməzdən qabax eşşəh yola düşür gedir. Nə-hayət, gəlib qazinin evinə çatıllar. Xəsis qonşu töyşüyə-töyşüyə arxadan çatıb, molladan tez qazının yanına yügürdü. Dedi:

– Cənab qazi həsrətləri, min bir müsübətlə bu mollanı gətirmişəm.

Qazi üzünü mollaya tutub dedi:

– Bu kişi iddia edir sənin yanında bir kisə qızılı var. Sən bu sözə nə deyirsən? Doğrudur?

Molla deyir:

– Cənab qazi, bu kişi dünən axşam da mənim evimə gəlib bu sözləri mənə dedi.

Qazi üzünü xəsis qonşuya tutub deyir:

– Sən şahidin var ki, qızılların bu kişinin yanındadır.

Xəsis qonşu dedi:

– Yox, ancax and içə bilərəm.

Qazi düşündü ki, xəsis qonşu yalan deyir. Biraz fikrə gedəndə molla deyir:

– Cənab qazi, icazə verin mən gedim. Bazardan biraz alış-verişim var. Yerinə yetirim.

Molla yola düşəndə xəsis qonşu üzünü qaziyə tutub deyir:

– Cənab qazi, bu gedir utanmadan da mənim əbamı da vermədən gedir?

Qazi soruşur:

– Demək istirsən mollanın əynindəki əba da sənindi?

Molla deyir:

– Cənab qazi, bu adam hərdən bir hava çalır. Qorxuram birazdan deyə mən mindiyim eşşəh də bunundu.

Xəsis qonşu heyrətdən gözdəri böyümüşdü. Üzünü qaziyə tutub dedi:

– Cənab qazi, o eşşəh də mənimdi.

Qazi üzünü xəsis qonşuya tutuf deyir:

– Ay adam niyə yersiz iddialar edirsən? Axı, mən özüm gördüm sən əyağnan gəldin, molla eşşəynən. Dur burdan çıx get. Yoxsa yersiz iddialarına görə səni zindana atarm.

Xəsis qonşunun rəngi qaçmış, əl-ayağı əsə-əsə qazinin yanından ayrıldı. Gördü molla qapıda durub onu

gözdüyür. Molla gülümsədi. Üzünə baxdı. Əbasını çiyninə salıb dedi:

– Sən istirdin məni ələ salasan. Məsxəriyə qoyub güləsən. Mən də düşündüm, qoy indi ki belədir mən səni ələ salım, bir az da mən gülüm.

Xəsis qonşu biraz ürəyi yerinə gəlir, məcburi gülümsədi dedi:

– Elə isə sən yaxşı bilirsən ki, o qızıllar da mənimdi?

Molla gülərək dedi:

– Bəli, doqquz yüz doxsan doqquz dənə sikkə də sənindi. Evə çatanda gəl apar. Bir də yadında qalsın yersiz zarafatları eləmə.

## O axı eşşəkdir

Molla məhlədə şərab içən sərxoş bir kişiyə üzünü tutub dedi:

– Neyçün şərab içirsən? Hazır allahın verdiyi təmiz suyu niyə içmirsən?

Sərxoş dedi:

– Axı, su sudu, şərab da şərab. Əlbət də, şərab yaxşıdır. Molla dedi:

– Gəl bizim eşşəyin qarşısına bir vedrə su qoyaq, bir vedrə şərab. Görək hansısını içir. Əlbət də, suyu.

Deyir:

– Molla, o axı eşşəkdir.

## Onun da fikrini eləmişəm

Molla minbərdə dedi:

– Biz elə bir maşın icad eləmişik ki, o maşınla günəşə gedəcəyik.

Mollaya bir nəfər yaxınlaşıb dedi:

– A molla, nə danışırsan? Günəşin neçə min kilometirliyinə yaxınlaşan hər şey günəşin şüasından od tutub yanır.

Molla soyuqqanlıqla cavab verdi:

– Sən qorxma, mən onun da fikrini eləmişəm.

## Molla Nəsrəddinin evlənməyi

Molla Nəsrəddin dostuynan görüşəndə dostu ondan soruşur:

– Ay Molla, hələ evlənməmisən?

Deyir:

– Yox.

– Bəs haçansa evlənməyi düşünürsən?

Molla deyir:

– Hə gənclikdə bir dəfə qərara gəlmişdim kamil düşünən bir arvad alım. Dəmeşqdə biriylə tanış oldum. Gördüm dünya-dan xəbərsiz biridir. Sonra İsvahana getdim, birini tapdım. Gördüm o səma cisimlərindən çox bilir, amma gözəlliyi yoxdur. Qahirədə bir gözəl qızı gördüm. Savadlı, kamallı bir xanım.

Dostu soruşur:

– Bəs nə oldu? Evləndin?

Dedi:

– Yox.

– Bəs niyə?

Molla deyir:

– Çünki o da kamil bir kişini axtarırdı.

## Molla Nəsrəddin və hambal

Molla bir hambalı çağırır deyir:

– Bu bir sandıq şüşəni o yuxarı mərtəbiyə aparsan sənə üç nəsihət verərəm.

Hambal deyir:

– Yaxşı.

Bir neçə pilləyə çatandan sonra hambal deyir:

– Yaxşı Molla, o öyüdlərin birini de.

Molla deyir:

– Əgər biri sənə nağd alış-veriş nisyədən yaxşıdır desə, inanma.

Hambal bir az gedəndən sonra deyir:

– Bəs, yaxşı ikincisini de.

Molla deyir:

– Əgər biri sənə desə gümüş pul qızıldan yaxşıdır eşit inanma.

Hambal bir az yuxarı qalxandan sonra deyir:

– Artıq çatdıq, üçüncüsünü de.

Molla deyir:

– Əgər biri sənə bişmiş noxud cücə pulovdan yaxşıdır, eşit inanma.

Hambal əsəbi halda mollaya baxır, sandığı yuxarı mərtəbədən aşağı fırladır. Üzünü mollaya tutub, deyir:

– Ay Molla, əgər biri sənə desə bu sandıxda qırılmıyan bir şüşə var, eşit inanma.

## Çox söydüm

Molla Nəsrəddin bir gün səfərə gedirdi. İki qılıncı, iki süngüsü var idi. Bir piyada ona rast gəldi. Mollanı soydu, üryan elədi. Molla üryan və nalan şəhərə gəldi. Başına gələnləri söylədi. Dedilər ki, yaxşı səndə iki

qılınc, iki nezə ola-ola bir piya-da bir dəyənəynən necə səni soydu? Molla dedi:

– O səbəbdən ki, əlimdə qılınc var idi, bir əlimdə də süngü. Fürsət vermədi ki, nezəni ona həvalə edim, məni soydu. Elə ki, o məni soyub getdi, bir ağac ki ondan aralandım onu çox söydüm.

## Avam kəndli

Azərbaycanın tanınmış şəhərlərindən biri Ərdəbildir. Bu şəhərdə avam bir kəndli mədrəsənin qabağından keçərkən görür ki, molla uşaqlara dərs verir. Həmin mədrəsəyə daxil olur deyir:

– Ay molla, mənim də bir qoduğum var, ona dərs verərsən?

Molla kişinin avam olduğunu dərhal başa düşür. Deyir:

– Eybi yox, dərs verərəm.

– Çox yaxşı, gedib gətirrəm.

Yadına düşür ki, qiyməti öyrənsin. Deyir:

– A molla, altı ay üçün neçə alarsan?

Molla deyir:

– Altı ay dərs vermək üçün altı tümən alaram.

Yazıx kəndli razı olur, gedir qoduğu gətirir mollanın hüzuruna. Altı tümən pulu qabaqca verir deyir ki, mollacan, bu qoduğun əmanəti, yaxşı təlim edərsən. Molla deyir:

– Ay kişi, sən öləsən, xatircəm ol.

Yazıq kəndli bir də buraya altı aydan sonra gələcəyini bəyan edir, mürəxxəs olur. Molla isə sabah qoduğu da üç tümənə satır, doqquz tümən müftə pulu qoyur cibinə. Vaxt olanı günlər keçir, altı ay tamam

olanda haman kəndli gəlir qoduğun aparsın. Mədrəsəyə daxil olub görür ki, qoduq burda deyil. Mollaya deyir:

– A molla, mən heç bu qoduğu bu uşaqların arasında görmürəm, qoduq necə oldu?

Molla deyir:

– Gözün aydın olsun, qoduğun o qədər zirək və o qədər fəhmli idi ki, məni iki aydı gəlib keçdi. Mən daha onun dərsində aciz qaldığım üçün göndərdim Təbriz mollasının hüzuruna ki, ondan təlim alsın.

Kəndli xoşhal olub bir baş üz qoyur Təbrizə. Bir neçə gündən sonra şəhərə çatır. Gedir Təbrizdə məşhur bir mollanın xidmətinə. Ərz edir ki, bəs mənim qoduğum Ərdəbil mollasının hüzurunda idi, özü dərsində aciz qaldığı üçün göndərmiş sizin yanınıza ki, sən ona təlim verəsən. İndi gəlmişəm ki, qoduğu aparam. Çünki daha işim keçmir, özümə eşşək lazımdır. Molla bunun aldanmasını düşünüb deyir, ay filənkəs, insafən sənin qoduğun o qədər zirəkdir ki, məni də bir ay təlimdə məəttəl qoydu. Belə ki, o özü məndən çox bilirdi. Bu cəhətə göndərdim onu İsfahanın baş mollasının xidmətinə. Get oraya. Fağır kəndli tədarük görüb, üz qoyur İsfahana tərəf. İsfahana çatandan sonra şəhərin məşhur mollasını xəbər alır, hüzuruna müşərrəf olur. Ərz edir ki, mənim bir qoduğum vardı, vermişdim Ərdəbil mollasına ona dərs versin, şoqərib qoduq iki ayda mollanı keçib, o dəxi göndərib Təbriz mollasının hüzuruna. Onu da bir ayda keçib Təbriz mollası isə sizin xidmətinizə dərs oxumağa göndərmişdi. Xahiş edirəm daha bəsdir təlim aldı. İndi biçin vaxtı yaxınlaşdığı üçün mənim qoduğumu mənə iltifat edəsiniz. Bu molla da onun aldanmasını bilib deyir:

– Ay kişi, sənın qoduğun, maşallah, çox zirəng və fərasətli idi. O sənə Allah vergisi kimi bir şeydir. Heç

belə şey olmamışdır. Məni burda 15 günə keçdi. Mən ona dərs verməkdən aciz qaldım. Mən də göndərdim Tehrana ki, paytaxtda bir siyasət oxusun. Belə şey heyifdir.

Kəndli bu mollaya təşəkkür edib birbaşa Tehrana azim olur. Bir neçə gün yol gedəndən sonra şəhərə yetişir. Öz qoduğunu qabağına gələn kəsdən öyrənir. Mənim bir qoduğum var idi ki, Ərdəbil mollasını 2 ayda, Təbriz mollasını 1 ayda, İsfa-han mollasını 15 gündə elmdə ötmüşdür. Hamısı onun təlimində aciz qaldıqları üçün buraya göndərmişlər ki, bir qədər də si-yasət oxusun. Onu tanımırsız ki, mənə nişan verin. Demə ki, bu kişi lotu imiş. Eşidən o saat xəbərdar olub deyir:

– Ay kişi, varilən sənin o qoduğun çox zirəng şeydir. Mən belə zirəng maddə heyvan görməmişəm. Burda 5-6 günə siyasəti tamam edib, şaha sədrəzəm olmuşdur.

Kəndli sual edir ki, bəs onu nə cür tutmalıyam? Əz qəza o gündən şah vəzirləri ilə şikarə çıxacaqlarmış. Lotu deyir ki, sənin qoduğunun nişanları belədir. Necə ki, sədrəzəmin nişanlarıdır hamısını o kəndliyə deyir. Təhrik edir ki, sən bir 10 girvənkə arpa al tök ətəginə, bu gün şah vəzirləriylə şikarə çıxacaqlar. Get dur yol üstündə gəlib keçəndə “arpa-arpa” de. O gələr sənin yanına, sən də onu tutarsan. Biçarə kəndli dəxi gedib yarım batman arpa alır, gəlir durur yol üstündə. Bir qədər sonra şah ilə vəzirlər saraydan çıxıb gedərkən kəndli lotu verən nişanları sədrəzəmdə görür qışqırır:

– Arpa-arpa!

Əlini sədrəzəmə uzadıb ətəyinə işarə edir. Bir neçə dəfə bu minval ilə çağırandan sonra şah təəccüb edir ki, ədə, bu kişi dəli olmuşdur, gətirin onu buraya. Kəndlini

tutub hüzura aparırlar. Kəndli şaha çatdıqda sağ tərəfdə oturmuş sədr əzəmə üzünü tutub deyir:

– Ay çərçüp oğlunun malı.

Şah sual edir:

– A kişi, sən dəli olmusan?

Kəndi deyir:

– Şah sağ olsun, mənim qoduğumu sədrəzəm etdiyiniz bəs deyil, mənə dəli də deyirsiniz?

Şah deyir:

– Ədə, nə qoduq?

Kəndli cavab verir ki, mən bu qoduğu qoydum Ərdəbil mollasının yanına bərk oxusun. Gər mollanı iki ayda elmdə ötür. Onu dərsdə aciz qoyubdur. Ərdəbil mollası dəxi bunu göndərmiş Təbriz mollasının yanına. Onu da bir ayda keçib, o, dəxi göndərir İsfahana. İsfahan mollası da bu 17 günə ötüb, o bəndə xudanın da buna yazığı və heyfi gəlib göndərmişdir buraya ki, siyasət oxusun. Buranın da dərsini 5-6 günə qurtarıb tamaşa etmiş. Əlini sədrəzəmə uzadıb deyir ki, indi isə sizə sədrəzəm olmuşdur. Şah deyir:

– A kişi, bu sədrəzəm olmuş qoduğunu satarsan, mən alım?

Kəndli deyir:

– Sataram.

Şah deyir:

– Neçəyə satarsan?

Kəndli deyir:

– 15 tümənə.

Şah gülərək ona iki yüz tümən pul verir.

## Ərinin başı var idi, ya yox?

Bir vaxt molla neçə rəfiq ilə şikara getmişdir. Bir qurd onlara rast gəldi. Qurdu şikar təsəvvür etdilər. İstədilər ki, onu tutsunlar. Qurd qaçıb bir daşın dalında gizlənmiş idi. Mollanın yoldaşı başını daşın altına apardı ki, qurdu çəkib çıxartsın. Qurd onun başını bədənindən qopardı. Molla gördü ki, yoldaşı başını çıxartmır. Baxdı, yoldaşını başsız gördü. Fikrə daldı ki, ayə, mənim yoldaşımın başı əvvəldən varıdı, ya yox? Ondan sonra yoldaşlarına dedi:

– Səbr eyləyin ta ki, mən şəhərə gedim, onun əyalindən xəbər alım ki, bu kişini başı var idi, ya yox.

Bəs şikardan gəldi yoldaşının evinin qapısında öyrətindən xəbər aldı ki, sənin ərivin evdən çıxanda başı var idi, ya yox?

## Xəlifənin qiyməti

Bir gün Harun Rəşid Bəhlulla birlikdə hamama gedirlər. Hamamda xəlifə üzünü Bəhlula tutub deyir:

– Bəhlul, mən qul olseydim neçəyə dəyərdim?

Bəhlul xəlifəni başdan ayağa süzüb, deyir:

– Əlli dinara.

Bu an xəlifə özündən çıxıb acıqlı halda deyir:

– Ay axmaq, mənim belimə bağladığım qədəfənin dəyəri ancaq əlli dinardır. Sən nə danışırsan?

Bəhlul cavab verir:

– Mən də ancaq qədəfənin qiymətini hesab edib deyirəm.

## Bəhlul və xəlifə

Xəlifə bir məhlədən keçəndə görür Bəhlul qıssa kubuxla yeri ölçür. Xəlifə deyir:

– Ay Bəhlul, neylirsən?

Bəhlul deyir:

– Heç nə qurban, dünyanı ölçürəm. Görəm mənə nə qədər, sizə nə qədər çatar. Nə qədər ölçüb-biçirəm mənə bir metr yer çatır. Sizə də elə bir metr çatır.

Xəlifə əsəbləşir, yolunu alıb gedir.

## Harun Rəşid

Xəlifəyə xəbər verirlər birisi sənin məmləkətində Allahlıq iddiası edir, deyir, mən Allaham!. Xəlifə əmr edir, onu hüzuruna gətirsinlər. Xəlifə deyir:

– Biri də ötən il burda peyqəmbərlik iddia etmişdi. Mən əmr etdim onu edam etdilər.

Dedi:

– Çox düz iş görübsünüz, onu edam edibsiz. Çünki mən onu göndərməmişdim.

## Adamlığımla pulun qədrini anlamayım?

İsfahan lotularından biri yol gedərkən görür 15 yaşında bir uşaq əlində bir danə qızıl pul oynadır. Lotu fikr edir ki, bu uşaq pulun qədrini nə bilir. Yaxşısı budur ki, mən bu uşağı aldadıb, pulu bundan alım. Lotu uşağa tərəf gəlib deyir:

– Oğlum, o sarı kiçik pulu ver mənə, əvəzində sənə ondan böyük daha rəhli pul verim.

Uşaq lotuya bir diqqətlə baxıb, deyir:

– Mənim eşşəyin səsindən çox xoşum gəlir. Sən mənim üçün bir eşşək kimi anqır, mən pulu sənə verim.

Lotu xəyal edir ki, uşaq anlamır, bir o, bu tərəfə baxıb küçəni xəlvət görüb başlayır eşşək kimi anqırmağa. Bu halda uşaq gülüb deyir:

– Bərəkəllah, sənə əcəb yaxşı anqırırsan. Amma ey filankəs, sən bu eşşəkliyinlə pulun qədrini bilirsən, mən adamlığımla pulun qədrini anlamayım?

## Əmir Əli

Əmir Əli kənddən ayrılır, iş üçün İskəmərdən Tehrana gedir. Bir neçə ay orda qalandan sonra iş tapa bilmir, qayıdır. Anası oğluna yemək gətirir. Oğlan bir neçə ay Tehranda qaldığına görə farsca danışır. Anası gətirdiyi yeməklərə deyir "nemeyxorən". Anası başa düşmür. Çay gətirir, genə o sözü deyir. Ana qonşuya müraciət edir. Qonşu Tehran görmüş adam idi, fars dilin başa düşürdü. Oğlunun təkrar etdiyi sözləri qonşu tərcümə etdi. Oğul öyrəşdiyi bir neçə fars sözünü hər gün təkrar edirdi. Bir gün bağçada işləyərkən oğlanın əyağı belin sapına ilişdi. Belin sapı oğlanın təpəsinə dəydi. Oğlan qışqırdı: "Vay nənə, öldüm". Anası sevincəyindən sapı qucaqladı öpdü. Dedi, çox şükür ki, balamın ağlı yerinə gəldi.

## Kündür xanı

Bir gün Kündür xanı bir şəxsdən soruşur:

– Ay kişi, toyuğun harası yeməlidir, çox ləzzətlidir?

O kişi cavab verir ki, dərisi hər yerdən yeməli və ləzzətlidir. Kündürün xanına bu söz xoş gəlir, ona xələt verir. Bir gün bu xan başqa bir nəfərdən soruşur ki, camışın ətinin harası ləzzətli, harası yeməlidir? O kişi

görmüşdür ki, bir nəfər toyuğun dərisinin ləzzətli olduğun demişdi, xan isə ona xələt vermişdi. Bu da ona təğlit edib dedi:

– Xan sağ olsun, camışın hər yerindən ləzzətli onun gönüdür, yəni dərisidir.

Xan qəzəblənib dedi:

– Bu axmağı məclisdən eşiyə ötürün!

## Şəbistər xanı

Bir gün Şəbistər xanı məclisdə bir tərəkəmədən soruşur:

– Ay kişi, Allah neçədir?

Tərəkəmə fikr etdi. Xanın dalında duran naziri, xandan məxvi beş barmağını yuxarı tutdu, yəni deginən ki, Allah beş dənədir. Xan qəzəbləndi dedi:

– Ay heyvan, nə danışırsan, necə Allah beş dənədir? Tərəkəmə ərz eylədi:

– Allah sənin nazirivin balasını versin. Mən on deyəcəydim, o beş barmağını yuxarı tutdu. Onun üçün mən beş dedim. Xan, vallah, ondur.

## Tələbxan

Qarabağlı Tələbxan nağıl edir ki, bir gün şikara getmişdim, bir qırqovul tutmuşdum. Axşam mülazimlərimə dedim ki, siz bu qırqovulu sobada şişə çəkib pişirin. Mən yorulmuşam, bir qədər yatıb durub yeyəcəm. Tələbxan yatdı. Nökərlər qırqovulu bişirdilər. Özləri yedilər, şişi boş sobanın yanına söykədilər. İki-üç saatdan sonra Tələbxan xabi-qiflətdən bidar oldu. “Gətirin qırqovulu”,– dedi. Nökərlər birlikdə şəhadət verdilər ki, ağa, sən bu qırqovulu yedin yatdın. Tələbxan dedi:

– Ola bilər, çünki ciyərim çox yanır. Məlumdur ki, yemişəm yatmışam, yoxsa canım su istəməzdi, su gətirin.

## Əbaçı oğlu

Əbaçı oğlu bir gün təzə nökər gətirdi. Arvadına dedi:

– Birinci gündən gərək nökərə çörək xırdası yedizdirəsən. Əgər xırda çörək olmasa, xırda-xırda yemək verəsən.

On-on beş gün nökər çörək xırdası yeyib, danışmadı. Bir gün Əbaçı oğlu bazara gedəndə arvad-uşağından soruşdu ki, si-zə nə alım? Hər kəs bir söz deyir, bir şey istəyir. Axırda da nökərdən soruşdu, sənə nə alım? Nökər dedi:

– Mənə də bir quş dimdiyi al.

Əbaçı oğlu səbəbini soruşdu. Nökər dedi:

– Ağa, siz verən çörəyi ancaq dimdiknən yemək olar. Əbaçı oğlu öz yanında utanıb arvada əmr verir nökərə yaxşı yemək versin.

## Nökər aldadıb

Əbaçı oğlu bir gün minbərdə məşuqun zərərlərindən, ziyanlarından danışaraq deyirdi:

– Məlunlar içirlər şərabı, yeyirlər kababı, dönullər dəyirman xoruzuna. Pullarını heyf edib, şüşəsini altı qrama araq alıb, zəhrimar edirlər.

Bu vaxt Sarıquluxan yerindən səslənir:

– Ay molla, nökər səni aldadıb iki qram səndən artıq alıb.

## Nömrəsini götür

Bir gün Əbaçı oğlu öz eşşəyinə minib xiyabandan keçəndə polis qabağını kəsib dedi:

– Dayan.

Əbaçı oğlu etiraz edib dedi:

– Sənin məni saxlamağa haqqın yoxdur. Əgər xəlaf etmişəmsə, eşşəyin quyruğunu qaldır, nömrəsini götür.

## İsmayıl əmi

Kəlbalayı İsmayıl Əmi Xamnədə dülgər işləyirdi. O uşaqlara çax-çaxa və cir-cirədən tutmuş dul arvadlara cəhrə, əkinçilərə cüt heşi, arabaçılara daşqa oxu, yan ağacı, ev salanlara qapı, pəncərə, dirək pərdə və taza anadan olmuş uşaqlara nənni-beşik və çox şeylər düzəldərdi. Bel, sap, külüng dəstəyi salardı. Hətta özü düzəltdiyi qapı-pəncərəyə şüşə də salardı. Bir nəfərin uşağı olacaqdı, bir az tər-təxtə gətirib Kəlbalayı İsmayıl əmiyə verir ki, onun taza dünyaya gəlmiş uşağına bir beşik düzəltsin. Uşaq anadan olur, beşik lazım olur. Beşiyin sorağına gedirlər. Deyir, bu gün, get sabah gəl. O qədər bu gün get, sabah gəl eyləyir ta bu ki, uşaq böyüyür məktəbə gedir. Məktəbi qurtarır, unversiteyə girir. Sonrada pul qazanır, evlənir. Bir gün İsmayıl əminin sorağına gedir. Atası sifariş verib düzəltdirən beşiyi balasına tələb edir. Demə, Kəlbalayı əmi bu müddətdə heç ona əl vurmur. Oğlu usta Haşımı səsləyib deyir:

– Haşım, bala, get buların tər-təxtilərin ver gətir aparsınlar. Bu tələsiklə beşik düzəlməz.

## Əhməd əmi

Əhməd əmi İskəmərdən Təbrizə gedir. Təbrizin divarlarında bir elana rast gəlir. O elanda belə yazılmışdır: "Kim 24 saata Tehrana gedib bir xəbəri çatdırıb gəlsə, ona yüz tümən pul, bir at veriləcək". Əhməd əmi düşünür ki, bu işə qol qoysun. Atı alıb Tehran əvəzinə bir müddət Qara dağda olsun. Sonradan hər şey sakitləşər, qaydasına düşər. Buna görə Təbrizin hərbi komissarına müraciət edir. Generalın gözləmə otağında generalnan görüşməyi gözləyir. Əhməd əmi katibənin generala müraciət etdiyi anda generalı gözdən keçirir. Gəldiyi-nə peşman olur. Ancaq iş-işdən keçmişdir. General onu içəri çağırır. Əhməd əmi içəri girən kimi general uca səsnən deyir:

– Nə yaxşı, bu Təbrizdə bir kişi tapıldı 24 saatda Tehrana bir xəbəri çatdırsın.

Əhməd əmi deyir:

– Qurban, mən gəldim deyim ki, mən gedə bilmərəm.

## Düyünü aç

Bir yoxsul adam var idi ki, gəliri xərcini ödəmirdi, həmişə dua edib Allahdan istərdi ki, Allah, mənim düyünümü aç. Onun arvadının doğmaq vaxtı idi. Biçarə kasıbın heç bir şeyi yox idi. Qonşuda olan baqqalın ona yazığı gəlib kömək etmək məqsədilə çağırıb dedi:

– Mən bilirəm, sənin arvadın doğacaq. Gəl, bir az yağ, qənd, çay, düyü borc apar. Pulun olsa, gətirib verərsən. Yoxsul şeyləri alıb dəsmala qoydu. Dəsmalı düyünlədi, evinə doğru yola düşdü. Arxdan atılanda

dəsmalın düyünü açıldı. Bütün aldıqları arxa töküldü. Yoxsul üzün tutdu Allaha:

– Mən dedim, düyünümü aç, demədim ki, burdakı borc ilə aldığım şeyləri arxa töküb aradan gedəsən.

## Təbrizli hambal

Təbriz şəhərində bir hambal var idi. Onun işi bazarda yük daşımaxdı. Bir gün Təbrizin küçələrində yük daşıyarkən yorqunluqdan divara söykənib dincini almağa başladı. Qəfildən görür, bir qadın uca səslə uşağını çağırır. Dönə-dönə ona deyir: "O tərəfə getmə. Damnan düşərsən". Uşax ananı eşitmədən damda sağa-sola qaçıb, oynayırdı. Anasını heç eşitmirdi. Qəfildən ayağı züyür, damnan yerə yuvarlanır. Ananın harayı bütün insanları ona tərəf baxdırır. Görürlər bir uşax damnan düşməkdədir. Bu səhnəni görən hambal uca səslə deyir:

– Ya rəbbim, uşağı saxla.

Uşax göylə yer arasında donub qalır. Hambal uşağı göydən alıb, yerə qoyur. Ordakı camahat heyranlıq içində mat-mətəl baxa-baxa deyirlər:

– Sən imamsan?

Biri deyir:

– Hızırsan.

Biri deyir:

– Yox, cadugərsən.

Hambal yükünü yerdən qaldır-qaldıra üzünü camahata tutub dedi:

– Yox mən nə Hızır Peyğəmbərəm, nə də cadugər. Altmış ildən artıqdır bu bazarda hambal işləyən Allah bəndəsiyəm. Bu işdə təəccüb olası navarkı? Bir ömür biz o görünməz tanrının sözünə baxmışıq, bir dəfə də o bizim sözümüzü icab edib.

## Adam da düşmənə yalvarar?

Bir il qış çox soyuq olduğu üçün bir şahsevənlinin qoyunlarının çoxu ölüb, aradan getmişdir. Yeddi-səkkiz qoyundan artıq qalmamışdır. Şahsevənin arvadı evində oturub deyirdi, Allah, bahar olsaydı bu qoyunlar gedib çöldə, dağda otlayb gəlseydilər çox yaxşı olardı. Şahsevən deyir:

– Ay arvad, hey, o tüfəngi mənə ver.

Arvad soruşur:

– Ay kişi, tüfəngi neynirsən?

Kişi tüfəngi alır, yeddi-səkkiz dənə qalan qoyunları da güllə ilə öldürür. Arvadına deyir:

– Ay arvad, adam düşmənə yalvarmaz, əgər Allah bizimlə dost olsaydı, mənim qoyunlarımı öldürməzdi. Mən bunları öldürdüm ta ki düşmənə yalvarmıyam. Adam düşmənə yalvarmaz.

## Dəlləyəm

Həkim:

– Siz başnan əlaqədar olan heç bir iş görməməlisiniz.

Xəstə:

– Onda mənim çörəyim kəsildi ki.

Həkim:

– Niyə bəyəm, siz alimsiniz?

Xəstə deyir:

– Mən dəlləyəm.

## Halal süd əmmiş

Bir qarı mağazaları gəzirdi. Evə qayıdanda görür ki, əlindəki çətiri hardasa qoyub. Qayıdıb bütün gəzdiyi

mağazalardan birbəbir soruşur, burda mənim çətirim qalıb? Hər yerdə ona yox dedilər. Nəhayət, bir mağazadan soruşanda çətiri ona verdilər. O gülümsəyib satıcıya dedi:

– Afərin sənə, halal olsun. Bala, beş mağazadan soruşdum dandılar. Heç biri vermədi. Ama görünür, sən halal süd əmmişsən.

## Taykeş vermişəm

Bir nəfər ayaqqabı mağazasından bir cüt ayaqqabı almaq istədi. Satıcıya dedi:

– Mənim qırx tümənim çatmır. Siz ayaqqabını verin, qırx töməni sabah gətirim.

Satıcı pulu alıb, dedi:

– Eybi yoxdur, qalan qırx töməni sabah gətirərsiz.

O adam qapıdan çıxan kimi yoldaşı satıcıya dedi:

– O getdi, bir də burda tapılmaz. Qırx töməni bir də sən görməzsən.

Satıcı kefini pozmadan dedi:

– Ayaqqabıları ona taykeş vermişəm, səhər mütləq onları dəyişməyə gələcək. Qırx töməni də gətirəcək.

## Özüm də öz xəttimi oxuya bilmirəm

İki nəfər bir-birinə rast gəlirlər. Biri soruşur:

– Sən nə işlə məşğulsan?

– Mirzəlik edirəm. Ona-buna məktub yazıram.

Dostu qayıdıb deyir ki, mən də mirzəlik edirəm. Sənin işin yaxşıdırmı?

– Çox yaxşıdır. Gəlirim iki qatdır. Necə məyər?

Deyir:

– Bir məktub yazıram, pul alıram. Sonra da kimə yazılıbsa, o məni çağırır oxutdurur. Ondan da pul alıram. Axı, xəttimi özümdən başqa heç kəs oxuya bilməz.

Dostu deyir:

– Sənin işin doğrudan da yaxşıdır. Mən də məktub yazıb, pul alıram. Lakin elə ki, oxumağa çağırırlar heç özüm də öz xəttimi oxuya bilmirəm.

## Vızıltısını eşidirəm

Biri özünü tərifləyib deyirdi:

– Mənim gözüm çox yaxşı görür. Məsələn, mən bu saat o minarənin başında uçan milçəyi görürəm.

Dost isə ona belə cavab verdi:

– Mənim gözüm yaxşı görmür. Ancaq qulaqlarım yaxşı eşidir. Mən də sən gördüyün milçəyin vızıltısını eşidirəm.

## Yatmaq istəyirik

Bir nəfər gecə saat on ikidə səfə (val) boyu qoyub bərkdən rəqs çaldırırdı. Birdən qapının zəngi çalındı. Evin sahibi qapını açıb qarşısında ondan bir mərtəbə yuxarıda yaşayan qonşusun oğlunu gördü, nə olub deyə, soruşdu.

– Atam deyirdi ki, əgər mümkünsə qramafonu bu gecəlik bizə əmanət verəsiz. Səhər qaytarrıq.

– Necə? Gecə bu vaxtı siz çalıb oynamaq istəyirsiniz?

– Xeyr, yatmaq istəyirik.

## Uzununa tikib, sonra dikəldiblər

İki nəfər bir minarənin qabağında durub tamaşa edirlər. Biri təəccüblə deyir:

– Pah atonnan, bu hündürlükdə minarə tikən adamların boyu gör necə uzun olub.

O biri deyir:

– Ay axmaq, bu uzunluqda adammı olar? Adamlar bu minarəni əvvəl yerdə uzununa tikib sonra dikəldiblər.

## Siz də oxumaq bilmirsiniz ?

Məhkəmədə vəkil müttəhimdən soruşur:

– Siz oxumaq və yazmaq bilirsiniz?

– Oxumaq yox, yazmaq bilirəm.

– Alın, bir cümlə yazın görüm.

Müttəhim varaqın üstündə qarışıq xətlər çəkib deyir:

– Buyurun, bu mənim xəttimin nümunəsidir.

Vəkil qarışıq xətlərə baxıb deyir:

– Bu necə yazıdır? Heç nə oxunmur. Özün oxu görək nə yazmısan?

– Mən neyləyim, əvvəldən sizə dedim ki, oxumaq bilmirəm, yalnız yazmaq bilirəm. Görünür, siz də mənim kimi oxumaq bilmirsiniz.

## Dörd müştərim qaçıb

Bir cavan diş həkiminin yanına gedib, ufulduya-ufulduya dişini çıxarmağını xahiş edir. Həkim dişi çəkəndən sonra ondan beş tümən istəyir. Cavan heyrətlə:

– Bəs mənə demişdilər ki, siz hər dişi çəkəndə bir tümən alırsınız?

Həkim dedi:

– Sözsüz, belədir, lakin mən dişi dartanda elə dəhşətlə bağırmısan ki, qəbul otağında oturan dörd müştərim qaçıb.

## Bir axmaq biletimi cırır

Bir nəfər kənddən şəhərə gəlir. Teatra getmək fikrinə düşür. Kassaya yaxınlaşıb bilet alır. Az keçmir ki, həmin adam təkrar gəlib bilet alır. Bu hadisə bir neçə dəfə təkrar olur. Kassadakı bilet satan şübhələnir, soruşur:

– Mən sənə altı bilet vermişəm. Bunları nə edirsən?

– Əşşi, sizdən bilet alıb qapıdan içəri girəndə bir axmaq biletimi alıb cırır.

## Qanunu poza bilmərəm

Muzeylərin birinin qapısında belə bir elan var idi: “İçəri girəndə əlinizdəki şeyləri qapıçının yanına qoyun”. Bir nəfər muzeyə baxmaq üçün muzeyə daxil olmaq istəyir. Təzə işə qəbul edilən qapıçı elanı ona göstərib, deyir:

– Əlinizdəki əşyaları qoyun. Qayıdanda götürərsiniz.

O, deyir:

– Axı, mənim əlimdə heç nə yoxdur.

Qapıçı deyir:

– Mən bilmirəm. Gedin, bir şey tapın gətirin, vəssalam. Bu qanunu poza bilmərəm.

## Bir qəpik də geri ala bilməz

Oğlan hər gün belə dua edərdi: “Ay Allah, mənim atama bir milyon tümən pul ver. Həmin dəqiqə də al”. Atası bunu eşidib təəccüblə soruşur:

– Oğul, bu necə duadır?

Oğlu deyir:

– Ata, mən səni tanıyıram. Qoy versin, bilirəm ki, səndən bir qəpik də geri ala bilməz.

## Eşşək savad örgənir

Biri öz eşşəginə danışmax örgədir. Başqa birisi ona yaxınlaşıb deyir:

– Ay qardaş, neylirsən?

O, deyir:

– Bu eşşəgə danışmağı örgədirəm.

O biri deyir:

– Axı bu heyvandır. Səndən danışmax örgənə bilməz. Ancax sən ondan susmağı örgənə bilərsən.

## Kəndçi

Yoxsul bir ailə kətdə nehrə çalxayıb, kərə tutub şəhərə aparıb satırdı. Kətçi şəhərdə kərəni bir bakkal dükanına verib lazım olan ərzaqlarını alırdı. Bir gün bakkal kərənin çəkisini yoxlamaq üçün tərəziyə qoyub görür bir kilo yox, doqquz yüz qramdır. Kətçini növbəti dəfə görəndə deyir:

– Mən daha səndən kərə almıyacağam.

Kətçi deyir:

– Niyə?

Deyir:

– Ona görə ki, sənin kərələrinin çəkisi bir kilo yox, doqquz yüz qramdır.

Kətçi başını aşağı salır. Heç nə demir. Bakkala cavab verməsindən utana-utana deyir:

– Doğrusu, bizdə bir kiloluq çəki daşı olmadığına görə səndən apardığım bir kiloluq şəkərləri daş yerinə işlətmişdik.

## Üç nəfərin söhbəti

Üç nəfər danışırlar. Biri dedi:

– Mən bir üzgüçü tanıyıram, dənizə baş vurub düz iyirmi dəqiqə suyun altında qalırdı.

O biri dedi:

– Sən onu deyirsən, mən birini tanırdım, səhər dənizə baş vurub suyun dibinə getmişdi, bir də günorta vaxtı dənizin dibindən çıxmışdı. Sən demə, onu suda yuxu tutub dənizin dibində yatib.

Üçüncü dedi:

– İndi mən desəm siz inanmayacaqsınız. Özüm şahidi olmuşam. Üç il bundan qabaq bir nəfər dənizin dibinə getmişdi, hələ də bu günə qədər ordadır.

## Yat görüm, necə yatacaqsan?

Bir nəfər çoxdan idi ki, dostuna pul borclu idi. Bir dəfə o, dostunun evinə gəlib qapını döydü. Ev sahibi pəncərədən başını çıxardıb, soruşdu:

– Nə olub, niyə gəlmisən?

– Yadındadırmı mən səndən üç yüz tümən borc pul almışam.

– Hə, yadımdadır, gətirmisən?

– Yox, əzizim, gətirməmişəm, gəldim sənə deyəm ki, pulunu heç vaxt qaytarmayacağam.

– Necə yəni qaytarmayacağam?

– Bəli, qaytarmayacağam. Dünən gecə sənə olan borcum yadıma düşüb, səhərədək gözümə yuxu gir-

məyib. İndi isə sən mənim bu sözümdən sonra yat görüm, necə yatacaqsan?

## Halva çalmaq olar

Acından güclə yeriyən bir nəfər varlı bir tacirin dükanına gəlib soruşur:

– Un varmı?

– Var.

– Yağ varmı?

– Var.

– Qənd varmı?

– Var.

– Lap yaxşı, sən niyə halva çalmırsan?

## Üç qardaş

Üç tənbəl qardaş gilas ağacının altında mürgüləyirdiər. Biri deyir:

– Bir adam tapıleydi gilasları dərib ateydi ağzımıza.

O birisi deyir:

– Yaxşı oleydi ki, gilaslar özləri dərilib qoyulaydı bizim ağzımıza.

Üçüncüsü deyir:

– Ay qardaşlar, yorulmadız bu qədər danışmaqdan?

## Dəyərli məsləhət

Qəssab bir vəkilin dəftərinə müraciət edib onunla məsləhətləşir:

– Əgər bir it mənim ətimi aparsa, onun sahibi ətin pulunu ödəməlidir, ya yox?

– Sözsüz, kəsin ödəməlidir.

– Belə isə mənə iyirmi tümən verməlisən, çünki mənim ətimi aparan it sənin itindir.

Vəkil deyir:

– Baş üstə. Mən müşavirə üçün sizdən əlli tümən alacam. Siz də əlli tüməndən iyirmi tümən çıxın, otuz tümən qalsın.

## Axmaqlar

İki nəfər yoldaş olub kənddən şəhərə gedirlər. Biri deyir:

– Sən nə fikirləşirsən?

– Fkirləşirəm ki, yolda bir sürü qoyun tapdım. Südünü, qatığını, ətini, yununu satıb varlandım.

O biri dedi:

– Şərikəm.

Biri dedi:

– Yox, birini də sənə verəmmərəm.

Bu biri isə dedi:

– Mən də bir sürü canavar taparam, bütün qoyunlarını qırıb qurtarar.

O biri çönüb yoldaşına bir şillə vurdu. Deyir:

– Sən mənim qoyunlarımı qırarsan, hə?

O birisi də ona bir təpik. Deyir:

– Bəs sən utanmırsan tapdığın bir sürü qoyundan mənə bir dənə də vermirsən.

Cavanlar bir-birini möhkəm əzişdirəndə yoldan eşşəyinən bir kişi keçirdi. Onları ayırdı və neyçün vuruşduqlarını soruşur. Onlar da nə olubsa, ona deyirlər. Həmən kişi eşşəyinin belinə çatdığı doşab tuluğunu açıb hamısını yerə tökür. Deyir:

– Yalan desəm, qoy qanım doşab kimi axsın. Sizin ikiniz də axmaqsız.

## Karın könlündəki

Bir əkinçi əkin əkir. Yoldan ötən bir kəs dedi:

– Ay əmi, Allah qüvvət versin.

Əkinçi cavab verdi:

– Xeyrə satıram. Bu yer mənim babamdan qalan yerdir. Mən babamın yerini satıram.

Axşam evə gəlib deyir:

– Ay arvad, bu gün yeri məndən istədilər satam.

Arvad da karimiş, belə xəyal etdi ki, əri ona sənin üçün tuman alacam deyir. Cavab verdi:

– Çitdən olsun, eybi yox. Bez tez solar.

Arvad qızına gedib deyir:

– A qızım, atan mənim üçün tuman alacaq.

Qız elə bilir ki, deyir, atan səni ərə verəcək. Cavab verir:

– Çobana də versə, gedərəm, xan oğluna da versə, gedərəm.

Qız da nənəsinin yanına gedib, deyir:

– Ay nənə, məni ərə verirlər!

Nənə də elə başa düşür ki, bu deyir, sənin üçün nə pişirim? Cavab verir:

– Qızım şorbac da pişirsən, yeyərəm, cumac da pişirsən, yeyərəm.

## Yerimiz yoxdur

Avropa qaydalarında belədir ki, gecə yarısından sonra mehmanxanaya gələn qapının dalında öz adını deməlidir. Bir azərbaycanlı o yerlərə yolçu olur. Hansısa bir mehmanxananın qapısını çalır. Qapını açmazdan qabaq onun adını soruşurlar. O, özünü belə təqdim edir:

– Mən cənab Müstəta Valaəşrəf Kəlbəlayi Həsənqulu Cəfəroğluyam.

Otelçi deyir:

– Bu qədər adama yerimiz yoxdur, qardaş.

## Qumarbaz

Hər şeyini qumarda uduzduğuna görə arvadı evə qoymayan bir qumarbaz qalmaq üçün özünü bir məscidə çatdırır. O, məscidə girməzdən qabaq bir nəfərdə həmin vəziyyətdə ondan öncə məscidə sığınmışdı. Onun gəlməyini görəndə minbərin arxasında gizlənir. Gələn birinin orda olduğundan xəbərsiz halda minbərə tərəf durub Allaha iki rükət namaz qılıb, dua eyləyib və dedi: "Ay Allah, burda sənlə məndən sonra başqa bir kəs yoxdur. Ey tanrım, sənə üz tutub töbə edirəm. Səndən istəyirəm ki, mənə bir cüt öküz verəsən. Onları işlədim, heç kəsə möhtac olmayıb qumar oynamayım". Minbərin arxasında gizlənən birinci şəxs ahəstəcə səslənir: " Yaxşı, verərəm". Qumarbaz isə bu səsin Allahın tərəfindən gəldiyini hiss edir. Təkrar yalvarır və iki rükət daha artıq namaz qılır. Yenə də əllərini mehrabə tərəf tutub deyir:

– Allah, sənə min şükür edirəm ki, mənə öküzləri verdin. İmkan olsa, 25 baş qoyun da verəsən, daha artıq hər şey düzələr.

Minbərin arxasına gizlənən kişi deyir:

– Verdim.

Qumarbaz isə daha çox sevinib üçüncü rükət namazını qılmağa başlayır. Bir daha dua edib deyir:

– Ay Allah, nolar ki, yüz tümən pul verəsən. O, bədəxlaq arvadımı da boşayıb bir xoşəxlaq arvad alım.

Bu dönə minbərin arxasındakı kişi səslənib deyir:

– Daha onu yuxuda görərsən.

Qumarbaz bunu eşidəndə bir an özünə gəlib düşünür ki, buna gələn səsələr Allahın tərəfindən deyil, bəlkə, məsciddə olan ayrı bir adamdandır. Ona görə üzünü səs gələn tərəfə tutub deyir:

– De görüm sən kimsən, burda neylirsən?

Kişi isə minbərin arxasından cavab verir:

– Mən də sənin kimi evdən qovulmuş, məscidə sığınmış bir Allah bəndəsiyəm. Sənin kimi bir qumarbazam.

## Cöngə

Deyilənlərə görə, qədim zamanlar Əlişahın qonşu kəndi olan Alkəhrizdə (Təzə kənd) bir nəfərin cöngəsi noxtasını qırıb, gedib itir. Cöngəni bir nəfər tutub başını kəsir. Sabah cöngənin sahibi cöngəni axtara-axtara Əlişahın Mollalım adlı çölündə işləyən bir kişinin yanına gəlir. Cöngəni ondan soruşur. O kişi cöngənin sahibinə belə cavab verir:

Atdandı keçdi Mollalımı,
Boynunda bağı cöngənin.
Qaynar qazanda çırtıldar aş,
İçində yağı cöngənin.

* * *

Molla bir vaxt bir övrət aldı. Üç aydan sonra bu qadın doğdu. O uşağa ad qoymaq istədilər. Molla dedi:

– Onun adını Qasidi -Tezqədəm qoyaq.

Dedilər:

– Nə səbəbdən molla, onun adını belə qoyaq?

Molla dedi:

– Bu tifil doqquz aylıq yolu üç ayda gəlibdir. Buna görə bu ada layiqdir.

* * *

Yenə bir vaxt molla duayi nübuvvət elədi. Deyirlər ki, bu duanın çox kəraməti vardır. Dedi ki, o səbəb ki, mənə məlum hər adəmin xəyalından nə xutur eyləsə, xəbər verərəm. Dedilər ki, əgər bildin bizim xəyalımızdan nə keçir? Dedi:

– Hamınız xəyal edirsiniz ki, xudaya, görəsən molla öz iddiasına sadiqdir, ya kazibdir?

* * *

Bir gün molla evə gəldi. Təzə çörək və aş pişirmişdilər. Hər qədər ki, oturdu, onun üçün təam–cörək gətirilmədi, ayağa durub təzim tamamiylə evin o tərəfinə, bu tərəfinə yürüdü. Dedilər:

– Molla, bu nə əməldir?

Dedi:

– Bu ev Məkkənin evinə oxşayır, mənə vacibdir ki, onun ətrafını təaf eyləyim.

Ondan sonra durdu. Evin dörd tərəfini dolandı. Və məsahət eylədi, yəni ölçdü. Dedi ki, bir ev ki təamsız ola, onu təmir eləmək asandır. İstəyirəm ki, bu evin tul və ərzini bilim. Və bu əndazədə özümdən ötrü bir ev təmir eyləyim.

* * *

Molla bir vaxt eşşəyi itmiş idi. And içdi ki, əgər onu tapsa, bir dinara satsın. O vaxt ki, eşşəyi tapdı, pişigi götürüb onunla bir ipə bağladı. Apardı bazara ki, satsın.

Dedi:
– Kimdir, bu eşşəyi alsın bir dinara, pişiyi alsın yüz dinara. Vəkilin ikisini də bir yerdə satacağam, bir-birindən ayıramam.

* * *

Bir gün bir nəfər Daxodan soruşur:

– Sən yatanda saqqalını yorğanın altında qoyarsan, ya üstündə?

Daxo hər nə fikr etdi, cavab verə bilmədi. Gecə gəlib yatandan sonra saqqalını yorğanın üstündə qoydu, yuxusu gəlmədi. Altına qoydu yuxusu gəlmədi. Məəttəl qalıb yataqdan durub öz-özünə dedi: "Doğrudan da, mən rahat yatanda saqqalımı yorğanımın altında qoyardım, ya üstündə?" Yenə də yadına düşmədi.

* * *

Bir gün Daxo əlini saldı bardağa. Ta ki ordan girdəka[16] çıxartsın. Bir qısın girdakanı tutdu. Çıxardanda ancaq əli çıxmadı. Qışqırdı:

– Ay camaat, mənim əlimi bardaxdan çıxardın.

Camaat düşünüb çarə etdi. Dedilər, gərək həkimə aparaq. Həkimə aparanda Daxonun yoldaşlarından biri Daxonu gördü, işin səbəbini soruşdu. Daxo məsələni olan kimi dedi. Daxonun yoldaşı dedi:

– Əlin aç çıxart.

Daxo əlini açandan sonra əlini çıxartdı.

Sonradan soruşdu:

– Bəs girdəkanlar nə olsun?

Yoldaşı dedi:

– Bir-bir çıxart.

[16] Girdəkan (f) – qoz

* * *

İkinci dünya müharibəsi zamanı Təbrizdə çörək azaldı. Onu almaq üçün saatlar vaxt lazım idi. Bu məsələni həll etmək üçün camaat bələdiyyə salonunda toplaşdı. Çörək haqqında danışanda bəziləri Hitlerin fətindən danışırdı. Əsgər Qifləti danışmağa icazə istədi. Söz alandan sonra dedi:

– O qədər Hitlerin tərifini etməyin. Əgər qeyrəti, qüdrəti var gəlibTəbrizdə növbədə dursun, iki çörək alsın.

* * *

Deyirlər, günlərin bir günü Sarıqulu xan Məkkəyə gedəndə kiçik bir daş əvəzinə böyük bir daş şeytana atır. Ordan bir səs gəlir. Sarıqulu xan deyir:

– Bu qədər daş atıldı, sənin səsin çıxmadı, bəs mən daş atan kimi niyə zarıldadın?

Şeytan cavab verir:

– Zarıldamağım o səbəbdəndir ki, sən bizdənsən.

* * *

Bir tacir İsfahana gəlir. Bir neçə gündən sonra getməyə hazırlaşanda öz-özünə deyir, axı İsfahanlıların çox zarafatcıl olmaları məşhurdur. Bəs mən öz həmkəndlilərim üçün gülməli br zarafat burdan sovqat aparmalıyam. O, karvansara sahibinə mətləbi açdı. Karvansara sahibi gülüb dedi:

– Mən zarafat etməyəcəyəm. Sizə bir tapmaca deyim tapın. O kimdir ki, atamın oğludur, amma mənim qardaşım deyil.

Tacir çox fikirləşir, tapa bilmir:
– Mən tapa bilmədim. Siz özünüz deyin.
Karvansara sahibi:
– O mən özüməm, atamın oğluyam, lakin özüm-özümə qardaş deyiləm.
Tacir öz kəndlərinə gəlir. Ondan soruşurlar ki, gülməli bir zarafat gətiribsənmi?
Deyir:
– Yox, sizə bir tapmaca deyəcəyəm. O kimdir ki, atamın oğludur, amma mənim qardaşım deyil?
Məclisdə oturanlar çox fikirləşdilər, tapa bilmədilər.
– Biz tapa bilmədik, sən özün de görək kimdir.
Tacir deyir:
– O, İsfahandakı karvansara sahibinin özüdür.

* * *

Altmış-yetmiş il bundan əvvəl Şahsevən dilənçiləri karvanları soymağı adi bir iş bilərdilər. Bir gün bir kərvan keçəndə, seyid olur. Onu da istərlər, soysunlar. Seyid deyir:
– Məni soymayın, mən seyidəm. Peyqəmbər, imam övladıyam.
Şahsevənlər deyirlər:
– Yaxşı oldu, bizim kənddə imamzada yoxdur, səni öldürərik, burda basdırarıq, taki bizim də imamzadəmiz olsun. Seyid qorxur, deyir:
– Mən o imamzadələrdən deyiləm, onların başlarına yaşıl salıbdılar, mənim başımda qara var.
Şahsevənlər qane olur, seyiddən əl çəkir.

* * *

Deyirlər Nasrəddin şah bir gün bir kənddən keçəndə görür kəndçi arvadları köhnə paltarda kənddə işnən məşğuldurlar. Kəndçilərə üz tutub deyir:

– Bu nə arvaddır ki, siz saxlayırsınız?

Bir nəfər cəsarət edib deyir:

– Qurban, kəndçi arvadları ilə şəhərli arvadlarını bir müddət yağış altında qalandan sonra məlum olar. Kəndi arvadlarının kiri, şəhərli arvadlarınında bəzəyi gedər, onda məlum olar hansı gözəldir.

* * *

Əlişahlı Hacı Nüsrət Əsgəri Şanacan kəndindən evlənmiş idi. O gün olur ki, el arasında "Hacı Nüsür" adı ilə tanınan Hacı Nüsrətin qaynanası Şanacanda Allahın rəhmətinə gedir. Hacı Nüsür Şanacana getməli olur. Kənd əhalisi və qonşu kəndlərdən başsağlığı deməyə gələn adamlara şam, nahar, çay hazırlamaq üçün dağdan kənd içinə qovayla gətirilmiş sudan bir nəfər tez-tez su qablarını doldurub gətirməli idi. Bu vəzifə isə Hacı Nüsürün öhdəsinə verilir. Hacı Nüsür hər dönə su gətirməyə gedəndə su krantına salınmış şlankınan üzləşir. Bu şlankın suyu Hacı Süleyman Mərhəməti adlı kişinin evinə gedir. Hacı Nüsür bu şlankı neçə dəqiqəlik çıxarıb su doldurmaq istiyəndə Hacı Süleymanın arvadı icazə vermir. Deyir ki, şlanka əl vurma. Get filan kəhrizdən doldur gətir. Uzaqda olan bu kəhriz Hacı Nüsürü incidir. Ancaq Hacı Nüsür suyu kəhrizdən gətirməyə məcbur olur. Gecənin yarısı Hacı Nüsür küçəyə çıxır. Küçədə heç kim olmadığından hələ də su şlankını krantda görəndə onu doğramağa qərar verir. Səhər çağı Şanacanda Hacı Süleyman şlankını qarış-qarış doğramasını görəndə kimin doğradığını da bildiyi halda səsini çıxarmır. Bu

hadisədən bir il keçir. Hacı Nüsür təkrar qaynatasının ildönümünə gələndə Hacı Süleymanla bir yerdə məclisdə otururlar. Hacı Süleyman düşünür ki, bir söz atsın, üzünü sol tərəfdə oturan Qurbana çevirib deyir:

– Hacı Qurban, Əlişahda siçan-zad çox olar.

Bu əsnada Hacı Nüsür özünü qabağa verib deyir:

– Hacı, olar, olar. Elə böyük olar ki, hətta şlankı da doğrarlar.

* * *

Bir gün bir kefli, bir tiryaki, bir də həşiş çəkən gecə çağı şəhərin dərvazasına çatırlar. Kefli dedi:

– Dərvazanı sındıraq, keçək.

Həşiş çəkən:

– O lazım deyil, gəlin kiçik olaq, dərvazanın deşiyindən içəri girək.

Tiryaki dedi:

– Bunların heç biri lazım deyil, səbr eylərik, səhər dərvazanı açsınlar, içəri keçərik.

* * *

Biri ət alıb oğluna verir, deyir:

– Apar anava ver, qoy mən gəlincə yaxşı bir şorba bişirsin.

Oğlan deyir:

– Evimizdə kömür yoxdu, axı.

Atası deyir:

– Yaxşı, onda ver kabab bişirsin.

* * *

İki kəndli şəhərdə yaşıyan varlı bir qohumlarının evinə gedirlər. Qulluqçu qapını açır. Onların cındır paltarlarına və papaqlarına heyranlıqla baxır. Deyir:

– Bu nədir? Mən sizi bu şəkildə ağanın yanına buraxa bilmərəm. Gedin paltarlarınızı dəyişin sonra gəlin.

Onlar həyətə çıxırlar. Onların biri kök, biri arıq idi. Üzünü yoldaşına tutub soruşur:

– Bəs indi biz nə edək?

O biri yoldaş deyir:

– Nə edəcəyik, paltarlarımızı dəyişmədən içəri girə bilmərik. Bəs yaxşı sən çıxart paltarlarını mən geyim, mənimkin də sən geyin.

* * *

Bir dərzi dükanının qabağında yazılmışdır: “İyirmi dörd saata pencəyi tikib veririk”. Səfərə çıxan bir nəfər bu yazını oxuyub sevinir. Dərziyə müraciət edir, parçanı aparır sifarişini verib. Sabahı, yəni on iki saatdan sonra gəlir ki, pencəyini aparsın. Dərzi isə deyir:

– Hazır deyil.

Müştəri şüşədəki elana işarə edir. Dərzi deyir:

– Bilirsən nə var, axı mən gündə iki saat işləyirəm. Siz gedin, on iki gündən sonra gəlin.

* * *

Bir oğlan ilə bir qız məhkəmə salonunda şahid sifətində çağırılmışdılar. Məhkəmə rəisi oğlandan soruşur:

– Evlisiz, ya subay?

Oğlan bu sualdan gözləri yaşarır, ağlayır. Məhkəmə rəisi katibə deyir:

– Yaz, evlidir.

Sonra üzünü qıza tutub soruşur:

– Siz necə? Evdəsiz, yoxsa ərdə?

Qız cavab əvəzinə hönkür-hönkür ağlayır, məhkəmə rəisi katibə deyir:

– Yaz, hələ evdədir.

* * *

Bir nəfərin yanına çox zarafatcıl bir dostu gəlir. Onu yorğan-döşəkdə görüb, təəccüblə soruşur:

– Sənə nə olub? Xəstələnibsən?

– Yox. Səndən nə gizlədim, mənim pis yerimdən bir çiban çıxıb.

Dostu qayıdıb deyir:

– Mən heç üzündə çiban görmürəm.

* * *

Yoldan keçən bir uşaq daş atıb mağazanını şüşəsini sındırdı. Uşağın atasına kağız göndərdilər ki, sınmış şüşənin pulu qırx tümən edər, onu ödəməlisiz. Kişi həmin günün səhəri mağazaya gəlir və deyir mən pəncərə şüşəsi salanam. Yüz tümən verin, sizin pəncələrin şüşəsini salım. Mağaza müdiri deyir:

– Çox istəyirsən. İki gün bündan qabaq bizim qonşunun şüşəsini iyirmi tümənə salıblar.

Kişi cibindən iyirmi tümən çıxardıb deyir:

– Buyurun, bu da iyirmi tümən, mən sizin pəncərənin şüşəsini sındıran uşağın atasıyam.

* * *

Bir arvad öz oğlunu dəmirçinin yanına şagird qoydu. Uşaq bir həftə dəmirçi dükanında işləyəndən sonra hamısını öyrəndim deyib, daha işə getmədi. Bir gün dəmirçi bu uşağın anasını görüb oğlunun neyçün işə gəlmədiyini xəbər alanda anası dedi:

– Oğlum daha dəmirçiliyi öyrənib.

Dəmirçi təəccüblə soruşdu:

– Nə vaxt öyrəndi?

Anası cavab verdi:

– Elə bu həftənin içində. Oğlum deyir, bir parça misdir, qoy olsun isti, döy olsun yastı, qırağını qatla, olsun qazança. Dəmirçi gülüb dedi:

– Sağ olsun belə fərasətli övladı. Bir həftə dəmirçiliyi həm özü öyrənib, həm də anasına öyrədib.

* * *

– Axı, biz səninlə dostuq, mənim heç nəyim yoxdur. Mənə kömək elə.

– Necə?

–Məsələn, sənin iki atın varsa, birini mənə ver.

– Razıyam.

– Əgər iki inəyin varsa, birini mənə ver.

– Razıyam.

– Əgər iki toyğun varsa, birini mənə ver.

– Yox, bunu eləyə bilmərəm.

– Niyə? At verirsən, inək verirsən, toyuq vermirsən?

– Çünki atım və inəyim bir dənədir, toyuğum isə iki dənədir.

* * *

Biri səbətdə yumurta aparırdı. Qabağına çıxan qonşusuna deyir:

– Tap görüm mən nə aparıram? Əgər tapsan, on dənəsini sənə verəcəm, apar, evində qayqanağ elə ye. Ağ yumru şeydir, Yerə düşsə, sınar. Suda bişəndə qabığını soyarlar. Əvvəl ağı görünər, sonra sarısı.

Qonşu deyir:

– Bildim-bildim, ağ turpdur, hamısının içini qazıb zəfəran doldurublar.

* * *

Biri əlini göyə qaldırıb Allaha dua edirdi: "Mərhəmətli Allah, sən mənə beş min tümən pul ver. Onun min tümənini yoxsullara, dilənçilərə paylayım. Əgər mənə etibar edib inanmırsansa, yaxşı, onda mənə dörd min tümən ver, minin isə özün kasıblara payla".

* * *

Üç kəndli yolda söhbət edərkən biri onlara rast gəlib soruşdu:

– Nəyin haqqında söhbət edirsiz?

Dedilər:

– Biz yoldan yuz tümən pul tapmışıq. İndi qərar vermişik ki, kim güclü yalan desə, bu yüz tümən ona çatacaq.

– Şərtiniz heç yaxşı deyil. Yalan danışmaq çox pis şeydir. Mən ömrümdə bir dəfə də olsun yalan danışmamışam.

Kəndlilərin üçü də bir ağızdan dedilər:

– Bu yüz tümən sənə çatacaq.

* * *

Toy adamları dağılandan sonra evin xanımı xanəndəyə üz tutub dedi:

– İndi arxayınçılıqdır, bir-iki mahnı oxu, ləzzət alaq. Xanəndə dedi:

– Axı gecənin yarısıdır, sonra qonşular sizdən şikayət edərlər ki, onları yatmağa qoymursunuz.

Ev yiyəsi dedi:

– Qələt edərlər. Onların iti səhərə qədər bizi yatmağa qoymur, hey hürür. Biz bir söz demirik.

# MƏRASİMLƏR

## Çillə gecəsi

Bu gecə əsas adətlərdən biri qarpız yeməkdir. Qarpız neçə aydan əvvəl bu gün üçün saxlanılır. Qarpızı saxlamaq üçün evin tavanından atılan dirəklərdən asılır. Beləliklə, qarpız bir neçə ay əvvəl bostan yığılanda bu gecə üçün ayrılır və ayrıca saxlanılır. Güney mahalında belə adətdir ki, çillə axşamı çillə payı apararlar. O axşam çillə qarpızı ilə birlikdə qoz və fındıq ləpəsi və başqa şirniyyat bir tabaqda düzəlir, yaxın qohumlara, o cümlədən, adaxlıların evlərinə göndərilir. Bu axşam belə adətdir ki, küsənlər barışır, yaşda balaca olanlar böyüklərin görüşünə gedirlər. Evlərdə belədir ki, bütün ailə kürsü başında toplanır. Xonçada hazırlanmış qarpızı və başqa yeməklərlə birlikdə süfrəyə gətirilir. Böyüklərin hikmətli sözlərinə və nağıllarına qulaq asırlar. Beləliklə, çillə gecəsini qeyd edirlər.

Bəzən inanırlar ki, çillə qarpızı beyindəki qurdları, bədəndəki mikropları öldürür və insanı gümrahlaşdırır.

## Çillə qaçdı

Kəndin uşaqları və yeniyetmələr bir köhnə əyaqqabını və yaxud çarığı uzun bir çubuğun başına taxarlar. O əyaqqabını küçələrdə atıb-tutarlar. Bu şəkildə çillənin getməsini, qışdan çıxmağı qeyd edərlər. Bu mərasimdə uşaqlar küçələri gəzə-gəzə bu şeirləri oxuyarlar.

Nədarə ha, Nədarə,
Şah getdi Qəndiharə.
Şahın Şirvan içində,
Oynar meydan içində.

Meydanın ağaşları,
Bar gətirər başları.
Çillə qaşdı,
Hoydu, hoydu.
Çarıx dabanın götdü,
Qaçdı, hoydu, hoydu.

## Yağış arzulama

.......Əkin və bağ-bağat susuz olan kənd əhalisi kəndin eşiyində hündür bir yerdə müsəlləya çıxar. Hacət namazını qılıb, dua edərdi. Allaha yalvarıb yağış dilər, qurban kəsib bu sözləri deyərdilər:

Unutdu, ha unutdu,
Arpa, buğda qurudu.
Allah, bizə yağış ver,
Demilərimiz çürüdü.

Xərmən yelini əsdirmək üçün xərməndə uşaqlar gəzə-gəzə oxuyarlar:

Heydər-Heydər,
Gəl atına saman apar.
Qanadıva qurban olum,
Gəl atıva saman apar.
Heydər-Heydər....

## Çömçə xatın

Çömçə xatın çıxartmaq quraqlıq vaxtında, yəni suya ehtiyac olan zamanda yağış yağmayanda Allahdan yağış istəmək üçün bir neçə qadın birlikdə toplaşıb bir

çömçə, bəzənmiş kiçik ağac və əyri qabda su götürüb kəndin küçələrini gəzər və hər qapıya çatanda qapını döyərlər. Qapıya gələn kişi olsa, ona bir söz deməzlər. O da çömçə və su qabını görən kimi hər nəyi başa düşüb evə qayıdar. Amma o evin qadını, yaxud qızlar olsa idi, qapıya gələnin əlində bəzənmiş ağacı və çömçə, su qabını görəndə soruşar nə istərsən. Bəzənmiş ağacın üstünə çömçeynən su töküb deyər:

– Çömçə xatın su istər.

Ev sahibi isə bir az noxud, buğda, arpa, duz, ya əriştə və s. verər. Çömçə ilə bəzənmiş ağaca su tökər, bu sözləri deyər:

Unutdu, ha unutdu,
Arpa, buğda qurutdu.
Fatma xanım nə istər?
Allahdan yağış istər.
Əli, qolu xəmirdə
Bircə qaşıq su istər.

Sonradan toplaşan buğdalardan, noxudlardan aş bişirərlər, kənd əhalisinə paylarlar.

**“Çömçə xatun”** mərasimində
aşağıdakı nəğmələr oxunar:

Çömçəxatın nə istər?
Allahdan yağış istər.
Əli qolu xəmirdə,
Bircə qaşıq su istər.

Çömçəxatın beş günə,
Vədə verib üç günə.

Allah, bir yağış göndər,
Birinci imam eşqinə.

Çax daşı, çaxmaq daşı,
Biçinçinin yoldaşı,
Əkinçinin sirdaşı,
Uşaqların göz yaşı.

Yandı sünbülün başı
Bax, çömçənin eşqinə,
Əbülfəzin müşqünə,
Allah bir yağış göndər
On iki imam eşqinə.

Çay daşı, çaxmax daşı,
Çağır yar– yoldaşı.
Silib çayın nəm daşı,
Uşaqların göz yaşı.

Yandı ürəyimin başı,
Yandı anamın aşı.
Allah, bir yağış göndər,
Götürsün dağı-daşı.

Buğda daraq-daraqdır,
Dağlar oraq-oraqdır.
Ay buludlar, getməyin,
Gəlin, göydən itməyin.

Qaradağın buludu,
Yetimlərin ümüdi,
Allah, bir yağış göndər,
Arpalarım qurudu.

Çömçə xatın nə istər?
Allahdan yağış istər,
Əli-qolu xəmirdə,
Bircə qaşıq su istər.

## Novruz bayramı

İl bayramı sil-süpürdən, bir söz ilə, təmizlikdən başlanır. Kəntlərdə bir çox evlər ağ gillə boyanır. O günlər uşaqlar və böyüklər təzə paltarlarını geyib, bayram süfrəsini bəzəyirlər. Kürsünün üstündə, yaxud evin guşəsində süfrə açılır. Yeddisindən ibarət olan nemətlər süfrəyə qoyulur. Misal üçün süd, səməni, sumaq və s. eyni halda bir neçə boyanmış yumurta və diri balıq, şam, ayna, Quran da əlavə olur. Axşam yeməyinə də səbzi plov balıqla hazırlanır. Bu hazırlıqdan sonra yeni ili gözləyirlər. Yeni il elan olunan kimi balacalar böyüklərin üstünə cumurlar. Bayramı təbrik edirlər və digər qohumlarının görü-şünə gedirlər. Bu görüşlərdə bir dənə alma, yaxud nar, heyva əllərində aparırlar. Yaxın qohumlar tərəfindən balacalara bayramlıq verilir. Bu bayramlaşma yeni ilin 13-cü gününə qədər davam edir. 13-də isə bütün

güneylilər başqa azərbaycanlılar kimi dağların, yamacların ətəyinə toplaşarlar. Güneylilər isə Mişov dağlarının yamaclarına çıxarlar. Elə bil dağ bütün milləti özünə qonaq çağırıb. Öz evladlarını başına toplayır, rəmzi birliyə çağırır. Bu yamacların ətəyində o günü qeyd edirlər. Çalıb-oynayandan sonra səmənilərі gənc qızlar dilək tutub düyün vurarlar. Arzuları çin olsun deyə, onları təbiətin qoynuna qoyarlar.

## Axır çərşənbə

İlin axır çərşənbəsində Güney mahalında damlara çıxarlar. Damlarda, meydanlarda tonqal qalayarlar. Şadlıqla onun üstündən atılaraq belə deyərlər:

Atıl, batıl, çərşənbə,
Baxtım açıl, çərşənbə.

Həmin gün uşaqlar topladığı pulları götürüb Şəbistər bazarına gedərlər. Bu bazardan istədiklərini alarlar. Böyüklər isə uşaqlara təzə paltar, təzə ayaqqabı və s. alarlar. O günün axşamı qeyd olan mərasimlərdən biri də şal sallamaq mərasimidir. Şalı sallanan ev yiyəsi də onlara pay qoyar. Pay ibarətdir qoz, badam, corab, dəsmal... Əgər ev yiyəsi şal sallayan adamı tanısa, daha qiymətli hədiyyələr şala bağlar. Bu gün qardaş bacıya, ata-ana ərdəki qızına hədiyyələrlə yanaşı bir boşqab plov və ya şirniyyat göndərərlər. Bu günün axşamı da cavanlar yumurta boyayıb yollarda, evlərdə meydanlarda döyüşdürərlər. Çərşənbə oyunların və başqa oyunları qeyd edərlər.

## Açar (kilid) salmaq

Güneyin bir çox kəndlərində çərşənbə axşamı açar salmaqla fal tutarlar. Bu faltutma belədir ki, başmağın

bir tayını qoltuğuna vurub bir tində və yaxud bir döngədə gizlənərlər. Kimsə bir xoş söz danışırsa, onu yaxşılığa yozub, tutduğu fal yaxşıdır deyib, sevinərlər. Əgər xoş söz deyilməsə, deyərlər ki, fal yaxşı gəlmədi. Açarı yerə salarlar, sağ əyağını onun üstünə qoyarlar. Fala duranın qulağı hər hansı danışığın birinci kəlməsinin sözünü eşitsə və o söz xoş söz olursa, o inanır ki, bütün ümid və arzularına çatacaq . Əgər yaxşı söz olmasa, ümidlərin puça getdiyinə yozulur.

## Bayram görüşü

Bayram günü kənd əhalisinin bütün ağsaqqalları və gəncləri meydanlarda toplaşarlar. İlin təhvil olmasını gözlərlər. İl təhvil olandan sonra böyüklər öz xeyir-dualarını verərlər. Məhsulun bol olmasını, sağlamlığı, səadəti, yeni ilin xeyirli olmasını tanrıdan dilərlər. Meydanlarda toplaşan camaat ötən ildə qohum-əqrabası ölənlərin evlərinə gedərlər və onlara baş sağlığı verərlər. Ölənə rəhmət dilərlər. Bundan sonra başqa ailələr öz böyüklərinin görüşünə gedərlər. Bəllidir ki, birinci görüş ata-anadan və böyük qardaş və bacılardan başlanır.

## El fatihəsi

Bayram günlərində cüməsi axşamı və cümə bütün kənd əhalisi o günü məsciddə toplaşarlar ötən ildə ölənləri xatırlamaq ücün. Yaxınlarına baş sağlığı vermək üçün məscidə gələrlər. Ölənlərin yaxınları məscidin girəcəyində durub, məscidə gələnlərlə görüşüb, içəri dəvət edərlər. Onlar isə qarşılığında baş sağlığı verib “Allah rəhmət eləsin” deyib, içəri girərlər. El bütünlüklə toplaşdıqdan sonra məsciddən çıxıb kənd qəbirstanlığına tərəf yollanarlar. Yol boyu bir məddah rəhmətə gedən-

lərin haqqında uca səslə fatihə verər. Bu məttaha "ərşə-xan" deyilir. Bu mərasimə "el fatihəsi" deyilir.

## Çillətin suyu

Bu mərasim Güneyin Alışan kəndində belədir ki, bayram gününün ikinci yarısında Qaynar bulaqdan neçə qazan su doldurub Cümə məscidinin eyvanına qoyarlar. Həmin qazan suyundan bir neçə kasa doldurub bir din adamının, yaxud elbi-lənin yanına aparlar. O isə yasin surəsini qırx dəfə oxuyub, suya püflər. O suyu təkrar gətirib qazanlara tökərlər. Sonra kənd əhalisi çillətin suyunu qazanlardan doldurub ailəsinə, mal-qarasına, bağ-baxçasına müqəddəs su kimi içizdirərlər.

## Biçin mərasimi

Buğdanı biçərkən yaxın dostlar, qohumlar brlikdə toplaşıb zəmiyə doğru gedərlər. "Bərəkətli, xeyirli uğurlu olsun" deyərlər. Hansı bir ağsaqqal biçilməmiş buğdadan bir çələng tutub kiməsə uzatsa, o, birinci biçməyə başlar. Və onun ardınca digərləri məngala (oraq) əldə biçin biçməyə başlarlar.

Biçin biçəndə zəmidə başlanan yerə "vər" deyrlər. Öz vərini tez biçib qabağa düşən adama da "şavər" deyərlər. Ondan bir az geridə qalan adama da "sinavər" deyərlər. Qalan-larına "dəngəvər" deyərlər. Biçin biçilib qurtaran günə "tikanlıq günü" deyərlər. O günü zəmidə günorta yeməyinə plov pişirərlər. Həmin tikanlığın güllərindən dərib düyünün üstünə səpib dəmlədərlər. Eyni halda o gün xırmanı döyüb, taxılları taylara dolduranda, xirmən yiyəsi qəlbirdə iştirak edənlərə pay verər. O günə də "qəlbirlik" deyərlər.

## Fitr bayramı

Fitr bayramı orucluq ayının son günlərində qeyd olunur. Günəş batandan sonra göydə ayı görmək üçün dama çıxarlar. Bir neçə nəfər görəndən sonra o günün sabahını bayram edərlər. Hər ailə adam başı üç kilo buğda yoxsullara pay verməlidir. O pay ayrılandan sonra ailənin hər üzvü əlini o buğdaya basıb, xeyir-dua verər. Əgər buğda olmasa onun dəyəri əsasında yoxsullara pul ayırır. O pula da ailə üzvləri əl basmalıdırlar. Bundan sonra məscidə gedib camaat namazı (fitir namazını) qılarlar. Qohum-əqraba birlikdə namazdan sonra görüşüb "oruc– namazın qəbul olsun" deyərlər.

## Qurban bayramı

Həccə gedənlər qurbanlıq kəsərlər, qohum-qonşuya paylarlar. Əlavə etmək lazımdır ki, nəziri olanlar da Qurban bayramında qurban kəsərlər. Eyni halda bəziləri əllərinə, yaxud saqqallarına xına qoyarlar. Əlavə etmək lazımdır ki, hətta süd verən analar da döşlərinə xına yaxarlar. Bu bayramda qurbanlıq payından əlavə bir-birinə hədiyyələr verilir. Xüsusilə, hacıların görüşünə gedərlər. O günü təbrik edərlər. Bu görüşdə bu sözlər ifadə olar: "Allah qəbul eləsin". Hacı da qayıdıb deyər, "hacılar savabında olasız". Beləliklə, Qurban bayramını başa vurarlar.

## Qədr bayramı

Bu bayrama seyidlər bayramı deyilir. Bu günlər bir çoxu seyidlərin görüşünə gələrlər. Onlara pay verərlər. Seyidlər də təbərrük üçün onun qarşısında xırda pul verərlər. Belə bir inam da var ki, əgər Qədr gecəsi ayıq olsan, qulağını yerə söykəsən, yerin altından keçən karvanların zınqırov səsini eşitsən, əlini nəyə vursan, qızıl olar.

## TOY ADƏTLƏRİ
### *(Dizəxəlildə)*

Toy adətləri elçiliklə başlanır. Sonra Bəleburun mərasimi və bazarlıq etmək. Gəlinin başına şal salmaq, yəni bir axşam gəlinin başına rəngli bir şal salıb gəlinə xoş sözlər deyib, xeyir-dua verib, çalıb oynayarlar. Bununla belə **"parça kəsmə"** mərasiminin hazırlığını görəllər. O gün iki ağbirçək xanımın xeyir-duası ilə bazardan alınan parçanı kəsərlər. Beləliklə, gəlin üçün paltar hazırlayıb və eyni halda çalıb-oynuyarlar. Sonra **"həna mərasimi"** keçirərlər. Bəyi geyindirib, eyni halda gəlini də adət-ənənələr üzərində hazırlayıb bəy toyu başlanır. Bu şənlikdə aşıqlar çalıb-oxuyallar. "Koroğlu"dan, "Əsli Kərəm"dən, "Şirin-Fərhad"dan, "Arzu və Qənbər"dən, "Abbas-Gülgəz"dən oxuyarlar. Bu əsnada sağdışı, soldış seçilər. Əllərində bir məşhəl bəyin yanında hazır durarlar. Çalışarlar ki, bəyi öz xoş sözləriylə güldürsünlər və xoş ovqat yaratsınlar. Bu törən səhərə qədər davam edər. Qonaqlar yeyib-içib, oynar-lar. Bəzən də bu mərasim bir neçə gün olar. Gəlini və bəyi ayrıca sazın və qavalın müşayətində hamama apararlar. Toy gecəsi başlanar. Gəlinin qaynatası gəlinin belini bağlar. Bu şeiri oxuyar:

Gəlin, gəlin, qız gəlin,
İnciləri düz gəlin.
Yeddi oğul istərəm,
Sonbeşiyi qız gəlin.

Bununla da xeyir-dua verib, saz və avazla mərasim başlanır. Bu şəkildə xonçalarla birlikdə gəlini bəyin evinə apararlar. Bəy isə qapıda bir əlində alma gözlər. Almanı gəlinin ayağının qabağında yerə çırparlar. Üç gün

sonra qaynanaya salam, bəy tərəfindən və qaynata və qaynananın **"əl öpmə"** mərasimi gəlin tərəfindən icra olunur. İl boyu bütün bayramlarda gəlinə xonça aparırlar.

***İlin çərşənbə axşamı*** aparılan xonçası ibarətdir qızıl, paltar, ayaqqabı, yemək, həna, küzə, sancaq, daraq, narınc, almadan. Gəlin tərəfindən isə bəyə eyni şəkildə aparılar köynək, corab, on iki dənə bişmiş yumurta, bir az çörək və yağlı kökə.

***Bahar xoncası:*** Bahar xonçasında cürbəcür meyvələri xonçada bəzəyib gəlinin evinə göndərir.

***Çillə axşamı xonçası:*** Qışa aid olan paltarlar, ayaqqabı, quru meyvələr və qarpız aparılır.

***Fitr bayramı xonçası:*** Fitr bayram xonçası və eyni halda qurban bayramı xonçasını şirniyyat və meyvələrlə bəzəyib və bir güzgü ilə birlikdə təzə bəyin evinə apararlar. Beləliklə, il xonçası başa çatır.

## ALİŞAHDA TOY MƏRASİMLƏRİ

Toy mərasimləri Alişahda elçilikdən başlanır. Sonra qız və oğlan adamları bir araya gəlib şərtlərin və mərasimin gedən günlərini təyin edirlər. Buna da danışıq deyirlər. Bütün məsələlər haqqında iki tərəf razılığa gələndən sonra oğlan adamları elçiliyə gəlirlər.

***Danışıq:*** qız adamları oğlan adamlarına "hə" cavabı verəndən sonra danışıq üçün bir gecə təyin edilir. Həmin gecə neçə nəfər ağsaqqal oğlan tərəfindən qızgilə danışığa gəlirlər. Bir az oturub xoş-beşdən və çay içəndən sonra qız evinə yaxın olan ağsaqqalın biri oğlan elinə yaxın olan ağsaqqalın birinə üzünü tutaraq soruşur, nə məqsədlə gəldiklərini öyrənər və qarşı tərəf deyər, gəlmişik oglumuza danışıq edək. Onun bu sözü ilə danışıq başlanır. Nə qədər kəbin salacaqlarsa miqdarı təyin edilir. Toyda oğlan evi tərəfindən qız evinə veril-

cək mətbəx xərci təyin edilər. Məsələn, filan qədər yağ, düyü, ət qənd, çay... danışallar.

***Kəbin kəsmə:*** Danışıq gecəsinin sabahı mollanı çağırtdırıb qız ilə oğlan arasında kəbin kəsilir.

***Üzük salma:*** Kəbin kəsəndən sonra oğlan və qız adamları bazara gedər, oğlan qıza qızıl üzük, ağ çadra, bir cüt başmaq, bəzi ayrı şeylər və paltar alarlar. Qız adamları da oğlana bir üzük, köynək, corab və s. alarlar. Bəlli edilmiş bir gündə oğlan adamları bazardan qıza aldıqları şeyləri və bir az da yer-yeməli və şirniyyatla birlikdə qız evinə apararlar. O gün qız evində bir qədər çalıb-oynayandan sonra qıza alınmış üzüyü qızın barmağına və oğlana alınmış üzüyü oğlanın barmağına taxarlar.

***Hənbəli:*** Hənbəli deyilən bu günə qənd sındırmaq və şirni içmə günü də deyilir. Toya neçə gün qalmış və danışıq gecəsi qoyulan qərarın əsasında qız evinə hazırlanmalı şeylər, o cümlədən neçə kəllə qənd, quru çay, qıza aid olan qızılları mətbəx xərci ilə birlikdə (düyü, yağ, ət və s.) hazırlayıb, tabaqlara düzüb qızın evinə apararlar. Bu anda oğlan adamlarından bir nəfər, qız tərəfindən də bir nəfər gətirən kəllə qəndi sındırıb “mübarək olsun” deyərlər. O qəndi sındıranda qəndin kəlləsini kim götürsə, qız adamına verib ondan ənam alar. Bu əsnada oğlanı çağırıb şirni və yemək-içmək verərlər.

***Parça biçmə:*** O gündə bazardan alınan geyimləri gətirib bir güzgü, şamdan və Quranla birlikdə ortaya qoyurlar. Gəlini və bəyi təkrar geyindirirlər və eyni halda şadlıq edərlər. Parça biçən günü hər iki tərəfdən qızın ailəsini oğlan evinə şam yeməyinə dəvət edirlər. Yemək-içməkdən sonra növbədə saldıc, solduc (sağdiş-soldiş) dururlar. Belə ki, qadınların içində bəyə toy paltarını geydirərlər. Demək, biri onun köynəyini, digəri isə pəncəyini, corabını, başmağını geydirərlər. Geydirəndən sonra kişilərin məclisinə gətirirlər. Sağdiş, soldiş yerinə onun hər tərəfində bir nəfər əlində bir çıraqla məclisə gətirər. Bu əsnada aşıq sazını yerə qoyar, bəyin

qohumları və dostlarını sağdış, soldiş durmağa çağırarlar. Kim artıq hədiyyə versə, o, sağdış, soldiş durar. Sağdış, soldiş təyin olandan sonra aşıq sazı götürüb bəyin tərifinə başlar.

***Toy:*** O günün səhəri(parça biçmə) sağdış soldişlə bərabər bəyi hamama apararlar. Hamamda da şadlıq edəndən sonra sağdış, soldiş hamamçılara ənam verib bəyi evə gətirərlər. Təkrar şadlıq başlanar. Bu əsnada tabaqlarda düzəlmiş xonçalar bəyin evinə tərəf gələr. Xonçaların qabağında gəlin tərəfindən balaca bir oğlan durar. Oğlan ənam almayınca xonçaları içəri qoymaz. Gətirilən cehizlərlə gəlinin otağı bəzənər. Gəlini evdən çıxartmaq üçün yaxın qohumlar qaval çala-çala gəlini yola salanda gəlinin yaxınlarından biri bu sözlərlə gəlini ağlatmağa çalışarlar:

Gəlini gətirdilər gilə-gilə,
Gəlini tutarlar dilə.
Aparalar yargilə,
Gəlin, dur get, dur get.

Gəlinə gətirdilər qoyun,
Ev sahibi, yeyin, doyun.
Gəlinin başmağın qoyun,
Gəlin, dur get, dur get.

Gəlin ağlar deyər, nənə,
Yaşın tökər dənə-dənə.
Qaynanandı, sənə nənə,
Gəlin, dur get, dur get.

Gəlin ağlar deyər, qardaş,
Yaş tökər pərdaş-pərdaş.
Öz qeynindi sənə qardaş,
Gəlin, dur get, dur gut.

Gəlin, ağlar deyər, bacı,
Yaş tökəri acı-acı.

Baldızlarındır sənə bacı,
Gəlin, dur get, dur get.

Gəlin, başmağın sarıdı,
Geymə, dabanın ağrıtdi.
Atlar qapıda bağlıdı,
Gəlin, dur get, dur get.

Çıxdıq bəyin otağına,
Börkünü qoyduq yanağına.
Anası qurban boyuna,
Gəlin, dur get, dur get.

Otaqda yerivi salam,
Yerin başına dolanam.
Naz balışdan xəbər alam,
Gəlin, dur get, dur get.

Gəlin, səni mən bəzərəm,
Otağıva al düzərəm.
Səhər hamamdan çıxanda,
Qoynuva lalə düzərəm.

Qavalçı bu sözləri deməklə, bu əsnada gəlinin atası gəlinə yaxınlaşar, bəyin kiçik qardaşı qırmızı şalı üç dəfə gəlinin başını açıb-örtəndən sonra belə deyər:

Gəlin, gəlin, qız gəlin,
İnciləri düz gəlin.
Yeddi oğul istərəm,
Bircə dənə qız, gəlin.

Həmin şalı gəlinin belinə bağlarlar, möhkəm sıxarlar. Bu mənada ki, gəlin getdiyi evdə az qab-qacaq sındırmasın. Gəlini at belində gətirəndə atın cilovunu əmisi tutar. Dayısı isə başına Quran tutar. Salavat çevirərlər. Beləliklə, gəlini bəyin evinə doğru apararlar. Qeyd etmək lazımdır ki, gəlinin tərkində bir oğlan uşağı da mindirərlər. Belə inanarlar, bu şəkildə gəlinin birinci

uşağı oğlan olar. Gəlin oğlana evinin qabağına yaxınlaşanda şadlıq və izdiham içində bəy gəlinə üç alma atar. Almanı havada tutan oğlanlar bəydən ənam alırlar. Oğlanın, ya bəyin atası gəlinin qabağında qurban kəsər. Oğlanın anası isə qab-qacağı bir məcmeyiyə tökər, gəlin isə o məcmeyinə əyaq basıb evin həyətinə gedər. Bir manqal od həyətdə şölələnər. Onun üstünə üzərlik tökərlər. "Düşmənin gözü kor olsun" deyərlər. Gəlin isə hər addımda hər qapını açanda "bismillah" deyər. Otaqdan içəri girəndə bəy gəlinin ayağını basar. Bu inamla ki, gəlinin dili uzun olmasın. Keçmişdə gəlini qəbirsanlığa apararmışlar. Orda yeddi qəbrin üstündən keçəndə hər bir qəbirə bir az şirni, bir az qənd qoyardılar. Qız gəlin gedən günün səhəri gəlinin anası qayqanaq (paxlava) pişirib göndərir. O günün səhəri gəlin qaynanasının və qaynatasının əlindən, baldızlarının isə çiynindən öpməyə gedər. Qaynata isə gəlinə ənam verər. O gün qohum-qonşular gəlinə gözaydınlığı gətirirlər və xeyir-dua, hədiyyələr verər-lər. Axşama yaxın şənlik mərasimi təkrar başlanar. Toydan üç gün sonra bəy evdən eşiyə çıxar. Gəlinin atasını və anasını şama çağıraralar. Digər qohumlar isə o gündən etibarən bəylə gəlini qonaq çağırarlar ki, buna da "ayaq açma" deyərlər.

## MƏHƏRRƏM – SƏFƏR AYLARINDA ƏZA MƏRASİMLƏRİ

Hər il məhərrəm-səfər aylarında şəhid olan İmam Hüseyn və başqa Kərbəla şəhidləri haqqında matəm mərasimləri keçirilir. Məhərrəm ayının ildə on günü və səfər ayının 21-ci günü kənd əhalisi sinə (döş) zincirvuran dəstələrdən əlavə şaxsey dəstəsi əllərində qəmə, qılınc ilə küçələri dolanırlar. Aşura gecəsi kəndin bütün dəstələri kəndin meydanına toplaşarlar. Tasura və aşura günlərində dəstələrin qabağında soxlu qurbanlar kəsilir. Həmin dəstələrin çoxları nahar və şam yeməyinə qonaq edilirlər. Yaxud şərbət, süd paylarlar.

Aşura günü səhər çağı yerindənduran məscidlərə yola düşər. Məscidlərdə aşura ziyarəti oxunar. Həmin gün üçün məxsus olan iki rəkət cəmaət namazı qılarlar. Namazdan sonra dəstələr hazırlanıb döş və zincir vura-vura qəbiristana doğru gedərlər. Qəbirstan əhlini ziyarət edərlər. Orda fatihə və mərsiyə oxuyarlar. Dəstələr günorta çağına yaxın kəndin başqa məhləsinin meydanlarına toplaşarlar. Bu zaman burda İmam Hüseyn və başqa Kərbəla şəhidlərinin xatirəsi üçün bir neçə atı bəzəyərlər. Belə ki, onların üstünə yaşıl, qırmızı qəhvə rəngli parçalar salarlar. Quyruğun və boynunun tüklərinə neçə alma bağlarlar. Onların üstünə bir neçə göyərçin oturdarlar. Bu atlar və dəstələr küçələrdə dolanıb, nəzir toplarlar. Atların üstündəki şallara pul sancaqlarlar. Aşura günü şaxsey gedərlər, baş yarar-lar. Döş və zəncir vuranların şüarları bunlardan ibarətdir:

Yoom aşuradı, ya ruzi qiyamətdir bu gün!
Ya qiyamət ərzindən bir əlamətdir bu gün,
ya Hüseyn!
Kərbalada qanlı qılınc pas tutub,

Şiyə olan ağasına yas tutub.
Ey vay, ağam vay!
Bu həmən gündür, Hüseyn başsız qalıb,
Zeynəbe məzlumə qardaşsız qalıb.
Necə qan ağlamasın yaş bu gün?
Kəsilib yetmiş iki baş bu gün.

Ey Şimri– namüsəlman,
Əl vurma canəmazə.
Yol gözlürəm ki, gəlsin
İndi babam nəmazə.

Səcdəgahı eşqə saldım,
Qanlı canəmaz, İlahi!
Axərin ibadətimdi,
Axərin nəmaz, İlahi!

Atamın atı gəldi,
Qanlı xələti gəldi.
Hüseyn, Hüseyn,
Vay Hüseyn!
Şəhid ağa, ya Hüseyn!
Şaxsey, vaxsey!
Mədəd, Əli,
Şəhid İmam,
Həsən, Hüseyn!

Aşura günü qətl kəsiləndən sonra bəzənmiş atların bəzəyini dəyişərlər. Onların üstünə çəkilmiş al, yaşıl parçalarını yığarlar və onların əvəzinə atların üstünə qara parçalar çəkərlər. Qəmə vuranlar və "şaxsey" çəkənlər qəmələrini qınlarına qoyarlar. Quşların əyaqlarını açıb, göylərə uçurdarlar. Zəncir və sinə dəstələri birləşib "Hü-

seyn vay!” deyə-deyə kəndin mərkəzi meydanına gələrlər. Meydanda İmam Hüseynin atı Zülcənahın adına bir ağ atı meydana gətirərlər. Camaat o atın ətrafında toplaşıb və ağlaşarlar. İki mis kasa götürüb hər birini atın bir gözünün qabağına tutarlar. Kasaya atın gözündən axan yaş damlasını təbərrük bilib, xəstəyə içirdərlər. Atın əyağının altında olan torpaqlardan da götürüb təbərrük kimi bir-birlərinə paylarlar. Atın ətrafına yığışan dəstələr, camaat bu şeirləri oxuyaraq atın ətrafında əza keçirdərlər:

Ey Zulcənah, babam meydanda harda saldın?
Saldın əgər, nədən bəs axır bu halə qaldın?

Zülcənah üstünnən düşəndə şahi– ətşan ağladı,
Arzə göz yaşların ətvəl ətşan ağladı.

Aşura gününün axşamı kənd əhalisi məscidlərə toplaşıb, işıqları söndürüb, şam yandırarlar. Beləliklə, İmam Hüseynin və Kərbala şəhidlərinə “şam qəriban” keçirdərlər. O gecə kimsə evlərində çıraq yandırmaz. “Şam qəriban” gecəsinin şüarları bunlardan ibarətdir:

Gəlmişik ey şiələr, şami– qəribana biz,
Verməyə baş sağlığı Zeynəbi– nalana biz.

Fatimə başın fədası, yatmısan nədən kül üstə,
Sən gərək, oğul, yataydın sinəm üstə, ya gül üstə.

Aşuradan İmamın qırxı çıxana kimi hər həftə cümə axşamı kəndin bir məhləsində əzadarlıq keçirərlər. Ərbəyində həm də səfər ayının 28-i və sonuncu gecəsində islam peyğəmbərinin vəfatı – İmam Həsən və İmam Rzanın şəhadəti münasibəti ilə əza mərasimi davam edərdi.

## AŞURA

## ŞƏBİH TAMAŞALARI

Azərbaycanın digər bölgələrində olduğu kimi, Güney mahalında da hal-hazırda yadda qalan dəblərdən biri də şəbeh çıxartmaqdır. Bu dini törəndə bir çox Güney əhalisi başqa-başqa şəhərlərdən öz doğma kəndlərinə gəlirlər ki, bu tamaşanı yaxından görsünlər. Özəlliklə Xamnə, Şəbistər Vayqan, İskəmər əhalisi. Niyə ki, bu kəndlərdə şəbeh üçün bir ay öncədən lazımı hazırlıqlar aparılır. O gün (Aşura günü) qadınlar sə-hər tezdən meydanları, döngələri sulayıb, süpürüb təmizləyilər. Qızlar, gəlinlər, uşaqlar elə səhər tezdən damlarda, divarlarda, səkilərdə özlərinə yer tutarlar. Saatlarca heç yorulmadan meydanda olacaq tamaşanın icrasını gözlərlər. Yavaş-yavaş çadırlar qurulub, hər şey öz yerini alır. Meydanın bir tərəfində sadu, yəni qara bir çadır İmam Hüseyn üçün bərpa olunur. O çadırın qabağında İmam Hüseyn balaları qara geyinib məzlumcasına oturarlar. Ordusu isə çadırın önündə yerləşər. Bir əldə qara bayraq, bir əldə qılınc çadırları qoruyarlar. Qara və yaşıl əmmaməli geyimləri gözə çarpır. Meydanın digər tərəfində İbni Ziyadın bir necə çadırı qurular. Əllərində qırmızı bayraq və bir də qılınc. Başlarında papaq çadırın qabağında get-gəl edirlər. Onun yanında orkest qrupu yerləşir və çadırın önündə bir çarpay və oturacaq sərgilənir. Və onun nə qədər qüdrətli olduğunu göstərir. Bir az aşağıda Şimr və Ömərsədin başçılıq elədiyi qoşun durur. Başlarında dəmir papaq, dizlərinə qədər çəkmə, əllərində qılınc zəncirlənmiş bir aslan kimi görünüllər. Hər an hücuma keçməyə tələsirlər. Bu qoşuna əşqiya də deyilir. Bu əşqiyalar bəzən də İmam Hüseynin balalarına hədə-

qorxu gəlirlər. Beləliklə, hər şey öz yerini alır. Tamaşa bir döngədən gələn azan səsilə ciddi bir hal tapır. Səs yaxınlaşdıqca ucalır. Azan verə-verə meydana daxil olur. Beləliklə, şəbeh tamaşaçılar arasında tragedik bir hal alır. Üzlərində, gözlərində tutqu, hüzn sərgilənir. İmam Hüseyn bir az azan səsinə qulaq asıb sonra deyir:

Əya sahibə, bu gün gəl mənə sən eylə bəyan,
Hənuz zöhr deyil, olmayıbdır vəxti– əzan.

Əzan verən meydanın guşəsinə işarə eyləyib ki, Hürr və onun ordusu uzaqdadır. Düşmən ordusunun sərkərdəsi Hürr tək başına gəlir İmam Hüseynə yaxınlaşıb dayanır, deyir:

Yezid əmrini bu çöldə möhtərəm tutaram,
Səni gərək qolubağlı əsir edəm, aparam.

İmam Hürrə baxıb deyir:

– Ey cavan, sən bilirsən ki, mən kiməm. Mən Hüseynəm. Fatimə oğlu, peyğəmbər nəvəsiyəm. Mən İmami– əsrəm, yəni İmami– Zamanam. Mən peyğəmbər yerində əyləşənəm.

Meydanda olanlar qan ağlayırlar. Hürr özünə gəlib İmamı tanıyır. Bir dizini yerə vurub deyir:

Əzizi Fatimə, arami canı peyğəmbər,
Cahanda dayəsi ruhum mübin, səlamiəleykim.
Nişaneyi– əsədullah, yadigari– Əli,
Mədinə şahi, İmami– mübin səlamiəleykim.

İmam Hürrün cavabında deyir:

Ey cavani– səadət nişanı, əleykəsalam,
Olan bu gündə mənə mehriban, əleykəsalam.

Bu gəlməyində nədir mətləbin, məgər kimsən?
Mənə ey qəribə, gəl eylə bəyan əleykəsalam.

Hürr ki, İmami razı görüb özün tanıtdırmaq üçün İmama deyir:

Adımdır Hürri, dilavər əmiri-ceyşi-ərəb,
Budur hüzuruva gəlməyib İbni-Sədr.

Edibdir hükmü o .....ziyadə fərman,
Əlac yoxdur səni şəhri- Küfiyə aparam.

İmama uca səslə deyir:

Kimin nə həqqi var ol fikrə mübtəla olsun?
Ləbi xətərsən anan matəmində əyləşsin.

Bu şahi bağlayasan qul kimi ərşələngər edər,
Atası Heydəri-Kərar, babası Mürsəldir.

Hürr xəcalətindən başını aşağı salıb deyir:

Məlamət edəm, məni çün bu işdə məcburəm,
Əmiri-Kufə mənə hükm edibdir, məmurəm.
Bu karvanı gərək qoymuyam kənara gedə,
Səvayi-Kufə dahı ayrı bir diyarə gedə.

Bu zamandan ağlaşmaq səsi göyə ucalır. Tamaşaçılar dizlərinə döyüb, ağlayırlar. Bu ağlaşmanın sırasında Əbülfəz qəzəblə şəmşir əldə Hürrun qabağın çıxır, səhnəyə daxil olur. Üzünü bəni – Haşim cavanlarına tutub deyir:

Ey Haşimin cavanları, meydandı, qorxmayın,
Bəd-bəla bu çöldən nümayandır, qorxmayın.

Amadeyi – qeytali səfhi-əşqiya olun,
Şahi – Mədinədən belə fərmandır, qorxmayın.

Altı qatda darə vurun, "ya Əli" deyin,
Kəlbi bəla deyil, Ərəbstandır, qorxmayın.

Hürr ki, Əbülfəzin şücaətini görür, savaşa hazır olmağı yəqin eyləyir. Geri çəkilir və İmamı qolubağlı Kufiyə aparmaqdan üz çevirir və yalvarmaq halətiylə üzünü İmam Hüseynə tutub deyir:

Budur hüzürüva bir iltimasım, ey sərvərim,
Ki az qalıbdır susuzundan həlak ola ləşgər.
Həqiri-lütf eylə, bu çöldə feyziyab edəsən,
Bir az silə bu ünvanı kamyab edəsən.

İmam üzünü meydandakı cəmaatə tutub dolu ürəklə, ağlar gözlə bir ürək yandıran mərsiyə oxuyur və Kərbəladə susuz qalan uşaqlara işarə eyləyir. Bu halda meydanda sakit bir matəm içində çadraların altında ağlamaq səsi ucalır. Muradı, diləyi olan gətirir İmamın boynuna şalın, yaylığın salır. Uşağı xəstə olan gətirir İmam Hüseynin qucağına verir. Yaxud şikəst uşaqları onun qarşısına qoyurlar, İmam Hüseyn meydanı dolanır, sonra üzünü Əli Əkbərə tutur deyir:

Mədinə şahinə sənsən oğul, Əli nazir,
Qulamlara etsinlər təşlər hazır.

Əliyi-Əkbər bu İmamın bu sözlərini eşidib, təəccüblə deyir:

Nə sirri var ey padişahi-ərşi-niqab,
Ki yol bağlıyanları bizlər edək sirab?

İmam Əli Əkbərə belə cavab verir:

Budur məni fərzim, bunlara edək hörmət,
Bəlkə, su içələr, qolları tapa qüvvət.

Əli Əkbər İmamın əmrini yerinə yetirir. Su qablarını qulamların əlinə verib Hürrün ordusuna su paylayırlar. Əli Əkbər bu halda incə bir səs ilə su verənlərin önünə keçib deyir:

Sizin susuzluğunuzdan İmam olub agah,
Su göndəribdir, ey camahati– gumrah.
Cəl bu camı Əliyi Əkbərin əlindən alın,
Vəli bu təşnələbi Kərbəladə yadə salın.
Diyari– Kərbəladə gərək əvəz edəsiz,
Susuz qalanda Səkinə, o tiflə su verəsiz.

Birdən səsini dəyişdirib rəcəz oxumaq halına keçir:

Ey bu çöldə bizlərə yol bağlıyanlar əl səbr,
Kərbəladə xəncər ilə doğruyanlar əl səbr.
Su içib sirab olun, ey Kərbəla qatilləri,
Atəşi-suzu atəşdən dağlıyanlar əl səbr.

Hürr İmam Hüseynin mərdliyindən utanıb İmamdan istəyir ki, onu təkrar bağışlasın. Sonra deyir:

– Sən azadsan, istədiyin yerə gedə bilərsən. Mənim sən ilə heç bir savaşım yoxdur.

Sonra ordusuna geri çəkilmə əmrini verir. Meydanda neçə addım yol gedirlər ki, guya Kərbəlaya yaxınlaşsınlar. Neçə mənzil Kərbəlaya qalmış Sudabə adına bir

yerdə çadır görsənir. İmam yaxınlaşanda bir ərəb xeymədən çıxıb İmamı tanıyır deyir:

Səlami əleyk, əbaabdullah,
Be əbi ənt və ümmi ya ben Rəsulullah!
*(Tərcüməsi: Salamun aleykum, Abdullah,*
*Ailəmlə birlikdə buradayam, ya Rəsulallah)*

İmam Hüseyn deyir:

– Əleykəsalam! Ya, oğul ərəb!

Ərəb İmam Hüseynin qabağında neçə dəvə, qoyun qurban kəsir. İmam o qurbanlara baxanda yadına düşür, deyir:

Əya şiri-əba, bunlar nə qurbandır,
Əcəb qərib əlamət bu dəm nüməyandır?

Ərəb bir haldakı gözləri dolub, hüznlü bir səslə belə deyir:

Bu rəsmdir aramızda ki, hər əzimi ol şən,
Gəlib qəbiləmizə bizlərə olar mehman.
O tacdarə nisarə eylər canlar,
Onun üçün gərək olsun min ovqa qurbanlar.

İmam Hüseyn ərəbə məhəbbət eyləyib, soruşur:

Bu yer nə yerdi mənə zarə etginən izhar,
Baxan zamanda havasında qəm əlaməti var.

Ərəb deyir:

Ey İmami – Zaman,

Fəda olum sənə, ey padişahi-ərşi-məqam,
Bu dəşti-nurxətərə Nurbəla deyəllər nam.

İmam deyir:

– Ərəb qardaş, fəqət adı Nurbəladır, ya başqa ad da var?

Səri söylə görüm, ey ərəb, bi sidqi-səfa,
Olur genə bu yerin özgə bir də adı ola?

Ərəb bir az fikrə gedir sonra deyir:

Dahi bir özgə adı dildə-dişdə cariyyədir,
Qəriblər belə söyləyərlər, dəşti-mariyyədir.

İmam yenə də soruşur:

– Ərəb qardaş, bəlkə də bu yerin daha başqa bir adı var? Ərəb ürəkdən bir ah çəkib deyir:

Bir özgə adı da var ...................................
Ürəklərə yetişir zikr olanda hüzün və məlal.

Bəla çölündə nümayən olan bəladır bu,
Səri söyləyirəm dəşt-Kərbəladır bu.

İmam ürəkdən bir ah çəkib, öz əhli beytinə və yar-yoldaşına üz tutur, belə deyir:

– Haza məkan Kəlbəla!

Və sonra ağlamağa başladı. Tamaşaçılar isə meydanda qiyamət qoparırlar, ağlaşma səsi göyə ucalır. Bu halda İmam yavaş-yavaş ərəbdən uzaqlaşır, öz xeymələrənə doğru gəlir. Çadırlara yaxınlaşır. Bu əsnada uzun bir savaşa hazır olmaq üçün Ömərsədd ordusuna baxır. Qarşıda İmam Hüseyni görüb deyir:

Xoşdur edib bu dövrümə dövran əcəb-əcəb,
Qılam Yezidi-xürrəm o xəndam əcəb-əcəb.
Şəst o Nisan və Xuli və Şimrə verilə tac,
Səd oğluna xəlləti-əlvan əcəb-əcəb.

Çox əsəbi və qəzəbli halda meydan oxuyur. Ayaqlarını yerə vurub və ucadan çıxır-bağır salır ki, mən çox pəhləvanam və hər an savaşa hazıram:

Mən o sədrəm dini-imandan əl çəkmişəm,
Alısüfyan eşqinə Quran alıb, and içmişəm.
Gəlmişəm bu Kərbəladə kinimi bildirməyə,
Bir içim qandan ötəri mən İmam öldürməyə.

Sonra meydan oxumaq dəyişilir, başqa əmir halətinə deyir:

Gəl, Hüseyn, qanın bu səhradə səbil etdirməsən,
Ruza axər Fatimə xeyrənnisa kəssin məni.

Zeynəb o gülsümi-üryan naqiyə mindirməsən,
İzzəti-Zəhra çəkən aho nəva kəssin məni.

Bağlayıb qeybi-tənadən Murtuz qızlarını,
Papiyada gəzdirən Şamın uzaq yollarını.

Görsədəm aləmdə zülm paydar ilqarını,
Etməsəm mən hörməti ali-əba kəssin məni.

Sonra İmam Hüseyn əsəbi hal ilə öz çadırına qayıdır. Bu əsnada növbə Şümürə keçir. Qırmızı geyinib çəkmələri parıldayır, yerində durmuyan bir aslan kimi

çadırların önünə gəlir. Uca qışqırıq səslə meydan oxumağa başlaır:

Xəbər-xəbər dəhid be Zeynəb, ey əsiri-mühən,
Rəsid bərdəru dərvazə şemri-zelcuşən.

*(Tərcüməsi: Bu ayın hər günü digərlərindən daha yaxşıdır, ey Zeynəb, Burada olduğunuzda müqavimət göstərin.)*

Üzünü ordusuna tərəf tutub deyir:

Ey Kufə o Şam əhli, bu gün Kəlbibəlaya,
Mən gəlmişəm taci-zərəfşandan ötru.

Fikrim bu deyil qanə batar Əkbəri-dildar,
Naşad ola Qasim, düşə qolsuz ələmdar.

Qəssab kimin Şimir çəkib xəncəri xünxar
..................................................................

Bu halda Şümür xəncərini qınından çıxarıb qılıncını havada oynadaraq deyir:

Yetmiş iki təşnə bu qurbandan olur….

Millətin hay-harayından, ağlamaq səsindən qəmkədər meydanı bürüyüb. Dildə-dişdə Yəzidə lənət yağdırırlar. Şümür davam edib, deyir:

Allah-allah, bilmirəm bu çöldə tufandır nədir,
İndi bu çöldə qopan qovqadan Allah saxlasın.

Qılıncını İmam Hüşeynin çadırlarına tərəf tutub yü-yürüb deyir:

Əkbər adlı oğlunu bu xəncər ilə doğraram,
Xəlq əsgəri....................... gündür bu gün.
Mən o Şümürəm tazədən sevda düşübdür başıma,
İstəsəm bir şəst ilə dünyanı öldürəm bu gün.

Mən Hüseynin əlif qəddin qafə gər döndərməsəm,
Qadiri-qəffar olan qəhr Xuda kəssin məni.

Gülşəni-ali-əbani zülm ilə söndürməsəm,
Müstəfa xətmi-rəsul, xeyrənnisa kəssin məni.

Şümür sonra acıqlı-qəzəbli bir halda üzünü Ömər bin Sədə tutub deyir:

Ey zadi– Vəqqas, bu nə fikirdir səndə,
Dəva işini salmısan axır belə ləngə?

Yüz min qoşuni eyləmisən bənd bu çöldə,
Bilim nədi bais belə təxir edəsən sən?

Tapşır mənə bu ləşgəri birdəm sən, ey biar
Dur eylə təmaşa özün ey Sədi-təməkkar.

Gör Şümür necə cəngdə mahirdir sitəmkar,
Axır niyə bu gün məni delgir edəsən sən.

Ömər bin Səd Şümrün hay-küy saldığından ötəri yerindən olub ayağa qalxıb bir neçə addım Şümürə tərəf gedir, deyir:

Toğyan eyləmə bir belə, səbəbdir tutam aram,
Bu tənəli dil getdi mənim başıma sərsam.

Heyhat, sənə mən baş edib eyləyim ikram,
Müşgüldü verən ləşgəri sən tək bu cəfəngə.

Bu sözü bilmək lazımdır ki, Ömərs bin Səd istəyirdi İmam Hüseynən kənara gəlsin və iş savaşına çəkməsin. Çünki İmam Hüseynin özü ilə yaxın qohumluğu var idi. Bunu İbn Ziya bilmirdi, ona görə Məhərrəm ayının 8-də Şümrü yanına çağırıb ona fərman verib ki, Kərbəlaya get, əgər gör Ömər Səd istəmir savaş eyliyə bu hökmə görə qoşunu Ömər Səddən al, özün İmam Hüseynlə müharibə et, məsələni qurtar. Və buna görə də sənə Rey mülkünü bağışlaram. Odur ki, Şimr İbn Ziyadın hökmü ilə müharibəyə tələsirdi. Çün istəyirdi ki, qoşunu tezliklə Ömər Səddən təhvil alıb müharibəyə girsin. Buna görə Şümür əsəbi halətdə üzünü Ömər Sədə tütüb deyir:

Bir qan tökərəm mərekeyi-dəşt Kərbəlayə,
Avazəsi getsin Nəcəf o şiri-xudayə.

Salam hamı aləmləri bir ah o nəvayə,
İndi görəsən Şümür alıb nərə çəkəndə.
Ömərsəd də Şümürün cavabında deyir:

Şişsin dilin, ey şumi-dəğa, kafəri-mütləq,
Haqqi necə mən batil edim, batili mən həqq.

Ol gün ki, qiyamətdə olan məşhərə mülhəq,
Allahə cavabın nədir, əmalı görəndə?

Sümür ki, Ömərsədi belə görür, ondan üz çevirib İmam Hüseynə tərəf gedir və ona öyüd– nəsihət vermək halətiylə uca səslə deyir:

Ya Hüseyn, beyət et, rəhm et aylən Əhmədə,
Hər tərəfdən üstüvə səf bağlayıb üdvan gəlir.

Şümür istəyir İmamı qorxutsun və ondan Yezidin hökumətini tanısın. Sonra meydan oxumaq halətini özünə tutub, nərə çəkən halda deyir:

Gər hesabi ləşgəri alsan xəbər əbcəddə,
Hər birər min fövci – ləşgər üz qoyub, alan gəlir.

İndi əbcəd hesabı ilə:

Əlif: min fövc əhli– İran imtahan görmüş gəlir, (*Əbcəd*)
Ba: Buruced[17] və Buxaradan iki min mülk gəlir.
Cim: üç min Cəddədən[18] mülki-Cəzayirdən Ceyr,
Dal: Dəmavənd[19] əhli dörd min….. o dərban gəlir.

Ha: Hərata yüz qoyub beş min nəfər Hindustandan (*Hövəz*)
Vey: altı min qoşun sayiri– vilayətdən rəvan,
Zey: Zabul zəmindən yetdi min ləşgərqıran.
Ha: səkkiz min nəfər hərb o ceyş fəryan gəlir. (*Həddi*)

Ta: tayfədən gəlir Tehrani doqquz min nəfər,
Yay: on min ləşgər Yam[20] o Yəmən bidad gər.

---

[17] Güney Azərbaycanda şəhər adı
[18] Güney Azərbaycanda şəhər adı
[19] Güney Azərbaycanda şəhər adı
[20] Güney Azərbaycanda şəhər adı

Kaf: iyirmi min nəfər Küffar Kufə sərbəsər, (*Kəlməm*)
Lam: otuz min ləşgər halur o Lorestan[21] gəlir.

Min: qırx min nəfər mərdi– mərvi cümlə sərdari o əmir,
Nun: Neyşabur, Dəmavən, əlli min Bati [22] o Təbər[23].
Sin: altımış min Səmərqənd o Səqistandan əsir, (*Səffəz*)
Eyn: yetmiş min ərəb gur Ərəbstandan gəlir.

Fa: həştat min fədayi gümləgi əhli-fərəng,
Sa: doxsan min sofuf İsfahani bidirəng.
Qaf: yüz min cin qoşun Qəfqazdan misali Xədənk, (*Qərəşt*)
Ra: iki yüz min rəiyyət Rumistandan gəlir.

Şin: üç yüz min qoşun Şimrano Şamo Şadyar,
Ta: dörd yüz min sifahi türko Turan və tatar.
Sə: beş yüz min sürəyya səradən aşkar, (*Səxxəz*)
Xa-baxsan altı yüz min cək, Xorasandan gəlir.

Za: yeddi yuz min ol zəmi– Zülfüqardən,
Za: səkkiz yüz min ol ..........əşraridən. (*Zəqq*)
Za: doqquz yüz min ol zalım olan Əfraddən,
Qeyn: yüz min nəfər tək Qərcistandan[24] gəlir·

---

[21] Güney Azərbaycanda şəhər adı
[22] Güney Azərbaycanda tayfa adı
[23] Güney Azərbaycanda şəhər adı
[24] Güney Azərbaycanda yer adı

Şümür bu meydan oxumaqdan sonra İmamdan istəyirdi ki, Yəzidə beyət eləsin və iş savaşa çəkməsin. İmamın yolu, fikri hamıya gün kimi işıqdır. İmam deyir:

– Mən bu adamam həqq hüquqdan xəbəri yoxdur, zülm edir əslində kəfərdir, beyət etmərəm, bu da mənim axır sözümdür.

Şümür ki, İmam Hüseynin axır sözlərini eşidib və onun niyyətini bilib narahat və əsəbi halda savaş elan edir. Orduya əmr verir, müharibəyə hazır olsunlar. Hüseyn və onun əlindən tutanlar, yardım edənlər hamısının başları qılıncdan keçirilməlidirlər. Meydanın o biri tərəfində Hürr öz ləşkəri ilə görünür. İmama ihanət eylədiyinə görə, İmamın qarşısını kəsdiyinə görə və ailəsini qorxutduğuna görə indi kor-peşman çarə fikrinə düşür, başın aşağı salıb fikrə gedibdir. Birdən Hürr dörd nəfər yaxın yoldaşları ilə birlikdə Ömər Sədin ordusundan ayrılıb su axtarmaq bəhanəsi ilə meydanın arxa tərəfini keçirlər. Atdan düşərək, çəkmələrinə qum doldurub onları boynuna salıb İmamın qulluğuna gəlirlər. Bu iş son dərəcə təvazökarlığın göstərmək deməkdir. Bu halda meydanda oturanlar hiss və düşüncə içərisində ağlamağa başlayırlar. Hürr isə başın aşağı salıb oxuyur:

Ey şahı dövran, əl tobə-tobə!
Oldum pərişan, əl tobə-tobə!

Mənim salanda atımdan bu ləşkəri-əşrar,
Yetir özün mənə, qoyma cənazəni soyalar.

Bu əsnada Hürr meydana daxil olur, uca səsilə meydanda oxumağa başlayır:

Mənəm Hürri-dilavər, sutudumdan şer lərzandır,
Dəlirani ərəb şəmşiri – tizimdən hərasanıdır.

Ərəbdə ismi o rəsmim var, şücaət namdarəm mən,
Əcəl peyki qabağımda, qığılcım bərgi – suzandır.

Əgər “ya Əli” çəksəm, təmamən əlami qırram,
Odur baisi – mübəyinin Şahı-Mərdan, Şiri-yəzdandır.

Qaçıb ey Şimr, qorxudan dalı səflərdə gizlənmə,
Qədəm hər kim bu meydana qoya, çox yaxşı meydandır.

Bu əsnada orkest, şeypur savaş marşını çalır. Tamaşaçılar həyəcana gəlir, səs-səsə verirlər, yenə ağlaşma səsi göyə yüksəlir. Şümür arxa tərəfdən meydana gəlir, Şümürə öyüd-nəsihət vermək istəyib deyir:

Ey hürri– dilavər, bu nə sevdayə düşübsən,
Bu çöldə sənin ənin cəlalinə gərək olsun.

Şümr isə cavabında deyir:

Bu dəhnidə beş il güzəran mən,
Cənnətdə mənə rovzeyi-rizvan gərək olsun.

Hürr deyir:

Əl çək bu Hüseyndən, özünü səlma bəlayə,
Səndən bu zaman ləşgərə fərman gərək olsun.

Hürr Şümürə acıqlanır, lağyan deyir:

Gər etsə qəbul çakiri bu şahı-Vəhidəm,
Hürrün Yəzid qaninə qaltan gərək olsun.

Şümr yenə öyüd-nəsihət halında deyir:

Yığ ağlını başə, özüvü salma bəlayə,
Evladı – Əli qoy qanə qəltan olsun.

Şümr nəsihət verməkdən çarəsiz qaldığı üçün əsəbi halda səsini dəyişib deyir:

Mənim nəsihətimi etmədin sən indi qəbul,
Nə görsən indi özündən gör, məndən olma məlul!

Bu əsnada da şeypurlar, təbillər çalınır. Havanın istiliyi, günortanını yaxınlığı tamaşada yeni bir əhvali-ruhiyyənin yaranmasına səbəb olur. Və Şümr öz xəncəri, qara çəkmələri və qırmızı geyimi ilə meydana daxil olur. Hürrün qabağında meydan oxuyur:

Vardır əlimdə hükmüm, ərşə salam cahanə,
Təbil, təbil cəngin çal Yezidin eşqinə.

Bu əsnadə təbil və şeypurların səsi medana lərzə salır, az qalır qulaqlar kar olsun. Hürr isə qılıncıyla düşmən ilə savaşa girir. Aslan kimi döyüşür, çoxlarını qırır öldürür, buna baxmayaraq nəticə düşmənin xeyrinə qurtarır. Hürr səmşir və süngülərin altında yerə düşür. Düşmən isə onu dövrəlyib bədənini doğramaq istəyir. İmam Hüseyn meydana girir, Hürrün bədənini doğramağının qarşısın alır. Düşmən geri çəkilir, İmam şəmşir əldə Hürrün başını dizinə alıb, oxşamağa başlayır. Ona məxsus olan löhəni oxuyur. Və əmir verir cənazəni çadırlara tərəf aparsınlar. Bu zaman Şümr çadırların önünə gəlir, daha cəsarətli bir halda oxuyur:

Əl səlam ey padişahi– mülk o mələk, ya Hüseyn!
İsmi pakın lohə səma o ərşə zinət, ya Hüseyn!

Cəddin Əhməddir, baban Heydər Əliyi Mürtəza!
Sən İmamı əsrsən var həqqəti məhz, ya Hüseyn!

Yox əlacın, mən Yəzidin başına and içmişəm!
Eylərəm əmri – Yəzidə mən itaət, ya Hüseyn!

İmam Hüseyn Şümrün bu sözlərinin qarşısında üzüntülü, qəmgin bir hal ilə mərsiyə oxuyur. Cəddindən kömək istəyir, ailənin susuzluğunu önə gətirir. Tamaşaçılar içində üzüntülü bir hal yaranır. Bu əsnada tamaşaçılar içində bir-birlərin arasında şərbət paylanır. Yenə İmam Hüseyn bu halda oxuyur:

Düşübdü təngə işim Kərbəladə, ya Cədda!
Qalıb bəlali başım min bəladə, ya Cədda!

Nədən harayıma gəlmir bu Kərbəla çölündə,
Nəcəf çölündə yatan şahzadə, ya Cədda!

Zeynəb bu nalələri, bu həzin nəğmələri eşidəndə ürəyi qərar gətirmir. Əyaği yalın çadırdan çıxır. Ağlayaraq həzin bir səs ilə oxuyur:

Zeynəbin ölsün Hüseyn, qardaş Əliyi Əkbər gəlir,
Mən necə agah idim şəhzadə, bir ləşgər gəlir.

İmam Hüseyn isə üzünü Zeynəbə tutub oxuyur:

Al dizin üstə başın, ey Zeynəbi-xunun cigər,
Ol zibhi-kuyi həqq ol, sərvəri-bustanım çağır.

Zeynəb isə sinəsinə döyərək oxuyur, meydanda isə tamaşaçılar qan ağlayır. Zeynəbin səsinə səs verərək ağlaşıb, onunla birlikdə oxuyurlar:

Şəhzadə Əkbər, şəbihi– peyğəmbər,
Dünyanı yeqsər şivən tutubdur.
Ey sərvəri-xubani, ey can-canan,
Şahi-şəhidan yalqız qalıbdır.

Bu halda Səkinə sinəsinə vuraraq çadırlara doğru qaçır, Əli Əkbərə sarı üzünü tutaraq oxuyur:

Ey mahi-Kənan, çox əndəbilan
Zülfün pərişan etmiş Səkinə.

Əliyi-Əkbər üzünü bibisi Zeynəbə sarı tutaraq ondan qəm-qüssə yeməməsini xahiş edir, oxuyur:

Əmmə, bixanıman bu çəşmi-giryanın nədir?
Ey siyəhbəxti– cahan, bu nalə o zarın nədir?

Xeyr olsun, mən səni gördüm əcəb pəjmürdə hal,
Canıma cismin kimi bu halət zarın nədir?

Zeynəb isə üzünü Əli Əkbərə tutub deyir:

Fəda bu qamət o novzuhuruna Əliyi-Əkbər,
Ki, istəyib səni baba, oğlu, nədir mətləb?

Əli Əkbər bunu eşidən kimi İmamın hüzuruna getməyə tələsdi. Yaxınlaşıb dedi:

Ki ey şəhənşəhi, kunu məkan, sələmın əleyk!
Qərib o bi kəs o bixanıman, sələmın əleyk!

Səhabası qırılıb, yar o yavəri dağılan,
Bu qəmli çöldə köməksiz qalan, sələmın əleyk!

Mən ölməmiş bu qədər çəkmə ahu o əfqanı,
Fəda bu qamətivə cismim o can, səlamın əleyk!

Əliyi-Əkbər sözələrini deyəndən sonra İmam Hüseyndən icazə istəyir, müharibəyə girsin. Amma onun çox cavan olduğuna baxaraq, İmam Hüseyn icazə vermir:

Tutum ki, çəkirəm hərgiz bu sərvi– qamətdən,
Vəli kənarə qədəm qoymaram ədalətdən.

Bu savaş ədalətsiz savaş olduğuna görə mən razı olmuram ki, sən savaşa girəsən. Nəhayətən Əli Əkbər çarəsiz qalıb Leylanın yanına gedir, ona iltimas eyləyir ki, gəlib İmamdan icazə alsın:

Meydana qoymur məni sultani– Kərbala,
Sən düş qabağıma, anacan, eylə iltimas gəl.

Bu tamaşada iştirak edənlərin ən başarılı nöqtəsi bu an və bu nöqtədir. Tamaşaçılar içərisində ağlamaq və oxşamaq fəryadında Leyla çadırlardan çıxıb İmamın hüzuruna gəlib:

Fəda olum sənə, ey padişahi– mülki– İraq,
Mənə məhəbbət eylə, eyləmə özündən iraq.

Kəmali– lütf eylə, gör seli– didəyə tərimi,
İcazə ver, gedə meydanə bircə Əliyi-Əkbərini.

İmam üzün tülü bir halda Əliyi-Əkbərə baxaraq deyir:

Bu gün mürəxxəsi-meydansan, ey Əliyi-Əkbər,
Gər kədər eyləm indi sən iylə qəti nəzər.

Bu halda bütün çadırda olanlar meydana gəlirlər, tamaşaçılar içərisində ağlamaq, oxşamaq səsi göyə yüksəlir.

Növbəti meydan yetib əhli-hərəm Əkbərə,
Axır didarımız qaldı bizim məşhərə.

Zeynəb daha qəmgin və tutqun bir səs ilə oxuyur:

Nuridu çəşmi rəsullah Əliyi-Əkbərim,
No gole bağu bətul ah Əliyiy Əkbərim.

Əliyi-Əkbər isə üzüntülü halda cavab verir:

Əmmə, sən olma qəmin hicrəm olur xaki....
Gor o kəfən çün olub toy libasından zərur.

İmam isə ağ bir parçanı əlində tutaraq deyir:

Zeynəb verib, anan vəli bu yadə düşməyib,
Bax gör əlimdə bircə kəfən xələtim qalıb.

Əliyi Əkbər isə ağ parçanı kəfən kimi əyninə geyib, meydana doğru hərəkət eyləyir. Bu halda isə Səkinə əyaq yalın Əliyi Əkbərə doğru qaçır. Ağlar və qüssəli qəmli səs ilə oxuyur. Tamaşaçılar isə Səkinə ilə birlikdə xor kimi oxuyurlar:

Dağılsın fələyin tağı, Əliyi-Əkbər, geymə kəfən!
Əhli-Küfə olub yaqi, Əliyi-Əkbər, geymə kəfən!

Əliyi-Əkbər üzünü bacısına tutaraq, ona oxşayaraq deyir:

Ey bülbülü bahir – əza, ağlama, bacıcan, ağlama,
Ey mürqi xoş ləhnu nəva, ağlama, bacı can,
ağlama.

Səkinə isə bir az dincəlib, Əliyi-Əkbərin ardınca qaçaraq onun ətəyin tutub, üzüntülü bir səslə oxuyur:

Amandı getməginən yaru yavərim, qardaş!
Varımdır bircə sözüm, mahu ənvərim qardaş!

Bəlavu o mühnətü o hicran yetişməz tamamə,
O Fatimə bacıva yaz əmandır bir namə.
Qalıbdır gözlər yolda xuda-xuda söyləyir,
Görəndə naməni çox-çox səni duva eyləyir.

Əliyi-Əkbər isə bu vidalaşamağa bundan artıq dayana bilmir bacıdan, bibidən, atadan, anadan sağollaşıb müharibə meydanına doğru yol alır, düşmənlərin qarşısında dayanır. Özünü tanıtdırır ki, siz kimsiz Hüseynə qarşı müharibə edirsiz? Meydan oxuyandan sonra qılınc əldə hücuma keçir. Düşməni xəzan yarpağı kimi qırıb, yerə tökür və sonda bədənindən bir neçə yara alıb çadırlara doğru geri çəkilir. Üzünü bacısına tutaraq, yıxılmış halda deyir:

Salam ola bikəs bacı, ölürəm,
Yaralıyam, susuzam, yoxdur məndə can, ölürəm!

Demə vəfasızmış qardaşım Əliyi-Əkbər,
Gəlibdir bir də görə bacısını, aman, ölürəm!

Qalanda bacılarım şəmşir əldə sərgərdan,
“Əli”, “Əli” deyərlər, eylərəm fəqan ölürəm!

Əliyi-Əkbər bir neçə addım geri çəkilib, meydanın ortasına gəlib, üzünü tamaşaçılara tutaraq löhə oxumuğa başlayır. Burda isə tamaşaçılar səsinə səs verərək oxuyurlar:

Xudahafiz, ey bikəsən, ey Hüseyn!
Xudahafiz, ey nurumsan, ey Hüseyn!
Xudahafiz, ey oğlu ölmüş ana,
Gülüstani-eyşi pozulmuş ana!
Verin səs-səsə bir navə eyləyib,
Cəvanən dalınca dua eyləyin.
Xudahafiz, ey Zeynəbi-bifəra,
Xudahafiz, ey bibiyi-bisərüpa.

Bu növhəni oxuyandan sonra meydana yenidən bir lərzə düşür, Əliyi-Əkbər atına minib meydana gəlir. Üzünü düşmənə qarşı tutub, deyir:

Sizdə əgər Yəzidi-bədəhdər nişani var,
Gündən işıqdır, məndə peyqəmbər nişanı var.

Mən nayibi-Hüseyn, o Hüseyn naibi-Əli,
Məndə Hüseyn, o Heydər o səftər nişanı var.
Bak etməyin, gəlin məni qarşımdan qılınclayın,
Ta faş ola ki, məndə də Heydər nişanı var.

Bu əsnada Şümr meydana ayaq qoyur. Şeypurların, təbillərin çalınmasına fərman verərək ayaqlarını yerə döyüb, əsəbi halda Əliyi-Əkbərin qəddü-qamətinə oxşayaraq deyir:

Xudaya, nə sərvi-senubəri bu,
Nə şimşad bala, nə ərdi bu!

Bu hüsn, cəmalə həzar afərin,
Məgər lütfü həqdən müqəddərdi bu.
Cibində nuri– Mühəmməd əyan,
Həmana ki, şəbihi-peyəmbərdi bu.

Eyni halda Şümr üzünü İbn Səyidə tutaraq deyir:

Evin xərab ola, ey İbn Sədi– bədəxtər,
Gəlib Hüseyn kömək Kərbəlayə peyğəmbər.

İbn Səd ayağa durub meydanda dolanıb, Şümürün qabağında durub əsəbi halda çəkmələrini yerə vuraraq, Əliyi– Əkbəri Şümürə tanıtdırır:

Bu nocavan gülü-gülzarı ali-təadır,
Əzizi-əhli– Mədinə, Əliyi-rənadır.

Həmən halda dəyişik formada üzünü qoşuna tutub deyir:

İştibahə düşməyin, ey qomi peyğəmbər deyil,
Varisi-şiri-xudadır, daneyi-Zəhradır bu.

Şümr təəccüblənib meydan oxumaq ahəngi ilə belə çıxış edir:

Əcəb nazənin, nazpərvərdi bu,
Deyim sərvi-bala, sənubərdi bu.
Belə izzət ilə oğul bəsləyir,
İlahi, nə istəkli madərdi bu?
Necə bu cəvan üstə xəncər çəkim?

Bu əsnada tamaşacalarin ağlamaq, oxşamaq səsi göyə yüksəlir, çünki Əliyi-Əkbər peyğəmbərə oxşadığı üçün və eyni halda bəni– Haşim cavanlarının gülüydü. Əliyi-Əkbər üzünü qoşuna tərəf tutub, deyir:

Əya, qomi-gümrahi-biabiru,
Nə din o nə məzhəbin, nə millətdi bu.
Ki, cari ola Kərbəlayə Fərat,
Yana ibrəti-seyidi-kainat.

Mənə yol verin, bir belə əhd dedim,
Özüm içmərəm su, Firatə gedim.

Şümr əsəbi halda üzünü Əliyi-Əkbərə tutaraq, qılıncını havada oynadaraq deyir:

Əgər tutsa bu ləşti-abi-Fərat,
Yetişməz sənə zədeyi-kainat.

Sonra üzünü meydandakı orkestrə tutub, savaş havasını çalmağı əmr edir:

Var zəhmətin ənami,
Çal ney o təbli o şeypuru!

Təbil və şeypurların səsi yeri-göyü bürüyür. Şümr qoşuna birbaş yürüş əmrini verir. Əliyi-Əkbər isə özünü qoşunun qəlbinə vuraraq qılınc ilə bir neçə düşməni yerə sərir. İstəyir qoşunun qəlbini yarıb, özünü Fərat çayına yetirsin, İmam Hüseynin susuz balalarına su gətirsin. Qılıncların səsi, təbil və şeypurun səsi elə içə-içə qarışıb ki, yer-göy ağlayır. Hamı Yəzidə lənət yağdırır. Belə görünür ki, tamaşaçı da özünü Kəlbəla meydanında olduğunu hiss edir. Əlyi-Əkbər müharibədə aldığı ağır yaralardan dolayı atdan yerə düşür. Qoşun isə dövrəsində halqa vurur, Əliyi-Əkbər son sözlərini belə deyir:

Ya bəta əl ətəş qətlini,
Vəs qəlin əchəddini.

(Atacan, susuzluq öldürdü məni, ağır yaralar əldən saldı məni)

İmam isə çadırların qabağında Əliyi-Əkbəri nigaran gözləyərək deyir:

Əkbərim getdi əlimdən, yox qərarım, gəlmədi,
Qönçə tək qan oldu bağrım, gülzarım gəlmədi.

Bu halda Əliyi-Əkbərin səsi düşmənin qətligahından gəlir. İmam Hüseyn isə qılınc əldə Əliyi-Əkbəri axtarmağa gedir. Düşmənlər isə İmam Hüseyni görən kimi hərəsi bir tərəfə qaçırlar. İmam Əliyi-Əkbərin cənazəsini çadırlara tərəf gətirir. Ürəkdən ah çəkib ağlayaraq deyir:

Əyağa dur eylə pişvaz, Əkbərin gəldi,
Yaralı ahu kimi yaru yavərin gəldi..........

## ZİYARƏT

Keçmiş zamanlarda Güney mahalında və İskəmər kəndində, Məşhəd, Kərbəla və Məkkə ziyarətinə getmək məxsus bir mərasim ilə baş tutardı. Ziyarət üçün yola düşməzdən neçə ay qabaq ziyarət fikrində olanlar karvanın başçısına öz məqsədlərini bildirərdilər. Hərəkət vaxtından 2-3 gün qabaqdan kəndin çavuşu bir ata minib əlində tutduğu yaşıl bayrağı yelləndirib, xoş avaz ilə ziyarət karvanını neçə gün sonra yola düşməyini uca səslə xəbər verib, ad yazanları hazırlıq üçün başa salardı.

O, belə deyərdi: "Ey müsəmanlar! Ey Əli şiələri, 2 gün sonra (məsələn Ağamız İmam Rzanın ziyarətinə, yaxud Kərbəla, ya Məkkə ziyarətinə) yola düşürük. Ziyarət qəsdi olanların, qohum tayfaları bilsin, gərəkli işlərini görsünlər. İndidən hamıdan halallıq alsınlar, inşallah, ziyarətiniz Allah dərgahında qəbul olsun. Qəriblər şahı İmam Rza hacətimizi yerinə yetirsin...".

Demək, çavuş bu iş ilə kəndə yaşayanları ziyarət karvanının 2 gün sonra yola düşməyini xəbər verib ayıq salardı. Çavuş gahdan durub ürək yandırıcı ahəng ilə səsin ucaldıb, başqa sözlərlə xəbəri kəndə yayardı. Xalq arasında çavuşlar Allah adamı və haqq tərəfindən olan,

yaxşı insanlar kimi tanınardı. Onun xoş səsi ilə şer oxuması kəndin durumunu dəyişib, ürəklərə başqa bir çırpıntı bağışlardı. Hamı ziyarət arzusu ilə ürəkdən ah çəkib, gözlərindən yaş axıdardılar. Hər kimsə ziyarətə getmək üçün bir yol axtarardı. Qabaqdan belə bir günə tədarük görüb pul qırağa qoyanlar ziyarət vaxtının gəlib çatması üçün çox sevinərdilər. Ürəklərdə min bir arzu bəsləyib İmamlarından hacətlərinin alacağına inanardılar. Kimsə ziyarətə getmək üçün evindən bir zad satmaq fikrinə düşənlər də olardı. Ancaq ziyarət üçün pul baxımından gücləri olmayanlar çox həsrət ilə "Gedənlərin xoş halına, Allah qəbul eyləsin, bizim də Allahımız var, bu yaxınlarda biz də gedərik..."

Bütün ziyarət səfərinə hazır olanlar öz qohum-qonşularına ehsan verib hamıdan halallıq alardılar. Bəzi yerlərdə ziyarətə yollananda müsafirlərin qarşısında qurbanlıq kəsərdilər. 2 gün sonra ziyarətə gedənlər bir yerə yığışıb başqalarından fərqli olsunlar deyə qollarına bir ağ parça bağlayıb, qadınların çarşabı üstünə bir ağ dəsmal sancaqlardılar. Azərbaycanın bəzi yerlərində, ziyarətə gedənlərin boyunlarına ağ şal salardılar. Kasıb, dövlətli fərqlənməzdi, hamı bu yığıntıda olardı, ziyarətə gedən, getməyən məhlənin məscidinin qabağında toplaşıb ziyarətə gedənləri yola salmaq üçün hər kəsin yaxın adamları da yanında durardı. Bu ziyarət səfəri kiminə şadlıq gətirib, kiminə də gözündən yaş axıdardı. Yerdə qalanlar ağlar gözlə iltimasi dua deyib, yola düşənlər də dodaqlarında gülüş və onlara cavab verib: "Möhtacı dua" deyərdilər. Yerdə qalanlar belə fikirləşərdilər ziyarətə gedənlərin günahları silinib, sözsüz behiştə gedəcəklər, onlarda yoxsul olduqlarına görə belə bir feyzdən dala qalacaqlar. Ancaq öz ürəklərini xoş edib deyərdilər: "Həsrətin savabı ələmdən çoxdur". Hamı

gəlib məscidin qabağına yığışandan sonra yola düşüb, hərəkət halında çavuş həzn səsi ilə bu şeri oxuyardı:

Eşq əlindən yandı canım, ya Əli, səndən mədəd!
Mən fəqirəm, binəvayəm, ya Əli, səndən mədəd!

Sən mənə lütfü kərəm et, dərdimə bir çarə qıl,
Şah sənsən, mən gədayəm, ya Əli, səndən mədəd!

Əhmədi – Muxtar sənsən, şahi – Kuvsarə, ya Əli,
Yeddi keşvər sərvərisən, ya Əli, səndən mədəd!

Kərbəla! Ey qibləgah işvi-canan, Kərbəla!
Kərbəla! Səndə yatan canlara qurban, Kərbəla!
Sən o yersən, aləm məkanında huvəl ləmyəzəl,
Heç yeri xəlq etməyib, ey Kərbəla, səndən gözəl.

Səndə bir pərdə təcəlla elədi sübhu əzəl.
Tazədən qanlı şəfəqdən oldu pünhan Kərbəla.

(“Ələmdari Kərbəla sözünü” eşidən müşaətçilər özlərini hazırlayırdılar gələn misradan sonra uca səslə salavat çevirsinlər).

Ələmdar Hüseyn, şahi-Kərbəlaya salavat,
Əvvəl be Mədinə, peyğəmbəri-Xudaya salavat.

Dovom be Nəcəf şir-Xudaya salavat,
Sevvum be Kərbəla şahi-şühədaya salavat.

Ey əzizan, güllər açıldı nobahar Kərbəla,
Kərbəla əlvan əz laləhaye Kərbəla.

Kərbəla sultanının yasında qara geydilər,
Bənövşə gül açıb, izhar hal Kərbəla.

Naz ilə qətligahdə yatıb Əkbəri– cavan,
Xəlqində zəxmi-xəncər xunxar Kərbəla.

Əliyə Əkbər xurşide məhləqaya salavat,
Be padişahi Nəcəf Əliyi (ə) Mürtəzaya salavat.

Şəhidi – Zəhri cəfa Həsən (ə) Müctəbara salavat,
Qəribi– şahi– Xorasan İmam Rzaya salavat.

Düşən qolu bədənindən vəfalı Əbbasın,
Əbülfəz bavəfara salavat.

Bəhəqqi süreyi – yasin, şəmsi-zuhara salavat,
Bəhəqqi sureyi – təha və leylul zuhara salavat.

Hər beytin xırında gələn "salavat" sözü ilə orda olanlar səs– səs verərərk salavat çevirib, göz yaşları axa-axa küçənin başındakı yollara sarı gedirlər. Burda, yəni ayrılan məqamda ağlaşma səsi ucalardı, yola salanlar, ziyarətə gedənlərlə qol-boyun olub gözlərinin yaşın axıdardılar. Bir-birindən öpüşüb ayrılardılar. Kimsə öz nəzrini (pul, şal və s.) ziyarətə gedənə verib, İmamın hərəminin dövrəsinə dolandırmasını istərdilər.

Bir az hay-küydən sonra karvanda salavat səsi ucalardı, ziyarətçilərin çoxu dua etməyə başlayıb, yola düşərdilər. Qalanlar arxalarınca su səpərdilər, karvan yolundan toz itənə qədər baxardılar.

Ziyarətdən qayıdarkən kənd əhlilə ziyarətçilrin yaxın, uzaq əqrəbaları ilə onları qarşılamağa gedərdilər. Neçə yerdə onların qarşısında qurbanlıq kəsərdilər. Qurbanlıq, ümumiyyətlə qoyun olardı. Ziyarətçilər qurbanlığın arasından keçərdilər. Bəziləri əllərində boş bir kasa

götürüb qurbanlığın qanından qorxan uşaqların bədənlərinin 7 bəndinə – baş, alın, 2 əl, 2 diz, 2 ayaq yaxardılar.

Pişvaza gələnlər salam-salavat ilə ziyarətdən qayıdanları evlərinə aparardılar. Yoldan yetişən gün, yaxın adamlar gecəni ziyarətdən gələnin evində qalıb saatlarla müsafirin şirin sözlərinə qulaq asıb, müxtəlif sorğular soruşadılar. Səhərisi gün bütün kənd əhalisi dost-tanış, əllərində bir hədiyyə, ümumiyyətlə (kəllə qənd, xurma, adyal və s.) ilə ziyarətçinin görüşünə gəlib, şəkərpənir adlı bir şirni ilə qonaqlara qulluq olunardı. Hər ziyarətçi əlindən gəldiyi qədər qonaq çağırıb, kəsdikləri qurbanlıq ətindən şorba bişirib, ehsan verərdilər. Bütün ehsanlarda çavuş iştirak edib böyük hörmətlə qarşılanardı. Qonaqlıqdan bir gün sonra sovqatlar açılıb, ziyarətçilər nəzərində olduğu kəslərin evlərinə gedib, onların ziyarətə yola düşən gündən qayıdana qədər çəkdikləri korluqdan minnətdarlığını bildirib, bollu dil-agızdan sonra aldıqları payı onlara verirdilər.

İmam Rza (ə) ziyarətinə gedənlərin adlarının qabağına "Məş / Məşə", İmam Hüseyn (ə) ziyarətinə gedənlərə "Kəlb / Kəlbə" və Məkkə ziyarətçilərinə "Hac" ünvanını artırılırdı, Örnək üçün ziyarətdən qabaq, Əhməd və ya Fatimə adlanan şəxs ziyarətdən sonra Məşəhməd, Kəlbəbdullah, Hacbayram və Məşəfatma, Kəlbəfatma, Hacı Fatma adlanardı. Bu kəslərə müstəqim xitab olunanda əsl adların deyilməzdən belə ünvanları səsləndirərlər: "Məşədi Əhməd", "Kərbəlayi Mahmud", "Hacı Heydər". Demək çoxları belə ünvanlarla adlanmaqlarına öyünərək başqalarına fəxr satıb, qürür hissi keçidirdilər.

## TƏKƏ NƏĞMƏLƏRİ

Təkəm, təkəm, axta təkəm,
Buynuzunda nuxta təkəm.
Yay qurtarar, payız gələr,
Onda çıxar taxta təkəm.

Ay mənim yasdı təkəm,
Tük gəldi basdı təkəm.
Yeyib sənin sayandan,
Qazanı asdım, təkəm.

Təkəm, təkəm, axta təkəm,
Buyunuzunda nuxta təkəm.
Tükləri də biz-biz olub,
Qışdan yeyib şaxta təkəm.

Təkəm getdi Mərəndə,
Tamaşadı gələndə.
Yaxşı insan çox yaşar,
“Vay pisə” diyər öləndə.

Bu təkənin qəndi var,
Çox səkilli kəndi var.
Hər qapıda oynasa,
Bir nəlbəki qəndi var.

Bu təkə, yarış təkə,
Boynu bir qarış təkə.
Kecidən küsübsən,
Çəpiş ilə barış, təkə.

Təkə gəlir havadan,
Donu var yel qavadan.
Təkəyə arxalıq ver,
Xanım, evin avadan.

Təkəm naz eylər,
Çobana avaz eylər.
Yığar qoyun-quzunu
Bayramı peşvaz eylər.

Təkəmi yaradan Allah,
Tükünü yaradan Allah,
Hər kəs təkiyə pay versə,
Saxlasın bəladən Allah.

Əli xınalı qızlar,
Burnu tən alı qızlar.
Baydasını götürər,
Qoyunun yolun gözlər.

Canım ala baş qoyun,
Gözəl qələm-qaş, qoyun.
Qaranlıq gecələrdə
Çobana yoldaş qoyun.

Saya gəldi, gördünmü?
Salam verdi, aldınmı?
Bir qoyunla, bir keçi
Sayaçıya verdinmi?

Təkəm gələr havadan,
Donu var yel-qovadan[25].
Gətir sayanın payın,
Xanım evin avadan.

Təkəm gedib xanlığa,
Baş qoyub sultanlığa.
Təkəmi öldürdülər,
Basdılar samanlığa.

Təkə, təkə, nəzər təkə,
Qapıları gəz təkə.
Çox gəzən arvaddarın
Cəhrəsinə çez təkə.

Bu təkə oyun eylər,
Qurdunan qoyun eylər.
Yığar Gilan düyüsün,
Ev yiyəsinin toyun eylər.

Bu təkə axta təkə,
Buynuzunda nuxta təkə,
Yada qul olar, satılar,
Qışda çıxar taxta təkə.

Sayaçı saya, yaxşı sayadır,
Yeri yurdu qayadır.
Onun gözəl sözləri
Yatanları oyadır.

Canım alabaş qoyun,
Qarlı dağları aş, qoyun.
Yağında plov ola,
Qurudundan aş, qoyun.

Qoyunun yüzü gəldi,
Dolandı düzü gəldi.
Çoban qucağında,
Bir cüt quzu gəldi.

Bu keçi, tatar keçi,
Pəyədə yatar keçi.
Qışın bərk günündə,
Balasın atar keçi.

Yağ verən oğlan doğsun,
Özü də sultan olsun.
Yarma verən qız doğsun,
Başı da keçəl olsun.

[25] Yel-qova – bitki növü

# GÜNEY MAHALININ AŞIQLARI

## Aşıq Qəşəm

Aşıq Qəşəm Cəfəri 1280-(HŞ[26]-1901 Miladi il)-ci ildə Güney mahalının Kündür kəndində dünyaya göz açmış, 11 yaşında atasını, 12 yaşında anasını itirmişdir. O, anasının ölümündən sonra Şimali Azərbaycana gedir. 32 yaşlarında bir daha ata-baba yurdu olan Kündülə qayıdar. Aşıqlıqla yanaşı, kənd təsərrüfatıyla məşğul olur və eyni zamanda bir ziyalı kimi zülmə və şah rejiminə qarşı savaş aparır. Nəhayətən 1324-cü ildə (1945) Güney Azərbaycan Demokratik Firqə hökuməti ilə əməkdaşlıq edir. Milli hökumət dağılandan sonra şah rejimi Təbrizə vəhşicəsinə qoşun yürütdükdən sonra Zəncanda, Təbrizdə və başqa yerlərdə günahsız və yalnız dilini, mədəniyyətini, tarixini sevənlərin çoxunu asıb-kəsdikdən sonra Qəşəm də canını qurtarıb Mişov sıra dağlarında gizlənir. O Mişov dağlarında olduğu günlər barəsində belə yazır:

Mişov, sənə qurban olum,
Məni mehman eylədin sən.
Yaman gündə, bəd çağımda,
Məni pünhan eylədin sən.

O, ömrünün son çağına qədər öz savaşından əl çəkmədi. 1378-ci ildə 88 yaşında Kündür kəndində əbədiyyətə qovuşdu və məzarı indi də həmin kənddədir. Onun bir neçə əsəri Güney Azərbaycanda gün işığı görmüşdür.

---

[26] HŞ (ə) – Hicri-Şəmsi

## Aşıq Qəşəmin Gəncə səfəri

Aşıq Qəşəm hələ uşaq idi ki, atası Məhəmmədəli rəhmətə getdi. Atasından bir il sonra anası dünyasını dəyişdi. Evdə kimsəsiz qalan Qəşəmin bacısıyla qəmli-kədərli və ağır günləridi. Bir gün Qəşəm küçəyə çıxır. Görür beş-on nəfər səfərə gedirlər. Onlardan soruşur:

– Hara gedirsiz?

Onlar cavab verirlər:

– Gəncəyə gedirik.

Qəşəm deyir:

– Bir az ayaq saxlayın, mən də gəlim.

O, bu sözü deyib evə qayıdır. Evdən götürməli şeyləri götürdükdə bacısı xəbər aldı:

– Qardaş, nə olub? Olmaya, bir yerə gedirsən?

Qəşəm bacısına cavab verir, görək necə cavab verir:

Atam ölüb, işim ahu-zar olub,
Fələk iqbalıma qarə çəkibdir.
Gözlərim ağlayıb, ümmanə dönüb,
Şeyda bülbül gülü xarə çəkibdir.

Yoxsulluq bir oddur, məni yandırır,
Qəmdən cilov vurub, çox dolandırır.
Tənə söz qəlbimi çox bulandırır,
Ürəyim açılmır narə çəkibdir.

Üzümlü, almalı, heyvalı bağım,
Qoyma qaranlıqda qalsın otağı.
Qəşəm əmi Güneydə alsaz sorağım,
Bilin, fələk dərdimi darə çəkibdir.

Qəşəmin bu sözlərində bacısı Zəhra başa düşür ki, Qəşəm səfərə hazırlaşır. Buna görə deyir:

– Qardaş, qoy bir neçə kəlmə mən deyim sənə.

Sözə belə başlayır:

Səhər-axşam, gecə-gündüz ağlaram,
Daha cəfalara dözə bilmərəm.
Ah çəkərəm, ürək dolar qan ilə,
Qəmin dəryasında üzə bilmərəm.

Göylum çəmənində bitməz lalalar,
Qəlbim heç açılmaz, rəngim saralar.
Qış girəndə Mişov dağın qar alar,
Savad yox, dərdimi yaza bilmirəm.

Zəhra namə yazıb verir yellərə,
Şeyda bülbül həsrət qaldı güllərə.
Yetim qaldım, düşdüm qürbət ellərə,
Axtarıb dalınca gəzə bilmirəm.

Bacısı sözünü başa yetirib və Qəşəm ilə birlikdə Mərənd yoluna çıxırlar. Qəşəmin böyük baçısına da xəbər çatır ki, Qəşəm səfərə gedir. O da öz evindən çıxıb Qəşəmin dalınca qaçır və onlara çatır. Qəşəmi çağırıb deyir:

– Qardaş, hara gedirsən?

Qəşəm böyük bacısı olan Nəsibə xanıma belə cavab verir:

Mən ki, gedəriyəm Güney elindən,
Bircə nişan verin, yol mənim üçün.
Atam öldü, yetim qaldım dünyada,
Fələk qəmin verib bol mənim üçün.

Peyğəmbər gedəndə gördü meyracı,
Yaradan dursun dünyada acı.
Göz yaşı tökmə, mehriban bacı,
Yada sal, bir ana ol mənim üçün.

Qəşəməm, dünyada çox çəkdim cəfa,
Qardaşlarım kimi olma bivəfa.
Səni tapşırıram böyük Allaha,

Nə ağla, nə gül, tək qal mənim üçün.

Nəhayət, iki bacı 15-16 yaşlı qardaşı yola salırlar. Qucaqlaşıb, öpüşüb ayrılırlar. Bacılar evlərinə qayıdır, Qəşəm də səfərə gedən adamların ardınca yola düşüb gəlir "Çanaxsındıran" adlı yerə çatır. Dönüb bir arxaya baxır. Görür, həmişə gəzdiyi, dolandığı yerlər arxada qaldı. Dönüb üz tutur Güney mahalına, görək nə deyir?

Dad ağalar, dad qazilər,
Qəlbimi aldı nisgillər.
Hər kəs vətən arzular,
Gözdən itdi bizim ellər.

Qovuracaq baxça-bağım,
Qaranlıq qaldı otağım.
Kim alacaqdır sorağım?
Xəzan oldu qızıl güllər.

Gen Güneydə oylaqlarım,
Səkkilərdə yalaqlarım.
Durna gözlü bulaqlarım,
Qəşəm qaldı dərin güllər.

Qəşəm ağır həsrət ilə el-obasında ayrılıb, gethaget Yam düzünə[27] çatırlar. Yam düzündə Şah Abbas karvan-sarasına çatanda Qəşəmin ürəyi coşub, görək burda nələr deyir:

"Qanlı yar çayı" san, dalğa vurursan,
Ağır ellər, xanımanlar keçdimi?
Şah Abbas tikməsidir qalıri,
Davud oğlu, Süleymanlar keçdimi?

[27] Yam – Güneydə Azərbaycanda Yam (Pəyam) şəhərinin yolu

Şimalın Yam düzü qiblə, Seyvan,[28]
Abaddır "Şahdüşən"[29], söyüdlü Türyan[30]
Keçir qəflə-qatır, verirlər fərman,
Yoldan-yola karvanlar keçdimi?

Çox üca düşübdür fələgin daşı,
Ümmanə tökür Qəşəm göz yaşı.
Heç həmi durmadı qohum-qardaşı,
Ağlar qaldı nöcavanlar keçdimi?

Ordan da keçirlər. Mişov sıra dağlarının quzey tərəfində Mərənd çuxuruna çatırlar. Qəşəm bir qabağında olan Mərəndə göz gəzdirir, bir də göyə baş qaldıran buludların qarnını deşən Mişov dağlarına baxır. Yenə də bir söz söyləyir, görək nə söyləyir:

Əvrin[31] baxır bizim ellərə,
Qərib seyrangahsan, səfalı dağlar.
Quzey tərəfində Mərən çuxuru,
Ala buludlardan bac alı dağlar.
Bulaqlardan qaynayırdı suların,
Başından çəkilmir dumanın, qarın.
Şairlərə ilham verir vüqarın,
Məcnuna Leylidən vəfalı dağlar.

Mərd igidlər qədrini sən bilirsən,
Yaz vaxtında çiçək açıb gülübsən,
Neyləmişəm, sən Qəşəmdən dönübsən,
Ah çəkib ağlaram, cəfalı dağlar.

Sözü sona çatıb oradan yola düşürlər. Gedib "Yamçı"[32] kəndinə çatırlar. Səhər açılana qədər Məşdağı

---

[28] Seyvan – Güney mahalında qəsəbə adı
[29] Şahdüşən – Şah otlağı, yurdu
[30] Türyan – Güney Azərbaycanda yer adı
[31] Əvrin – Xoy şəhərində dağ adı
[32] Yamçı – Güney Azərbaycanda şəhər adı

Tirəndaz kişinin qonaq evində qalırlar. Səhər çağı olanda yola düşürlər. Gethaget bir bostançıya çatırlar. Onunla salamlaşıb "bərəkətli olsun", deyib, "xoş gəldiz" cavabını eşidirlər. Bostancı bunlardan xəbər alır:

– Ay qardaş, hardan gəlirsiz, hara gedirsiz?

Qəşəm bostançı kişinin bu sualının cavabında belə söyləyir:

Vətəndən ayrıldım düşdüm yollara,
Mahalım Güneydi, görünməz oldum.
Şeyda bülbüllər həsrət qaldı güllərə,
Təbi yox dərmanım, bilinməz oldu.

Məskənim Kündürdü, Güney mahalı,
Heç inanma yaralarım sağalı.
Abad olsun Yamçı Qırşaq[33] mahalı.
Qaldı vətən, qaldı görünməz oldu.

Qəşəməm, ürəyim alışar nara,
Fələk top bağladı bürcə, hasara.
Ürəyim açılmır, mən bəxti qara,
Vətən qaldı, qaldı görünməz oldu.

Söz sona çatıb bostançı ilə sağollaşıb, yenə də yola düşdülər. Günorta çağı Yekən[34] kəhrizinə çatdılar. Mir Mahmud çayxanasında yemək yeyib, çay içib dincəldikdən sonra yoldaşlar dedilər, çıxaq görək buralar necə yerdir. Çayxanadan eşiyə çıxdılar. Qəşəm ətrafa göz gəzdirir. Ürək coşur, bu sözlər tərənnüm eyləməyə başlayır:

"Kəhriz yekən" aləmlərdə bəllisən,
Açılıb bağ-bostan, gülüstan olub.
Torpağın bəsləyib mərd oğulların,
Söhbətin tarixdə bir dastan olub.

---

[33] Yamçı Qirşaq – Güney Azərbaycanda şəhər adı, indi ki adı Pəyamdır.

[34] Yekan – Güney Azərbaycanda mahal adı

Yeməli pəndirin, ağ lavaşların,
Mərcan tək qovzanıb qumun, daşların.
Qorxmaz aslan kimi var sirdaşların,
İgidlərin biri bir aslan olub.

Güneyli Qəşəm olubdur qonaq,
Görüm evlərizdə sönməsin çıraq.
Güney mahalından alsalar soraq,
Deyərsən, mənzilim Dağıstan olub.

Qəşəmin sözü başa çatır. "Yolçu yolunda gərək"- deyə yollanırlar. Gedib çox güclü axan iri çaya çatırlar. Payızın son ayında soyuq havada bu güclü axan çaydan keçməyə heç kim cürət eyləyə bilmir. Buna görə də yoldaşlar Qəşəmə deyirlər: – Qəşəm, həqq aşiqinin duası-dua, qarğışı-qarğış olar. Sən bu çaya bir söz de, bəlkə bizə yol verə, keçib gedək.

Bu sözdəri eşidən Qəşəm görək nə deyir:

Bizim diyardan qovlanıb,
Gedirsiz ha yana, çaylar?
İnsaf eylə qayıt dalı,
Gəl olma divana, çaylar!

Məni etmə bəxtə qara,
Qızıl gülü verəm xara.
And verirəm Ələmdara,
Yol ver bu kərvana, çaylar.

Bax sən Qəşəmin quluna,
Rəhm et Məhəmməd oğluna
Dönmərik "Evoğluna"[35],
Düşməyin gümana, çaylar!

[35] Evoğlu – Güney Azərbaycanda şəhər adı

Qəşəm bu sözləri deyib, çaydan keçib gedirlər. Yol uzunu bir balaca dağa yaxınlaşırlar. Qəşəm göyə baş qaldıran bu Məlakan[36] dağına göz gəzdirir. Dolu ürəyi ilə sözə başlayır, görək nə deyir:

Məlakanın şimalında
Çox ucadır başın, dağlar.
Yolu kəssən keçənlərə,
Uçar qalmaz başın, dağlar.

Səndə gəzər mərd oğullar,
Seyr edər türfə cavanlar.
Məlakanda xanimanlar,
Kimlərdi sirdaşın, dağlar.

Yaylağında vardır quyu,
Abi-kösər[37] sərin suyu.
Bilinməz insanın xuyu,
Qəşəmlə yoldaşın, dağlar.

Məlakan dağlarından keçirlər. Bir qədər yol gedəndən sonra günbatan çağı bir kəndə çatırlar. Bir qoca kişidən xəbər alırlar:

– Əmi, bu kəndin adı nədir?

Qoca deyir:

– Bura "İlanlı" kəndi deyirlər.

Nəhayət, gecəni həmin qocaya qonaq olurlar. Gecə söz arası ev yiyəsi bunlardan xəbər alır:

– Oğul, hardan gəlib, hara gedirsiz?

Qəşəm alır görək qoca kişiyə necə cavab verir:

Canım qoca, gözüm qoca,
Gedirik qürbət ellərə.

---

[36] Məlakan – Güney Azərbaycanda şəhər adı

[37] Kösər (ə) – dirilik suyu, həyat suyu

Sənə qurban özüm qoca,
Gedirik qürbət ellərə.

Bülbül oldum, yoxdu gülüm,
Dostlar üçün şirin dilim.
Güneydədir ağır elim,
Gedirik qürbət ellərə.

Mişov dağı uca dağım,
Kündürdə seyrangahım, bağım.
Qəşəm ağlar cavan çağım,
Gedirik qürbət ellərə.

Gecəni İlanli kəndində o qoca kişinin evində səhər eyləyirlər. Dan yeri ağaranda yola düşürlər. Gedib çatırlar Arazın qırağına. Özlərini Araza vururlar. Üstündə gəmi üzdürə bilməyən Araz çayında keçmək o qədər rahat deyildir. Qəşəm görür ki, az qalır Araz bunlarıvda qoynuna alıb ucu-bucağı görünməz göy Xəzərə sarı aparsın. İndi bir Allaha sığınaraq, Araz çayını xitabən qüssəli ürəyində belə tərənnüm eyləyir:

Qanlı Araz, nə gəlibsən tüğyana?
Aparma, Allaha bağışla məni.
Atam yox, anam yox oduma yana,
On iki imama bağışla məni.

Əvvəlki imamın Şahı– mərdandır,[38]
Həsən adı dərdlərimə dərmandır.
Kəlbala meydanda qanlı meydandı,
Əvvəl imam Hüseynə bağışla məni.

[38] Şahı Mərdan – Həzrəti Əlinin ləqəblərindən biri

İmam Hüseyn yetmiş iki köməgi,
Zeynalabid həm Bağırın diləgi.
Cəfəri Sadiq qorxmaz ürəgi,
Musayi Kazıma bağışla məni.

Çağırıram İmam Rza ağanı,
Ziyarət eylərəm mən Xurasani.
İmamlarım Tağı, Nağı, molani,
Həsəni Əsgəriyyə bağışla məni.

Adil Allahımız bizdən üstədir,
Dərdi olan çarəsini istədi.
Güneyli Qəşəm də kəmərbəstədi,
Mehdi tək ağaya bağışla məni.

Ancaq Arazdan keçib Naxçıvana gedirlər. Bu şəhərdə Əlican çayxanasında düşürlər. Vartan adlı kişi bunların pullarını götürüb qaçır və bunları pulsuz qoyur. Qərib pulsuzlar oradan da qalxıb yola düşürlər. Qulu dayı adı ilə tanınan kişinin çayxanasına gedirlər. O zaman Cəmadilli Mirmöhsün Ümmanı kişi də oraya gəlir. Qonaqları gördükdə xəbər alır:

– Oğul, haralısan?

Qəşəm o kişiyə belə cavab verir:

Mahalım Güneydir, şəhərim Təbriz,
Qafil oldum canım Araza düşdü.
Qərib qürbət eldə bu vahid cana,
Dərdlərim sığmadı, bazara düşdü.

Gün kimi aləmi edib münəvvər,
Naxçıvan mahalı olubdur ənəvər.
Çatsın harayıma mövlamız Heydər,
O çatar dadıma kim dara düşdü.

Gecəm qaranlıqdı, gündüzüm tardi,
Atam ölməseydi əlim tutardı.
Məmməd oğlu Qəşəm ömrün qurtardı,
Getdi cavan canım, məzara düşdü.

Qəşəm sözünə son qoyur və söz arası deyir ki, yollarda nələr çəkib, hətta pullarını da Vartan adlı adam alıb qaçıbdır. Mirhəsən bunlara bir qədər pul verir. Bunlar Mir Möhsun kişi, çayçı ilə görüşüb yola düşürlər. Gedib-gedib İrəvan şəhərinə çatırlar. Bu şəhərin şah Abbas məscidində Qəşəmin yoldaşları bu qərara gəlirlər ki, hər biri bir namə yazıb ailəsinə göndərməklə öz halını və harda olduğunu onlara bildirsin. Onlar namələr yazıb qasidə verəndə Qəşəm deyir: "Qasid, ayaq saxla, bu sözləri də məndən alıb apar öz el-obama". Qasid dayanıb, Qəşəm bir divani söyləyir görək nə söyləyir:

Açılanda haqq bazarı mərdin otağındayam,
Xəstələrə dərman olan Kövsər bulağındayam.
Aşıq Qərib kimi ömrum qərib eldə sərf olub,
Abbas kimi dağda-daşda, Gülgəz sorağındayam.

Bülbül kimi qəfəsdəyəm həsrət qaldım güllərə,
Ağlamaqdan didəm yaşı dönüb daşqın sellərə.
Məcnun kimi divanəyəm, mən düşmüşəm çöllərə,
Ah çəkibən qan ağlaram, Leylimin dağındayam.

Gecə-gündüz ah çəkirəm, göylum şəhəri virandı,
Bir bad əsədi bu fələkdən, səbrim canımı calandı.
Mişov dağı ətəyində yurdum Güneystandı,
Soruşsalar mən Qəşəmi, məscid bucağındayam.

Qəşəm ilə yoldaşları üç gün orda qaldılar, dördüncü gün dedilər, çıxıb şəhəri dolanaq. Çıxıb şəhəri dolandıqda təsadüfən Aşıq Muxtar adlı bir aşığa tuş gəldilər. Onunla danışıqda Aşıq Muxtar Qəşəmdən xəbər alır:

– Oğlum, yoxsa sən də aşıqsan?

Qəşəm deyir:

– Hə, deyəsən mən də aşığam.

Aşıq Muxtar deyir:

– Elə bil aşıq Muxtarı tanımırsan? İrəvanda aşıq Muxtarı tanımayan olmaz. Hamı bilir ki, İrəvana gələn aşıqlar hamısı mənə bac verər.

Qəşəm Muxtarın belə danışmağı qabağında sakit qala bilmir. Ona deyir:

– Əmican, onlar aşıq olsaydılar, sənə bac verməyə məcbur olmazdılar. Mənim ata-babalarım aşıq olublar, amma heç kimə bac verməyiblər.

Bu sözlər aşıq Muxtarı təəccübləndirir. Qəşəmə deyir:

– Belə olsa sən başlayırsan, ya mən?

Qəşəm deyir:

– Yol sənindir. Mən sənin ardınca gəlirəm.

Aşıq Muxtar sözü belə başlayır:

Saz götürüb adın aşıq qoyanlar,
Devr deyibən İrəvanı keçmisən.
Aşıqlar əlindən olub dəsgir,
Qərq olarsan, bir ümmana keçibsən.

Növbə Qəşəmə çatır. Görək indi Aşıq Muxtarın bu sözlərinə necə cavab verir:

Laşərifdən "əlif", "be" ni oxudum,
Bir qəvvasam, bu ümmanə keçmişəm.
Süleyman tək on dörd aləmə varmışam,
Ümid bağlayıb, o sübhanı keçmişəm.

Aşıq Muxtar deyir:

On səkkiz aşiqi salmışam bəndə,
Bura İrəvandır, salam kəməndə.
Cahilsən, düşmüsən qovqaya sən də
Qəsd eyləyir şirin cana keçmisən.

Qəşəm cavab verir:

Təcnis divanla olubdur canım,
Yüz sən tək aşiq verməz cavabım.
Katiblər gərəkdir yaza kitabım,
Sığınmışam Həqqi-yəzdanə keçmişəm.

Aşıq Muxtar:

Cavab verərsən Aşıq Muxtar sözünə,
Səksənə, doxsana, yüzünə.
Çıxammazsan ustadların izinə,
Qalacaqsan yana-yana, keçmisən.

Qəşəm:

Güneyli Qəşəməm, kövsər payımdı,
Mənə pünhan olan kirdigarımdır.
Ərənlər sərvəri, bil dildarımdır,
Yol göstərib, bu məkana keçmişəm.

Söz başa çatır. Qəşəm Muxtar əmiyə deyir:
– Əmi, indi birini də de, mən deyəcəyəm.
O, Aşıq Muxtarın sakit olduğunu görüb sözü belə başlayır:

Mərəkədə ağır əyləş, otur "lam" ləngiylə,
Tülkü nədi, cəngə girə şir ilə pələng ilə?

Oxumuşam “əlif”, “bey”ni
on dörd aləmə varmışam,
Danışanda tərəf durram əllamə fərhənglə.

Aşıqlar şərti nədir söylə mərdi-mərdanə,
Qocalıbsan tövbə ilə sığın Şahi– mərdanə.
İsayısan, Musayısan gəl tabe ol Qurana,
Mən qəvvasam, tor ataram dəryalar nəhənginə.

Şair odur, hər meydanda qaynaya, ümman coşa,
Əvvəl Adam, sonra Xatəm tarixin baş eylə.
Gözüm qızarar, canım coşar,
hörmət qoyam qardaşa,
Cürət edib cəngə girməyə Qəşəm,
xəlqi təng eylə.

Qəşəm bu sözlələ ona meydan oxuyan İrəvanlı Aşıq Muxtara öz sənətini göstərə bilir. Onunla da sağollaşıb ayrılırlar. İrəvanda neçə gün yubanandan sonra ordan da çıxıb yola davam edirlər. Neçə gündən sonra Gürcüstanın mərkəzi olan Tiflis şəhərinə çatırlar. O şəhərdə Təbrizli Ağababanın çayxanasına düşürlər. Təzə gələn müsafirlərin içində cavan aşığı görən adamlar soruşurlar:

– Cavan aşıq, haralısan? Bu sorğunun cavabında cavan aşıq ayağa qalıxır. Bu söz ilə kim və haralı olduğun söyləyir:

Açılan nobahar qırmızı güllər,
Şimal tərəfdən dağı Güneyin.
Üç ay cəh-cəh vurar şeyda bülbüllər,
Serangahdı bağça-bağı Güneyin.

Bir yanı Təsidir[39], bir yani Sofyan,[40]
Bəsləyibdir neçə qoçaq qəhrəman.
Yaylaqları dağdır, qışlağı aran,
Təbriz, Salmas solu-sağı Güneyin.

Məsəkənim Kündürdür, atam Məhəmməd,
Mərd igid dünyada çəkməsin zillət.
Qəşəməm, tarixdə yazdım nəsihət,
Var olsun cəmi yaylağı Güneyin.

Aşıq Qəşəm sözü başa vurur. Gəlib yerində oturduqdan bir an sonra başqa bir aşıq da içəri keçir və Qəşəmin sazını görəndə çayçıdan xəbər alır:

– A kişi, o saz kimindir?

Çayçı deyir:

– O bu cavan aşiqindir.

Aşıq deyir:

– Məyər o bilmir ki, Tiflisdə Aşıq Sadıq var?

Aşıq Sadıq sonra Qəşəmə sarı dönür, bir az belə məğrur-məğrur ona sarı sallandıqdan sonra soruşur:

– Aşıqmısan? Haralısan?

Qəşəm cavab verir:

– Arazın o tayından gəlmişəm. Təbrizin yaxınlığında olan Güney mahalındanam.

Bu sözdləri eşidən Aşıq Sadıq deyir:

– O taylı gəlib Tiflisdə aşıqlıq eyliyə bilməz. Dişlərini çəkib yola salaram gedər.

Bu sözlər Qəşəmin acığına gəlir, ondan xəbər alır:

– Nə ilə dişlərimi çəkərsən? Kəlbətinlə və ya ayrı bir şeylə?

---

[39] Təsi – Güney mahalında şəhər adı
[40] Sofyan – Güney mahalında şəhər adı

Aşıq Sadıq deyir:
– Yox, söz ilə çəkərəm.
Qəşəm isə deyir:
– Sözünü söylə görüm, necə sözdür?
Aşıq Sadıq bu sözü eşidəndə tər-tələsik sazını kökləyir, sözə başlayır:

Səndən xəbər alım, güneyli Qəşəm,
Bir qala qurmuşam, yeddi yolu var.
İkisi dərsini havadan almış,
İkisi dünyanı, cahan gəşt eylər,
Dəryaya misaldır, havadan almış.

Sazını kökləyib sinəsinə almış Qəşəm bu sözlərin cavabında belə söyləyir:

Al cavabın deyim, ay Aşıq Sadıx,
Başın bir qaladır, yeddi yolu var.
Qulaqların dərsin havadan almış,
Gözlərin dünyanı, cahan gəşt eyləyib,
Dəryaya misaldır, havadan almış.

Aşıq Sadıq deyir:

İkisi dərindir, misalı quyu,
Gah gələr, gah gəlməz kəsilməz suyu.
Bəzi adətkardır, bilinməz xuyu,
Beynin dərsin almış, havadan almış.

Qəşəm cavab verir:

Burun çox dərindir, misalı quyu,
Gah gələr, gah gəlməz kəsilməz suyu.
Bəzi adətkardır bilinməz xuyu,
Beyin dərsin almış, havadan almış.

Aşıq Sadıx:

Bir qapısı vardır, hər vaxt dal olar,
Biri gah söyləyər, gah da lal olar.

Otuz iki igid yanbayan olar,
Sadıx söylər, sözün havadan almış.

Aşıq Qəşəm:

Ağız bir qapıdır hər vaxt dal olar,
Dildə gah söyləyər, gah da lal olar.
Otuz iki dişdir, yanbayan olar,
Qəşəm açar sözün, havadan almış.

Beləliklə, Qəşəm Aşıq Sadığa cavab verə bilir. Daha sonra deyir, Aşıq Sadıx, mən də bir söz deyirəm, səndən bu sözə cavab gözləyirəm. Sonra Aşıq Sadığa belə sorğular verir:

Səndən xəbər aldım, ey Aşıq Sadıx,
O kimdir ki, milçək olub onun duşməni?
Nədən yaranıbdır külli-kainat,
O nədir ki, otdan qurtulmaz canı?

O nədir ki, bu dünyada görünməz?
O nədir ki, heç çarəsi bilinməz?
O nədir ki, sina daha sayılmaz?
Kimdir tarixlərdə var adı sanı?

O nədir ki, bir-birinə tay olub?
O nədir ki, işlədikcə ay olub?
O kimdir ki, çox çalışıb azı olub,
Güneyli Qəşəmin cavabı hanı?

Qəşəm yoldaşları ilə birlikdə neçə gün Tiflisdə qalandan sonra Qazax, Ağstafa yolu ilə Gəncəyə sarı yönəlirlər. Qazax şəhərinin yaxınlığında Kəsəmənli elinin Qoşqar dağından köməsini görürlər. Qəşəmin sinəsi coşur, götürür Qoşqar dağına xitabən görək nələr söyləyir:

Yaz gəlir, payız gəlir,
Köçür Kəsəmən elləri,
Kişnəyir bədov atları,
Açıb Qazağın gülləri.

Yetiribdir nöcavanlar,
Şirin ləhcə, xoş bəyanlar.
Bəsləyibdir mərd oğullar,
Bülbül tək oxur dilləri.

Baxanda Qoşqar dağına,
Bənzəyir Rizvan dağına.
Qəşəm düşübdür yığnağına,
Var ördək, qazlı gölləri vətənimin.

Bunları görən köçəri elin adamları xəbər alırlar, qardaş, hardan gəlirsən, hara gedirsən? Qəşəm sazı sinəsinə basıb, onlara belə söyləyir:

Əslim o taylıdır, Güney mahalım,
Nişan verin mənə Gəncə şəhərin.
Bağban olan cəfa çəkər bağ salar,
Şeyda bülbül gözlər gülün təhrini.

Qəza saldı el– günümdən aralı,
Mən düşmüşəm vətəndən fərarlı.
Ürəyim gülməyir, ciyər yaralı,
Görməyirəm dildarımın bəhrini.

Zənbur Qəşəm, qəza sənnən dolanır,
Qəmlər gəlir, bir-bir üstə qalanır.
Qəmli könül sızlayır, ürək bulanır,
Qarşıma çıxarır ümman bəhrini.

Söz başa çatır. Onlarla sağollaşıb Gəncə şəhərinə sarı yola davam edirlər. İki-üç gündən sonra Gəncə şəhərinə çatırlar. Təsadüfən Əndəbilli Kəlbəmirhəsən adlı kişinin çayxanasına düşürlər. Görən Aşıq Qəşəm burda ilk dəfə gəlib çatdığı bu Əsli-Kərəm yurdu olmuş, Nizamilər bəsləmiş Gəncə şəhərinə nələr söyləmiş:

Qazaxdan soruşdum nişan verdilər,
Var məscidi, minarəsi Gəncənin.
Şah Abbas tikməsi, içində suyu,
Oxur bülbül qənarisi Gəncənin.

Qibləsi Hacıkənd dağına dayanıb,
Gözləri al qumaşa boyanıb.
Atam Məmməd içib suyunnan qanıb,
Göylüm olub avarəsi Gəncənin.

Qəşəm qonaq oldu Sərdar bağına,
Hatəm bağçasına, gül budağına.
Düşdüm aşıqlar yığnağına,
Oldum belə pərvanəsi Gəncənin.

Qəşəm saz ilə Gəncə şəhərindən deyən kimi danışıq ilə kimliyini, haralı olduğunu da söyləyir. O gün orda qalırlar. Sabah Hacı Himmət oğlu Kəlbə Əbdulla Əndəbilli "Kəlbə Mir-hüseyn" çayxanasına gəldikdə çayxananın yiyəsi ona deyir:

– Kəlbədulla, güneyli Məşəd Məmmədəlinin oğlu Qəşəm gəlib buraya.

Qəşəmin atası Məşəd Məmmədəliylə qardaşlıq əhdi-peymanı bağlamışdı. Kəlbə Əbdulla:

– Qəşəm hardadır? Bu qonaqların hansıdır?

Belə sual verəndə Qəşəm ayağa qalxır, özünü atasının dostuna tanıtdırır. Kəlbə Əbdulla onunla görüşəndən sonra ondan bu sözləri xəbər alır:

Əziz mükərrəm, mehriban dostum,
Söylə görüm, nə xəyala gəlmisən?
Qürbət çətin olar, dağı əridər,
Başın salıb qalmaqala gəlmisən.

Qəşəm sazını sinəsinə basıb, sözə başlayır. Kəlbə Əbdullanın belə bir sualına cavab olaraq söyləyir:

Atam öldü, yetim qaldım dünyada,
Ondan düşüb ahu-zara, gəlmişəm.
Atam yoxdur, gözün tikə yoluma,
Günüm-gündən olub qara, gəlmişəm.

Kəlbə Abdulla Qəşəmin bu sözlərinin ardınca deyir:

Gen düşübdür bu şəhərin meydanı,
Şeyda bülbül gəzər bağı, gülşanı.
Dillərdə gəzir atan dastanı,
Niyə durub bu mahala gəlmisən?

Qəşəm söz alır, görək Kəlbə Abdulla kişiyə nə deyir?

Atam təriflərdi Gəncə şəhərin,
Araz, Kür doldurur Xəzər bəhrini.
Özümün, özgənin çəkdim qəhrini,
Sinəmə vurulubdur yara gəlmişəm.

Kəlbə Abdulla deyir:

Abdulla söyləyir, bulandı halım,
Sənə peşkəş olsun dövlətim, malım.
Vəfalı dostların qadasın alım,
Bülbül tək qonmağa dala gəlmisən.

Qəşəm deyir:

Zənburi Qəşəm hələ şeyda cavandır,
On iki yaşında ciyərim qandır.
Dostlar kənar qaçdı, qohumlar dandı,
Baş götürüb bu diyara gəlmişəm.

Demək, beləliklə, köhnə dostluq təzələnir. Qəşəm atasının dostu ilə dost olur. Kəlbə Abdulla köhnə dostun simasını onun oğlunun simasında görə bilir.

Günlər, aylar keçir, bir gün Qəşəm yaxşı bir saz almaq üçün bir saz bağlayan ustanın yanına gedir. Ondan bir yaxşı saz istəyir. O kişi götürüb bir saz verir. Qəşəm sazı dilləndirmək istədikdə görür bu saz istədiyi saz deyil. Saz danışmır. Aşıq Qəşəm saz ustasına xitabən bu sözləri söyləməyə başlayır:

Başına döndüyüm, ay Mikayıl usta,
Mənə bir saz bağla, üzü düz olsün.
On üç əldə yetmiş iki havası,
Üzü balıq belli, doğru söz olsun.

Havanı çalanda pərdə vurmasın,
Hər vaxt kökə dursun, qolu yormasın.
At kimin kişnəsin, sakit duramasın,
Qız-gəlin tək onda işvə-naz olsun.

Əl vuranda İmran kimin danışsın,
Kərəm kimi eşq oduna alışsın.
Qəşəm kimi məclislərdə çalışsın,
Heç qorxmasın dəvriş, aşıq yüz olsun.

Söz sona çatanda saz düzəldən usta Əli Əkbər xəbər alır:

– Güneydə Aşıq Məmmədəli var idi deyirlər. Onun oğlu Qəşəm indi Gəncədə olur, onu eşitmisənmi?

Aşıq Qəşəm deyir:

– Mən Aşıq Məmmədəlinin oğlu Qəşəməm.

Bu sözə inanar-inanmaz saz ustası deyir:

– Belə olsa gərək yükündə bir şeylər ola.

Qəşəm deyir, əmi, qulaq as deyim. O saz ustasının eşitməyə hazırlığını görəndə sözə başlayır. Görək nələr söyləyir:

Nə qədər gecəsində bir şəhərə vardım,
Orda gördüm "la ilahə ilallah".
Əzəl "bismillah"dan dərsimi aldım,
Rəhman-rəhimdir, əlhəmdullillah.

Əzbərdən oxudum mən də Quranı,
Tapdım əntərə zərbə vuranı.
Düldül üstə gördüm Şahi-mərdanı.
Bir ayə ötür de dedi, "qulhüfallah".[41]

Rikabini verdi Qulu Qənbərə,
Çaldı qılınc ol mərhəbi Xeybərə.
Əziz damad olub haqq-peyğəmbərə,
Nişanə gəlibdir ya Əsədullah Heydərə.

Dilində əzbərdir "Allahu əkbər",
Vəsisi Mustafa aləmə sərvər.
Şahiddir bu işə bütün mələklər,
Mövla tayü gəlmir vallahi-billahi.

---

[41] Qulhüfallah – Fələk surəsinin ilk ayəti

Aşıq Qəşəm bu sözlər ilə aşıqlıq gücünü, bacarığını saz qayıran ustaya göstərir. Ondan bir saz alıb Əndəbilli Kəlbəhüseyn müsafirxanasına qayıdır. Təzə sazı onun əlində görən Kəlbəhüseyn xəbər alır:

– Qəşəm, elə bil ki, doğrudan da, atavın yolunu davam etmək istəyirsən? Təşə saz ilə bir oxu görüm nələr oxuyursan?

Qəşəm Kəlbəhüseyn kişinin istəyinə görə sazı bağrına basaraq dilləndi. Bu sözləri söyləyir:

“Əlif” Allahımdır, min bir adı var,
Göndəribdir İncil, Tövrat, Quranı.
Yeddi yer, yeddi göyü yeddidir əflak,
Bunları xəlq edib ol kərimi– kani.

İsmayıl çıxardıb abi-zəmzəmi,
Həcərə vermədi qüssəni-qəmi.
Həqiqət dəftəri etdim sinəmi,
Ürəyim inanıb Şiri-Xudaya.

Qəşəməm, içmişəm abu kosəri,
Vaqeyətdə gördüm mövlam Heydəri.
Göylüm çox arzulu Əliyi-Əkbəri,
Gözləyirəm gələ Sahibi-Zamani.

Kəlbə Mirhəsən bu söz ilə artıq maraqlanır və Qəşəmə deyir:

– Qəşəm, doğrudan da sən haqq aşiqisən. Yaxşı olar ki, birini də deyəsən. Bəlkə göylümüzün pası silinə.

Qəşəm bir daha sözə başlayır və bu sözləri söyləyir:

Dəli könül, bahar gəldi yaz oldu,
Görəsən fələyin çarxı dolandı?
Dövlətə aldanıb, təkəbbür etmə,
Əzrayıl məmurdur, canın alandı.

Tohidə qayil ol, Allahı tanı,
Əzəl gecə qəbir sıxacaq canını.
Vaqeyyətdə gördüm qəni Mövlani,
........................................................

Başım üstə gələn Şahı-mərdandı,
Tur dağına getdi Həzrəti Musa,
Necə oldu mərmidən Həzrəti İsa?
Dadə yetər Mühəmmədül Müstəfa.

İncildən, Tövratdan əfsəl Qurandır,
Mənə yol göstərdi Qadiri-Yəzda.
Min bir adı vardır tanı-səməda,
Yadə düşür yetmiş iki şühəda.

Axtardığım Əliyi Əkbər cavandır,
Dərdə giriftaram bir ayə gəldi.
Peyqəmbər nişanlı, vaqeyyətdə bir ayə gəldi,
Qəşəmin gözlədiyi Sahibi-Zəmandır.

Bu sözlərlə Qəşəm Kəlbəhəsən kişinin istəyini yerinə yetirir. Onu razı sala bilir. İndi Qəşəm aşıqlıqda, yoldaşları da bu yanda, o yanda işləməkdədirlər. Gün-gündən, ay-aydan keçir, bir gün onunla səfərə gedən Məhəmmədyar oğlu Allahyar onun yanına gəlir, deyir:

– Aşıq Qəşəm, mən Güneyə qayıdıram. Sözün-savın, məktubun olsa apara billəm.

Uzun sürən el-obasından uzaq olan və qürbətdə yaşayan Aşıq Qəşəm həmyerlisi olan Allahyara xitabən bu sözlər söyləyir:

Bir namə yazdım Gəncə şəhərindən,
Aparıb verərəsən Güney elinə.
Vətəndə çıxdım xeyli zamandır,
Bülbül olan mail olar gülünə.

Məcnun olub mən də düşdüm dağlara,
Fələk həsrət qoydu güllü bağlara.
Ruhum pərvaz edir keçən çağlara,
Ördək olan qanad çalar gülünə.
Arazdan keçməyə ayaq götürün,
O Kündürdə süsən– sünbül bitirin.
Qəşəmdən də salam-dua yetirin,
Hər kimin ki, adım gəldi dilinə.

Qəşəm bir namə yazıb Məhəmmədyar oğlu Allahyar vasitəsilə öz qohumlarına göndərir. Gün-gündən, ay-aydan keçir. Nəhayət, Aşıq Qəşəm və yüzlərcə Cənubi azərbaycanlı canını götürüb öz yurd-yuvasına qayıtmağa məcbur olurlar. Qəşəmi də bu taya qaytarmaq üçün onu Gəncə vağzalına aparırlar. Bu xəbəri eşidən dostlar, tanışlar özlərini vağzala yetirib, Qəşəmi dövrəyə alıb sağollaşırlar. Qəşəm dostlarından ayrılarkən bu sözləri söyləyir:

İncə sənətkarlar, el aşiqləri,
Mənim ərzi– halımı sazla oxuyun.
Durna kimi qatarından ayrıldım,
Asta çalın, işvə-nazla oxuyun.

Həqiqi dostlarım, yada salın,
“Zarıncı” oxusun, “Kərəmi” çalsın.
Sizə şəkillərim yadigar qalsın,
Şah pərdədə xoş avazla oxuyun.

Çox yazdım hurufat, təcnis, divani,
Dörd yüz qırx dörd hava, qəmgin ruhani.
Unutmayın Qəşəm kimi cavani,
Dörd fəsildə bahar, yazla oxuyun.

Qəşəmin sözü başa çataz-çatmaz Aşıq İslam qabağa yeriyib deyir:

– Qəşəm, yolun haradır, haraya gedirsən?

Aşıq İslama cavab olaraq Qəşəmə söyləyir:

Mehriban dostlarım, vətəndaşlarım,
Gəlin alın bir nişanə, gedirəm.
Durna kimi qatarımdan ayrıldım,
Od tutmuşam, yan-yana gedirəm.

Quruldu nizamlar, vuruldu postlar,
Mənim əhvalıma qan ağlar daşlar.
Güneydə yol gözdür qohum-qardaşlar,
Şahın əmridir, mən İrana gedirəm.

Qəşəm yazır mənim bir dərdim mindir,
Gedirəm axtarıb arayan kimdir?
Məqsədim Güneydə Kündür idi,
Nə Təbrizə, nə Tehranə gedirəm.

Nəhayət, Qəşəm dostları ilə sağollaşıb, gələnlərlə yola düşür. Gəlib-gəlib Arazın qırağına çatırlar. Arazdan keçirlər. Qəşəm dönüb arxadan və Arazın şimalında qalan dağlara-daşlara baxır. Elə bilir ki, bir daha oralara dönməyəcəkdir. Sazını bağrına basıb, görək nələr oxuyur:

Culfadan keçdim bu taya.
Qaldı Naxçıvan mahalı.
Bülbül tək gəldim nəvaya,
Qaldı Naxçıvan mahalı.

Bağ-baxçalı Ordubaddı,
Ulu xanı xoş büsatdı.

Neyləmişəm Şiril addı,
Qaldı Naxçıvan mahalı.

Sirrimi söylədim yada,
Dərdimi deməm xor yada.
Qəşəm cənubu Culfada,
Qaldı Naxçıvan mahalı.

Ordan yola düşüb gəlirlər. Əlәki düzünə[42] çatanda Qəşəm bilir ki, göyə baş qaldıran Mişov dağlarını buradan görmək olar. Yoldaşında durbin var idi. Ona deyir, icazə verərsən, mən də bu pəncərədən bir baxım. Yoldaşı durbini verir. Qəşəm uşaqlıq çağında gəzib-dolandığı bağları bir daha görəndə ürəyi coşur, alır görək nə deyir:

Ələkidən baxan kimi,
Görünür bizim dağlar.
Qibləsi Güney mahalı,
Sizə qurban özüm, dağlar.

Çolakanda[43] əsər yellər,
Yaz açanda çağında açar güllər.
Çatıllıdan[44] daşqın sellər,
Səndə qalır izim, dağlar.

Göylümü kimsə almırı,
Qəşəmi yada salmırı.
Hayıfım, atam qalmırı
Deyim bu gün sözüm, dağlar.

[42] Ələki – Güney Azərbaycanda yer adı
[43] Çolakan – Güney Azərbaycanda yer adı
[44] Çatıllı – Güney Azərbaycanda yer adı

Nəhayət, Aşıq Qəşəm uzun illər boyu el-obasından uzaqda yaşadığından sonra yenə də gəlib el-obasına çatır. Və ömrünün sonuna qədər Kündürdə köç salır.

## Aşıq Qəşəmin Urmu səfəri

Qəşəm elini, vətənini, dilini sevmək günahına, habelə ərbabları, mübaşirləri öymədiyi üçün 1325-ci ilin(Günəş ili) Azər ayından sonra şah rejimi məmurları, onlara raport verən yerli satqınların əlindən qaçaq dolanırdı. O, bu beş il müddətində qaçaq dolandığı günlərin çoxunu Mişov dağlarında sürdü. O, ailəsinə baş çəkməyə gələ bilmirdi. Belə ki, bir dönə də gizlincə kəndə yaxınlaşmışdı, ancaq tutuldu əmniyyə idarəsində möhrəlik divardan qalxıb, eşigə atlayaraq özünü qurtara bilmişdir. Yeri gələndə bu barədə artıq danışacağıq. Ustad dağlarda, qarda, boranda, istidə, soyuqda ağır günlər keçirdirdi. Ailəsinin ağır həyatı ilə əlbəyaxa olması, pulsuzluq və yoxsulluq onu düşündürürdü. Buna görə də bir gün ona ara-sıra və gizlincə çörək aparan adam onun ailəsinə gəlib demişdir: "Qəşəm deyir ki, mümkün olsa həyat yoldaşım sazım ilə və bacım oğlu Mehdinin pasportunu gətirib dağın dibində olan badamlıqlarımızda mənə versin". Aşığın həyat yoldaşı Mehdinin pasportunu götürüb sazı çadrasının altına vurub sözü gedən badamlığa gedir. Aşıq sazı alır, onu aşıq Qəribin sazı kimi toz basmış görür. Onu köklüyərək bağrına basır:

Mən sevirəm zimistanı,
Çıxmişam baharə, saz.
Leylu nahar müttəsidir,
Düşmə ahu-zara, saz.

Doqquz simin on üç pərdə,
Cəh-cəh vurar oxuyar.
İmran dili səndə vardır,
Dərdimə qıl çarə, saz.

Sən şadlığı çox sevərsən,
Dolanansan elləri.
Məclislərin zinətisən,
Cavanların dilbəri.

Məclislərdə təriflərsən
Sən solmuyan günləri.
Sən də mən tək müxalifsən
Əzəl gündən xarə, saz.

Məcnun kimi bu dünyada
Bir könlü viranəyəm.
Məni xəbər alan dostum
Şəminə pərvanəyəm.

Məclislərdə söz söyləyən
Qəşəmdən nişanəyəm.
Dərdimə dərman istərsən,
Yalvara-yalvara, saz.

Ustad həyat yoldaşı ilə vidalaşır. Sazı çiynində və bacısı oğlu Mehdinin pasportu cibində yola düşür. Yeddi-səkkiz ağac yol ayaq altına qoyub özünü Şərəbxana[45] qəsəbəsində gəmi bərəsinə yetirir. Şərəfxanıya çatarkən nədənsə bu bi parça sözü qoşur:

[45] Şərəbxana – Güney mahalında şəhər adıdır

Gəmi bərəsində Şərəbxana,
Elə bildim çıxdı, ay qadan alım.
Cəmalını gördüm, candan usandım,
Ver əmim ləbindən pay, qadan alım.

Nəhayət, gəmiyə minmək istəyir. Lakin pulu olmadığı üçün onun qabağını alırlar. Qəşəm sazı çiyninidən endirir və bir bənd sözü gəmiçiyə söyləyir:

Ay gəmici, bir Allahı sevərsən,
Gəl bağlama mənim boranda yolumu.
Məni zaman soyudub, sən nə istərsən?
Soyuq alıb ayağımı, əlimi.

Gəmiçi onun üst-başına baxır və doğru sözə inanır. Aşıq gəmiyə keçir və bir gün su üzündə yol gedəndən sonra Gülmənxana[46] gəmi bərəsinə çıxır. Və ordan da özünü Urmu şəərinə salır. Gecəni səhər eyləyir. Şəhər də ondan-bundan Şəbistərlilərin çayxanasını xəbər alır. Çayxananı tapır, içəri keçir. Sazını divarda mıxdan asır. Özü də bir bucaqda oturur. Bir azdan sonra başqa bir aşıq da saz çiynində icəri gəlir. Qəşəm yavaşca orada olanlardan soruşur:

– Bu kimdir?

– Buna deyillər Aşıq Şücadır.

Bir azdan sonra daha bir aşıq icəri gəlir. Qəşəm onun da kim olduğun sorur. Çayxanaçı deyir:

– Aşıq Qocadır.

Beləliklə, ardıcıl olaraq neçə aşıq çayxanada toplaşırlar. Nəhayət, yaşa dolmuş ucaboy bir aşıq da yanında qavalçı və balabançısı ilə içəri girir. Bu aşığın kim olduğun xəbər alan Qəşəmə belə cavab verirlər:

[46] Gülmənxana – Urmu gölündə bir adanın adıdır

– Bu da Aşıq Fərhaddır.

Aşıq Fərhad yerə oturar-oturmaz Qəşəmin sədəfli sazını divarda görür. Çayçıya üz tutaraq o saz kimindir, deyə sual verir. Çayçı Aşıq Qəşəmə işarə edərək deyir:

– O qonağındır.

Aşıq Fərhad bir saza baxır, bir də o yiyəsinin üst-başına, paltar, başmağına. Sonra ondan xəbər alır:

– Qonaq aşıq, adın nədir?

Aşıq Qəşəm:

– Adım Mehdidir.

Aşıq Fərhad deyir:

– Aşıq Mehdi, neçə versəm sazınla sazımı dəyişərsən?

Özünü Aşıq Mehdi tanıtdıran Qəşəm deyir:

– Bu saz rəhmətlik qardaşımdan yadigar qalıbdır. Bunu nə satıram, nə də dəyişirəm.

Aşıq Fərhad:

– Bəlkə, səni bağlayıb sazı əlindən aldılar, onda neylərəsən?

Bu sözü eşidən Qəşəm oturduğu yerdən bir az dirçəlir və Aşıq Fərhada deyir:

– Bağlayan ip ilə bağlayacaq, ya kəndir ilə?

Fərhad deyir:

– Heç biri ilə, təkcə söz ilə.

Qəşəm də deyir:

– Mən bir adamla bağlaşmaq istəməsəm, kimin mənimlə işi olacaq?

Bu sözü eşidən Aşıq Fərhad ayağa qalxır. Qəşəmin sazını divardan endirib özünə verərək deyir:

– Mənim sənlə işim vardır. Mənimlə bağlaşmalısan.

Bağlaşmağa məcbur edilən aşıq sazını alır. Aşıq Fərhad öz sazını çalaraq özünü Aşıq Mehdi kimi tanıt-

dıran Qəşəmə Xəstə Qasımın bu sözlərini oxuyur, ondan cavab istəyir:

Hikmət məclisində əyləşən alim,
Əzəl mənə "ya hu"dan bir xəbər ver.
Ərş payasında, merac evində,
Söz nə çəkdi güfdugüdən xəbər ver.

Sinəsi xöz xəzinəsi olan Aşıq Qəşəm cavab vermədikdə Aşıq Fərhad əl atıb onun sazını almaq istəyir. Özünü belə bir rəqibin qarşısında görən Aşıq Qəşəm öz-özünə deyir: "Sazı əldən versəm, əvvəlcə aşıq olmuş və saz-söz ustadları babalarımın adını batırram. Həm də yurdum-yuvam olan Güney mahalı xəlqi içində üzü qara olaram. Bəs elə isə sarala-sarala yaşamaqdan, qızara-qızara ölmək yaxşıdır". O, bir az belə düşündükdən sonra sazını Aşıq Fərhaddan alıb onunla bağlaşmağa hazırlığını bildirir. Aşıq Fərhadın yanında balaban çalan buraya kimi sakit dayanmışdı, nədənsə Aşıq Fərhada deyir:

– Aşıq, işin olmasın, bu da çıxıb bir parça cörək dalınca. Onun sözünə baxmayın.

Aşıq Fərhad deyir:

– Bu nə sözdür, bir parça çörək acısı olan aşıq belə dəyərli və gözəl sazı neyləyir?

Burda Aşıq Qəşəm sazını kökləyə-kökləyə aşıq Fərhada deyir:

– Aşıq, dediyin sözü bir daha söylə.

Aşıq Fərhad bir daha sözünü təkrar etdikdə Qəşəm belə cavab verir:

Bir Allahım Cəbrəyilə buyurdu,
Yahu, mən kiməm, Tanrı kimdir?
Üç min kəlmə peyqəmbərlə danışdım,
Gizlin, aşikar o sübhani kimdir?

Bu sözləri eşidən balabançı yavaşca Aşıq Fərhada deyir:

– Aşıq, dedim, işin olmasın. Elə bil ətəyin keşdi kəl buynuzuna.

Bu sözlərə etina etməyən Aşıq Fərhad bir daha Aşıq Qəşəmə deyir:

Ərşə daxil olsan şəriət nədir?
Həqiqət içində təriqət nədir?
Üç yüz altmış yolda həqiqət nədir?
Həddən, hövəzdən, huddan xəbər ver.

Qəşəm:

Şəriət Qurandır, mən inanmışam,
Həqiqətdən mərifəti qanmışam.
Bir il üç yüz altmış gündür saymışam,
Həddən aydır, hövəz gündü deməkdir.

Fərhad:

Kim idi, Rəsula oldu sübhanə?
Nə millətdi, yetişmədi nəsabə?
Xəstə Qasım, ömrün yetmiş hesabə,
"Bis to həşt" vəsiyodan xəbər ver.

Qəşəm:

Arif sözdərinə hüş verir sərim,
Hər yanı mənalı eylir gözlərim.
Sinəmdə çox coşur qanlı dəftərim,
Qəşəm deyir, əlifba nə deməkdir?

Qırımı bərk görən Aşıq Fərhad meydandan qaçmaq istəyir. Amma Aşıq Qəşəm deyir:

– Aşıq Fərhad, dəmiri zindanı deyil ki, birbaşa güpiyəsən. Sən sual verdin, mən cavab söylədim. İndi mən də sual verirəm, xahiş edirəm cavab verəsən.

Aşıq Fərhad cavab verməyə hazırlıq göstərdikdə Aşıq Qəşəm sözü belə başlayır:

Təcnis, divan ilə sinəm doludur,
"Əlif", "be"dən həm əbcəddən[47] ver cavab.
Necə təkbir ilə kim zühur edəcək?
Qiyamət günündə kim çəkər hesab?

Tövrat hansı gündə gəldi Musayə?
İncil nə sözləri dedi İsayə?
Mən qayiləm Mühəmmədi Mustafayə,
Quranın üstünə gəlməyib kitab,
Deyirəm, hərdən çəkirəm hesab.

O kimdir, Adəmdən qırx min il qabaq?
O kimdir, yatmayıb daimdir oyaq?
Məqribdən məşriqə necədir çıraq?
Güneyli Qəşəməm, olmuşam bitab,
Deyirəm, hərdən çəkirəm hesab.

Aşıq Fərhad cavabsız qalanda üzünü Aşıq Qəşəmə sarı tutaraq deyir:

– Ay Aşıq Mehdi, adını çəkdiyin Aşıq Qəşəmi hardan tanıyırsan?

Qəşəm deyir:

– O bizim kəndə toya gələrdi.

Fərhad soruşur:

– Sən haralısan? Kəndiniz hardadır?

Qəşəm cavab verir:

– Qazançaylıyam.

Aşıq Fərhad deyir:

– Bu uzun müddətdə məni belə yıxan olmamışdır. Ancaq indi uşağım yaşında bir adsız-sansız aşıq yıxdı. Sən o inandığın, düzün de görüm, sən kimsən?

---

[47] Əbcəd – Türk, ərəb və fars ədəbiyyatında bir hadisəni, bir işin tarixini bildirmək üçün işlənən və rəqəmləri hərflərdən ibarət olan hesabdır.

Aşıq Fərhadın bu andına görə Aşıq Qəşəm bir daha sazı dilləndirdi və saz ilə səsləşdirərək söylədi:

Həqiqətdən dərs aldım, öyrəndim,
Mərifət elmində bir ümman mənəm.
Bulud şaqqıldayıb, leysan yağanda,
Dağların başında o duman mənəm.

Qələndərəm dəryaların təkində,
Əjdaha qüvvəsi var nəfəsimdə.
Heyf ki, qalmışam quş qəfəsində,
Əzrayıl tək canlar bol alan mənəm.

Mədəni şairəm bütün cahanda,
Anam məni doğub Azərbaycanda.
Qəşəməm, məskənim Güneystanda,
Aya, ulduzlara yol salan mənəm.

Bu sözləri eşidən Aşıq Fərhadın gözləri doluxsayaraq, Aşıq Qəşəmə xitabən söyləyir.

– Kaş Fərhadın gözləri kor olaydı, səni bu gündə görməyəydi. Biz də siz kimi söz ustadlarının sözləriylə məclisləri sovururuq. Mən Qəşəmin adını eşidəndə öz-özümə deyirdim ki, görəsən nə vaxt olacaq, o aşıq ilə bir məclisdə olaq, deyək-eşidək, çalaq-çağıraq. Amma heç vaxt səni bu gündə pelə pozqun görmək istəməzdim.

Bu sözlərə qulaq asan Aşıq Qəşəm aşağıdakı neçə misra ilə aşıq Fərhada cavab söyləyir:

Heyf ki, nəzmimdə yoxdur yaraşıq,
Nə molla bəyənir, nə  seyid, aşıq.
Kitablarım tarixə olar yaraşıq,
Ondan sonra tapar ədiblər məni.

Aşıq Fərhad öz sazının Qəşəmin əli ilə alınmasını gözləyir ki, Aşıq Qəşəm ona dedi:

– Aşıq Fərhad, mən sözümə cavab verə bilmiyən aşığın sazını almaram.

Nəhayət, Aşıq Qəşəmin tanınması ilə yaxalanması bir oldu. Belə ki, o qədər çəkmir dövlət məmurları çayxanaya tökülüb, onu qandallayıb aparırlar. Demə bəs, polis idarəsinin rəisi uzaqdan-uzağa ürəyində Qəşəmə məhəbbət bəsləyirmiş, buna görə də oraya gətirilən adamın Aşıq Qəşəm olduğuna arxayın olduqda başqa polis işçilərinə deyir:

– Siz gedin işinizə, mən özüm bunu danışdırıb göndərilməli yerə göndərərəm.

Elə ki, digər məmurlar gedirlər, rəis aşıq Qəşəmə deyir:

– Aşıq, sən hara, bura hara?

Qəşəm deyir:

– Bir parça çörək qazanmağa çıxmışam.

Rəis:

– Kişi, sənin adını Azərbaycanın bütün polis bölmələrinə veriblər və hər kim sənin adını eşitsə, tutacaq, ya tutduracaqdır. Gözlə, bir daha tutulmayasan.

Sonra bunu da dedi:

– Görüm, cibində pulun, xərcliyin var, ya yox?

– Pulum harda idi? Pulum olsaydı, niyə köhnə çarıqla dolanardım?

Bunu eşidən polkovnik ona bir qədər pul verir. Zindana vermək bəhanəsi ilə onu bölmədən çıxardıb, hanısı yollar ilə bir daha Güney mahalına qayıtmasına yol göstərir.

Aşıq Qəşəm bu milli namuslu kişi ilə öpüşür, sağollaşır və onun dediyi yollar ilə Güneyə qayıdır və bir daha hamıdan vəfalı olan, heç kimi satmayan Mişov dağlarında sığınacaq tapır.

## Aşıq Mirzəməmi İskəmərli

(Aşıq 1829-1947-ci ilər arasında İskəmərdə yaşamış və həmin kənddə həyata vida etmişdir).

### Deyişmə

Sual:

O nədir ki, ucalardan ucadır?
O nədir ki, gecə-gündüz gecədir?
O nədir ki, üç yaşında qocadır?
O nədir ki, yaşı yüzdən keçər hey!

Cavabı:

O, Allahdır, ucalardan ucadır.
Qəbr evidir, gecə-gündüz gecədir.
Qaranquşdur, üç yaşında qocadır,
O, quzğundur, yaşı yüzdən kecər hey!

Sualı:

O kimdir gətirdi minayə qurban?
O kimdir, doğdu bir neçə oğlan?
Kim-kimi öldürdü, oldu nahaq qan?
O kim idi, vermədilər ona qız?

Cavabı:

Cəbrayıl gətirdi minayə qurban,
Həvva nənə doğdu bir neçə oğlan.
Qabil vurdu, Habil oldu nahaq qan,
O, Qabildi vermədilər ona qız.

Sual:

O nədir ki, dalında var qalası?
O nədir ki, getməz könlünün pası?
O nədir ki, zay eyləyər alması?
O nədir ki, seyr etməyə sirri var?

Cavab:

Tosbağadır, dalında var qalası,
Binamazdır, getməz könlünün pası.

Qurğuşundur, zay eyləyər alması,
O könüldür, sehr etməyə sirri var.

Sual:

Nə əlifdir, hər bir işdən xəbərdar?
Hansı "b"dir xalq içində hüveyda[48]?
Hansı "t"dir sədəf var gövhərində?
Nədir vacib insanlara aşikar?

Cavab:

Allahdır, hər bir işdən xəbərdar,
"Bismillahır" xalq içində hüveyda.
Təriqətin sədəfi var, gövhərdir,
Xələtdir ki, vacib olar insanlara aşikar.

## Meşinli Aşıq Qurbani

Deyilənlərə görə, Qacar dövlətinin hakimiyyəti çatan illərdə Meşində Qurban adlı bir oğlan dünyaya gəlmişdir. Bu oğlan boya-başa çatandan sonra aşıqlığa başladı. Çox uzun ömür sürmüşdür. Ondan belə bir şayə var. Günlərin bir günü Meşində Səfərəli adlı bir kişi oğluna toy eləmək istəyir. Buna görə də Aşıq Qurbanın yanına gedir. Aşıq Qurbanı toyuna dəvət edir. Ancaq Aşıq Qurbanla sövdələşmə belə başlayır. Səfəralı deyir:

– Aşıq Qurban, neçə alıb mənim oğlumun toyuna gələrsən?

Aşıq Qurban deyir:

– Nə verərsən?

Bunu eşidən Səfəralı deyir:

– Yox, qardaş, ya məndən dörd tümən al, dövran mənim olsun, ya da pul alma, dövran sənin olsun.

---

[48] Hüveyda – bəlli olan, açıq-aşkar

Aşıq Qurban iki şərtə də razılıq göstərir. Beləliklə, qərar belə olur ki, dövran aşığın olsun, Aşıq isə Səfəralıdan heç nə almasın. Toy isə çox yaxşı təmtarağnan başa vurulur. Hətdan ərtıq dövran yığışır. Səfəralı isə gəldiyi qərardan peşman olub, hər gün özü və arvadı Aşığın qapısına gedib deyirlər:

–Aşıq, al bu dörd tüməni, bizim dövranımızı qaytar.

Aşıq ki, bu məsələdən bezmişdi, bir gün kəndin ortasında sazı sinəsinə basıb Səfərəliyə xitabən belə dedi:

Yeddi gündə ocaqları qazıldı,
Üç yüz adam bir dəftərə yazıldı.
On dörd qazan yandan-yana düzüldü,
Bağışlardı birə on Səfərəli.

“Lömə” qaşıq sirənlərin yanı yox,
Heyf bu məclisin dəstərxanı yox.
Qonağı çox, çırağı yox, nanı yox,
Yapdırır həfdirhəm Səfərəli.

Üç arşından toy xələti tikildi,
Dövran yığan zaman özü əkildi.
Misqal yarım piydən şamlar çəkildi,
Yorğandur, yarısı yun Səfərəli.

Varid olduq Xan Səfərin toyuna,
Bərkə qoyduq çöl-çayıqı soyuna.
Çit arxalıq yaraşırdı boyuna,
Heyf, qıssa gəldi don Səfərəli.

Ey ağalar, sizə deyim Xeyrandan,
Deyir, ölləm, əl çəkmərəm dövrandan.
Bir şahı da alanmazlar Qurbandan,
Otuz Xeyran gələ, on Səfərəli.

Aşıq Qurban çəkdi qışı, boranı,
Vurdum ürəyimə odlu yaranı.
Gözün çıxsın, vermərəm bir qıranı,
Yanasan yan, donasan  don, Səfərəli.

## Aşıq Əkbər Xamneyi

Güney mahalının ən bacarıqlı aşıqlarından biri olmuş Aşıq Əkbər Xamneyinin atası Aşıq Nəsrullah, babası Aşıq Hüseyn, ulu babası Aşıq Saleh olmuşdur. Kündürlü Aşıq Qəşəm Aşıq Əkbərin özünün ilk müəllimi kimi onun adını çəkir.

Şəhladır gözlərin, Musayi Kazım,
Ol İmam Rzayə vardır niyazım.
Dolanım başına bəndeyi mülazım,
Necə ki, dolanır çərxi müəllla, yox hərfində la.

La gətirməm Tağı, Nağı, Şahə mən,
Ol Həsən Əsgəri, mehri– mahə mən.
Məhdi özün görsəm, gəlləm rahə mən,
Mən Əkbərəm dəftərlərdə məcallat,
Oxusun mollalar səddi – bərəkallah.

# HEYVANLARIN YAŞ VƏ CİNSİNƏ GÖRƏ ADLANDIRILMASI

**Bicək:** vaxtından bir il əvvəl doğan heyvana deyilir.

**Camış:** ləvəri, qəçək, kəlçə, kəl.

**İnək:** bizov, qısır əmən, dövə, dana, cöngə, öküz, buğa.

**Keçi:** oğlaq, küvər, bişmə, çəpiş, təkə, dübür.

**Qısır:** boylu olmayan heyvana deyilir.

**Qoyun:** erkəyinə qoç deyilir, dişisi, quzu, toxulu, şişək, öyəc, azman.

**Ovsaq:** balası ölmüş süd verən heyvana deyilir.

# GÜNEY MAHALINA AİD DİALEKT SÖZLƏR

## A

Azman – dört yaşlı ərkək qoyun
Ağı – bir növ zəhərli bitki
Aba – nənə
Alər vade (alay banı) – cin
Alax – yabanı bitki
Ağnamaq – eşələnmək
Ağuz – yeni doğmuş heyvanın ilk südü
Adıbatmış – əqrəb
Avaş – həmkar
Ataş – eyni adda
Anaş, anac – ikillik toyuq
Anqurd – boynu uzun heyvan

## B

Bazlamac – sac üstündə bişirilən bir növ qalın çörək
Binə – çuğundur
Bulamaşun – yağ ilə bişirilən bir yemək
Bərək – belə bağlanan şal
Babaqurqur – göy gurultusu
Bazı – sərhəd
Bölük – qoyun sürüsünün bir hissəsi
Buxçu – buşqu
Bay etmək – korlamaq
Bağlı – boxça
Bağ – bəstə
Başı batmış – ölmüş
Başdan sovmaq – uzaqlaşdırmaq
Bir əli, bir başı – yalqız
Bazı – bağcada olan sərhəd
Bab – bərabər (həmta)
Bayantarıq – varlıq

Bərənöv – yeraltı su keçidi
Böyən – qoyun peyini
Bitrin – çalışqan Cəncəl,

**C**

Carcar – xırman döymək üçün vəsilə
Cum – bax
Cicik – paxıl
Car-car – xırman döyən
Cığallıq – oyunpozan
Car-car – xırman döyən
Cim-cilaq – çox islanan
Cola – çuxur
Cilər – doşab bişirilən yerə deyirər
Caraz (cərəz) – ağacda axan şirənin yeri
Caruz torpağ – bu bir növ torpaqdı ki, doşabı durultmaqda istifadə olunur

**Ç**

Çatlanquştəbii – saqqız
Çölmək – xırdaca qazan
Çöyçə – mis kasa
Çoçala – xırdaca barmaq
Çaqqala – xırdaca badam
Çilpək – uşaq əsgisi
Çubuqaltı – külqabı
Çarçaqqı – uşaq oyuncağı
Çuvan – bir növ bitkidir (bu bitkidən ip, sap əyirmək üçün istifadə olunur)
Çilik – əsa
Çodar – çoxlu heyvanı olan şəxsə deyirlər
Çanaq – saxsı və çini kasa
Çoça – balaca
Çidəmək – bağlamaq

Çırp ağacı – yun çubuğu

**D**

Dübür – üç yaşlı axta təkə
Dümüş, bəllə – dürmək
Dəhənləmək – ölçmək, çay, dəniz
Düdəmə – ağılsız, tərbiyəsi, hərəkətlər edən şəxs
Dizə – hündür
Dılqır – kök, şişman
Dırnaq – su ölçüsü
Dəmper – kəsici alət
Doll – kənkanların işlətdiyi vedrə
Dərbənd – bağlı döngə
Darqaşayıd – tərbiyəsiz
Dəndüş – şorbanın döyülmüş əti
Döndərmə – yekə içi dayaz olan səbət
Döyəş – paltar yuyanda paltarları tapdamaq üçün istifadə olunan ağac
Dümrük – yumru
Dartınmaq – axtarmaq
Dəngilə – xırdaca kuzə
Döyü – keçi
Dilov – sandıq

**Ə**

Ərcin – bir növ ağac
Ərvana – altı yeddi yaşlı düyə
Ərovlamaq – paltardan sabının köpüyünü təmiz su ilə yığıb çıxartmaq
Ərovu – sabın suyu içində qalmış, yuyulmuş paltar

Ənəşüş – tərbiyəsiz
Əngərəkli (əngilikli) – bir növ xəstəlik

**F**

Fistan – qadın donu

**G**

Gilif – divarın, ya yerin altından keçən su yolu
Gözə – çəmənlik
Gavahın – dəmir parçasıdır ki, cüt vasitəsilə yer sürülur
Gay – başa düşməyən
Gözə – bulağın başı
Gilədan (qölədan) – bağın qapısında istifadə olunan qıfıl
Gelxızan – gülab, ya həna isladılan qab
Govur – dinsiz, müsəlman olmayan şəxs

**H**

Həllənmək – kef çəkmək
Herə – cüt süréndə sağ
Hüşdüran – ağılsız
Hövzək – kürüs altı
Hünü – ağcaqanad
Herəvan – son baharda buğdanı suvarılma vaxtı

**X**

Xosunlaşmaq – gizlincə qulağına danışmaq
Xərəsu – bulaq suyu
Xartəkə – iki yaşlı təkə
Xıc – təzə doğan heyvanın südü
Xızar – iki tərəfli buşqu
Xəşə – saman dolduran çuval.
Xalat – kəfən
Xotək – qüssə, qəm
Xarlamaq – şəkər bağlamaq

Xol (qol) – ağacın budağı
Xəstə – yorqun

**İ**

İş sözü – kilim toxumaq aparatı
İkixapışlı – bir-birinə yapışan
İncar – son nəfəs
İşqənə – üskük
İşgil – qapını arxadan bağlayan alət
İspərə (ispərəlik) – bir növ boyama torpağı
İşgən – dəyirmanın eşiyindən axan su növünə deyilir
İşqəno – navalça

**K**

Keyvəni – ev qadını
Küvər – çəpiş, iki yaşlı dişi ya erkək keçi
Kürd – necə il sürülməmiş yer
Kalava – böyük xarabalıq
Kərdi – baxça
Kərə – palçıqdan iki mərtəbəli tikilən gözətçi evi
Kortal – korşalmaq
Kəlbəşan (övülmək) – uzun bir çubuqdur ki, qozu, badamı çırparlar
Kalava – daxmadan böyük ev
Kotqul (kotxe) – daxma
Kəpir – ərp
Kələ-kötür – əyri-üyrü
Kevzə – dəyirmançının əl muzdu
Kərmə – peyin
Kəsouzun ağac – təndiri qalıyanda istifadə edirlər
Kələcoş – qurutdan hazırlanan yemək
Kövlə – təndirin hava çəkən yeri

## Q

Qapsaq– yumşaq torpaq
Qılan – oyunda seçilməyən, tək qalan insan
Qanıb – doyunca su içmək
Qovzan – qalx
Qəylənquş – qaranquş
Qandırmaq – doyunca içirtmək
Qanmaq – içib doymaq
Qrım – düşmən
Qovuq – şar
Qondara – ayaqqabı
Qulaş – uzun
Qaplama – xırdaca qazan
Qapdı qaşdı – mikroavtobus
Qırax– sahil
Qırmızı badımcan – pomidor
Qaç – bir dilim
Quleybanı – cin
Quşqonan – birinin evi
Qəydəş – qardaş
Qovra – pasaçan
Qovzan – qalx
Qərəyaxan – gizlin polis
Qəzələ – sazan quşu
Qolça – budaq
Qıtmır – xəsis
Quru bəy – heç nəyi olmayan şəxs
Qalaq – təzəkdən düzəlmiş bürc
Qarıqulu (qarınpa) – çox yeyən
Qana – üzüm tarlaları olan yer
Qənov – üzüm ağaclarını isti və soyuqdan qoruyan arx
Qətma – sap ip

**L**

Lümər – bir növ çöldə bitən kol
Lö – erkək dəvə
Lödan – qarın

**M**

Məci – bir qarin doğmuş dişi düyə
Mərfəş, məfrəş – arasına
Yorqan – döşək yığılan boxça
Mırıxmaq – oturub gözətləmək
Məngəl – oraq
Mısıb – pusmaq
Məkə – qarğıdalı
Mızıq – bənd olmaq
Maf – pis qoxu
Milax – evdə tavan dirəklərindən sallanan üzüm salxımları
Mətrət – qurud əzən qab
Mənsə – xırda su kuzəsi
Mağıl – təəccüb
Məşqud – əmzik
Məstəvay – döşəmə
Məş – şərt

**N**

Nahara dayaq – günortaya yaxın yemək
Nədorə (nədarə) – alov
Noğa – su yolu
Nacaq – kəsici alət

**O**

Oyuq – bayraq
Oğinə (ovünə) – dəfə

**Ö**

Ökgə – ciyər
Örüş, hörüş – otlaq

**P**

Pitik – dua
Püt – cüt sürəndə sol anlamında gəlir
Pismırıq – xırdaca
Padar – bollu, varlı
Pəşəri eləmək – bağda, yaxud badamlıqda badam dərəndən sonra xırda qalan badamları yığmağa pəşərilik deyirlər.
Pişit – uzun qalın çörək

**R**

Rey – dolqun
Rəzə – uzun saplı belçə

**S**

Sacaq – sac ayağı
Sav – itilimək (vəsaiti)
Savalmaq – itiləmək
Sünə – qurut əzmək üçün qab
Sümsümmək – boşuna gəzmək
Sozalmaq – getdikcə gözdən düşən
Seçmə – heyvan peyini
Süzmək – damcılama
Səvəllənmək – məqsədsiz hərəkətlər
Söyçə – kuzənin başqa növü
Sikkəbəy – xəsis
Siyən (sehin) – saxsı kasa
Silən – pozan
Siyəz – erkək keçi (dağ keçisi)

**Ş**

Şadad – iki xurcunu bir-birinə birləşdirən ağac
Şəto – Novruz bayramınnan sonra birinci dəfə suvarılan buğda
Şirbaş – dili şirin
Şorlanquş – şəlalə
Şorşoratan – şəlalə
Şu (zu) – nazik uzun çubuq
Şəpə – dalğa
Şənə – saman sovurmaq üçün istifadə edirlər
Şuxlux – zarafat
Şərit – kəndir
Şüş – düz uzun
Şadat – çuvalı çatmaq üçün ağacdan yonulmuş yoğun bir hissədir (10-15 sm. uzunluğu var)
Şətə – bitkilərdə soyuqdan meydana gələn xəstəlik
Şoratan – navalça

**T**

Təpənə – yorğan iynəsi
Tolaz – atmax
Teşi – ip, kəndir
Tat – köçəri olmuyan
Təzəmək – yaşmaq, həm də tanıdığı yoldan azana da deyilir
Təhəng – qovun budağı
Tifdik – keçinin yumşaq tükü
Tilim – ardıcıl, davamlı
Tulanbar – hamam ocağı
Təndirəsər – mətbəx
Tov – sürət
Tatla – tam şor
Türküsü – sadəsi
Tiyan – su qızdıran qazan
Tiyança – kiçik su qızdıran qazan

Tulluca – qulluqcu
Takqalaq – işdən düşmüş
Tələkə – azacıq
Təpcək – su kuzəsinin başı
Təpəcək – kuzənin altı
Tənəbi – böyük otaq
Toratan – hörümcək

**Ü**

Üzü qansiz – utanmaz
Üzü yaman – üzdən getmiyən

**V**

Vələm – odunun nazik, incə hissələrinə deyilir
Vellənmək – boşuna gəzmək
Vəl-vələ – üç təkərli uşaq oyuncağı
Vərə, vərək – tikanlı sarı gül
Yavımaq – adət etmək
Yelatı – velosiped
Yalax – görməmiş
Yolaq – yüngül
Yelək – jilet
Yeng – pencəyin qolu
Yol-yol – zolaq-zolaq
Yalax – itin yemək qabı
Yoluxmaq – baş çəkmək

**Z**

Zumar – qış üçün hazırlanan yemək
Zey – ölçü
Zürbə – qoyun sürüsü
Zürmək – sürüşmək
Zırbazır – lənət eləmək

## LÜĞƏT

**A**

Adağa (d) – koma, daxma
Atəşi-suz (f) – yanma, alışma
Ab (f) – su

**B**

Balaxanı (f) – evin çardağı
Bardana (ə) – Xurcun
Bidar (f) – oyanmaq
Bəd-bəla ( ) – pis bəla
Bayda (ə) – qab
Biar (f) – arsız
Bidirəng (f) – yubanmadan, ləngimədən, təcili
Bahir (ə) – üstün, gözəl
Bifəra (f) – işıqsız, nursuz
Bisərü pa (f) – əvvəli və sonu olmayan, biçarə
Bədəhdər (f) – vəfasız, sözünün üstündə durmayan
Bad (f) – yel
Bis to həşt (f) – 28 rəqəmi

**C**

Cələ (d) – at quyruğu qılından ilmək şəklində düzəldilən tələ
Cəng (f) – döyüş, savaş
Cəfalı (ə) – əziyyət çəkən
Cürləmək (d) – təşkil etmək, hazırlamaq
Ceyşi-ərəb (ə) – ərəb ordusu

**Ç**

Çəng (d) – caynağ
Çakir (f) – qulam

**D**

Dazıma (d) – keçəlimə
Damcıdöyən (d) – navalça
Dem (d) – susuz
Demi (d) – suvarılmayan əkin sahəsi
Dəhən (f) – ağız
Dəsti-mariyyə (f) – ilanların toplaşdığı yer
Delgir (f) – narahat etmək
Dərban (f) – qapıçı
Didə (f) – göz
Dəstgir (f) – tutulmaq
Düldül (ə) – Hz.Əlinin atının adı

**Ə**

Əlhəqdir (ə) – gərçəkdir
Əlhədim (ə) – baş daşı
Əlanda (ə) – indi də
Ərsin (d) – təndirdən çörək çıxardan alət
Ərzin (ə) – eni uzunluğu
Ətvəl (ə) – uzun
Əfşan (f) – saçmaq
Əşqiya (ə) – yol kəsən
Əsiri-mühən – vətənin əsiri olmaq
Əşrar (ə) – yaman adamlar, şər insanlar
Ənin (ə) – inləmə, inilti, zarıltı
Ənəvər (ə) – nurun cəm formasıdır, nurlu
Ərbab (ə) – xanlar
Əntər (ə) – qeyri-adi məxluq
Əflak (ə) – fələkin cəm forması

**G**

Gərdənbənd (f) – boyunbağı
Göyl (d) – ürək
Gəşt (f) – gəzmək, dolanmaq

Girdəkan (f) – qoz
Güpliyəsən (d) – döymək
Güfdugüdən (f) – söz-söhbət, danışıq
Gur (f) – ordu, dəstə

**F**
Feyziyab (ə) – feyz almaq
Fərz (ə) – vacib, zəruri
Fövc (ə) – camaat, dəstə
Faş ola (f) – ifşa oluna
Fərhənglə (f) – mədəniyyət
Fərar (f) – itkin

**H**
Həzar (f) – min
Horşid (f) – Günəş ili
Həftdirhəm (f) – 7-dən biri
Həqqi-yəzdan (ə) – Allah

**X**
Xacə (ə) – sonsuz
Xaxlar (d) – xalq, camaat
Xəşmigin (f) – qəzəbli
Xutur (ə) – yol
Xab (f) – yuxu
Xuy (f) – xasiyyət
Xeyrənnisa (ə) – qadınların ən şərəflisi
Xunxar (f) – qaniçən, zalım, qəddar
Xeybər (ə) – həm çadır mənasında, həm də Xeybər döyüşünə işarə edilir
Xar (f) – alçaq, zəlil
Xutur (ə) – ağlına gəlmək

**İ**
İmamzada (f) – ziyarətgah

İltifat – (ə) lütf etmək
İkram (ə) – hörmət
İltimas (ə) – xahiş, rica
İllət (ə) – səbəb, dərd
İştibah (ə) – səhv, yanlış
İqbal (f) – bəxt

**K**

Kənkan (f) – quyu qazan
Kufla (d) – təndiri havalandıran dəlik
Köso (d) – uzun bir ağac
Kamyab (f) – sevindirmək
Kəhriz (ə) – yerdən çıxan, qaynayan su
Kəmərbəstə (f) – beli bağlı, qulluq etməyə hazır, müqqəddəs
Keşvər (f) – məmləkət, ölkə

**Q**

Qəlyedaşı (d) – tikanlı daş
Qazaq (d) – paltar, üst geyim
Qovzamaq (d) – qaldırmaq
Qeybi-təna (f) – qeybdən gəlmək
Qəffar (ə) – günahları bağışlayan, məcazi mənada Allah
Qəvvas (ə) – dalğıc
Qırımı (d) – vəziyyəti
Qova (ə) – vedrəyə bənzəyən su qabı
Qiflət (ə) – qəflət yuxusu
Qeybi-təna (ə) – görünməklik

**L**

Löhmə (d) – bataqlıq
Ləb (f) – dodaq
Ləngər – tarazlaşdırmaq
Ləşgər (ə) – ordu

Lərzan (f) – titrəyən
Ləhn (ə) – gözəl, ahəngli səs
Ləmyəzəl (ə) – həmişəlik, əbədi
Laşərifdən (ə) – Allahdan

**M**

Mişov – kisə
Mərizxaniyə – xəstəxana
Mur (f) – qarışqa
Marağa basdığı (d) – şirniyyat növü
Məndil (ə) – cib dəsmalı
Müamilə (ə) – alqı-satqı
Mərkəb (ə) – minik, at
Mülazim (ə) – qulluqçu
Mülazım (ə) – fələyin çarxı
Mübin (ə) – aydın, aşkar
Məmur (ə) – əmr almaq
Mülhəq (ə) – qatılmış, əlavə edilmiş
Münəvvər (ə) – nurlu, işıqlı
Məlul (ə) – kədərli, qüssəli
Mürəxxəs (ə) – izinli
Müqəddər (ə) – təyin olunmuş
Madər (f) – ana
Meyrac (ə) – ərşə, göyə
Mükərrəm (ə) – kərəm sahibi
Mübaşir (ə) – xanın və ya ərbabın nümayəndələri
Müttəsi (ə) – bağlılıq
Möhrəlik (ə) – kərpic divar
Məcallat (ə) – gözəllərin cəmi

**N**

Nəşdov (d) – ac qarına
Nəva (f) – ahəng, səs

Nəxşə çəkmək (f) – plan cızmaq
Nuzul (ə) – faiz müqabilәndә pul vermə, faiz
Nübuvvət (ə) – üzə çıxmaq, zühr etmək
Nisar (ə) – təqdim etmək
Naqə (ə) – dəvə
Narə (ə) – od
Nanı (f) – çörək
No gole (ə) – təzə açılan gül

**P**

Pərdaş (ə) – pırıl-pırıl yaş
Paydar (f) – daimi, həmişəlik
Pünhan (f) – gizlətmək
Pozqun (d) – kefsiz

**R**

Ruhi mubin (ə) – ürəyimin işığı, nuru
Rəcəz (ə) – meydan oxumaq
Rah (ə) – yol
Rikab (ə) – yəhər

**S**

Sərbazxana (f) – qərargah
Sərbazdar (f) – əsgər
Sədrazəm (ə) – Baş müvaşir
Səmək (ə) – balıq
Səfəri (d) – uşağın dünyaya gəlməsi
Sirab (f) – doyuzdurmaq
Sındırım atmaq (d) – çiltik atmaq, oynamaq
Sərsam (f) – sayıqlama
Saqi (ə) – şərab paylayan
Sutudum (ə) – qüdrət
Səhabə (ə) – Məhəmməd peyğəmbərin tərəfdarları
Sürəyya (ə) – Yeddiqardaş, Ülkər (ulduz)

Səra (f) – qəsr
Sər (f) – başçı
Suzan (f) – yandıran, yaxan
Sənubər (ə) – boy, qamət
Səkki (d) – səki

**Ş**

Şor-şoran (d) – şəlalə
Şimşad (f) – düz, qamətli
Şumi-dəğa – uğursuz, hiyləgər
Şer (f) – şir
Şahdüşən (f) – şah otlağı, yurdu
Şahı Mərdan (f) – Həzrəti Əliyə verilən ləqəb
Şiri-yəzdan (f) – Allahın aslanı (Həzrəti Əliyə verilən ləqəb)

**T**

Tələdik (ə) – üst-üstə qalaqlamaq
Təl (ə) – qalaq
Təaf (ə) – ibadət etmək
Təbərrük (ə) – müqəddəsləşdirmək
Təbir (ə) – çin çıxmaq
Tənəf (f) – ip
Tolazla (d) – necə gəldi atmaq
Təyəmmüm (ə) – su olmayan yerdə torpaqla dəstəmaz almaq
Tinət (ə) – niyyət
Təsmim tutmaq (f) – qərar verir
Tərfənd (ə) – hoqqa, hiylə
Teş (ə) – ləyən
Təşnələb – susuz dodağı
Tizim (f) – iti, kəskin
Türfə (ə) – hədiyyə
Təng (f) – dar, çətinlik

Təkbir (ə) – Allahın birliyinə inanmaq

**U**

Uvand (d) – düzünü, əyrisini

**Ü**

Üdvan (ə) – düşmənçilik, haqsızlıq

**V**

Vəsailini (d) – digərlərini
Vəsis (ə) – elçi

**Z**

Zindəganlıx (f) – yaşayış
Zərbişəst (f) – güc
Züyür (t) – sürüşmək
Zibh (ə) – qurbanlıq
Zühar (ə) – səhər çağı
Zənburi (ə) – zəhmətkeş, çalışqan

**Y**

Yeksər (f) – başdan başa, bütün
Yoom (ə) – gün
Yaqi (ə) – düşmən

# SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT

1. Xanım Azemudə, Güney mahalı, Nemətulla kəndi, 90 yaş. Savadsız. Söylədiyi mətnlər: “İki bacı”, “Qazi və xoruz”, “Qarı nənə”. Toplayan: Aqşin Ağkəmərli

2. Qiymət Xudayi, Güney mahalı, İsmikəmər kəndi, 78 yaş. Söylədiyi mətnlər: “Vaxsey”. Toplayan: Aqşin Ağkəmərli

3. Məmmədəli Cəbbari, Güney mahalı, Nemətulla kəndi, 75 yaş. Söylədiyi mətnlər: “Bəni adəm əlinə düşmək”. Toplayan: Aqşin Ağkəmərli

4. Əsgər Zeynallı, Güney mahalı, Kündür kəndi, 76 yaş. Savadlı. Söylədiyi mətnlər: “Atalar sözləri” (bir qismi). Toplayan: Aqşin Ağkəmərli

5. Məhəmməd Hüseynxanlı Güneyli. Güney mahalı, Meşin kəndi, 65 yaş. Söylədiyi mətnlər: “Bir quşum var...”, “Meşinli Aşıq Qurbani”. Toplayan: Aqşin Ağkəmərli

6. Aşıq Qəşəm Cəfəri. Güney mahalı, Kündür kəndi, 65 yaş. Söylədiyi mətnlər: “Aşıq Qəşəmin Gəncə səfəri”. Toplayan: Aşıq Məzahir Cəfəri (Aşıq Qəşəmin oğlu).

7. Əbdülkərim Mənuri Xamnə. Güney mahalı, Xamnə

qəsəbəsi, 75 yaş. Söylədiyi mətn: “Aşıq Əkbər Xamneyi”.
Toplayan: Aqşin Ağkəmərli

8. Ağdəs Mərifət Xudayi. Güney mahalı, İsmikəmər kəndi, 70 yaş. Söylədiyi mətnlər: “Arzulamalar” (bir qismi).
Toplayan: Aqşin Ağkəmərli

## MÜNDƏRİCAT


**ÖN SÖZ** 3
**UŞAQ FOLKLORU** 7
Nazlama və arzulamalar 7
Laylalar 10
**MÜXTƏLİF UŞAQ ŞEİRLƏRİ** 15
Üşüdüm ha, üşüdüm 15
Öcəşmələr 22
**YALANLAMALAR** 23
Hadı-hudu (1) 23
Hadı-hudu (2) 26
**UŞAQ OYUNLARI** 28
Pildəstə 28
Cıbıddı-cıbıddı 28
Muncuq 29
Girdəkan dığırı 29
Pul atdı 29
Gözü bağlı oyunu 29
Kimi sevərsə 30
Gizlənparç 30
Motal-motal 30
Barmaq oyunu 32
**AŞIQ OYUNLARI** 33
Dəvə harda? 33
Digər oyunların adları 34
**UŞAQ ŞEİRLƏRİ** 35
**TAPMACALAR** 41
**ATALAR SÖZLƏRİ VƏ DEYİMLƏR** 50
**ALQIŞLAR** 79
**ANDLAR** 81
**QARĞIŞLAR** 82
**DİZƏXƏLİLDƏ İŞLƏNƏN MƏİŞƏT DEYİMLƏRİ** 85

**DİZƏXƏLİLDƏ İŞLƏNƏN LƏQƏBLƏR** 87
**İNANCLAR, SINAMALAR** 89
**YUXU YOZMALARI** 102
**XALQ TƏBABƏTİ** 105
Dərman bitkiləri 108
Əlavə müalicə üsullarə 109
**BAYATILAR** 111
**NAĞILLAR** 119
İki bacı 119
Qazı və xoruz 119
Qarı nənə 120
Vaxsey 121
Tülkü 127
Şahın gəzməyi 129
Şansı axtaran kişi 134
Bəni adəm əlinə düşmək 136
Üç bacı 139
Arvadı ər saxlar, bostanı vər saxlar 140
Vəfalı it vəfasız arvaddan yaxşıdı 142
Yoxsul kəndçi və varlı qoca 144
Deyingən qara fatma 145
Üç qardaşa qalan miras 147
Ata vəsiyyəti 149
**MİFOLOJİ MƏTNLƏR,**
**ƏFSANƏ VƏ RƏVAYƏTLƏR** 151
Quleybani 151
Əl-arvadı (hal) 152
Nənkir, münkür 153
Qismət olsa 154
Dədəbəy yerinin buğdaları 155
Ana əli kötəyi 155
Koroğlu 156
**LƏTİFƏLƏR, MƏZƏLİ ƏHVALATLAR** 157
Nuxtasız 157

İki eşşəyin yükü 157
Hər kəsi məsləhət görürsən 157
Mollanın əhvalatı 158
Sən satacaqsan, yoxsa mən? 158
Yerin mərkəzi 158
Molla Nəsrəddin və xəsis qonşusu 159
O axı eşşəkdir 163
Onun da fikrini eləmişəm 163
Molla Nəsrəddinin evlənməyi 164
Molla Nəsrəddin və hambal 165
Çox söydüm 165
Avam kəndli 166
Ərinin başı var idi, ya yox? 170
Xəlifənin qiyməti 170
Bəhlul və xəlifə 171
Harun Rəşid 171
Adamlığımla pulun qədrini anlamayım? 171
Əmir Əli 172
Kündür xanı 172
Şəbistər xanı 173
Tələbxan 173
Əbaçı oğlu 174
Nökər aldadıb 174
Nömrəsini götür 175
İsmayıl əmi 175
Əhməd əmi 176
Düyünü aç 176
Təbrizli hambal 177
Adam da düşmənə yalvarar? 178
Dəlləyəm 178
Halal süd əmmiş 178
Taykeş vermişəm 179
Özüm də öz xəttimi oxuya bilmirəm 179
Vızıltısını eşidirəm 180

Yatmaq istəyirik 180
Uzununa tikib, sonra dikəldiblər 180
Siz də oxumaq bilmirsiniz 181
Dörd müştərim qaçıb 181
Bir axmaq biletimi cırır 182
Qanunu poza bilmərəm 182
Bir qəpik də geri ala bilməz 182
Eşşək savad örgənir 183
Kəndçi 183
Üç nəfərin söhbəti 184
Yat görüm, necə yatacaqsan? 184
Halva çalmaq olar 185
Üç qardaş 185
Dəyərli məsləhət 185
Axmaqlar 186
Karın könlündəki 187
Yerimiz yoxdur 187
Qumarbaz 188
Cöngə 189
**MƏRASİMLƏR** 200
Çillə gecəsi 200
Çillə qaçdı 200
Yağış arzulama 201
Çömçə xatın 201
Novruz bayramı 203
Axır çərşənbə 204
Açar (kilid) salmaq 204
Bayram görüşü 205
El fatihəsi 205
Çillətin suyu 206
Biçin mərasimi 206
Fitr bayramı 207
Qurban bayramı 207
Qədr bayramı 207

**TOY ADƏTLƏRİ** 208
Alişahda toy mərasimləri 209
**MƏHƏRRƏM – SƏFƏR AYLARINDA ƏZA MƏRASİMLƏRİ** 214
**AŞURA** 217
Şəbih tamaşaları 217
Ziyarət 241
**TƏKƏ NƏĞMƏLƏRİ** 246
**GÜNEY MAHALININ AŞIQLARI** 247
Aşıq Qəşəm 247
Aşıq Qəşəmin Gəncə səfəri 249
Aşıq Qəşəmin Urmu səfəri 275
Aşıq Mirzəməmi İskəmərli 284
Meşinli Aşıq Qurbani 285
Aşıq Əkbər Xamneyi 287
**HEYVANLARIN YAŞ VƏ CİNSİNƏ GÖRƏ ADLANDIRILMASI** 288
**GÜNEY MAHALINA AİD DİALEKT SÖZLƏR** 289
**LÜĞƏT** 299
**SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT** 307

**Güney Azərbaycan folkloru,**
**XVI kitab.**

Bakı, Elm və təhsil, 2023

Nəşriyyat direktoru:
İnal Məmmədli

Kompüterdə yığan:
*Lalə İlyasova*

Kompüter tərtibçisi və
texniki redaktoru:
*Lalə Bədirova*
*Vildan Məmmədova*

Korrektor:
*Gülmira Mehdiyeva*
*Cəmilə Novruzova*

Kağız formatı: 60/84 1/32
Mətbəə kağızı: №1
Həcmi: 314 səh.
Tirajı: 150

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış, səhifələnmiş,
"Elm və təhsil" NPM-də ofset üsulu ilə
Hazır deopozitivlərdən çap olunmuşdur.